Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin 2021-2025-ci illər üzrə Strateji İnkişaf Planının icrasının monitorinqinin nəticələri ilə bağlı İşçi qrupunun HESABATI

Hesabat Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Elmi Şurasının 06.11.2025-ci il tarixli iclasının qərarı ilə (protokol № 2) təsdiq edilmişdir.

Bakı - 2025

M Ü N D Ə R İ C A T

I. GİRİŞ.....3

1. Təhsil müəssisəsinə dair ümumi məlumat.....3

2. İşçi qrupunun tərkibi və fəaliyyət qrafiki.....6

2.1. İşçi qrupunun tərkibi..... 6

2.2. İşçi qrupunun fəaliyyət istiqaməti və qrafiki.....9

II. 2021-2025-ci illər üzrə Strateji İnkişaf Planının icrasının monitorinqinin nəticələri.....10

Monitorinq qiymətləndirilməsinin icmalı.....10

I istiqamət - Strateji inkişaf.....11

II istiqamət - Keyfiyyət təminatı.....24

III istiqamət - Təlim və tədris.....37

IV istiqamət - Elmi-tədqiqat.....88

V istiqamət - İdarəetmə sistemi.....122

VI istiqamət – İnfrastruktur.....143

VII istiqamət - Beynəlmiləlləşmə.....148

3. İşçi qrupunun gəldiyi nəticə və qeydlər.....162

I. GİRİŞ

1. Təhsil müəssisəsinə dair ümumi məlumat

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti 1923-cü ildə Azərbaycan Maarif Komissarlığının qərarı ilə təsis edilmiş Bakı Teatr Məktəbinin əsasında yaradılıb və 100 il ərzində böyük inkişaf yolu keçib. 1945-ci ildə Bakı Teatr Məktəbinin bazasında Teatr İnstitutu yaradılıb. 1962-ci ildə Teatr İnstitutunun nəzdində Tədris Teatrı yaradılıb. Tədris Teatrının spesifik xüsusiyyəti ondan ibarətdir ki, o yarandığı gündən indiyədək sənət laboratoriyası funksiyasını yerinə yetirir. 1968-ci ildə isə Azərbaycanda ilk dəfə ali təhsil müəssisəsində səsyazma studiyası fəaliyyət göstərməyə başladı.

1968-ci ildən Azərbaycan Dövlət İncəsənət İnstitutu, 1991-ci ildən Azərbaycan Dövlət İncəsənət Universiteti, 1993-cü ildən isə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti adlanan bu ali məktəbdə ötən illər ərzində təkcə teatr üçün deyil, kino sənəti, musiqi, rəssamlıq, mədəni maarif, kütləvi tamaşalar rejissorluğu, kitabşünaslıq, müzeyşünaslıq, turizm, sosial iş, sosialogiya və digər sahələr üçün də kadr hazırlığı aparılmağa başladı. 1962-2000-ci ilə qədər respublikada ali rəssamlıq təhsili verən yeganə tədris ocağı Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti olub.

Hazırda Universitetdə 26 professor, 83 dosent, 42 fəlsəfə doktoru, 19 Xalq artisti, 2 Xalq rəssamı, 12 Əməkdar incəsənət xadimi, 29 Əməkdar artist, 5 Əməkdar rəssam, 7 Əməkdar müəllim, 1 Əməkdar jurnalist, 10 Əməkdar mədəniyyət işçisi yüksəkixtisaslı kadr hazırlığında iştirak edir. Avropa İncəsənət Universitetləri Liqasının tamhüquqlu üzvü kimi respublikada mədəniyyət və incəsənət sahəsində diplomları beynəlxalq aləmdə tanınan yeganə universitetdir.

Təhsil. ADMİU-da orta ixtisas, bakalavr, magistr (o cümlədən MBA), doktorantura, əlavə təhsil proqramları üzrə kadrlar hazırlanır. Universitetdə tədris 3 dildə - Azərbaycan, rus və ingilis dillərində aparılır. Hazırda ADMİU-da 5 fakültə, 21 kafedra fəaliyyət göstərir. Universitetin bakalavriat səviyyəsində 23 ixtisas, 17 ixtisaslaşma, magistratura səviyyəsində 20 ixtisas, 47 ixtisaslaşma üzrə kadr hazırlığı həyata keçirilir.

Universitetdə həmçinin “İncəsənətin nəzəriyyəsi, təhlili və tənqidi", "Teatr sənəti" istiqamətləri üzrə elmlər doktoru proqramı, “İncəsənətin nəzəriyyəsi, təhlili və tənqidi", “Kino, tele və digər ekran sənətləri”, "Teatr sənəti", "Təsviri sənət", "Dekorativ tətbiqi sənət”, "Musiqi sənəti”, “Muzeyşünaslıq” istiqamətləri üzrə fəlsəfə doktoru proqramları həyata keçirilir.

"E-universitet" layihəsi əsasında ADMİU-da tədrisin təşkili prosesi tamamilə elektronlaşdırılmışdır. Universitet nüfuzlu xarici sənət məktəbləri ilə tələbə və müəllim mübadilə proqramlarını həyata keçirir. ADMİU-da təhsilin keyfiyyətini artırmaq məqsədilə tədris plan və proqramlarının təkmilləşdirilməsinə, tədrisdə müasir texnologiyalardan istifadə və professor-müəllim heyətinin peşə bacarıqlarının artırılmasına xüsusi əhəmiyyət verilir. Təhsil standartları üzrə tədris proqramlarının tərtibi zamanı əmək bazarı nümayəndələrinin, məzunların və tələbələrin təklifləri nəzərə alınır.

Yaradıcılıq. ADMİU respublikada mədəniyyət və incəsənətin bütün sahələri üzrə xüsusi qabiliyyət tələb edən ixtisaslarda peşəkar kadrlar hazırlayan ali təhsil ocağıdır. Bu baxımdan, ADMİU-nun xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə kadr hazırlayan

kafedraların professor-müəllim heyəti dərs deməklə yanaşı, ixtisaslara müvafiq olaraq hər il yaradıcılıq-ifa və ya tədris-metodiki iş yerinə yetirir. Görülən işlərin vəziyyəti ADMİU-nun Bədii şurası, Elmi-metodiki şurada müzakirə edilir. Yerinə yetirilmiş yaradıcılıq-ifa işləri ilin sonunda ixtisasa görə dinləmə, baxış formatında kollektivə təqdim edilir.

Tədqiqat. ADMİU-da elmi tədqiqatlar, əsasən, nəzəri kafedralarda həyata keçirilir. Universitetin "ADMİU-nun Elmi əsərləri" və "Mədəniyyət dünyası" elmi jurnalları mövcuddur. Professor-müəllim heyətinin əsərləri ERIH Plus, Web of Science, Crossref, EBSCO, Scopus kimi nüfuzlu elmi bazalara daxil olan nəşrlərdə çap edilir.

Sosial xidmət. ADMİU-də fəaliyyət göstərən Tələbə Elmi-Yaradıcılıq Cəmiyyəti, Tələbə Gənclər Təşkilatı, Tələbə Həmkarlar İttifaqı Komitəsi və digər tələbə təşkilatları hər il müxtəlif sosial layihələr həyata keçirir. Universitetin Sosial-mədəni fəaliyyət kafedrası əlilliyi olan şəxslərin və tələbələrin cəmiyyətə inteqrasiyası, onlar üçün bərabər təhsil imkanlarının yaradılması məqsədilə mütəmadiən beynəlxalq və respublika miqyaslı tədbirlər və layihələr həyata keçirir, "Əsa" teatrının fəaliyyətinə dəstək verir. ADMİU ayrı-ayrı sosial problemlərlə bağlı QHT-lərlə əməkdaşlıq çərçivəsində maaarifləndirmə tədbirləri keçirir.

İnsan resursları. Mədəniyyət və incəsənət sahəsində Azərbaycanın bir sıra tanınmış aktyor, rejissor, operator, rəssam, dizayner, müğənni və musiqiçi, teatrşünas və sənətşünasları ADMİU-da elmi-pedaqoji fəaliyyətə cəlb edilmişdir. Universitet əməkdaşlarının peşə bacarıqlarının təkmilləşdirilməsinə xüsusi əhəmiyyət verərək ilboyu müxtəlif seminarlar, təlimlər, qış və yay məktəbləri təşkil edir. Bundan başqa, hər il professor-müəllim heyəti yaxın və uzaq xaricdə nüfuzlu xarici universitetlərlə təcrübə mübadiləsi proqramlarında, festivallarda, sərgilərdə, müsabiqələrdə iştirak edir.

İnformasiya resursları. ADMİU-nun "www.admiu.edu.az" ünvanlı İnternet saytı mövcuddur. Bundan əlavə, Universitet aşağıdakı sosial şəbəkə səhifələrində də aktiv şəkildə təmsil olunur. Facebook: Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rəsmi səhifəsi - https://www.facebook.com/admiuresmi; Instagram: Azerbaijan State https://www.instagram.com/admiuresmi/; University Culture and Arts - YouTube: ADMİU TV –https://www.youtube.com/@admiutv3223; X hesabı: Audiovizual Sənətlər Fakültəsi - @admiuvizual; Instagram hesabı: Təsviri Sənət Kafedras1(admiu.tesviri.senet)https://www.instagram.com/admiu.tesviri.senet?igsh=eTJkdHhranA2eHQ0.

Beynəlmiləlləşmə. Professor-müəllim heyəti və tələbələr beynəlxalq akademik mübadilə proqramlarında iştirak edir. Xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə yaxın və uzaq xaricdə kadr hazırlayan mədəniyyət və incəsənət yönümlü bir sıra universitetlər ilə ikili diplom və ortaq layihələr həyata keçirilir.

Maliyyə resursları. ADMİU-nun maliyyə resursları üç əsas mənbədən formalaşır:

1) Dövlət sifarişli tələbələr üçün dövlətin ödədiyi təhsil haqları;

2) Ödənişli əsaslarla təhsil alan tələbələrin ödədiyi təhsil haqları;

3) Qanunla nəzərdə tutulmuş digər gəlirlər.

İnfrastruktur. ADMİU-nun Bakı şəhərində yerləşən 2 tədris binası, yeməkxanaları, xüsusi avadanlıqla təmin olunmuş səhnəli otaqları, "Tədrisfilm" studiyası, Televiziya və

kino tədris studiyası, rəngkarlıq, qrafika, dizayn, bədii toxuculuq emalatxanaları var. Universitetin əsas tədris binasında 2 tamaşa zalı və sərgi salonu mövcuddur.

11 iyul 2020-ci ildən Bakı Humanitar Kolleci Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin nəzdində fəaliyyət götərir. Kollec mədəniyyət, incəsənət və təhsil ixtisasları üzrə subbakalavr səviyyəsində kadr hazırlığı aparır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 12 avqust tarixli 301 nömrəli Qərarı ilə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində publik hüquqi şəxs statusuna malik olan Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin çevrilmə yolu ilə yenidən təşkili nəticəsində yaradılmışdır və onun hüquqi varisidir.

Təhsil müəssisəsinin adı	Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
Sonuncu akkreditasiyaya dair şəhadətnamənin verilmə tarixi və müddəti	
Təhsil müəssisəsinin lisenziyasına dair məlumatlar (dövlət təhsil müəssisələri istisna olmaqla)	
Təhsil müəssisəsinin rəhbəri	Ceyran Mahmudova Rektor Əməkdar incəsənət xadimi, sənətşünaslıq elmləri doktoru, professor
Fakültələrin sayı	5
Kafedraların sayı	20
Bakalavriat səviyyəsi üzrə ixtisasların sayı	23
Magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) sayı	
Doktorantura səviyyəsi üzrə ixtisasların (elm sahələri üzrə) sayı	
Təhsil müəssisəsinin təhsilalan kontingenti	**Təhsilalanların sayı** Bakalavriat: 2365 Magistratura: 321 Doktorantura: 16 - Elmlər doktorluğu proqramı üzrə: - Fəlsəfə doktorluğu proqramı üzrə:
1. Ştatdakı professor-müəllim (və ya pedaqoji) heyətin sayı	**370**
Əvəzçilik və saathesabı yolu ilə işləyənlərin sayı	
Müəssisənin elektron ünvanı və əlaqə telefonu	E-mail: info@admiu.edu.az Tel.: (+994 12) 599 00 54

Müəssisənin hüquqi ünvanı	
Müəssisənin faktiki ünvanı	Əsas korpus: AZ1065, Bakı şəhəri, İnşaatçılar prospekti 39. İkinci korpus: AZ1100, Bakı, Həsən bəy Zərdabi 39.

2. İşçi qrupunun tərkibi və fəaliyyət qrafiki

2.1. İşçi qrupunun tərkibi

ADMİU Elmi Şurasının 31 yanvar 2025-ci il tarixli qərarı (protokol №07) ilə ADMİU-nun 2021-2025-ci illər üzrə Strateji İnkişaf Planının icrasının monitorinqi ilə bağlı aşağıdakı tərkibdə İşçi qrupu yaradılmışdır:

№	Ad, soyad	Vəzifə	Komissiyadakı funksiyası	E-mail ünvanı
1.	Nigar Rüstəmova	sədr	Tədris işləri üzrə prorektor	nigar.rustamova@admiu.edu.az
2.	Şirinbəy Əliyev	sədr müavini	Keyfiyyət təminatı və strateji planlama departamentinin müdiri	shirinbay.aliyev@admiu.edu.az
3.	Sədaqət Əliyeva	üzv	Elm və yaradıcılıq işləri üzrə prorektor	sadagat.aliyeva@admiu.edu.az
4.	Fərhad Əliyev	üzv	İnzibati-təsərrüfat işləri üzrə prorektor	farhad.aliyev@admiu.edu.az
5.	Namiq Qafarov	üzv	Tədris şöbəsinin müdiri	namiq.qafarov@admiu.edu.az
6.	Kəmalə Mehdiyeva	üzv	Teatr sənəti fakültəsinin dekanı	kamala.mehdiyeva@admiu.edu.az
7.	Səyavuş Məhişov	üzv	Kulturologiya fakültəsinin dekanı	sayavush.mahishov@admiu.edu.az

8.	Nofəl Vəliyev	üzv	SABAH Mərkəzinin rəhbəri	nofal.valiyev@admiu.edu.az
9.	Elnur Mehdiyev	üzv	Kino-televiziya sənətləri kafedrasının müdiri	elnur.mehdiyev@admiu.edu.az
10.	Aslan Xəlilov	üzv	Təsviri sənət tarixi və nəzəriyyəsi kafedrasının müdiri	aslan.khalilov@admiu.edu.az
11.	Yeganə Eyvazova	üzv	Muzeyşünaslıq və turizm kafedrasının müdiri	yegana.eyvazova@admiu.edu.az
12.	Ellada Hüseynova	üzv	Musiqi tarixi və nəzəriyyəsi kafedrasının müdiri	ellada.huseynova@admiu.edu.az
13.	Vəfa Mirzəyeva	üzv	Audiovizual sənətlər fakültəsinin dekan müavini	vafa.mirzayeva@admiu.edu.az
14.	Eldar Məmmədzadə	üzv	Rəssamlıq fakültəsinin dekan müavini	eldar.mammadzada@admiu.edu.az
15.	Mehriban Qasımova	üzv	Musiqi sənəti fakültəsinin dekan müavini	mehriban.gasimova@admiu.edu.az
16.	Aysel Məmmədzadə	üzv	Yaradıcılıq layihələrinin idarə olunması şöbəsinin müdiri	aysel.mammadzada@admiu.edu.az

17.	Firəngiz Məmmədova	üzv	İnsan resursları şöbəsinin müdiri	firangiz.mammadova@admiu.edu.az
18.	Sitarə Abdullayeva	üzv	İctimaiyyətlə əlaqələr və marketinq şöbəsinin müdiri	sitara.abdullayeva@admiu.edu.az
19.	Fəridə Cəlilova	üzv	Elm və doktorantura şöbəsinin müdiri	farida.jalilova@admiu.edu.az
20.	Rüfət Quliyev	üzv	Mühasibat uçotu və hesabat şöbəsinin müdiri-baş mühasib	rufat.guliyev@admiu.edu.az
21.	Namiq Kərimov	üzv	Beynəlxalq layihələr və əcnəbilərlə iş şöbəsinin müdiri	namig.karimov@admiu.edu.az
22.	Hikmət Məmmədov	üzv	İnformasiya Kommunikasiya Texnologiyaları və texniki xidmət şöbəsinin müdiri	hikmat.mammadov@admiu.edu.az
23.	Aygül Mirzəyeva	üzv	Ümumi şöbənin müdiri	aygul.mirzayeva@admiu.edu.az
24.	Vəfa Süleymanova	üzv	Tədrisin elektron idarə edilməsi və imtahanların təşkili	vafa.suleymanova.m@admiu.edu.az

			şöbəsinin müdiri	
25.	Tamilla Əsgərova	üzv	Kitabxana-informasiya mərkəzinin müdiri	tamilla.asgarova@admiu.edu.az
26.	Elçin Cəfərov	üzv	Keyfiyyət təminatı və strateji planlama departamentinin müdir müavini	elchin.cafarov@admiu.edu.az
27.	Rəvan Məmmədov	üzv	Keyfiyyət təminatı və strateji planlama departamentinin Keyfiyyət təminatı və monitorinq sektorunun müdiri	ravan.mammadov@admiu.edu.az
28.	Gülnarə Məmmədova	üzv	Tədris şöbəsinin Ömürboyu təhsil, karyera və məzunlarla iş bölməsinin rəhbəri	gulnara.mammadova@admiu.edu.az
29.	Lətafət Abbasova	üzv	Tədris şöbəsinin Tədrisin təşkili bölməsinin rəhbəri	latafat.abbasova@admiu.edu.az

30.	Günel Əhmədova	üzv	Tədris şöbəsinin Tədrisin təşkili bölməsinin mütəxəssisi	gunel.ahmadova@admiu.edu.az
31.	Əli Hacılı	üzv	Keyfiyyət təminatı və strateji planlama departamentinin Strateji planlanma sektorunun baş mütəxəssisi	ali.hacili@admiu.edu.az
32.	Natiq Mürsəlov	üzv	Kitabxana-informasiya mərkəzinin biblioqrafı	natig.mursalov@admiu.edu.az
33.	Rusif Əliyev	üzv	THİK sədri	rusif.aliyev.yu@admiu.edu.az
34.	Ülkər Rzayeva	üzv	TEYC sədri	ulkar.rzayeva@admiu.edu.az

2.2. İşçi qrupunun fəaliyyət istiqaməti və qrafiki

İşçi qrupunun nəzdində müvafiq istiqamət üzrə alt qruplar yaradılmış və alt qruplar üzrə aşağıdakı məsul şəxslər müəyyən edilmişdir:

- **Təlim və tədris istiqaməti üzrə:** Tədris işləri üzrə prorektor, dosent Nigar Rüstəmova
- Namiq Qafarov - Tədris şöbəsinin müdiri
- Tamilla Əsgərova - Kitabxana-informasiya mərkəzinin müdiri
- Ellada Hüseynova - Musiqi tarixi və nəzəriyyəsi kafedrasının müdiri
- Nofəl Vəliyev - SABAH Mərkəzinin rəhbəri
- Gülnarə Məmmədova - Tədris şöbəsinin Ömürboyu təhsil, karyera və məzunlarla iş bölməsinin rəhbəri
- Lətafət Abbasova - Tədris şöbəsinin Tədrisin təşkili bölməsinin rəhbəri
- Vəfa Mirzəyeva - Audiovizual sənətlər fakültəsinin dekan müavini
- Günel Əhmədova - Tədris şöbəsinin Tədrisin təşkili bölməsinin mütəxəssi
- Natiq Mürsəlov - Kitabxana-informasiya mərkəzinin biblioqrafı

- **Elmi-tədqiqat (yaradıcılıq) istiqaməti üzrə:** Elm və yaradıcılıq işləri üzrə prorektor, dosent Sədaqət Əliyeva
- Fəridə Cəlilova - Elm və doktorantura şöbəsinin müdiri
- Aysel Məmmədzadə - Yaradıcılıq layihələrinin idarə olunması şöbəsinin müdiri
- Ellada Hüseynova - Musiqi tarixi və nəzəriyyəsi kafedrasının müdiri
- Yeganə Eyvazova - Muzeyşünaslıq və turizm kafedrasının müdiri
- Eldar Məmmədzadə - Rəssamlıq fakültəsinin dekan müavini
- Ülkər Rzayeva - TEYC sədri
- İdarəetmə sistemi və İnfrastruktur istiqamətləri üzrə - İnzibati-təsərrüfat işləri üzrə prorektor Fərhad Əliyev
- Rüfət Quliyev - Mühasibat uçotu və hesabat şöbəsinin müdiri-baş mühasib
- Firəngiz Məmmədova - İnsan resursları şöbəsinin müdiri
- Aygül Mirzəyeva - Ümumi şöbənin müdiri
- Hikmət Məmmədov - İnformasiya Kommunikasiya Texnologiyaları və texniki xidmət şöbəsinin müdiri
- Səyavuş Məhişov - Kulturologiya fakültəsinin dekanı
- Rusif Əliyev - THİK sədri

- **Strateji inkişaf və keyfiyyət təminatı istiqamətləri üzrə:** Keyfiyyət təminatı və strateji planlama departamentinin müdiri, dosent Şirinbəy Əliyev
- Elçin Cəfərov - Keyfiyyət təminatı və strateji planlama departamentinin müdir müavini
- Sitarə Abdullayeva - İctimaiyyətlə əlaqələr və marketinq şöbəsinin müdiri
- Vəfa Süleymanova - Tədrisin elektron idarə edilməsi və imtahanların təşkili şöbəsinin müdiri
- Aslan Xəlilov - Təsviri sənət tarixi və nəzəriyyəsi kafedrasının müdiri
- Rəvan Məmmədov - Keyfiyyət təminatı və monitorinq sektorunun müdiri
- Əli Hacılı - Strateji planlanma sektorunun baş mütəxəssisi

- **Beynəlmiləlləşmə istiqaməti üzrə:** Beynəlxalq layihələr və əcnəbilərlə iş şöbəsinin müdiri Namiq Kərimov
- Elçin Cəfərov - Keyfiyyət təminatı və strateji planlama departamentinin müdir müavini
- Kəmalə Mehdiyeva - Teatr sənəti fakültəsinin dekanı
- Elnur Mehdiyev - Kino-televiziya sənətləri kafedrasının müdiri
- Mehriban Qasımova - Musiqi sənəti fakültəsinin dekan müavini

II. 2021-2025-ci illər üzrə Strateji İnkişaf Planının icrasının monitorinqinin nəticələri Monitorinq qiymətləndirməsinin icmalı

İşçi qrupu Ali təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə təlimat kitabçasının təsdiq edilməsi barədə Təhsildə Keyfiyyət Təminatı Agentliyinin F-181

nömrəli 14.11.2022-ci il tarixli əmri ilə təsdiqlənmiş metodologiyaya əsaslanaraq monitorinq qiymətləndirməsini aparmışdır.

I. Strateji inkişaf

1.1. Ali təhsil müəssisəsinin (ATM) missiyası, strategiyası, strateji istiqamətləri və hədəfləri

1.1.1. ADMİU-da qısa və orta müddətli dövr üçün strateji inkişaf proqramının (SİP) hazırlanması vəziyyəti

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın icrası ilə əlaqədar ADMİU-da qısa və orta müddətli dövr - 2021-2025-ci illər üçün Strateji İnkişaf Planı hazırlanmışdır. Burada SİP-in məqsəd və vəzifələri, əsas fəaliyyət istiqamətləri, missiyası, konseptual prinsipləri, dəyərləri və s. öz əksini tapmışdır. SİP-in hazırlanması ilə əlaqədar ilk olaraq 26 may 2020-ci ildə rəhbərlik tərəfindən xüsusi komissiya yaradılmışdır. Komissiyanın tərkibi Tədris və keyfiyyət təminatı şöbəsinin müdiri Nizami Əsədov, Tədris işləri üzrə prorektor prof. Validə Məmmədova, Teatrşünaslıq kafedrasının dosenti Fəridə Cəlilova, Teatrşünaslıq kafedrasının dosenti Elçin Cəfərov, eləcə də steykholderlər qismində Akademik Milli Dram Teatrının direktor müavini Hacıbaba Məmmədov, Milli İncəsənət Muzeyinin direktoru Çingiz Fərzəliyev və Xəzər TV-nin rəhbəri Murad Dadaşovdan ibarət olmuşdur. Komissiyanın fəaliyyətinin nəticəsi olaraq universitetin Strateji İnkişaf Planı hazırlanmış və ADMİU Elmi Şurasının 26 may 2021-ci il tarixli iclasında (protokol №07) təsdiq edilimişdir. ADMİU-nun Strateji İnkişaf Planının həyata keçirilməsi üzrə uzunmüddətli (2021-2025) və orta müddətli (2021-2023) Fəaliyyət planı Elmi Şuranın 26 may 2021-ci il tarixli iclasında (protokol təsdiq edilimişdir. ADMİU Elmi Şurasının 31 yanvar 2025-ci il tarixli (protokol №07) qərarı ilə ADMİU-nun 2021-2025-ci illər üçün Strateji İnkişaf Planının icrasının monitorinqi ilə bağlı 34 nəfərdən ibarət İşçi qrupu yaradılmışdır. Strateji inkişaf istiqaməti üzrə alt qrupun təhlilləri nəticəsində gələcəkdə yeni SİP-in hazırlanması üzrə yaradılacaq xüsusi komissiyanın tərkibində bütün maraqlı tərəflərin iştirakının təmin olunması tövsiyə olunmuşdur.

1.1.2. ADMİU-nun SİP-də müəyyən edilən missiyasının onun fəaliyyətinin əsas məqsədinə və hədəflərinə uyğunluğu

ADMİU-nun missiyası 2021-2025-ci illər üçün Strateji İnkişaf Planının "Missiya, gələcəyə baxış və əsas dəyərlər" bölümündə aşağıdakı kimi öz əksini tapmışdır: "Təlimin qabaqcıl innovasiya texnologiyalarını tədris prosesi ilə əlaqələndirməklə mədəniyyət və incəsənət sahələri üzrə respublikada və xaricdə tanınan, müasir dövrün tələblərinə cavab verən rəqabətədavamlı yüksəkixtisaslı peşəkar kadr hazırlığı sistemini formalaşdırmaq".

SİP-in əsas məqsədi müasir və beynəlxalq tələblərə cavab verən keyfiyyətli təhsil vasitəsi ilə mədəniyyət və incəsənəti inkişaf etdirmək bacarığına malik milli kadrların yetişdirilməsidir.

SİP-də ADMİU-nun missiyasına uyğun olaraq strateji istiqamətlər və hədəflər müəyyənləşdirilib. Hədəflər səriştəyə əsaslanan şəxsiyyətyönümlü təhsil məzmununun yaradılması, təhsil sahəsində insan kapitalının inkişafı, təhsildə şəffaf və səmərəli

idarəetmə mexanizmlərinin yaradılması, müasir tələblərə uyğun və ömürboyu təhsili təmin edən təhsil infrastrukturunun yaradılması, iqtisadi cəhətdən dayanıqlı və dünyanın aparıcı təhsil sistemlərinin standartları ilə eyni səviyyəyə uyğun təhsil sisteminin maliyyələşdirilməsi modelinin qurulması, beynəlmiləlləşmə və sosiallaşma olmaqla 7 strateji istiqamət üzrə olaraq qruplaşdırılıb.

SİP-in məqsəd və hədəflərinin missiya ilə uyğunluğu ADMİU-nun inkişaf strategiyasının vahid yanaşmaya əsaslandığını və universitetin uzunmüddətli inkişaf istiqamətlərinə xidmət etdiyini göstərir. Bu baxımdan, ADMİU-nun Strateji İnkişaf Planında müəyyən edilmiş missiya onun fəaliyyət istiqamətləri ilə və universitetin gələcək inkişafına yönəlmiş strateji hədəflərlə üst-üstə düşür. Hədəflər say etibarı ilə bir qədər çoxdur və bəzi hədəflər ADMİU-nun missiyasına və birbaşa fəaliyyət məqsədinə uyğun deyil. Dördüncü strateji istiqamətin hədəfləri strateji istiqaməti qismən əhatə edir. Belə ki, strateji istiqamət "müasir tələblərə uyğun və ömürboyu təhsili təmin edən təhsil infrastrukturunun yaradılması" olsa da, hədəflər, əsasən müasir tələblərə uyğun təhsil infrastrukturunun yaradılmasına yönəlib və ömürboyu təhsilin təmin edilməsi diqqətdən kənarda qalıb. Hədəflərin bir qisminin SİP-də müəyyən edilmiş missiya ilə bilavasitə bağlılığı yoxdur.

1.1.3. SİP-də müəyyən edilən strateji baxışın ölkənin əmək bazarının, cəmiyyətin və iqtisadiyyatın inkişaf istiqamətlərinə uyğunluğu

ADMİU-nun 2021–2025-ci illər üzrə Strateji İnkişaf Planı (SİP) mədəniyyət və incəsənət sahələri üzrə beynəlxalq səviyyədə aparıcı ali təhsil ocaqlarından birinə çevrilməyi hədəfləyir. Bu strategiya ölkənin əmək bazarı, cəmiyyətin sosial strukturu və iqtisadi inkişafı ilə uyğunluq təşkil edir.

SİP-in əsas məqsədlərindən biri əmək bazarının tələblərinə cavab verən kadrlar yetişdirmək və yeni peşə istiqamətləri yaratmaqdır. Universitet bu çərçivədə:

– Məzunların bazara uyğun hazırlanmasını şəffaf və çevik proqramlarla təmin etməyi;

– Əmək bazarının tələbinə uyğun ixtisasları yaradaraq artan tələbatı qarşılamağı;

– Xarici universitetlərlə ikili diplom proqramlarını genişləndirərək məzunların beynəlxalq arenada rəqabət qabiliyyətini artırmağı hədəfləyir.

Festival, sərgi və konfranslar vasitəsilə məzunların bazara uyğunlaşmasına dəstək olmaq universitetin əmək bazarına daha yaxın olmasını təmin edir.

SİP yalnız akademik icma və əmək bazarı üçün deyil, cəmiyyətin mədəni irsinin qorunması və inkişafı üçün də mühüm əhəmiyyət daşıyır. Universitet inklüzivlik və multikulturalizmi təşviq edərək təhsilin daha geniş auditoriyaya çatmasına şərait yaradır.

Bu məqsədlərə çatmaq üçün steykholderlərlə mütəmadi görüşlərin keçirilməsi, tələbə və məzun sorğularının təşkil edilməsi və nəticələrinin strateji qərarlarda nəzərə alınması vacibdir**.** Bundan əlavə, əmək bazarının dinamikasını öyrənmək üçün davamlı araşdırmalar aparılması, işəgötürənlərlə əlaqələrin gücləndirilməsi və universitet daxilində keyfiyyətin monitorinqi strategiyanın effektivliyini artıracaq.

ADMİU-nun Strateji İnkişaf Planı ölkənin əmək bazarı, cəmiyyətin sosial inkişafı və iqtisadi strategiyaları ilə ahəngdardır. Universitet məzunlarının bazara hazırlığını təmin

edərək, cəmiyyətin mədəniyyət səviyyəsini yüksəltməklə və iqtisadi dayanıqlılığı artırmaqla ölkənin davamlı inkişafına töhfə verməyi hədəfləyir. Strategiyanın uğurlu icrası universitetin lider mövqeyini qoruyub saxlaması və beynəlxalq səviyyədə tanınması üçün vacibdir.

1.1.4. SİP-də müəyyən edilən prioritet istiqamətlərin ADMİU qarşısında qoyulan məqsəd və hədəflərə uyğunluğu

ADMİU-nun 2021-2025-ci illər üzrə Strateji İnkişaf Planı "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın tələblərinə uyğun olaraq hazırlanmışdır. 2021-2025-ci illər üzrə Strateji İnkişaf Planında 7 strateji istiqamət, 46 hədəf qarşıya qoyulmuşdur. Müəyyən edilən prioritet istiqamətlər ADMİU-nun qarşısına qoyulan məqsəd və hədəflərə uyğundur. SİP-də yer alan prioritet istiqamətlər aşağıdakı kimi müəyyən edilmişdir:

Prioritetlər:

ADMİU-nun 2021-2025-ci illər üzrə Strateji İnkişaf Planının prioritetləri aşağıdakılardan ibarətdir:

– Universitetin təhsil fəaliyyətinin milli və beynəlxalq tələblərə müvafiq modernləşdirilməsi;

– Elmi-tədqiqat fəaliyyətinin effektivliyinin artırılması, elmi nəticələrin tədrisin keyfiyyətinin yüksəldilməsinə, Azərbaycan mədəniyyəti və incəsənətinin inkişafına yönəldilməsi;

– Universitetin mədəniyyət və incəsənət üzrə beynəlxalq təhsil və elm məkanına inteqrasiyası;

– Universitetin elmi-pedaqoji, yaradıcı, kadr və maddi-texniki resurslarının inkişafı;

– Yerli və beynəlxalq proqram və layihələrdə iştirakın təmin olunması.

1.1.5. SİP-də strateji baxışda qoyulmuş əsas strateji istiqamətlərə nail olunması üçün əsas məqsəd və hədəflərin müəyyən edilməsi

SİP-də gələcəyə baxış respublikada mədəniyyət və incəsənət sahələri üzrə kadr hazırlayan ali məktəblər arasında liderliyə nail olmaq, bu sahədə beynəlxalq səviyyəli platformaya çevrilməkdən ibarətdir.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin 2021–2025-ci illər üçün Strateji İnkişaf Planında 7 əsas strateji istiqamət müəyyənləşdirilmiş və onlara çatmaq üçün müvafiq məqsəd və hədəflər qarşıya qoyulmuşdur. SİP-in əsas məqsədi, regionda müasir və beynəlxalq tələblərə cavab verən keyfiyyətli təhsil vasitəsi ilə mədəniyyət və incəsənəti inkişaf etdirmək bacarığına malik yerli kadrların yetişdirilməsidir. Universitet təhsilinin Avropa elm və təhsil məkanına inteqrasiyası və təhsilin məzmununun Boloniya prosesinin prinsiplərinə daha da uyğun qurulması, Universitetin rəqabət qabiliyyətliliyinin təmin edilməsi, müasir dövrdə mədəniyyət və incəsənətin inkişaf tələblərinə uyğun ali təhsilli kadrlara olan tələbatın ödənilməsi, əhalinin müasir tələblərə cavab verən fasiləsiz universitet təhsili almaq imkanlarının təmin edilməsi üçün şəraitin yaradılması, ADMİU-nun bazasında təhsilin ardıcıllığı baxımından kollec -

universitet (bakalavriat - magistratura - doktorantura) Təhsil Kompleksinin formalaşdırılması, mədəniyyət və incəsənət təmayüllü ixtisaslar üzrə ikili diplom proqramları layihəsinin reallaşdırılmasına nail olmaq da SİP-də təsbit edilmiş məqsədlərdir.

SİP-də əks olunmuş strateji istiqamətlərin hər biri üzrə 5–10 hədəf qarşıya qoyulmuşdur (Cədvəl 1.1).

Cədvəl 1.1. Strateji istiqamət və hədəflər

Birinci strateji istiqamət: **Sərişləyə əsaslanan şəxsiyyətyönümlü təhsil məzmununun yaradılması**
HƏDƏFLƏR
● Müasir əmək bazarının tələbatı nəzərə alınaraq beynəlxalq təsnifata uyğun istiqamət və ixtisaslar üzrə beynəlxalq standartlar səviyyəsində kadr hazırlığının həyata keçirilməsi
● Müasir tələblərə cavab verən bacarıq, sərişlə və nəticə yönümlü təhsil proqramlarının hazırlanması
● Dövlət Təhsil Standartalarının yüksək elmi-pedaqoji səviyyədə icrasını təmin etmək məqsədilə tədris-metodiki və elmi ədəbiyyatın keyfiyyət və kəmiyyətinin yüksəldilməsi
● Davamlı təhsil konsepsiyasının reallaşdırılması üçün təhsil proqramlarında varisliyin təmin edilməsi
● İxtisas üzrə təhsil standartları və tədris planlarının işlənilməsində bütün maraqlı tərəflərlə əməkdaşlıq təcrübəsinin tətbiq edilməsi
● İşəgötürənlərin maraqlı tərəf kimi təhsil prosesində təmsilçilik formalarının işlənilib tətbiq edilməsi
● Universitetin respublika və dünya təhsil xidmətləri bazarında rəqabətə davamlılığının artırılması məqsədi ilə təhsil proqramlarının beynəlxalq ekspertiza və akkreditasiyadan keçirilməsi
● Təhsilalanların qabiliyyət və istedadlarını üzə çıxarmağa şərait yaradan festival, sərgi, müsabiqə və konfranslara maraqlı tələflərin cəlb olunması
● Ali təhsilin bakalavr və magistr səviyyələrində nüfuzlu xarici və yerli təhsil müəssisələri ilə ikili diplom əməkdaşlığı istiqamətində işlərin aparılması
● ADMİU-nun elmi dərgilərinin Beynəlxalq xülasələndirmə və indeksləmə bazalarına daxil edilməsi istiqamətində işlərin görülməsi
İkinci strateji istiqamət: **Təhsil sahəsində insan kapitalının inkişafı**

HƏDƏFLƏR
● Xaricdə və respublikada təhsil almış istedadlı gənc məzunların, tanınmış mədəniyyət və incəsənət xadimlərinin, mütəxəssislərin Universitetdə fəaliyyətə cəlb edilməsi
● Xarici ölkələrin təhsil müəssisələrində stajkeçmə, ixtisasartırma, magistr və doktorant hazırlığı yolu ilə professor-müəllim heyətinin təkmilləşdirilməsi
● Professor-müəllim heyətinin və təhsilalanların xaricdə və respublikada mübadilə proqramlarında fəal iştirakına nail olmaq
● Müvafiq ixtisaslar üzrə mütəxəssis bazarının mütəmadi monitorinqinin aparılması və nəticələr əsasında elektron portfolionun yaradılması
● Pedaqoji heyətlə əmək münasibətlərinin qurulmasının illik fəaliyyətin keyfiyyət göstəriciləri sisteminin nəticələrinə görə tənzimlənməsi, əmək haqqının differensiallaşmasına keçid
Üçüncü strateji istiqamət: **Təhsildə şəffaf və səmərəli idarəetmə mexanizmlərinin yaradılması**
HƏDƏFLƏR
● İdarəetmənin təkmilləşdirilməsi və səmərəli idarəetmə formalarının təmin edilməsi məqsədilə beynəlxalq təcrübə nəzərə alınmaqla struktur islahatlarının aparılması
● Elektron idarəetmə sisteminin təkmilləşdirilməsi (elektron universitet, elektron sənədləşmə)
● Universitetin profil və istiqamətinə uyğun əmək bazarı subyektlərinin cari və gələcək tələblərinin sistematik öyrənilməsi və proqnozlaşdırılması. Məzunlarla effektiv işbirliyinin həyata keçirilməsi
● Himayəçilər şurasının yaradılması
● Təhsilin ictimailəşdirilməsi çağırışlarına müvafiq xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə tədrisin nəticələrinin təhlili, ictimai dəyərləndirilməsi məqsədilə tanınmış mədəniyyət, incəsənət xadimlərinin, Mədəniyyət Nazirliyinin nümayəndələrinin və işəgötürənlərin daha çox cəlb edilməsi
● Universitetdə keyfiyyət mədəniyyətini formalaşdırmaq, maraqlı tərəflərin ehtiyaclarını və gözləntilərini qarşılamaq, tələbəyönümlü tədris prosesini sistemləşdirmək, strukturlararası koordinasiya və hesabatlılığı təmin etmək məqsədilə, keyfiyyət təminatı siyasətinin formalaşdırmaq, keyfiyyət təminatı və strateji planlama departamenti yaratmaq

Dördüncü strateji istiqamət: **Müasir tələblərə uyğun və ömürboyu təhsili təmin edən təhsil infrastrukturunun yaradılması**
HƏDƏFLƏR
● Təhsil prosesinin informasiya-kommunikasiya texnologiyaları resursları ilə tam təmin edilməsi
● Müasir İKT və xüsusi avadanlıqlarla təchiz edilmiş ixtisaslaşmış auditoriyaların – kiçik səhnə, yaradıcılıq emalatxanaların və s. sayının artırılması, səsyazma studiyasının fəaliyyətinin bərpa edilməsi
● Universitetin Tədris Teatrının binasında əsaslı təmir-bərpa işlərinin yekunlaşdırılması
● ADMİU TV və ADMİU Radio-nun texniki imkanlarından istifadə edərək işinin yenidən qurulması
● Universitet kitabxanasının fəaliyyətinin elektron kitabxana sistemi ilə yenidən qurulması, zəruri İKT resursları ilə təmin olunması, mediateka və videoteka fondlarının yaradılması və onlardan geniş istifadənin təmin edilməsi, beynəlxalq kitabxana sistemlərinə çıxışın təmin edilməsi
Beşinci strateji istiqamət: İqtisadi cəhətdən dayanıqlı və dünyanın aparıcı təhsil sistemlərinin standartları ilə eyni səviyyəyə uyğun təhsil sisteminin maliyyələşdirilməsi modelinin qurulması
HƏDƏFLƏR
● Universitetdə kadr hazırlığı aparılan ixtisaslar üzrə təhsilin cəlbediciliyini təmin edən fəaliyyət planının hazırlanması
● Universitetin profil və fəaliyyət istiqamətinə uyğun təsərrüfat hesablı müəssisələrin təsis edilməsi və onların fəaliyyətindən əldə edilən vəsaitin ADMİU-nun inkişafına yönəldilməsi
● Universitetin maddi-texniki bazasının möhkəmləndirilməsi
● Milli və beynəlxalq elm, təhsil və mədəniyyət fondlarının qrant layihələrində fəal iştirakın təmin edilməsi
● Universitetin profil və fəaliyyət istiqamətinə uyğun ödənişli əsaslarla həyata keçirilən ixtisasartırma, məsləhət-konsaltinq, teatr-konsert xidmətlər şəbəkəsinin yaradılması
● Əmək bazarının maraqlı subyektləri tərəfindən müvafiq ixtisaslar üzrə kadr hazırlığının maliyyələşdirilməsinə nail olunması

Altıncı strateji istiqamət: Beynəlmiləlləşmə. Təhsil, yaradıcılıq və elmin beynəlmiləlləşdirilməsi. ADMİU-nu beynəlxalq əməkdaşlığın fəal iştirakçısına çevrilməsi, strateji təhsil və elmi tərəfdaşlıq əlaqələrinin genişləndirilməsi
HƏDƏFLƏR
● Beynəlxalq elmi və təhsil proqramlarının (layihələrin) sayının artırılması
● Beynəlxalq təhsil və elmi proqramlarda (layihələrdə) iştirak edən professor-müəllim heyətinin, gənc tədqiqatçıların və tələbələrin sayının artırılması
● Xarici dilləri yaxşı bilən elmi-pedaqoji kadrların sayının artırılması
● Xarici tərəfdaş universitetlərdə təcrübə keçmiş tələbələrin (bakalavrlar/ magistrantlar/doktorantlar) sayının artırılması
● QS reytinqində nüfuzlu universitetlər siyahısına daxil olan universitetlərlə ikili diplom proqramlarının və orada iştirak edən tələbələrin sayının ümumi proqram və tələbə sayındakı payının artırılması
● Beynəlxalq Qış və Yay Məktəblərinin təşkilinin təmin edilməsi
● Xarici tərəfdaş universitetləri cəlb etməklə keçirilən beynəlxalq konfrans və seminarların sayının artırılması
Yeddinci strateji istiqamət: Sosiallaşma
HƏDƏFLƏR
● Universitetin nüfuzunun artırılması istiqamətində tədbirlərin görülməsi, Universitetin ölkəmiqyaslı və beynəlxalq sosial layihələrlə çıxış etməsi
● KİV-də ADMİU-nun təhsil, elm və sosial fəaliyyətini, beynəlxalq əməkdaşlığını işıqlandıran materialların sayının artırılması
● Ölkədaxili əlaqələrin genişləndirilməsi, ölkənin nüfuzlu elm və təhsil müəssisələri, yaradıcılıq birlikləri, ictimai qurumlarla əməkdaşlıq əlaqələrinin qurulması, birgə sosial layihələrin sayının artırılması
● Universitet əməkdaşlarının ölkədə elmi maarifçilik işində daha fəal iştirakının təmin edilməsi, onların genişmiqyaslı humanitar-sosial proqram və layihələrdə iştirak etməsi üçün şəraitin yaradılması
● Universitet professor-müəllim heyətinin ölkə və paytaxtmiqyaslı mədəni, sosial və ekoloji layihələrə könüllü mütəxəssis kimi cəlb olunmasına şəraitin yaradılması

● ADMİU alimləri tərəfindən sosioloji tədqiqatların aparılması və ictimaiyyətə təqdim edilməsi
● Tərəfdaş qurumlarla birlikdə Universitetdə ölkənin elmi, mədəni, sosial-iqtisadi problemlərinə həsr olunmuş yüksək səviyyəli konfransların, seminarların və digər tədbirlərin keçirilməsi

2021-2025-ci illər üzrə Strateji İnkişaf Planında müəyyən olunmuş əsas məqsəd və hədəflər strateji baxışda qoyulmuş istiqamətlərə uyğundur.

1.1.6. SİP-də müəyyən edilmiş əsas strateji məqsəd və hədəflər üzrə qısa və ortamüddətli dövr ərzində görüləcək tədbirlərin əks olunması

Universitetin Elmi Şurası tərəfindən təsdiq edilən 2021-2025-ci illər üçün Strateji İnkişaf Planı əsasında tədris illəri üzrə ADMİU-nun Strateji İnkişaf Planının həyata keçirilməsi üzrə uzunmüddətli (2021-2025-ci illər) və ortamüddətli (2021-2023-cü illər) Fəaliyyət planı hazırlanmış və Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin EŞ-nın 7 iyul 2021-ci il tarixli iclasında (protokol №09) təsdiq edilmişdir. Fəaliyyət planında görüləcək işlər prioritet istiqamətlər üzrə müəyyənləşdirilmişdir. Təhsil, Elmi tədqiqatlar və İnnovasiyalar, Beynəlmiləlləşmə, Sosiallıq və Müasir idarəetmə prioritet istiqamətləri üzrə qarşıya qoyulan hədəflərə çatmaq üçün görüləcək işlər aidiyyəti bölmələr üzrə paylanılmışdır. Fəaliyyət planının strukturu özündə aşağıdakıları əhatə edir:

– SİP-də müəyyən olunan prioritet istiqamətlər;
– SİP-in məqsədlərinə müvafiq hədəflər;
– Məqsədə nail olmaq üçün görüləcək tədbirlər;
– Fəaliyyətlər;
– İcra müddəti;
– İcraçılar;
– Hədəflərə çatmaq üçün həyata keçirilən fəaliyyətlərin nəticələri.

1.1.7. SİP üzrə fəaliyyətin nəticələrini qiymətləndirməyə imkan verən kəmiyyət və ya keyfiyyət göstəricilərinin müəyyən edilməsi

SİP-də 2021–2025-ci illər üzrə əsasən fəaliyyət nəticələrinin qiymətləndirilməsinə imkan verən kəmiyyət və keyfiyyət göstəriciləri hər bir istiqamət və hədəf üçün müəyyən edilmiş və açıq şəkildə göstərilmişdir. SİP-in fəaliyyətləri çərçivəsində özünütəhlil imkanlarının inkişaf etdirilməsi məqsədilə tələbələr, professor-müəllim heyəti, inzibati heyət, əmək bazarının nümayəndələri və məzunlar da daxil olmaqla mütəmadi sorğuların keçirilməsi, 2021–2025-ci illər üzrə hədəflənən göstəricilərin təkmilləşdirilməsi baxımından mühüm təşəbbüslərdən biri kimi dəyərləndirilə bilər. SİP-də ADMİU-nun missiyasına uyğun olaraq strateji istiqamətlərin və hədəflərin müəyyənləşdirilməsi, şəxsiyyətyönümlü təhsil məzmununun yaradılması, təhsil sahəsində insan kapitalının inkişafı, təhsildə şəffaf və səmərəli idarəetmə mexanizmlərinin qurulması, müasir tələblərə uyğun və ömürboyu təhsili təmin edən təhsil infrastrukturunun formalaşdırılması, iqtisadi cəhətdən dayanıqlı və dünyanın aparıcı təhsil sistemlərinin standartlarına uyğun

maliyyələşdirmə modelinin hazırlanması, beynəlmiləlləşmə və sosiallaşmanı əhatə edən **7 strateji istiqamət və 46 hədəf üzrə** fəaliyyətlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur. 2021–2025-ci illər üzrə SİP çərçivəsində müəyyən edilmiş 7 strateji istiqamət və 46 hədəf üzrə fəaliyyətin kəmiyyət və keyfiyyət göstəriciləri, universitetin fəaliyyət nəticələrinin qiymətləndirilməsinə imkan verən əsas keyfiyyət meyarlarıdır. Bundan əlavə, Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiyasının prinsipləri, beynəlxalq təcrübələr, o cümlədən Avropa Ali Təhsil Məkanında Keyfiyyətin Təminatı üzrə Avropa Standartları və Təlimatları (ESG) nəzərə alınmışdır. Aşağıda 2021–2025-ci illər üzrə Keyfiyyət təminatı və strateji planlama departamentinin keçirdiyi sorğuların siyahısı təqdim olunur (Cədvəl 1.2).

Cədvəl 1.2. SİP üzrə fəaliyyətin kəmiyyət və keyfiyyət göstəriciləri istiqamətində aparılmış sorğuların siyahısı

Sorğunun adı	**Keçirildiyi tarix**	**Kateqoriyası**	**İştirak edənlərin sayısı və faiz nisbəti**
Tələbə arasında məmnuniyyət	15-25 oktyabr 2021	Tələbə	2682/612 23%
Tələbə məmnuniyyəti	15-23 dekabr 2022	Tələbə	2682/788 30%
Müəllim məmnuniyəti	5-25 aprel 2023	Professor-müəllim	370/221 59%
Tələbə məmnuniyyəti	25 oktyabr-25 noyabr 2023	I tədris ilinin tələbələri	528/295 56%
İnzibati heyət arasında məmnuniyyət	1-10 fevral 2024	İnzibati heyət	246/54 22%
Əmək bazarı nümayəndələri arasında məmnuniyyət	16-30 aprel 2024	Əmək bazarı nümayəndələri	39/39 100%
Məzunlar arasında məmnuniyyət	13-31 yanvar 2025	Məzun tələbələr	117
Yaz imtahan sessiyası məmnuniyyət	1-10 iyul 2025	Yaz imtahan sessiyası iştirakçıları	2672/235 9%
Tələbə məmnuniyyəti	01-25 dekabr 2025	I tədris ilinin tələbələri	775/580 75%

1.1.8. SİP-də nəzərdə tutulmuş fəaliyyətləri icra etmək üçün resursların (insan, maliyyə və infrastruktur) ayrılması vəziyyəti

SİP-də nəzərdə tutulmuş fəaliyyətlərin icrası üçün insan, maliyyə və infrastruktur resurslarının müəyyən dərəcədə təminatı mövcuddur. İnsan resursları baxımından universitet mədəniyyət və incəsənət sahəsinin tanınmış aktyor, rejissor, operator, rəssam, dizayner, müğənni və musiqiçilərini, həmçinin teatrşünas və sənətşünasları pedaqoji fəaliyyətə cəlb etmişdir. Bununla yanaşı, professor-müəllim heyətinin peşəkar inkişafı məqsədilə ilboyu müxtəlif seminarlar, təlimlər, qış və yay məktəbləri təşkil olunur, akademik heyət xarici universitetlərlə təcrübə mübadiləsi proqramlarında, beynəlxalq festivallarda, sərgilərdə və müsabiqələrdə iştirak edir.

Maliyyə resurslarının formalaşması üç əsas istiqamət üzrə həyata keçirilir: dövlət sifarişi əsasında dövlət tərəfindən ödənilən təhsil haqları, ödənişli əsaslarla təhsil alan tələbələrin ödədiyi haqlar və qanunvericiliklə nəzərdə tutulmuş digər gəlirlər.

İnfrastruktur baxımından universitetin Bakı şəhərində yerləşən iki tədris binası, yeməkxanaları, səhnə avadanlıqları ilə təchiz olunmuş auditoriyaları, “Tədrisfilm” studiyası, televiziya və kino tədris mərkəzi, rəngkarlıq, qrafika, dizayn və bədii toxuculuq emalatxanaları mövcuddur. Əlavə olaraq əsas tədris binasında iki tamaşa zalı və sərgi salonu fəaliyyət göstərir. 11 iyul 2020-ci ildən Bakı Humanitar Kollecinin ADMİU-nun nəzdində fəaliyyətə başlaması subbakalavr səviyyəsində kadr hazırlığını da təmin etmişdir.

1.1.9. SİP-in maliyyə təminatının ATM-də büdcə planlaşmasında nəzərə alınması vəziyyəti

ADMİU-nun büdcəsinin planlaşdırılmasında SİP-də qarşıya qoyulmuş hədəflərin icrası üçün zəruri maliyyə təminatı nəzərə alınmışdır. Hesabat dövründə hər il üçün təsdiq olunan illik büdcədə sərişteyə əsaslanan təhsil məzmununun yaradılması, insan kapitalının inkişafı, şəffaf və səmərəli idarəetmə, tədris infrastrukturunun müasirləşdirilməsi, beynəlmiləlləşmə və sosiallaşma istiqamətlərində görüləcək işlər üçün vəsait ayrılmışdır.

1.1.10. SİP-də sosial məsuliyyət, elmi yeniliklərin cəmiyyətə transferi, əqli mülkiyyətin qorunması və s. kimi məqamları özündə ehtiva etməsi vəziyyəti

2021–2025-ci illəri əhatə edən Strateji İnkişaf Planında sosial məsuliyyət, elmi yeniliklərin cəmiyyətə transferi və əqli mülkiyyətin qorunması kimi məsələlər əsasən missiya bölməsində öz əksini tapır. Missiyada universitetin mədəniyyət və incəsənət sahələri üzrə ixtisaslı kadrlar hazırlamaq, nəticəyönümlü elmi tədqiqatlar aparmaq və cəmiyyətə faydalı sosial xidmətlər göstərmək öhdəliyi təsbit olunmuşdur. Bununla yanaşı, xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə kadr hazırlığı üçün bütün imkanların səfərbər edilməsi nəzərdə tutulur. SİP-in əsas məqsədi isə müasir dövrdə respublikanın maraqlarını təmin edə biləcək mütəxəssislər yetişdirməklə Azərbaycanın mədəni, sosial və siyasi inkişafına töhfə verməkdir. SİP-də sosial məsuliyyət, elmi yeniliklərin cəmiyyətə transferi, əqli mülkiyyətin qorunması və s. kimi məsələlər əhatə olunmuşdur. 2021-2025-

ci illəri əhatə edən Strateji İnkişaf Planında ölkənin ən zəngin təcrübəyə malik, ən qədim və ən nüfuzlu mədəniyyət və incəsənət sahəsində kadr hazırlayan təhsil ocağı olaraq, müasir dövrün tələblərinə cavab verən rəqabətədavamlı yüksəkixtisaslı peşəkar kadr hazırlığı sistemini formalaşdırmaq missiyası öz əksini tapmışdır.

1.1.11. Cari il üçün SİP hazırlanan zaman SİP-in əvvəlki illərdə icra vəziyyətinin nəzərə alınması

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin 2021-2025-ci illər üzrə Strateji İnkişaf Planı hazırlanarkən universitetin əvvəlki dövr üçün hazırladığı Strateji İnkişaf Planı (2016-2020) nəzərə alınmışdır. Burada ATM-in fəaliyyət istiqamətləri müəyyənləşdirilərkən əvvəlki illərdəki icra mexanizmləri nəzərə alınmış, müqayisəli qaydada təhlil edilmiş, cari problemlərin həlli mexanizmləri işlənmişdir. Bundan əlavə icrası gecikən və həllini tapmayan məsələlər cari Strateji İnkişaf Planında öz əksini tapmış, uyğun olaraq planlanmışdır.

1.1.12. SİP-də ATM-in güclü tərəflərinin, zəif tərəflərinin, imkanlarının və təhdidlərinin nəzərə alınması

ADMİU-nun 2021–2025-ci illər üzrə hazırlanmış Strateji İnkişaf Planı çərçivəsində universitetin fəaliyyəti ilə bağlı mövcud vəziyyət təhlil edilmişdir. Bu təhlil əsasında universitetin güclü və zəif tərəflərini, imkanlarını və təhdidlərini əhatə edən GZİT (SWOT) təhlili hazırlanmışdır. SİP-də SWOT analiz olaraq ayrıca hissə təqdim olunmuşdur. Bu hissənin təhlili zamanı aydın olmuşdur ki, SWOT analiz ümumən ali təhsil müəssisəsinə xas olan müddəalar əsasında hazırlanmışdır.

ADMİU-nun SİP-də nəzərdə tutulan fəaliyyətlərin icrasına yönəlik hazırdakı struktur bölmələrinin bölgüsü və qarşılıqlı əlaqəsi qənaətbəxş deyildir. Universitetin struktur bölmələrinin müasir çağırışlara uyğun olaraq təkmilləşdirilməsinə ehtiyac vardır.

ADMİU-nun Strateji İnkişaf Planında (SİP) universitetin bir sıra güclü tərəfləri öz əksini tapır. ADMİU ölkədə mədəniyyət və incəsənət sahəsində kadr hazırlayan ən qədim və nüfuzlu ali təhsil müəssisəsidir və zəngin təcrübəyə, köklü ənənələrə malikdir. Universitetdə xüsusi qabiliyyət tələb edən ixtisas sahələri üzrə geniş spektrli akademik proqramlar fəaliyyət göstərir. ADMİU respublikada tanınmış və uğur qazanmış çoxsaylı məzunlar yetişdirmişdir. Professor-müəllim heyəti arasında isə məşhur sənət adamları və alimlər təmsil olunur.

SİP-də universitetin zəif tərəfləri də müəyyənləşdirilmişdir. Auditoriya fondu kifayət qədər deyil, kafedralar, tədris otaqları, yaradıcılıq studiyaları və emalatxanalar maddi-texniki baxımdan zəif təchiz olunmuşdur. Xüsusi qabiliyyət tələb edən ixtisasların tədrisi üçün müasir texniki avadanlıq məhduddur. Akademik heyətin elmi-tədqiqat fəallığı arzu olunan səviyyədən aşağıdır. Xarici dillərdə tədris proqramlarının və əcnəbi tələbələrin sayı azdır. Bundan əlavə, İT infrastrukturu müasir tələblərə tam cavab vermir, universitetin tələbə yataqxanası isə yoxdur.

Universitetin inkişafı üçün mühüm imkanlar da mövcuddur. İmkanlar sırasında ilk növbədə dövlətin təhsilin davamlı inkişafı üçün yaratdığı şərait və həyata keçirdiyi yeni

layihələr xüsusi yer tutur. Xarici tərəfdaş universitetlər birgə kadr hazırlığında maraqlıdır. Universitetin beynəlxalq proqram və qrant müsabiqələrində iştirak imkanları da genişdir. Bundan əlavə, beynəlxalq və ölkə miqyaslı teatr, kino və musiqi festivalları, sərgi və tamaşalar universitetin tanıdılmasına əlverişli zəmin yaradır.

SİP-də universitet üçün mövcud təhdidlər də müəyyənləşdirilmişdir. Gənc ixtisaslı kadrların akademik və elmi fəaliyyətə marağı zəifdir. Xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə ali təhsil müəssisələri arasında rəqabət güclənir. Əmək bazarında mədəniyyət və incəsənət sahəsi üzrə ali təhsilli mütəxəssislərin sayı azdır. İşəgötürənlərin məzunları ixtisasları üzrə işlə təmin etməyə marağı yetərli səviyyədə deyil, mədəniyyət müəssisələri ilə əlaqələr də zəif qalır. Pandemiya dövründə qabiliyyət imtahanları keçirilmədiyi üçün universitetə hazırlıq səviyyəsi aşağı olan abituriyentlər qəbul olunmuşdur. Onlayn təhsil prosesində də müəyyən çətinliklər üzə çıxmışdır. Bundan əlavə, tədris prosesinin müasirləşdirilməsində modul proqramlarından hələ istifadə edilmir.

1.1.13. SİP-in hazırlanmasında maraqlı tərəflərin iştirakı vəziyyəti

ADMİU-da SİP-in hazırlanması ilə əlaqədar olaraq 26 may 2020-ci ildə rəhbərlik tərəfindən xüsusi komissiya yaradılmışdır. Həmin komissiyanın tərkibi həm daxili, həm də xarici maraqlı tərəflərdən ibarətdir. Daxili maraqlı tərəflər qismində Tədris və keyfiyyət təminatı şöbəsinin müdiri Əsədov Nizami, Tədris işləri üzrə prorektor prof. Məmmədova Validə, Teatrşünaslıq kafedrasının dosentləri Cəlilova Fəridə və Cəfərov Elçin çıxış edir. Xarici maraqlı tərəflər qismində steykholderlər teatrşünaslıq istiqamətindən Akademik Milli Dram Teatrının direktor müavini Hacıbaba Məmmədov, kulturologiya istiqamətindən Azərbaycan Milli İncəsənət Muzeyinin direktoru Çingiz Fərzəliyev, audiovizual sənətlər istiqamətindən Xəzər Media Mərkəzinin Baş direktoru Murad Dadaşov təqdim olunur. ADMİU-da SİP-in hazırlanması zamanı maraqlı tərəflərin iştirakı qismən təmin olunmuşdur. Həm daxili, həm də xarici maraqlı tərəflər qismində ADMİU-nun musiqi sənəti və rəssamlıq istiqamətlərindən əmək bazarı nümayəndələrinin iştirakı tövsiyə olunur. Bundan əlavə daxili tərəflər qismində bütün ixtisaslardan həm tələbə, həm də məzunların iştirakı arzu olunandır.

1.1.14. SİP-in icrası üzrə ATM-in struktur bölmələrinin müəyyən edilməsi

ADMİU-nun Strateji İnkişaf Planının həyata keçirilməsi məqsədilə uzunmüddətli (2021–2025-ci illər) və ortamüddətli (2021–2023-cü illər) Fəaliyyət planı hazırlanmışdır. Bu plan ADMİU Elmi Şurasının 7 iyul 2021-ci il tarixli iclasında (protokol №09) təsdiq edilmişdir. Fəaliyyət planında hər bir prioritet üzrə məqsəd müəyyənləşdirilmiş və həmin məqsədə çatmaq üçün görüləcək tədbirlər əks olunmuşdur. Həmin tədbirlər müəyyən hissələrə bölünərək onun yerinə yetirilməsi üçün cavabdehlik qismində müvafiq struktur bölmələrə tapşırılmışdır. Həmin struktur bölmələr qismində Tədris işləri üzrə prorektor, Beynəlxalq əlaqələr üzrə prorektor, Rektorun tədrisdə inovasiyalar üzrə müşaviri, Tədris şöbəsi, Keyfiyyət təminatı və strateji planlama departamenti, müvafiq dekanlıq və kafedralar, İnsan resursları şöbəsi, Elm və yaradıcılıq işləri üzrə prorektor, Elmi-metodiki şura, İctimaiyyətlə əlaqələr və marketinq şöbəsi, Sahibkarlıq və innovasiya mərkəzi,

Beynəlxalq layihələr və əcnəbilərlə iş şöbəsi, Elm və doktorantura şöbəsi, TEYC, Yaradıcılıq layihələrinin idarəedilməsi şöbəsi, Ümumi işlər üzrə prorektor, İnzibati-təsərrüfat işləri üzrə prorektor, Həmkarlar komitəsi, Elmi şura, İnformasiya-kommunikasiya texnologiyaları və texniki xidmət şöbəsi göstərilmişdir.

1.2. Strateji inkişaf proqramının icrası və monitorinqi

1.2.1. SİP-in icrası üzrə ATM-in struktur bölmələrinin dövrü (yarımillik, illik) hesabatlarının tərtib edilməsi və məlumatlandırması vəziyyəti

2021-2025-ci illər üzrə Strateji İnkişaf Planının icra edilməsi üçün görüləcək tədbirlər və məsul icraçılar Fəaliyyət planında əks olunmuşdur. Müvafiq struktur bölmələr həmin strateji istiqamətləri öz fəaliyyət planlarına daxil etmişdirlər. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Elmi Şurasının 07 iyul 2021-ci il tarixli iclasının (protokol №09) qərarı ilə ADMİU-nun Strateji İnkişaf Planının həyata keçirilməsi üzrə uzunmüddətli (2021-2025-ci illər) və ortamüddətli (2021-2023-cü illər) Fəaliyyət planları təsdiq edilib. Bundan əlavə, 2021-2025-ci illəri əhatə edən SİP-in icrası üzrə Fəaliyyət planına əsasən ADMİU-nun məsul struktur bölmələri tərəfindən yarımillik, illik hesabatlar hazırlanır. SİP-in icrası üzrə illik hesabatlar hər tədris ilinin sonu Keyfiyyət təminatı və strateji planlama departamentinə təqdim olunur. SİP üzrə görülən işlərin hesabatı Keyfiyyət təminatı və strateji planlama departamentinin rəhbəri tərəfindən ADMİU-nun Elmi Şurasında təqdim edilir. Elmi Şuranın İş planında struktur bölmələrin illik hesabatlarının təqdimatı nəzərdə tutulmuşdur. Hesabatlara müvafiq olaraq icra olunmayan məsələlərlə bağlı müvafiq addımlar atılır və ya onların icrası növbəti dövr üçün Fəaliyyət planına əlavə edilir.

1.2.2. SİP-in icrası üzrə ATM-in struktur bölmələrinin dövrü (yarımillik, illik) hesabatlarının müzakirəsi vəziyyəti

SİP-in icrası üzrə universitetin struktur bölmələrinin dövrü (yarımillik, illik) hesabatları Keyfiyyət təminatı və strateji planlama departamentinə təqdim edilir. Bu hesabatlar Elmi Şurada müzakirə edilir, nəticələr təhlil olunur və gələcək fəaliyyətdə nəzərə alınır. SİP-in icrası dövrü olaraq monitorinq edilir və icra olunan və olunmayan məsələlərə dair məlumatı əks etdirən hesabat hazırlanır. Elmi Şura iclaslarında təqdim edilən hesabatlar struktur bölmələrin bütün fəaliyyətini əhatə etdiyindən, SİP üzrə görülən işlərin daha dəqiq monitorinqi, indikatorların ölçülməsi, təhlili və qiymətləndirilməsi SİP-in fəaliyyət planına müvafiq olaraq aparılır. Yekun hesabat Elmi Şurada dinlənilərək qəbul edilir, həllini tapmayan məsələlərin icrası üçün isə tədbirlər planı hazırlanır və ya bu məsələlər növbəti dövrün fəaliyyət planına əlavə edilir.

1.2.3. SİP-in icrasının dövrü (illik) monitorinqinin aparılması vəziyyəti

ADMİU-da SİP-in icra vəziyyəti ilə bağlı monitorinqlər Keyfiyyət təminatı və strateji planlama departamenti tərəfindən aparılır. Mövcud Fəaliyyət planı əsasında monitorinqin əsas istiqamətləri müəyyənləşdirilir və ayrı-ayrı strukturlar üzrə SİP-də nəzərdə tutulmuş tədbirlərin icra vəziyyəti təhlil olunur. Monitorinq prosesi, eyni zamanda, SİP-də əksini

tapan prioritet sahələr üzrə müəyyən olunmuş hədəflərin reallaşma dərəcəsini qiymətləndirməyə şərait yaradır. Bu yanaşma SİP-in icra vəziyyətinin ardıcıl şəkildə izlənilməsini təmin edir. Bu məqsədlə Departament tərəfindən müntəzəm olaraq kafedralarda, dekanlıqlarda və şöbələrdə monitorinqlər təşkil olunur. Monitorinqin nəticələri hər iki tərəfin iştirakı ilə müzakirə olunur və protokollaşdırılır.

1.2.4. SİP-in icrasının dövrü (illik) monitorinqinin nəticələrinin müzakirəsi vəziyyəti

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində (ADMİU) 2021-2025-ci illəri əhatə edən Strateji İnkişaf Planının (https://admiu.edu.az/wp-content/uploads/2025/06/hs-10.pdf) həyata keçirilməsinə dair aparılan dövrü (illik) monitorinqlər mütəmadi şəkildə təhlil olunur. Bu monitorinq nəticələri ildə iki dəfə toplaşan KTK-nın iclaslarında və universitetin Elmi Şurasında geniş şəkildə müzakirəyə çıxarılır. Aşkarlanan nöqsanlar və irəliləyişlər əsas götürülərək növbəti mərhələlər üçün yeni istiqamətlər müəyyən edilir. Həmçinin, müzakirələr zamanı ortaya çıxan problemlərin həlli məqsədilə əlavə tədbirlərin görülməsi zəruriliyi vurğulanır. Bu tədbirlər, gələcək fəaliyyətlərin daha səmərəli şəkildə təşkili üçün nəzərdə tutulur və idarəetmədə davamlı inkişafın təmin olunmasına yönəlib.

1.2.5. SİP-in icrasının dövrü (illik) monitorinqinin nəticələrinə görə tədbirlərin görülməsi və monitorinq nəticələrinin maraqlı tərəflər üçün əlçatanlığı vəziyyəti

Strateji İnkişaf Planında (SİP) müəyyən olunmuş prioritet sahələr üzrə müvafiq struktur bölmələr tərəfindən həyata keçirilən monitorinq prosesi nəticəsində əldə edilən məlumatlar hərtərəfli təhlil olunur. Bu təhlillər zamanı müəyyən edilən zəif cəhətlər və mövcud çatışmazlıqlar növbəti ilin fəaliyyət proqramlarının hazırlanmasında nəzərə alınır və bu istiqamətdə konkret tədbirlər planlaşdırılır. Eyni zamanda, ADMİU-nun 2021–2025-ci illəri əhatə edən Strateji İnkişaf Planının (https://admiu.edu.az/wp-content/uploads/2025/06/hs-10.pdf) icrasına dair bütün istiqamətlər üzrə toplanmış monitorinq nəticələri ümumiləşdirilir. Toplanan məlumatlar fakültələrin Elmi şuralarında müzakirəyə çıxarılır və prosesə cəlb olunan bütün maraqlı tərəflərə uyğun formada çatdırılır. Bu yanaşma universitetdə planlaşdırma və qərarvermə proseslərinin daha şəffaf və effektiv təşkilinə xidmət edir.

II. Keyfiyyət təminatı

2.1. Keyfiyyət təminatı siyasəti

2.1.1. ATM-in dayanıqlı keyfiyyət təminatı siyasətini əks etdirən sənədin mövcud olması və maraqlı tərəflərin prosesdə iştirakı

ADMİU-da Keyfiyyət təminatı siyasətini təsdiq edən sənəd universitetin Elmi Şurasının 12.09.2023 tarixli iclasının (protokol №01) ilə təsdiq edilmişdir (https://admiu.edu.az/wp-content/uploads/2025/06/hs-8.pdf). Bu sənəd Universitetdə keyfiyyət mədəniyyətinin inkişafı, keyfiyyətin təmin edilməsi və davamlı təkmilləşdirilməsi məqsədilə təsdiq edilmiş ümumi yanaşmaları, əsas prinsipləri və mexanizmləri əks etdirir. Universitetin “Keyfiyyət təminatı siyasəti” həm təhsil xidmətlərinin keyfiyyətinin davamlı və

sistemli şəkildə yaxşılaşdırılmasına yönəlmiş kompleks tədbirlər, həm də ardıcıl keyfiyyət idarəetmə sistemi kimi müəyyən edilir.

Universitetdə “Keyfiyyət təminatı siyasəti” layihəsinin hazırlanması həm fakültə Elmi şuralarında, həm də kafedra iclaslarında maraqlı tərəflərin iştirakı ilə müzakirə olunmuş və buna uyğun müsbət qərar qəbul edilmişdir. Maraqlı tərəflər qismində iclaslarda çıxış edərək müsbət rəy verən maraqlı tərəflər (əmək bazarının nümayəndələri) aşağıda qeyd olunur:

– Dizayn və dekorativ-tətbiqi sənət kafedrasının 11 aprel 2023-cü il tarixli iclasının (protokol №09) çıxarış – Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının Memarlıq və dizayn fakültəsinin Dizayn kafedrasının dosenti Etibar Nəzərov.

– Teatrşünaslıq kafedrasının 13 aprel 2023-cü il tarixli iclasının (protokol №09) çıxarış – AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun Teatr, kino və televiziya şöbəsinin aparıcı elmi işçisi, dosent Nərminə Ağayeva.

– Teatr sənəti fakültəsi Dram teatrı və kino aktyoru kafedrasının 13 aprel 2023-cü il tarixli iclasının (protokol №10) çıxarış - Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının truppa müdiri Elnur Məmmədov.

– Teatrşünaslıq kafedrasının 19 aprel 2023-cü il tarixli iclasının (protokol №09) çıxarış - Akademik Milli Dram Teatrının direktor müavini Hacıbaba Məmmədov.

– Ədəbiyyat və dillər kafedrasının 09 iyun 2023-cü il tarixli iclasının (protokol №10) çıxarış – Azərbaycan Universitetinin Siyasi-ictimai elmlər kafedrasının dosenti, filologiya elmləri doktoru Vəfa Əliyev

– Rəssamlıq fakültəsinin Təsviri sənət tarixi və nəzəriyyəsi kafedrasının 13 iyun 2023-cü il tarixli iclasının (protokol №10) – Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin Qoruqları İdarəetmə Mərkəzinin Mədəni İrsin Qorunması və inkişafı şöbəsinin baş mütəxəssisi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, baş müəllim Günel Seyidəhmədli.

2.1.2. ATM-in keyfiyyət təminatı siyasəti sənədinin sadə, anlaşılan və icrası mümkün olan formada tərtib edilməsi vəziyyəti

ADMİU-nun Keyfiyyət təminatı siyasəti sənədinin sadə və anlaşılan formada tərtib edilməsi onun yalnız formal bir çərçivə kimi deyil, gündəlik fəaliyyətlərə inteqrasiya olunan, praktiki dəyəri olan bir vasitə kimi çıxış etməsinə şərait yaradır. Hər kəsin rahatlıqla anlayıb tətbiq edə biləcəyi bu sənəd həm əməkdaşlar, həm də tələbələr üçün prosesi daha əlçatan və effektiv edir.

Universitetin “Keyfiyyət təminatı siyasəti” Ali təhsildə keyfiyyətin təminatına dair beynəlxalq yanaşmalara, o cümlədən Avropa Ali Təhsil Sahəsində Keyfiyyətin Təminatı üzrə Avropa Standartlarının və Təlimatlarının keyfiyyət təminatı tələblərinə, habelə Azərbaycan Elm və Təhsil Nazirliyi tərəfindən hazırlanmış milli təhsil siyasətinə, "Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi"nə, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 12 avqust tarixli 301 nömrəli publik hüquqi şəxsə çevrilməsi haqqında qərarına, bu qərara əlavə olaraq təsdiq edilmiş ADMİU-nun Nizamnaməsinə və

s. uyğundur. Bu siyasət Universitetin mövcud Strateji İnkişaf Planının hədəflərinə uyğun olmaqla təhsilin keyfiyyətinin təmin olunmasına, fasiləsiz inkişafına yönəlmişdir.

2.1.3. ATM-in əməkdaşlarının keyfiyyət təminatı siyasəti barədə məlumatlı olması və bu siyasəti bölüşməsi

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində "Keyfiyyət təminatı siyasəti" sənədi Elmi Şuranın 12.09.2023 tarixli iclasının (protokol №01) təsdiqindən əvvəl bütün struktur bölmələrə layihə şəklində elektron formada göndərilmiş, müvafiq şöbə və kafedralarda geniş müzakirəyə çıxarılmışdır. Sənədin əsas məqsədi ADMİU-nun bütün fəaliyyət sahələrində keyfiyyəti təmin etmək və dərin peşə hazırlığına malik, daxili və beynəlxalq əmək bazarlarında rəqabətədavamlı yüksək ixtisaslı mütəxəssislərin hazırlanması üçün bütün maraqlı tərəflərin vəzifə və məsuliyyətlərini müəyyən etməkdir. Bu hazırlıq yaradıcılıq və tədqiqat fəaliyyətinin, eləcə də təlimin tədris prosesinə inteqrasiyasını nəzərdə tutur.

Sənəd təsdiqləndikdən sonra Universitetin rəsmi veb-saytında yerləşdirilmiş və ictimaiyyətə təqdim olunmuşdur. Onunla aşağıdakı keçid vasitəsilə tanış olmaq mümkündür: (https://admiu.edu.az/wp-content/uploads/2025/06/hs-8.pdf)

Bütün struktur bölmələr bu siyasəti fəaliyyətlərini planlaşdırmaqda əsas sənəd kimi qəbul etmiş, burada yer alan prinsiplərə uyğun olaraq öz daxili proseslərini təkmilləşdirməyə başlamışdır. Sənəd, rəhbər şəxslər üçün də qərarların qəbulunda istinad edilən əsas normativ çərçivə rolunu oynayır.

2.1.4. Keyfiyyət təminatı siyasətinin əhatəlilik səviyyəsi (təhsil proqramları, idarəetmə, infrastruktur, təhsilverənlərin və təhsilalanların keyfiyyət göstəriciləri)

ADMİU-nun "Keyfiyyət təminatı siyasəti" əhatəlilik səviyyəsinə görə geniş spektrli fəaliyyət sahələrini əhatə edir və Universitetin bütün struktur bölmələri üçün yolgöstərici sənəd kimi çıxış edir.

Universitetin "Keyfiyyət təminatı siyasəti" təhsil proqramlarının müasir və səmərəli mütəxəssislər hazırlamaq məqsədilə təkmilləşdirilmiş peşəkar təlim metodlarına əsaslanmasını təmin edir. Proqramlar sərişte əsaslı, nəticə və təcrübə yönümlü yanaşmaları özündə birləşdirir. Onların tərtibində professor-müəllim heyəti, tələbələr, məzunlar və işəgötürənlər kimi maraqlı tərəflərlə razılaşma, eləcə də beynəlxalq təcrübənin öyrənilməsi əsas götürülür.

Proqramların həyata keçirilməsində kollegial idarəetmə modeli mühüm rol oynayır. Qanunçuluq, şəffaflıq, hesabatlılıq, inklüzivlik və kollektiv məsuliyyət prinsiplərinə əsaslanan bu model universitet fəaliyyətinin səmərəliliyini və keyfiyyətini təmin edir. Kollegial orqanlar tədris, elmi-tədqiqat, maliyyə və təsərrüfat məsələləri üzrə vaxtında və optimal qərarlar qəbul edir.

Universitet əcnəbi və sağlamlıq imkanları məhdud tələbələr də daxil olmaqla təhsilalanların müxtəlif ehtiyaclarını nəzərə alaraq kifayət qədər və əlçatan infrastruktur və dəstək xidmətləri təqdim edir. Bu resurslara Kitabxana-informasiya mərkəzi, İT infrastrukturu, tədris vasitələri və tyutor xidmətləri daxildir.

Tədrisin keyfiyyəti baxımından professor-müəllim heyətinin inkişafına xüsusi önəm verilir. Kadrların idarə edilməsi meritokratiya, yəni bacarıq əsaslı seçim prinsipinə uyğun olaraq şəffaf və obyektiv meyarlarla aparılır. Vakant vəzifələrə seçim qanunvericiliyə uyğun olaraq müsabiqə və ya müqavilə əsasında həyata keçirilir. Müəllimlər üçün peşəkar inkişaf, ixtisasartırma və karyera yüksəlişi imkanları yaradılır, motivasiyanın artırılması məqsədilə isə KPI (Key Performance Indicators) sisteminə keçid planlaşdırılır. Tələbəyönümlü təhsili əsas tutan universitet qəbuldan məzuniyyətədək bütün mərhələlərdə şəffaflığı və ədalətliliyi təmin edir, təhsilalanların akademik nəticələrini və sərişlərini inkişaf etdirmək üçün müasir tədris metodları tətbiq edir. Tələbələrin rəy və təklifləri məmnunluq sorğuları vasitəsilə mütəmadi olaraq toplanır və təhsil proqramlarının davamlı təkmilləşdirilməsində nəzərə alınır.

Qeyd olunan bölmələrdən əlavə olaraq, “Keyfiyyət təminatı siyasəti” keyfiyyət təminatının prinsiplərini, tələbəyönümlü öyrənmə, tədris və qiymətləndirməni, təhsilalanların qəbulu, təhsil alması, tanınması və attestasiyası (sertifikatlaşdırma) prosesini, məlumatın idarə olunmasını, ictimaiyyətin məlumatlandırılmasını, proqramların daimi monitorinqini və vaxtaşırı yoxlanılmasını, eləcə də dövri xarici keyfiyyət təminatını əks etdirir.

2.2. Daxili keyfiyyət təminatı mexanizmləri

2.2.1. ATM-in daxili keyfiyyət təminatı sisteminin mövcud olması (keyfiyyət təminatı üzrə Komissiya, onun strukturu və əsasnaməsi, fəaliyyət planı, iş bölgüsü, hesabatlar və s.)

Keyfiyyət təminatı və strateji planlama departamenti Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti Elmi Şurasının 12 avqust 2022-ci il tarixli iclasının (protokolu №3/64) əsasında yaradılıb. Keyfiyyət təminatı və strateji planlama departamenti Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində birbaşa rektora tabe olan funksional struktur vahididir. Departament tədrisin və dəstək xidmətlərinin keyfiyyətinin planlaşdırılması, ona nəzarət və davamlı inkişafı funksiyalarını icra edir, tələbəyönümlü tədris mühitini dəstəkləyir. Bununla yanaşı, tədris-metodiki işin məzmununun, forma və metodlarının təkmilləşdirilməsi üzrə metodiki tövsiyələr hazırlayır. Departament tədris prosesi ilə bağlı metodiki materialların keyfiyyətinə, dövlət standartlarının tətbiqinə və əlaqəli digər proseslərə də nəzarət edir. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində Daxili keyfiyyət təminatı sisteminin tətbiqi Keyfiyyət təminatı və strateji planlama departamenti tərəfindən həyata keçirilir. Departament öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının “Təhsil haqqında”, “Elm haqqında” Qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Elm və Təhsil Nazirliyinin əmr, təlimat və Kollegiya Qərarlarını, digər müvafiq qanunvericilik aktlarını, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Nizamnaməsini, Strateji İnkişaf Planını (SİP), Elmi Şuranın qərarlarını, təhsil, elm və innovasiyalar, inzibat-iqtisadi və sosial fəaliyyət sahələrində mövcud olan müvafiq normativ-hüquqi aktları, “Avropa ali təhsil məkanında keyfiyyət

təminatı üzrə standartlar və təlimatlar”ı (ESG), rektorun əmrlərini və Əsasnaməni rəhbər tutur. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Keyfiyyət təminatı və strateji planlama departamentinin struktur bölməsi Keyfiyyət təminatı və monitorinq sektorudur. Hazırda departamentdə ümumilikdə 5 əməkdaş fəaliyyət göstərir. Universitetin Daxili keyfiyyət təminatı sisteminin fəaliyyət planı, Keyfiyyət təminatı və strateji planlama departamentinin hər tədris ili üzrə təsdiq edilən iş planına uyğun şəkildə həyata keçirilir. Daxili keyfiyyət təminatı sisteminin icrası birbaşa olaraq Keyfiyyət təminatı və monitorinq sektoru tərəfindən aparılır. Sektorun əsas fəaliyyət istiqamətlərinə aşağıdakılar daxildir:

– Tədris prosesinin kredit sisteminin tələblərinə uyğun təşkilinin monitorinqi;

– Akademik heyətin fəaliyyətinin qiymətləndirilməsi mexanizminin tətbiqi və təkmilləşdirilməsi;

– Keyfiyyət təminatı bələdçisinin hazırlanması və müzakirəsi;

– Tədris prosesinin təşkili, tədqiqat və innovasiya mühitinin inkişafı ilə bağlı məsələlərin izlənməsi;

– Mövcud problemlərin və onların həlli yollarının müəyyənləşdirilməsi məqsədi ilə təhsilalanlar, məzunlar və təhsilverənlər arasında müxtəlif sorğuların təşkili;

– Sorğuların nəticələrinin təhlili əsasında təkliflərin hazırlanması;

– Məzunlarla bağlı əmək bazarında tələbat və təklifə dair məlumatların toplanılması;

– Təhsilalanların şikayət və təkliflərinin qəbul və cavablandırılması sisteminin təkmilləşdirilməsinə dəstək göstərilməsi;

– Tələbə dəstək xidmətlərinin (tibbi, psixoloji, sosial və digər xidmətlərin) monitorinqi;

– Daxili keyfiyyət təminatı üzrə ADMİU-nun fəaliyyətinə dair illik Özünütəhlil Hesabatının hazırlanması.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində Daxili keyfiyyət təminatı sisteminin həyata keçirilməsində rol oynayan digər bir cavabdeh orqan Keyfiyyət Təminatı Komissiyasıdır. KTK-nın Əsasnaməsi ADMİU-nun Elmi Şurasının 12 sentyabr 2023-cü il tarixli (protokol №01) iclasında təsdiq edilmişdir (https://admiu.edu.az/wp-content/uploads/2025/06/hs-6.pdf). Həmin Əsasnaməyə uyğun olaraq, 21 sentyabr 2023-cü il tarixli 3/91 №-li əmrə əsasən, Universitet üzrə “Keyfiyyət Təminatı Komissiyası” yaradılmışdır. Keyfiyyət Təminatı Komissiyasının yaradılmasında əsas məqsəd Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin bütün struktur bölmələrində keyfiyyətə nəzarət mexanizminin qurulması və təkmilləşdirilməsi, tədris prosesinin monitorinqi və keyfiyyətin qiymətləndirilməsidir. Universitetdə keyfiyyət təminatı mexanizmini təkmilləşdirmək, universitetdaxili strukturların daha məqsədyönlü və səmərəli fəaliyyətinə dair təhlil və qiymətləndirməni aparmaq, universitetin fəaliyyətinə dair illik Özünütəhlil Hesabatının hazırlanmasında iştirak etmək, Akkreditasıya prosesinə hazırlığı təmin etmək, Strateji İnkişaf Planının icrasının monitorinqi ilə bağlı təkliflər vermək Keyfiyyət Təminatı Komissiyasının fəaliyyəti çərçivəsindədir. Komissiyanın əsas vəzifəsi Universitetdə tədrisin, yaradıcı fəaliyyətin və tədqiqatların keyfiyyətinin

yüksəldilməsinin təşviqi, onların qiymətləndirilməsi və fəaliyyətinin təkmilləşdirilməsi məqsədi ilə tövsiyələrin hazırlanmasını həyata keçirməkdir. Keyfiyyət Təminatı Komissiyası universitetdə müvəqqəti kollegial orqan kimi fəaliyyət göstərir. Təhsil, elm, yaradıcılıq, idarəetmə və digər sahələrdə keyfiyyət göstəricilərinin daha da yüksəldilməsi və görülən işlərin səmərəliliyinin artırılması məqsədilə Komissiyanın tərkibi hər tədris ili yenilənir və rektor tərəfindən təsdiq olunur. Komissiyanın ilkin tərkibi 2023/2024-cü tədris ilində 21 sentyabr 2023-cü il tarixli 3/91 №-li əmrlə təsdiq edilmiş və 31 nəfərdən ibarət olmuşdur. 2024/2025-ci tədris ilində isə 24 dekabr 2024-cü il tarixli 3/145 №-li əmrlə Komissiyanın tərkibi yenidən formalaşdırılmışdır. Hazırda Komissiya inzibati və akademik heyət üzvləri, tələbələr, məzunlar və əmək bazarı nümayəndələri olmaqla 42 nəfərdən ibarətdir. Komissiyanın fəaliyyəti universitetin Nizamnaməsinə, Keyfiyyət Təminatı Komissiyasının Əsasnaməsinə uyğun şəkildə yerinə yetirilir.

2.2.2. ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə Komissiyaya təhsilalanların, işəgötürənlərin və digər maraqlı tərəflərin cəlb olunması

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin bütün struktur bölmələrində Daxili keyfiyyət təminatı sisteminin təkmilləşdirilməsi məqsədi ilə yaradılmış Keyfiyyət Təminatı Komissiyası Elmi Şuranın 12 sentyabr 2023-cü il tarixli (protokol №01) iclasında qəbul edilmiş Əsasnaməyə uyğun olaraq fəaliyyət göstərir. Əsasnamə Komissiyanın əsas funksiyalarını, hüquqlarını, fəaliyyətinin təşkili mexanizmlərini özündə əks etdirir. 2023/2024-cü tədris ilində yaradılmış Keyfiyyət Təminatı Komissiyanın tərkibi 31 nəfərdən ibarət olmuşdur. 2024/2025-ci tədris ilində Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Keyfiyyət Təminatı Komissiyasının üzvlərinin dəyişdirilməsi məqsədi ilə KTK-nin 13 dekabr 2024-cü il tarixli iclasının (protokol №02) qərarına əsasən 42 nəfərdən ibarət komissiya üzvlərinin yeni tərkibi təsdiq olunub. Həm əvvəlki, həm də tərkib hissəsi yenilənən Komissiyaya bütün maraqlı tərəflər: universitetin inzibati və akademik heyət üzvləri, tələbələr, məzunlar və işəgötürənlərin nümayəndələri daxildir. İşəgötürənlər sırasında Azərbaycan Respublikası Mədəniyyət Nazirliyini, AMEA Memarlıq və İncəsənət İnstitutunu, Mədəniyyət Telekanalını, Bakı Media Mərkəzini, Akademik Musiqili Teatrı və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan Sosial Xidmətlər Agentliyini göstərmək olar.

2.2.3. ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə Komissiyanın fəaliyyət planının strateji inkişaf planındakı hədəflərə uyğunluğu vəziyyəti

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Daxili keyfiyyət təminatı sisteminin yerinə yetirilməsi ilk olaraq Keyfiyyət təminatı Komissiyasının Əsasnaməsinin (ADMİU-nun Elmi Şurasının 12 sentyabr 2023-cü il tarixli (protokol №01) iclası) təsdiq olunması, daha sonra isə həmin Əsasnaməyə uyğun olaraq (21 sentyabr 2023-cü il tarixli 3/91 №-li əmrə əsasən) Universitet üzrə Keyfiyyət Təminatı Komissiyasının yaradılması ilə izah olunur. Daxili keyfiyyət təminatı sistemi Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Keyfiyyət təminatı və strateji planlama departamenti tərəfindən həyata keçirildiyinə görə Komissiyanın fəaliyyət planı birbaşa

Departamentin hər il yenilənən iş planı ilə əlaqəlidir. Keyfiyyət təminatı və strateji planlama departamentinin 2025/2026-cı tədris ili üçün tərtib olunan iş planında görüləcək işlərin məzmunu öz əksini tapıb. Bu iş planında yer alan işlər ADMİU-nun 2021-2025-ci illər üçün hazırlanan Strateji İnkişaf Planındakı (ADMİU-nun Elmi Şurasının 26.05.2021-ci il tarixli iclasında (protokol №07) təsdiq edilmişdir, https://admiu.edu.az/wp-content/uploads/2025/06/hs-10.pdf) hədəflərə uyğunluq təşkil edir. Nümunə olaraq Strateji İnkişaf Planındakı üçüncü istiqamət üzrə yer alan hədəfinə (Universitetdə keyfiyyət mədəniyyətini formalaşdırmaq, maraqlı tərəflərin ehtiyaclarını və gözləntilərini qarşılamaq, tələbəyönümlü tədris prosesini sistemləşdirmək, strukturlararası koordinasiya və hesabatlılığı təmin etmək məqsədi ilə, keyfiyyət təminatı siyasətinin formalaşdırmaq, keyfiyyət təminatı və strateji planlama departamenti yaratmaq) uyğun olaraq Departamentin 2025/2026-cı tədris ili üçün tərtib olunan İş planındakı Akademik və inzibati heyəti cəlb etməklə keyfiyyət mədəniyyətinin formalaşdırılması və davamlı inkişafının təşviqi işini, altıncı istiqamət üzrə yer alan hədəflərə (Beynəlxalq elmi və təhsil proqramlarının (layihələrin) sayının artırılması, Beynəlxalq təhsil və elmi proqramlarda (layihələrdə) iştirak edən professor-müəllim heyətinin, gənc tədqiqatçıların və tələbələrin sayının artırılması) uyğun olaraq Departamentin 2025/2026-cı tədris ili üçün tərtib olunan İş planındakı İkili diplom və mübadilə proqramlarının təşkili üzrə monitorinqlərin keçirilməsini göstərmək olar. Qeyd olunan nümunələrdən əlavə digər istiqamətlər üzrə iş planında yer alan əsas fəaliyyətlərə keyfiyyət idarəetmə sisteminin koordinasiyası, daxili keyfiyyət təminatı mexanizmlərinin tətbiqi, akkreditasiya proseslərinə hazırlıq, Strateji İnkişaf Proqramı (2025-2030) icrası, tədris və tələbə dəstək xidmətlərinin monitorinqi daxildir. Həmçinin akademik heyətin fəaliyyətinin qiymətləndirilməsi, sorğuların təhlili, əməkdaşların peşəkar inkişafı və illik Özünütəhlil Hesabatının hazırlanması nəzərdə tutulur. Nəticə olaraq, Daxili keyfiyyət təminatı sistemi üzrə Komissiyanın Fəaliyyət planı strateji inkişaf planındakı hədəflərlə uzlaşır. Ümumilikdə, görüləcək işlər universitetdə keyfiyyət mədəniyyətinin inkişafına, beynəlmiləlləşmə proseslərinin gücləndirilməsinə və idarəetmədə səmərəliliyin artırılmasına xidmət edir.

2.2.4. ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə təsdiq edilmiş fəaliyyət planı üzrə icra mexanizmlərinin (planlaşdırma, icra, nəzarət, düzəlişlər et) işlək olması

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Daxili keyfiyyət təminatı sistemi üzrə illik Fəaliyyət planı Keyfiyyət təminatı və strateji planlama departamentinin hər tədris ili üçün qəbul olunan İş planı əsasında həyata keçirilir. Universitetin Daxili keyfiyyət təminatı mexanizmlərinə Strateji İnkişaf Planı, kollegial idarəetmə mexanizmi, universitetdaxili sənədlər toplusu, layihə yanaşmaları və s. daxildir. Universitetdə daxili keyfiyyət təminatı sistemi aşağıdakı prinsiplər nəzərə alınmaqla formalaşır.

Universitetdə keyfiyyət təminatı sistemi sistemlilik, hərtərəflilik və uyğunlaşma prinsiplərinə əsaslanır. Sistemlilik prinsipinə görə, təhsildə keyfiyyətin təminatı müxtəlif fəaliyyət növlərini birləşdirir. O, yalnız təhsil fəaliyyətinin planlaşdırılması və idarə edilməsi proseslərini deyil, həm də tədrisin keyfiyyətinin qiymətləndirilməsini, təkmilləşdirilməsini

və yenilənməsini əhatə edir. Keyfiyyət təminatı sisteminin tərkib hissələri bir-biri ilə əlaqəli olmalı və onun daha yüksək inkişaf səviyyəsinə keçidini təmin etmək üçün bir-birini tamamlamalıdır.

Hərtərəflilik prinsipi keyfiyyət təminatı sisteminin Universitet fəaliyyətinin bütün sahələrini əhatə etməsini və dövlət, cəmiyyət, tələbələr, valideynlər, universitet rəhbərliyi və işəgötürənlər kimi bütün maraqlı tərəflərin tələblərinə cavab verməsini nəzərdə tutur. Uyğunlaşma prinsipinə əsasən isə sistem aydın və asan tətbiq olunan olmalı, maraqlı tərəflərin irəli sürdüyü yeni tələblərə çevik şəkildə uyğunlaşmalıdır.

Keyfiyyət təminatı və strateji planlama departamenti Daxili keyfiyyət təminatı üzrə universitetin fəaliyyətinə dair illik Özünütəhlil Hesabatını Keyfiyyət Təminatı Komissiyası ilə birgə hazırlayır. Bu hesabat, struktur bölmələrinin təqdim etdiyi məlumatlar əsasında formalaşır. Habelə, Keyfiyyət təminatı və strateji planlama departamentinin Keyfiyyət təminatı və monitorinq sektoru tərəfindən aparılan sorğuların nəticələridə Fəaliyyət planı üzrə icra mexanizmlərinin təkmilləşdirilməsinə xidmət edir. Eyni zamanda, Fəaliyyət planının icrası zamanı PİND (Planlaşdırma, İcra, Nəzarət, Düzəliş) mexanizmindən istifadə etməklə fəaliyyətin səmərəliliyini artırmaq və digər əlaqəli məsələləri prioritet hədəflər kimi müəyyən etmək nəzərdə tutulur.

2.2.5. ATM-in daxili keyfiyyət təminatı sistemində hər bir proses üzrə, tədbirlərin, məsul şəxslərin və addımlar üzrə məsuliyyətlərin müəyyən edilməsi və səlahiyyət bölgüsünün aparılması

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin bütün struktur bölmələrində daxili keyfiyyət göstəricilərinin müəyyənləşdirilməsi, keyfiyyətə nəzarət mexanizmlərinin qurulması və təkmilləşdirilməsi, eləcə də keyfiyyətin ölçülməsi məqsədi ilə Keyfiyyət təminatı və strateji planlama departamenti tərəfindən hər tədris ilində iki dəfədən az olmayaraq Keyfiyyət Təminatı Komissiyasının tərkibi ilə görüşlər həyata keçirilir. Universitetin Daxili keyfiyyət təminatı sistemində hər bir proses üzrə tədbirlər, məsul şəxslər, görüləcək addımlar və səlahiyyət bölgüsü Keyfiyyət təminatı və strateji planlama departamentinin hər tədris ili üçün İş planında əks olunub. Plan çərçivəsində hər bir prosesə aid tədbirlər, məsul şəxslər, görüləcək addımlar və səlahiyyət bölgüsü müəyyən edilir. Bununla əlaqədar fəaliyyət planının strukturunda əksini tapan başlıqlar aşağıda göstərilmişdir:

– görülən işin məzmunu;
– icra müddəti;
– əlaqəli struktur;
– məsul şəxs.

2.2.6. ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə təsdiq edilmiş fəaliyyət planının əhatəliliyi (təhsil proqramları, fakültələr, akademik heyət, inzibati heyət, təhsilalanlar və s.) vəziyyəti

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Daxili keyfiyyət təminatı sistemi Keyfiyyət təminatı və strateji planlama departamenti tərəfindən təşkil

olunur. Buna görə daxili keyfiyyət təminatı sistemi üzrə fəaliyyət planının əhatəliliyi Keyfiyyət təminatı və strateji planlama departamentinin hər tədris ili üzrə yenilənən Fəaliyyət planı əsasında formalaşır. Hazırkı 2025/2026-cı tədris ilində Keyfiyyət təminatı və strateji planlama departamentinin Fəaliyyət planı Universitetin Elmi Şurasının 12 sentyabr 2025-ci il tarixli iclasının (protokol №01) qərarı ilə Rektor tərəfindən təsdiq edilmişdir. Bu fəaliyyət planının əhatəliliyi: təhsil proqramları, fakültələr, akademik heyət, inzibati heyət, təhsilalanlar və s. özündə əks etdirir. Buna uyğun olaraq aşağıda qeyd olunan görüləcək işlərin məzmunu ilə tanış olmaq olar:

– Beynəlxalq proqram akkreditasiyasında verilən tövsiyələrin icrasına nəzarət;

– İki klaster üzrə 10 ixtisas və ixtisaslaşmada beynəlxalq proqram akkreditasiyasına hazırlıq;

– İkili diplom və mübadilə proqramlarının təşkili üzrə monitorinqlərin keçirilməsi;

– Tədrisin kredit sisteminin tələblərinə uyğun təşkilinin monitorinqi;

– Akademik və inzibati heyəti cəlb etməklə keyfiyyət mədəniyyətinin formalaşdırılması və davamlı inkişafının təşviqi;

– Akademik heyətin fəaliyyətinin qiymətləndirilməsi mexanizmi ilə bağlı fəaliyyətlər;

– Universitet əməkdaşlarının peşəkar bacarıqlarının artırılması üçün təlimlərin təşkili;

– Departament əməkdaşlarının peşəkar bacarıqlarının artırılması istiqamətində tədbirlərin görülməsi;

– Tələbə dəstək xidmətlərinin (tibbi, psixoloji dəstək, yataqxana, yeməkxana və digər xidmətlər) monitorinqi;

– Təhsilalanların şikayət və təkliflərinin idarə olunması üçün sistemin təkmilləşdirilməsinə dəstək;

– Universitet məzunları ilə əlaqədar əmək bazarında tələb və təklifə dair məlumatların toplanması.

Yuxarıda qeyd olunanlardan əlavə olaraq plan çərçivəsində Daxili keyfiyyət təminatı sisteminin idarə olunması, koordinasiyası və hesabatlılığının təmin edilməsi, tədris, elmi tədqiqat və beynəlmiləlləşmə istiqamətlərində işlər aparılmışdır. Keyfiyyət təminatı və strateji planlama departamentinin Fəaliyyət planında Daxili keyfiyyət mexanizmlərinin tətbiqi, təhsilin milli və beynəlxalq standartlara uyğunlaşdırılması, İnstitusional akkreditasiyaya hazırlıq, Strateji İnkişaf Planı üzrə fəaliyyətlərin icrası, Keyfiyyət təminatı bələdçisinin təsdiqi, tədris və tədqiqat mühitinə dair sorğuların aparılması, GZİT təhlilinin həyata keçirilməsi, rəsmi veb-saytda məlumatların yenilənməsi və illik Özünütəhlil Hesabatının hazırlanması kimi fəaliyyətlərin həyata keçirilməsi nəzərdə tutulub.

2.2.7. ATM-in daxili keyfiyyət təminatı sisteminin hər kəs üçün əlçatan olması, keyfiyyət təminatı siyasətini özündə ehtiva edən, ehtiyac yarandıqca yenilənən və hər kəs üçün əlçatan keyfiyyət təminatı bələdçisinin (qaydalar toplusu) olması

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin 12 avqust 2022-ci il tarixli Elmi Şura iclasının (protokolu №3/64) əsasında Keyfiyyət təminatı və strateji

planlama departamenti yaradılıb. Universitetin Daxili keyfiyyət təminatı sistemi Keyfiyyət təminatı və strateji planlama departamenti tərəfindən təşkil edildiyinə görə, Departament bütün maraqlı tərəflərə, o cümlədən tələbələrə, müəllimlərə və digər işçilərə sistemə dair hər hansı suallarını vermək, müraciət etmək və ya əlavə məlumat əldə etmək imkanı yaradır. Departament, Keyfiyyət təminatının təşkili və inkişafı ilə bağlı hər hansı bir məsələdə dəstək vermək üçün açıqdır və müvafiq şəraitdə istifadəçilərə məlumat və məsləhət təqdim edir. Eyni zamanda, 2023-cü ildə "Keyfiyyət Təminatı Siyasəti" sənədi Elmi Şuranın 12.09.2023 tarixli iclasının (protokol №01) ilə təsdiqlənib. Keyfiyyət təminatı və strateji planlama departamenti tərəfindən hazırlanan Keyfiyyət Təminatı Bələdçisi (qaydalar toplusu) universitetdə tədris və idarəetmə proseslərinin keyfiyyətini təmin etmək, "Avropa ali təhsil məkanında keyfiyyət təminatı üzrə standartlar və təlimatlar" (ESG) standartlarına uyğunluğu qorumaq, keyfiyyət mədəniyyətini formalaşdırmaq, daxili və xarici keyfiyyət təminatı mexanizmlərini vahid qaydalar əsasında tənzimləmək və keyfiyyət siyasətini özündə ehtiva etmək məqsədi ilə yaradılıb. Keyfiyyət Təminatı Bələdçisi (qaydalar toplusu) ADMİU-nun 13 dekabr 2024-cü il tarixində keçirilən Keyfiyyət Təminatı Komissiyasının iclasında müzakirə olunmuş və qəbul edilmişdir. Keyfiyyət Təminatı Bələdçisi (qaydalar toplusu) ADMİU Elmi Şurasının 24 dekabr 2025-ci il tarixli 04 nömrəli qərarı ilə təsdiq edilmişdir.

2.2.8. ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə təhlil və qiymətləndirməsinin əhatəliliyi

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində Daxili keyfiyyət təminatı sistemi çərçivəsində aparılan təhlil və qiymətləndirmə prosesi təhsil proqramlarını, fakültələri, akademik və inzibati heyəti, eləcə də təhsilalanları əhatə edir. Təhlil və qiymətləndirmənin obyektivliyini təmin etmək məqsədi ilə təhsilalanlar, məzunlar, işəgötürənlər, akademik, inzibati və tədris-köməkçi heyət arasında anonim sorğular keçirilir. Bu sorğular universitetin ümumi fəaliyyətinin qiymətləndirilməsi, fənlər üzrə məmnunluq səviyyəsi, akademik fəaliyyətin keyfiyyəti və peşəkar inkişafın dəstəklənməsi kimi müxtəlif istiqamətləri əhatə edir. Sorğuların nəticələri Keyfiyyət təminatı və strateji planlama departamentinin Keyfiyyət təminatı və monitorinq sektoru tərəfindən təhlil edilərək qiymətləndirilir və Elmi Şurada geniş şəkildə müzakirə olunur. Bununla yanaşı, akademik və inzibati heyətin daxili və xarici keyfiyyət təminatına dair bilik və bacarıqlarının artırılması məqsədi ilə mütəmadi təlimlər təşkil edilir.

2.2.9. Daxili keyfiyyət təminatı üzrə ATM-in fəaliyyətinə dair illik Özünütəhlil Hesabatının hazırlanması vəziyyəti

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində Daxili keyfiyyət təminatı sahəsində Universitetin illik Özünütəhlil Hesabatının hazırlanması istiqamətində görülən işlərin səmərəliliyinin artırılması, əhatəliliyinin təmin edilməsinə nəzarət prosesinin Keyfiyyət təminatı və strateji planlama departamenti tərəfindən sistemli şəkildə həyata keçirilməsi nəzərdə tutulub. Universitetdə ümumilikdə 5 dekanlıq, 20 kafedra, 11 şöbə, həmçinin Keyfiyyət təminatı və strateji planlama departamenti daxil olmaqla, hər

tədris ili üçün müvafiq meyarlara uyğun illik hesabatların hazırlanması prosesi həyata keçirilir. Bu çərçivədə, hər bir struktur bölmə öz illik İş planına və Universitetin Strateji İnkişaf Planının icrasına dair müəyyənləşdirilmiş uzunmüddətli (2021–2025-ci illər) və ortamüddətli (2021–2023-cü illər) fəaliyyət istiqamətlərinə uyğun olaraq tədris ili üzrə illik hesabatını tərtib edir. İllik hesabat hər tədris ili üzrə təlim-tədris prosesinin davamlı inkişafını təmin etmək, elmi-tədqiqat fəaliyyətini təhlil etmək, eləcə də tədris prosesinin kəmiyyət və keyfiyyət göstəricilərini qiymətləndirmək məqsədi ilə hazırlanır. Toplanmış illik hesabatlar Keyfiyyət təminatı və strateji planlama departamenti tərəfindən təhlil edildikdən sonra universitet rəhbərliyinə təqdim olunur.

2.2.10. Əvvəlki akkreditasiya üzrə Yekun Hesabatda göstərilən tövsiyə və göstərişlərin icrasına dair hesabatın və fəaliyyət planının hazırlanması vəziyyəti

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində 2019/2020-ci tədris ilində Təhsildə Keyfiyyət Təminatı Agentliyi tərəfindən keçirilmiş institusional akkreditasiyanın qiymətləndirilməsi zamanı Universitetin inkişafının təmin edilməsi məqsədi ilə Akkreditasiya Komissiyası tərəfindən tövsiyələr verilmişdir. 2019/2020-ci tədris ilində aparılmış institusional akkreditasiya qiymətləndirilməsinin nəticələri nəzərə alınaraq, Təhsil Nazirliyinin Akkreditasiya Şurasının 14 dekabr 2020-ci il tarixli №AKŞQ-01 qərarına əsasən, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti ali təhsil müəssisəsi kimi 5 il müddətinə akkreditə olunmuşdur. İnstitusional akkreditasiya nəticəsində təqdim olunmuş tövsiyələrin icrası və müəyyən edilmiş iradların aradan qaldırılması, eləcə də müasir beynəlxalq tələblərə cavab verən, keyfiyyətli təhsil vasitəsi ilə mədəniyyət və incəsənətin inkişafına töhfə verə bilən milli kadrların hazırlanması məqsədi ilə, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Elmi Şurasının 07 iyul 2021-ci il tarixli iclasında (protokol №09) qəbul edilmiş qərara əsasən, 2021–2025-ci illəri əhatə edən Strateji İnkişaf Planı hazırlanmışdır. Bununla yanaşı, Akkreditasiya Komissiyasının digər əsas tövsiyələrindən biri kimi, Universitetdə Keyfiyyət təminatı sisteminin formalaşdırılması istiqamətində müvafiq addımlar atılmışdır. Belə ki, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Elmi Şurasının 12 avqust 2022-ci il tarixli iclasının (protokol №3/64) qərarına əsasən, Keyfiyyət təminatı və strateji planlama departamenti yaradılmışdır. 2020/2021-ci tədris ilində Universitetin bakalavriat səviyyəsi üzrə Rəngkarlıq (Kino və televiziya rəssamı), magistratura səviyyəsi üzrə Rəngkarlıq (Kino və televiziya rəngkarlığı) təhsil proqramlarının (ixtisas və ixtisaslaşmaların) təkrar akkreditasiyasının həyata keçirilməsi ilə bağlı 07.01.2021-ci il tarixli №F-02 saylı Əmr imzalanmışdır. Təhsildə Keyfiyyət Təminatı Agentliyinin həmin əmrinə əlavə olaraq, Universitetin 2020-2025-ci illər üzrə akkreditasiya olunmuş təhsil proqramlarının siyahısı təsdiq edilmişdir. Bu siyahıya bakalavriat səviyyəsində 28 ixtisas, magistratura səviyyəsinə 32 ixtisaslaşma daxil edilmişdir. 2019/2020-ci tədris ilində keçirilmiş institusional akkreditasiya prosesi nəticəsində Akkreditasiya Komissiyası tərəfindən ümumilikdə 26 tövsiyə təqdim olunmuşdur. Hazırda Komissiyanın verdiyi bütün tövsiyələrin icrası, müəyyən edilmiş çatışmazlıqların aradan qaldırılması və görülən

tədbirlər barədə yekun hesabatın Təhsildə Keyfiyyət Təminatı Agentliyinə (TKTA) təqdim edilməsi nəzərdə tutulur.

2.2.11. ATM-in fəaliyyətinin təsir dairəsinə uyğun olaraq maraqlı tərəflərin rəylərinin və məmnunluq səviyyəsinin öyrənilməsi vəziyyəti

ADMİU-da maraqlı tərəflərin fikirlərini və məmnunluq səviyyəsini müəyyənləşdirmək məqsədi ilə müxtəlif qruplar: akademik, inzibati heyət, tələbələr, məzunlar, həmçinin əmək bazarının nümayəndələri arasında mütəmadi sorğular həyata keçirilir. Bu sorğular Keyfiyyət təminatı və strateji planlama departamenti, Tədris şöbəsi, Kitabxana-İnformasiya, Ömürboyu təhsil, karyera və məzunlarla iş bölməsi, eləcə də fakültələr tərəfindən illik Fəaliyyət planlarına uyğun şəkildə təşkil olunur. Son 5 il ərzində Keyfiyyət təminatı və strateji planlama departamenti tərəfindən 7 istiqamət üzrə onlayn formada ümumilikdə 8 sorğu aparılmış, təkrarlanan iştirakçılar da daxil olmaqla, 2363 nəfər bu prosesdə iştirak etmişdir. Əldə olunan nəticələr universitetin Elmi Şurasında müzakirə edilmiş və geniş ictimaiyyətə əlçatan olması üçün universitetin rəsmi internet saytında yerləşdirilmişdir(https://admiu.edu.az/keyfiyy%C9%99t-t%C9%99minati-v%C9%99-strateji-planlama-departamenti-sorgular/). Təhsilalanlar və məzunlar arasında keçirilən sorğuların başlıca məqsədi universitetin fəaliyyətini ümumi şəkildə qiymətləndirmək, tədris proqramları və karyera xidmətlərinin effektivliyini təhlil etmək, həmçinin əldə edilmiş bilik və bacarıqların əmək bazarının tələblərinə uyğunluq dərəcəsini müəyyənləşdirməkdir. Bununla yanaşı, ADMİU-da sorğu anketləri ilə yanaşı məzunlar və işəgötürənlərlə birbaşa görüşlər də təşkil edilərək onların təklif və tövsiyələrinin nəzərə alınması təmin edilir.

2.3. Kefiyyət təminatı mədəniyyəti

2.3.1. ATM-in rəhbərliyinin və daxili keyfiyyət təminatı sisteminə rəhbərliyi həyata keçirən məsul şəxslərin məlumatlılıq, nəzarət və proseslərdə iştirak səviyyəsi, akademik və inzabati heyətlə rəhbərlik arasında keyfiyyət təminatı üzrə səmərəli kommunikasiya şəbəkəsinin mövcud olması

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində Keyfiyyət təminatı sisteminin qurulmasında, kommunikasiya işlərinin, eləcə də icra prosedurlarının həyata keçirilməsində Keyfiyyət təminatı və strateji planlama departamenti və Keyfiyyət Təminatı Komissiyası vacib rol oynayır. Keyfiyyət təminatı və strateji planlama departamenti birbaşa rektora tabedir. Departamentin fəaliyyəti Rektorun 27 oktyabr 2022-ci ildə təsdiqlədiyi Əsasnamə ilə tənzimlənir. Keyfiyyət Təminatı Mədəniyyəti, tədris prosesinin keyfiyyətini və idarə olunmasını əhatə edir. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində Məzunların hazırlıq səviyyəsi, həmçinin Universitetin Keyfiyyət təminatı sisteminin idarə edilməsi, bütün rəhbər işçilərin və əməkdaşların səmərəli fəaliyyəti koordinasiyalı şəkildə mövcuddur. Eyni zamanda Universitetin struktur bölmələri arasında səmərəli kommunikasiya şəbəkəsinin qurulması üçün elektron sənəd dövriyyəsi sistemindən istifadə edilir.

2.3.2. Keyfiyyət təminatı sahəsində əks-əlaqə, keyfiyyətin müşahidəsi, keyfiyyət mədəniyyətinin inkişafının izlənilməsi və araşdırılması

"Keyfiyyət Təminatı Siyasəti" üzrə sənəd ADMİU-nun rəsmi veb-saytında yerləşdirilmişdir (https://admiu.edu.az/wp-content/uploads/2025/06/hs-8.pdf). Keyfiyyət təminatı sahəsində müxtəlif fəaliyyət istiqamətləri mövcuddur. Bura tələbələr, akademik və inzibati heyət arasında keçirilən müxtəlif sorğular, digər maraqlı tərəflərlə (məzun, işəgötürən) təşkil edilən görüşlər aiddir. Keyfiyyət təminatı sahəsində xüsusən incəsənət yönümlü istiqamətlərin müəyyənləşdirilməsi məqsədi ilə maraqlı tərəflərlə əks-əlaqə saxlanılır. Maraqlı tərəflərlə əks-əlaqə müxtəlif vasitələrlə (sorğular, dəyirmi masalar, müzakirələr, rəy və təkliflər qutusu və s.) reallaşır. Burda daxil olan irad və təkliflər araşdırılır və maraqlı tərəflərin iştirakı təmin edilir. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində Keyfiyyət Mədəniyyətinin inkişafının izlənilməsi və araşdırılması davamlı olaraq aparılmaqdadır.

2.3.3. Keyfiyyətin təmin olunmasında ATM rəhbərliyinin töhfəsi, institusional dayanıqlılıq istiqamətində görülən iş və fəaliyyətlər

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində Keyfiyyətin təmin olunması Keyfiyyət təminatı və strateji planlama departamenti tərəfindən həyata keçirilir. Departament keyfiyyət təminatı sistemi, institusional dayanıqlılıq istiqamətində gördüyü iş və fəaliyyətləri ilə bağlı illik hesabat Universitetin Elmi Şurasında müzakirə olunur. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində Keyfiyyət Mədəniyyətinin formalaşdırılması və inkişaf etdirilməsi istiqamətində universitet əməkdaşları üçün genişmiqyaslı maarifləndirmə tədbirləri həyata keçirilmişdir. Bu çərçivədə universitet əməkdaşları keyfiyyətin idarə olunması və akkreditasiya prosesi ilə bağlı müxtəlif mövzuları əhatə edən təlimlərə, tədris prosesində fəaliyyət göstərən tyutorlar (akademik məsləhətçilər) isə müvafiq təlim və kurslara cəlb olunmuşlar. Buna uyğun olaraq universitetin rəsmi veb-saytında yerləşdirilmiş bəzi tədbirlər barədə məlumat almaq olar:

– ADMİU-nun müəllimləri beynəlxalq ekspertin təlimində iştirak ediblər – (10 Oktyabr 2025) https://admiu.edu.az/admiu-nun-mu%c9%99lliml%c9%99ri-beyn%c9%99lxalq-ekspertin-t%c9%99limind%c9%99-istirak-edibl%c9%99r/

– ADMİU-nun əməkdaşları "Strateji kommunikasiya" təlimində iştirak ediblər – (20 Dekabr 2024) https://admiu.edu.az/admiu-nun-%c9%99m%c9%99kdaslari-strateji-kommunikasiya-t%c9%99limind%c9%99-istirak-edibl%c9%99r/

– ADMİU-nun nümayəndəsi Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin təşkil etdiyi təlimə qatılıb – (12-13 İyul 2024) https://admiu.edu.az/admiu-nun-numay%c9%99nd%c9%99si-elm-v%c9%99-ali-t%c9%99hsil-uzr%c9%99-dovl%c9%99t-agentliyinin-t%c9%99skil-etdiyi-t%c9%99lim%c9%99-qatilib/

Bundan əlavə Departament əməkdaşlarıda ali təhsildə Keyfiyyət təminatı ilə bağlı müxtəlif təlim və simpoziumlarda iştirak etmişlər. Buna uyğun olaraq 2025-ci il 25-26 sentyabr tarixində ADA Universitetinin təşkilatçılığı və Təhsildə Keyfiyyət Təminatı Agentliyinin (TKTA) tərəfdaşlığı ilə ali təhsildə keyfiyyət təminatına həsr olunmuş II ADA Simpoziumu nümunə gətirmək olar.

2.3.4. Keyfiyyətin təmin olunmasında ATM-nin strukturlararası fəaliyyətin koordinasiyası vəziyyəti

Keyfiyyət təminatı və strateji planlama departamenti Universitetin bütün bölmələrini Keyfiyyət təminatı çərçivəsinə daxil edir, onların fəaliyyətini əlaqələndirir və qarşılıqlı əməkdaşlığı təşviq edir. Bu məqsədi ilə:

– Struktur bölmələri arasında müntəzəm fikir mübadilələri təşkil olunur və təkmilləşmə istiqamətləri üzrə təkliflər müzakirə edilir;

– Tövsiyə və tədbirlərin sistemli şəkildə irəli sürülməsi üzrə nəzarət mexanizmləri tətbiq olunur;

– Aparılan təhlil və qiymətləndirmələrin nəticələri bütün maraqlı tərəflərlə bölüşülür.

Görülən bu tədbirlər Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində Keyfiyyət Təminatı Sisteminin effektivliyini artırır, struktur bölmələri arasında əməkdaşlığın möhkəmlənməsinə və ümumi Keyfiyyət Mədəniyyətinin formalaşmasına şərait yaradır.

Keyfiyyət təminatı və strateji planlama departamenti bütün struktur bölmələri ilə əməkdaşlıq edir və onların koordinasiyalı fəaliyyət göstərməsində iştirak edir. Departament bütün strukturlardan gələn hesabat və məlumatları qəbul edir. Bu proses həm elektron sənəd dövriyyəsi üzərindən həm də “Microsoft Outlook” tətbiqi üzərindən həyata keçirilir. “Microsoft Outlook” üzərindən hər bir strukturun korporativ elektron ünvanı əsasında koordinasıya olunur. “Sinam” şirkətinin Elektron Sənəd Dövriyyəsi sistemi universitetdə 6 oktyabr 2025-ci il tarixindən etibarən tətbiq olunur. Sistemdən istifadə qaydalarına dair 9 oktyabr 2025-ci il tarixində “Sinam” təlimçisi universitet əməkdaşları üçün onlayn təlim keçmişdir.

III. Təlim və tədris

3.1. Təhsilalanların qəbulu və əvvəlki kvalifikasiyaların tanınması


3.1.1. Tələbə qəbulu üzrə sifarişlərin hazırlanması zamanı müvafiq ixtisaslar üzrə təhsil proqramlarında və təhsil standartlarında qeyd olunan tələblərin ödənilməsi vəziyyəti

ADMİU-da tələbə qəbulu üzrə sifarişlər hazırlanarkən bakalavriat və magistratura səviyyələrində hər bir ixtisas üzrə əvvəlki illərin qəbul göstəriciləri əsas götürülür. Bu zaman universitetin öz nəticələri ilə yanaşı, oxşar ixtisaslar üzrə kadr hazırlayan digər ali təhsil müəssisələrinin faktiki qəbul göstəriciləri də nəzərə alınır. Toplanan məlumatlar Tədris şöbəsi, fakültələr və kafedralar tərəfindən birgə təhlil edilir.

Təhlil zamanı universitetin təhsil, elm və yaradıcılıq sahəsindəki strateji hədəfləri, mədəniyyət və incəsənət sahəsində əmək bazarının tələbatı, məzunların peşə səriştələri və onların işlə təmin olunma imkanları əsas meyarlar kimi götürülür. Xüsusi qabiliyyət tələb edən ixtisaslarda kadr hazırlığının fərdi yanaşma tələb etməsi səbəbindən hər bir ixtisas üzrə professor-müəllim heyətinin potensialı, yaradıcılıq studiyalarının, emalatxanaların və səhnə məkanlarının imkanları xüsusi diqqətlə qiymətləndirilir. Bundan əlavə, təhsil proqramlarının məzmunu, təlim nəticələri və tədris metodları da nəzərdən keçirilir.


Struktur bölmələrin iştirakı ilə ixtisaslar üzrə qəbul strategiyası müzakirə olunur. Bu müzakirələr proqramların güclü və zəif tərəflərinin müəyyənləşdirilməsini, abituriyentlərin cəlb edilməsi üzrə təbliğat işinin gücləndirilməsini və digər məsələləri əhatə edir. Hazırlanan proqnoz göstəriciləri universitet rəhbərliyi ilə razılaşdırıldıqdan sonra müəyyən olunmuş qaydada Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinə təqdim edilir. Magistratura səviyyəsi üzrə qəbul sifarişi hazırlanarkən isə bakalavriat pilləsini bitirən məzunların ümumi sayı da nəzərə alınır.

2020/2021–2024/2025-ci tədris illəri üzrə göstəricilərin müqayisə etdiyimiz zaman bakalavriat səviyyəsində tələbə qəbulunun ümumilikdə sabit xarakter daşıdığını göstərir. Bu dövrdə qəbul planı 630 nəfərdən 660 nəfərə qədər artmışdır. Faktiki qəbul olunan tələbələrin sayı isə 561 nəfərdən 579 nəfərə yüksəlmişdir. Planın icra faizi 2020/2021-ci ildə 89,0% təşkil etmiş, 2021/2022-ci ildə 94,8%-lə dövrün ən yüksək həddinə çatmışdır. 2023/2024-cü tədris ilində bu göstərici 82,4%-ə ensə də, növbəti ildə yenidən artaraq 87,7% olmuşdur. Beşillik dövr ərzində icra faizinin 82–95% aralığında qalması bakalavriat səviyyəsində qəbul planının əsasən uğurla yerinə yetirildiyini təsdiqləyir.



Şəkil 3.1. Qəbul planı və faktiki qəbul illər üzrə (bakalavriat səviyyəsi üzrə)

Magistratura səviyyəsində qəbul planı daha sürətlə genişlənmişdir. Plan yerlərinin sayı 2020/2021-ci ildəki 157 nəfərdən 2024/2025-ci ildə 206 nəfərə çatmış, yəni təxminən 31% artmışdır. Ən yüksək göstəricilər 2023/2024-cü tədris ilində qeydə alınmış, həmin il 208 plan yerinə 164 tələbə qəbul olunmuşdur. Beş il ərzində faktiki qəbul 126 nəfərdən 139 nəfərə, yəni cəmi 13 nəfər artmışdır. Bunun nəticəsində planın icra faizi 2020/2021-ci ildəki 80,3%-dən 2024/2025-ci ildə 67,5%-ə enmişdir.



Şəkil 3.2. Qəbul planı və faktiki qəbul illər üzrə (magistratura səviyyəsi üzrə)

Ümumilikdə, təhlil bakalavriat səviyyəsində qəbul planının yüksək və sabit icrasını, magistratura səviyyəsində isə plan yerlərinin genişlənməsi ilə faktiki qəbul arasında yaranan fərqin aradan qaldırılması zərurətini göstərir.

3.1.2. ATM-də əmək bazarının tələblərinə uyğun olaraq tələbə qəbulu sifarişlərinin optimal müəyyən edilməsi vəziyyəti

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində tələbə qəbulu üzrə sifarişlərin müəyyənləşdirilməsi zamanı əmək bazarının cari və perspektiv tələbləri, regionların mədəniyyət sahəsindəki ehtiyacları, eləcə də universitetin infrastruktur və kadr potensialı nəzərə alınır. Mədəniyyət və incəsənət sahəsində ixtisaslı kadrlara olan tələbat Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Mədəniyyət Nazirliyi və onun tabeliyində fəaliyyət göstərən teatrlar, muzeylər, mədəniyyət evləri, eləcə də digər qurumlarla məlumat mübadiləsi və əməkdaşlıq əsasında təhlil edilir. Bu zaman rəssamlıq, musiqi, aktyorluq, rejissorluq və mədəniyyət menecmenti sahələri üzrə kadr ehtiyacları, regionlarda mütəxəssis çatışmazlığı, eləcə də rəqəmsal incəsənət və mədəni turizm kimi inkişaf edən sahələrdə kadr potensialı diqqətdə saxlanılır. Qəbul planları əmək bazarının tələbləri ilə universitetin resurs imkanları arasında uyğunluğun təmin edilməsi əsasında hazırlanır. İxtisaslar üzrə tələbə sayı müəyyənləşdirilərkən kadr hazırlığının keyfiyyəti, tədris potensialı, müəllim heyətinin ixtisaslaşması, maddi-texniki baza, dövlət və özəl sektorun kadr tələbatı nəzərə alınır. Bununla yanaşı, əmək bazarına dair proqnozlaşdırma mexanizmlərinin təkmilləşdirilməsinə, ixtisaslar üzrə tələbat dəyişikliklərinin vaxtında müəyyənləşdirilməsinə, regionlardan əldə olunan məlumatların dolğunluğunun artırılmasına ehtiyac vardır. Bu baxımdan, tələbə qəbulu planlarının formalaşdırılmasında rəsmi statistik məlumatlara əsaslanan, çevik və dinamik qərarvermə mexanizmlərinin tətbiqi əhəmiyyət kəsb edir.

3.1.3. Tələbə qəbulu yerləri üzrə sifarişlərin formalaşmasında işəgötürənlərin iştirak vəziyyəti

ADMİU-da tələbə qəbulu yerləri üzrə sifarişlərin formalaşdırılması zamanı əmək bazarının tələbləri, mədəniyyət və incəsənət sahəsində fəaliyyət göstərən işəgötürənlərin rəyləri və kadr ehtiyacları nəzərə alınır. Belə ki, qəbul sifarişləri formalaşdırılarkən Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin İncəsənət və qeyri-maddi mədəni irs şöbəsinin Teatr sektorunun, Azərbaycan Dövlət Akademik Musiqili Teatrının, Akademik Milli Dram Teatrının, Beynəlxalq Muğam Mərkəzinin, Mədəniyyət telekanalının, AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun, Bakı Media Mərkəzinin, Azərbaycan Respublikası Kino Agentliyinin, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyinin, Azərbaycan Turizm Bələdçiləri Assosiasiyasının və digər maraqlı tərəflərlə müzakirələr aparılmış, həmin müzakirələrdə irəli sürülən təkliflər qəbul planı hazırlanarkən nəzərə alınmışdır. Teatrlar, muzeylər, mədəniyyət mərkəzləri, studiyalar və digər yaradıcılıq qurumları ilə əməkdaşlıq çərçivəsində onların nümayəndələri tədris planlarının müzakirəsinə, tələbələrin təcrübə proqramlarına və karyera yönümlü tədbirlərə cəlb olunur. Xüsusilə aktyorluq, rejissorluq və musiqi ifaçılığı kimi praktiki hazırlıq tələb edən ixtisaslar üzrə bu əməkdaşlıq tələbələrin peşə bacarıqlarının inkişafına şərait yaradır. İşəgötürənlərin rəy və təklifləri kadr tələbatının müəyyənləşdirilməsi və qəbul planlarının təkmilləşdirilməsi baxımından əhəmiyyət daşıyır. Bununla yanaşı, işəgötürənlərin qəbul sifarişlərinin formalaşdırılmasında iştirakının sistemli şəkildə təşkili, regionlarda fəaliyyət göstərən qurumlarla əməkdaşlığın genişləndirilməsi, eləcə də rəqəmsal media və mədəni turizm sahələri üzrə kadr tələbatının daha dəqiq qiymətləndirilməsi istiqamətində işlərin gücləndirilməsinə ehtiyac vardır.

3.1.4. Qəbul olmuş tələbələrin əvvəlki təhsilinin və kreditlərinin tanınması və nəzərə alınması vəziyyəti

ADMİU-da qəbul olunmuş tələbələrin əvvəlki təhsil nəticələrinin və kreditlərinin tanınması Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarları və universitetin daxili qaydaları əsasında həyata keçirilir. Əvvəlki kvalifikasiyaların tanınması zamanı ilk növbədə təhsil sənədləri araşdırılır, müvafiq təhsil səviyyəsi müəyyən edilir və əldə olunmuş kreditlərin həcmi Ekvivalent Komissiyası tərəfindən yoxlanılır. Təqdim olunan sənədlərin həqiqiliyi, eləcə də şəxsin identifikasiya və akademik məlumatları yoxlanılır. Digər ali təhsil müəssisələrindən köçürülən, bərpa edilən və əlavə təhsilə qəbul olunan şəxslərin əvvəlki təhsil nəticələri ixtisas üzrə işçi tədris planı ilə müqayisə edilir. Kreditlərin tanınması zamanı təhsil proqramlarının, fənlərin məzmunu və həcminin, əldə edilmiş kompetensiyaların və təlim nəticələrinin uyğunluğu nəzərə alınır. Bu proses Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 18 iyul tarixli 311 nömrəli "Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi"nə (https://e-qanun.az/framework/39622), 2019-cu il 20 may tarixli 230 nömrəli "Orta ixtisas təhsili müəssisələrinə bakalavrların, ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə (əsas (baza ali) tibb təhsilinə) müvafiq ixtisaslar üzrə subbakalavrların qəbulu, habelə

bakalavriatı (əsas (baza ali) tibb təhsilini) başa vurmayan şəxslərin orta ixtisas təhsili müəssisələrinə köçürülməsi Qaydaları"nın (https://e-qanun.az/framework/42399) və 2013-cü il 24 dekabr tarixli 348 nömrəli "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"ı (https://e-qanun.az/framework/27030) haqqında qərarlarının tələblərinə uyğun aparılır. Fənlər üzrə uyğunluq müəyyən edildikdə müvafiq kreditlər tanınır, fərqlər aşkarlandıqda isə onların aradan qaldırılması üçün müvafiq tədbirlər görülür. Bununla yanaşı, təhsil proqramları arasındakı fərqlər və xarici təhsil sənədlərinin tanınması ilə bağlı prosedurlar prosesin təkmilləşdirilməsini zəruri edən amillər sırasındadır.

3.2. Təhsil proqramları

3.2.1. ATM-də kadr hazırlığının təhsil səviyyələri üzrə əhatəliliyi

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində kadr hazırlığı bakalavriat və magistratura səviyyələrini, eləcə də təkrar ali təhsil istiqamətini əhatə edir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 18 iyul 2018-ci il tarixli 311 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi"nə (https://e-qanun.az/framework/39622) uyğun olaraq, universitetdə 6-cı kvalifikasiya səviyyəsi üzrə bakalavr, 7-ci səviyyə üzrə magistr və təkrar ali təhsil istiqamətində mütəxəssis hazırlığı həyata keçirilir. Bakalavriat səviyyəsində təhsil müddəti 4 il (240 kredit), magistratura səviyyəsində isə müvafiq proqramdan asılı olaraq 1,5 il (90 kredit) və ya 2 il (120 kredit) təşkil edir. Təkrar ali təhsil şəxslərin yeni ixtisas üzrə bilik və bacarıqlar əldə etməsinə imkan yaradır.

Bakalavriat səviyyəsində tədris olunan əsas ixtisaslar:

Cədvəl 3.1. Bakalavriat səviyyəsi üzrə ixtisaslar (240 kredit)

S/s	İxtisasın şifri	İxtisasın adı
		Audiovizual sənətlər fakültəsi
1.	6003006	Ədəbi yaradıcılıq və ekran dramaturgiyası
2.	6003015	Rejissorluq (televiziya rejissoru, kino rejissoru, animasiya rejissoru)
3.	6003017	Sənətşünaslıq (kinoşünaslıq)
4.	6003013	Operator sənəti
		Teatr sənəti fakültəsi
5.	6003001	Aktyor sənəti (dram teatrı və kino aktyoru, musiqili teatr aktyoru)
6.	6003017	Sənətşünaslıq (teatrşünaslıq)

7.	6003015	Rejissorluq (teatr rejissoru)
Musiqi sənəti fakültəsi		
8.	6001014	Musiqi müəllimliyi
9.	6003009	İnstrumental ifaçılıq (klassik musiqi alətləri: fortepiano, violin (skripka), viola (alt), gitara, klarnet, saksofon, zərb alətləri; xalq çalğı alətləri: tar, kamança, qanun, nağara, balaban, saz)
10.	6003011	Musiqişünaslıq
11.	6003014	Populyar musiqi və caz ifaçılığı
12.	6003018	Vokal sənəti (xanəndə)
Rəssamlıq fakültəsi		
13.	6001022	Təsviri incəsənət müəllimliyi
14.	6003003	Dekorativ-tətbiqi sənət (bədii xalça, bədii toxuculuq)
15.	6003005	Dizayn (interyer dizaynı, qrafik dizayn, geyim dizaynı)
16.	6003016	Rəngkarlıq
17.	6003017	Sənətşünaslıq (təsviri sənətin tarixi və nəzəriyyəsi)
18.	6003010	Qrafika
Kulturologiya fakültəsi		
19.	6003012	Muzey, arxiv işi və abidələrin qorunması
20.	6002010	Kitabxanaçılıq və informasiya fəaliyyəti
21.	6002015	Sosiologiya
22.	6008006	Sosial iş
23.	6008007	Turizm bələdçiliyi
24.	6008008	Turizm işinin təşkili

Cədvəl 3.2. Magistratura səviyyəsi üzrə ixtisas və ixtisaslaşmalar (120 kredit)

S/s	İxtisasın şifri	İxtisasın adı
Audiovizual sənətlər fakültəsi		
1.	7003006	Ədəbi yaradıcılıq və ekran dramaturgiyası (ssenarist)
2.	7003017	Sənətşünaslıq (audiovizual sənətlər tarixi və nəzəriyyəsi; kino tənqidi)
Teatr sənəti fakültəsi		
3.	7003017	Sənətşünaslıq (teatr tənqidi; teatr tarixi və nəzəriyyəsi)
Musiqi sənəti fakültəsi		
4.	7003011	Musiqişünaslıq (etnomusiqişünaslıq; musiqi tarixi və nəzəriyyəsi)
Rəssamlıq fakültəsi		
5.	7003017	Sənətşünaslıq (təsviri sənət tarixi və nəzəriyyəsi; dekorativ-tətbiqi sənət tarixi və nəzəriyyəsi; dizayn sənətinin tarixi və nəzəriyyəsi)
Kulturologiya fakültəsi		
6.	7002010	Kitabxanaçılıq və informasiya fəaliyyəti (kitabxana informasiya-axtarış sistemləri)
7.	7002015	Sosiologiya (idarəetmənin sosiologiyası)

8.	7003012	Muzey, arxiv işi və abidələrin qorunması (arxeoloji və tarixi memarlıq abidələrinin mühafizəsi; muzeyşünaslıq)
9.	7003017	Sənətşünaslıq (mədəniyyətin tarixi və nəzəriyyəsi)

Cədvəl 3.3. Magistratura səviyyəsi üzrə ixtisas və ixtisaslaşmalar (90 kredit)

S/s	İxtisasın şifri	İxtisasın adı
Audiovizual sənətlər fakültəsi		
1.	7003013	Operator sənəti (kinooperator, televiziya operatoru, reportaj operatoru)
2.	7003015	Rejissorluq (televiziya rejissoru, kino rejissoru, animasiya rejissoru)
Teatr sənəti fakültəsi		
3.	7003001	Aktyor sənəti (dram teatrı və kino aktyoru, musiqili teatr aktyoru, pantomima aktyoru)
4.	7003015	Rejissorluq (teatr rejissoru, mədəni-kütləvi tədbirlər rejissoru)
Musiqi sənəti fakültəsi		
5.	7003009	İnstrumental ifaçılıq (klassik musiqi alətləri ifaçılığı: fortepiano, violin (skripka), viola (alt), gitara, klarnet, saksofon və zərb alətləri; xalq çalğı alətləri ifaçılığı: tar, kamança, qanun, nağara və balaban)
6.	7003014	Populyar musiqi və caz ifaçılığı (vokal)
7.	7003018	Vokal sənəti (aşıq sənəti; xanəndə sənəti)
Rəssamlıq fakültəsi		
8.	7003003	Dekorativ-tətbiqi sənət (bədii xalça, bədii toxuculuq)

9.	7003005	Dizayn (geyim dizaynı, interyer dizaynı, sənaye dizaynı, qrafik dizayn)
10.	7003010	Qrafika (dəzgah qrafikası, kitab tərtibatı və illüstrasiyası, qrafika əsərlərinin bərpası, animasiya rəssamı)
11.	7003016	Rəngkarlıq (dəzgah rəngkarlığı, səhnəqrafiya, audiovizual sahə üzrə rəssam, rəngkarlıq əsərlərinin bərpası)
Kulturologiya fakültəsi		
12.	7004003	Biznesin təşkili və idarə edilməsi (MBA) (mədəniyyət sahələrinin idarə edilməsi)
13.	7004008	Menecment (muzey və qalereya menecmenti; teatr menecmenti; musiqi menecmenti; kino və televiziya menecmenti)
14.	7008003	Sosial iş (sosial xidmətlərin təşkili; gənclərlə iş)
15.	7008004	Turizm və hotelçilik (turizm və sosial-mədəni servis)

Universitetdə həyata keçirilən təhsil proqramları dövlət təhsil standartlarına əsaslanır və peşə kompetensiyalarının formalaşdırılmasına yönəlmiş yanaşma üzərində qurulur. Proqramlarda nəzəri biliklərlə yanaşı praktik bacarıqların formalaşdırılması əsas yer tutur. Bu proqramlar tələbələrin yaradıcılıq, ifaçılıq və tədqiqat bacarıqlarının inkişafını hədəfləyir. Tədris prosesi Avropa Kredit Transferi və Toplanması Sistemi (AKTS/ECTS) əsasında təşkil olunur.

Təhsil proqramlarının beynəlxalq uyğunluğuna da xüsusi diqqət yetirilir. Proqramlar Erasmus+, Mevlana və digər beynəlxalq mübadilə proqramlarının tələblərinə uyğunlaşdırılır. Bu proqramlar çərçivəsində tələbələr xarici universitetlərdə təhsil ala bilir, orada qazandıqları kreditlər isə ADMİU-da tanınaraq təhsil proqramına daxil edilir.

3.2.2. ATM-də tədris olunan təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğunluğu vəziyyəti

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğunlaşdırılması istiqamətində işlər aparılır. Proqramların məzmununun yenilənməsi zamanı mədəniyyət və incəsənət sahələrinin inkişaf istiqamətləri, əmək bazarının ehtiyacları, eləcə də cəmiyyətin sosial-mədəni maraqları da nəzərə alınır. Bu prosesdə işəgötürənlərin, akademik heyətin, sənət nümayəndələrinin və aidiyyəti qurumların iştirakının təmin edilməsi, yaradıcılıq və texnoloji yenilikləri əhatə edən məzmunun tədrisə daxil edilməsi istiqamətində mühüm əhəmiyyət daşıyır.

Əmək bazarı ilə əlaqələrin gücləndirilməsi, işəgötürənlərin rəy və təkliflərinin təhsil proqramlarında nəzərə alınması, praktiki yönümlü fənlərin tədrisi və tələbələrin peşə təcrübəsinin təşkili proqramların peşəkar tələblərə uyğunluğuna xidmət edir. Belə ki, təhsil proqramlarının hazırlanması və yenilənməsi prosesində Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin İncəsənət və qeyri-maddi mədəni irs şöbəsinin Teatr sektorunun, Azərbaycan Dövlət Akademik Musiqili Teatrının, Akademik Milli Dram Teatrının, Beynəlxalq Muğam Mərkəzinin, Mədəniyyət telekanalının, AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun, Bakı Media Mərkəzinin, Azərbaycan Respublikası Kino Agentliyinin, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Sosial Xidmətlər Agentliyinin və Azərbaycan Turizm Bələdçiləri Assosiasiyasının nümayəndələrinin rəy və təklifləri nəzərə alınır. Bununla yanaşı, təhsil proqramlarında milli-mədəni dəyərlərin qorunması və təşviqi, mədəni irsin mühafizəsi, eləcə də incəsənətin sosial və humanitar aspektlərinin nəzərə alınması cəmiyyətin ehtiyaclarına cavab verilməsi baxımından əhəmiyyətlidir.

Bununla belə, əmək bazarının tələbləri sürətlə dəyişir və bu, təhsil proqramlarının daha çevik və müasir tələblərə uyğun şəkildə inkişaf etdirilməsini zəruri edir. Bu məqsədlə yeni texnologiyaların və rəqəmsal alətlərin tədris prosesinə inteqrasiyasının genişləndirilməsi, beynəlxalq təcrübə və innovasiyaların tətbiqinin gücləndirilməsi tələb olunur.

3.2.3. ATM-də tədris olunan ixtisasların peşə və kvalifikasiya standartlarına uyğunluğu vəziyyəti

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində tədris olunan ixtisaslar üzrə təhsil proqramlarının peşə və kvalifikasiya standartlarına uyğunluğu mühüm əhəmiyyət daşıyır. Bu uyğunluq təhsil nəticələrinin, bilik və bacarıqların müəyyənləşdirilməsində əsas meyar rolunu oynayır.

Peşə standartlarının əmək bazarının dəyişən tələblərinə uyğunlaşdırılması, işəgötürənlərin və müvafiq sahə ekspertlərinin rəy və təkliflərinin nəzərə alınması, həmçinin müasir texnologiyaların və beynəlxalq təcrübənin tədris proqramlarına inteqrasiyası bu istiqamətdə əsas inkişaf imkanlarıdır.

Universitetdə kadr hazırlığı aparılan ixtisasların peşə və kvalifikasiya standartlarına uyğunluğunun təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsinin səviyyə deskriptorları əsas götürülür. Müxtəlif təhsil səviyyələri üzrə təhsilalanların ümumi və peşə kompetensiyalarına yiyələnməsini təmin etmək üçün keyfiyyətin daxili təminatı sistemi, keyfiyyət proseslərini tənzimləyən struktur və müvafiq daxili normativ prosedurlar formalaşdırılmışdır (https://e-qanun.az/framework/39622).

3.2.4. Təhsil proqramlarının Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsinin tələblərinə uyğunluğu

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində təhsil proqramlarının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsinin tələblərinə uyğunluğu təhsil

səviyyələri üzrə bilik, bacarıq və kompetensiyaların müəyyənləşdirilməsi baxımından əhəmiyyət daşıyır. Milli Kvalifikasiyalar Çərçivəsi müxtəlif təhsil səviyyələri üzrə əldə olunan nəticələrin ardıcıllığını və kvalifikasiyalar arasında əlaqəni müəyyənləşdirən əsas çərçivə rolunu oynayır.

Universitetdə kadr hazırlığı bakalavriat və magistratura səviyyələrini, eləcə də təkrar ali təhsil istiqamətini əhatə edir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 6 sentyabr 2010-cu il tarixli 163 nömrəli qərarı ilə təsdiq edilmiş "Əlavə təhsilin məzmunu, təşkili və əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədin verilməsi Qaydası"na (https://e-qanun.az/framework/20045) uyğun olaraq, ADMİU-da təkrar ali təhsil istiqaməti üzrə kadr hazırlığı həyata keçirilir.

Təhsil proqramlarının Milli Kvalifikasiyalar Çərçivəsinin tələblərinə uyğunluğunun davamlı təmin edilməsi məqsədilə müvafiq dəyişikliklərin izlənilməsi, proqramların mütəmadi təkmilləşdirilməsi və təhsil səviyyələri üzrə kompetensiyaların uzlaşdırılması vacibdir. Bununla yanaşı, uyğunluğun faktiki vəziyyətinin müəyyənləşdirilməsi üçün təhsil proqramlarının müvafiq səviyyə deskriptorları və normativ tələblərlə müqayisəli təhlili aparılmalıdır.

3.2.5. Təhsil proqramlarının ayrı-ayrı ixtisasları (ixtisaslaşmaları) üzrə təsdiq edilmiş təlim nəticələrinə və məzmun standartlarına uyğunluğu

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində təhsil proqramlarının ixtisaslar üzrə təlim nəticələrinə və məzmun tələblərinə uyğunluğu müvafiq təhsil standartları, normativ tələblər və ixtisasların xüsusiyyətləri nəzərə alınmaqla müəyyən edilir. Proqramlar tələbələrin nəzəri biliklərinin, praktiki bacarıqlarının və peşə kompetensiyalarının inkişafına yönəldilir. Aktyorluq, rejissorluq, musiqi, rəssamlıq, kulturologiya və digər istiqamətlər üzrə təlim nəticələri müvafiq sahələrin spesifik tələblərini əhatə edir.

Təlim nəticələrinin proqramların məzmunu ilə uyğunluğunun qiymətləndirilməsində fənn təlim nəticələri (FTN) ilə proqram təlim nəticələri (PTN) arasındakı əlaqənin müəyyənləşdirilməsi mühüm əhəmiyyət daşıyır. Bu uyğunluğun izlənilməsi tədris olunan fənlərin proqram üzrə nəzərdə tutulmuş nəticələrin əldə olunmasına töhfəsini qiymətləndirməyə və daxili keyfiyyət təminatı prosesini təkmilləşdirməyə imkan verir.

3.2.6. Təhsil proqramları üzrə dərs saatlarının bölgüsünün Avropa Kredit Transfer və Toplanması Sisteminin (AKTTS) prinsiplərinə uyğunluğu

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində təhsil proqramları üzrə dərs saatlarının bölgüsü Avropa Kredit Transfer və Toplanması Sisteminin (AKTTS) əsas prinsiplərinə uyğun şəkildə həyata keçirilir. AKTTS tələbələrin təhsil müddətində sərf etdikləri bütün akademik fəaliyyətləri (auditoriya dərslərini, praktiki məşğələləri, müstəqil işi, təcrübə proqramlarını, layihə fəaliyyətlərini, auditoriyadankənar fəaliyyətlərini, imtahan proseslərini) vahid iş yükü çərçivəsində nəzərə alır.

ADMİU-da dərs saatlarının bölgüsü ixtisasların və fənlərin xüsusiyyətləri nəzərə alınmaqla nəzəri dərslər, praktiki məşğələlər, müstəqil iş, istehsalat və yaradıcılıq

təcrübələri, eləcə də digər akademik fəaliyyətlər üzrə strukturlaşdırılır. Hər bir fənn və ixtisas üzrə dərs saatları AKTTS kreditlərinin və "Ali təhsil pilləsinin dövlət standartı və proqramı"na tələblərinə uyğun şəkildə planlaşdırılır, tələbələrin ümumi iş yükü nəzərə alınaraq bölgü təmin edilir. Hər bir semestrdə fənlərin cəmi 30 kreditə bərabərdir, 1 kredit = 30 saata , auditoriya və auditoriyadankənar dərs yükünün cəmi semestr üzrə 900 saat təşkil edir.

Bakalavriat və magistratura pillələri səviyyələri üzrə tədris planlarında dərs saatlarının və kreditlərin bölgüsü AKTTS standartlarına əsaslanaraq tənzimlənir. Nəzəri və praktiki məşğələlərin nisbəti ixtisasların spesifik xüsusiyyətlərinə uyğun müəyyən edilir, eyni zamanda hər iki istiqamət arasında tarazlıq qorunur.

Universitetdə təhsil proqramlarının AKTTS prinsiplərinə uyğunluğu mütəmadi monitorinq və təhlil mexanizmləri vasitəsilə izlənilir. Tədris planları dövrü olaraq yenilənir, tələbələrin iş yükünün düzgün qiymətləndirilməsi və təhsil prosesinin şəffaflığı təmin olunur. Beynəlxalq standartlarla uyğunluğun qorunması ADMİU-da təhsil keyfiyyətinin yüksəldilməsinə, eləcə də məzunların akademik və peşəkar mobilliyinin artırılmasına xidmət edir.

3.2.7. Tədris fənlərinin təhsil proqramının tələblərinə uyğunluğu

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində tədris fənləri müvafiq ixtisaslar üzrə təhsil proqramlarının məqsəd və təlim nəticələrinə uyğun müəyyənləşdirilir. Fənlərin məzmunu nəzəri biliklərin, praktiki bacarıqların və peşə kompetensiyalarının formalaşdırılmasına yönəldilir, əsas və seçmə fənlərin bölgüsündə ixtisasların spesifik xüsusiyyətləri nəzərə alınır.

Təhsil proqramlarında fənlərin ardıcıllığı təlim nəticələri və məzunların yiyələnməli olduğu peşə kompetensiyaları nəzərə alınmaqla müəyyən edilmişdir. Kadr hazırlığının məqsədlərinə uyğun olaraq, tədris olunan fənlər ümumi fənlər, ixtisas fənləri və ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən seçmə fənlər olmaqla üç bloka ayrılmışdır.

Tədris fənlərinin proqram tələblərinə uyğunluğunun qiymətləndirilməsində fənn təlim nəticələri (FTN) ilə proqram təlim nəticələri (PTN) arasındakı əlaqə mühüm əhəmiyyət daşıyır. Fənlərin məzmununun, tədris metodlarının və qiymətləndirmə vasitələrinin mütəmadi nəzərdən keçirilməsi, tələbələrin rəylərinin və müvafiq sahə nümayəndələrinin təkliflərinin nəzərə alınması tədrisin keyfiyyətinin yüksəldilməsinə və təhsil proqramlarının təkmilləşdirilməsinə xidmət edir.

3.2.8. Həftəlik auditoriya və auditoriyadan kənar saatların miqdarının təhsil proqramlarına uyğunluğu

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində həftəlik auditoriya və auditoriyadan kənar saatların bölgüsü təhsil proqramlarının tələbləri, fənlərin xüsusiyyətləri və tələbələrin ümumi iş yükü nəzərə alınmaqla müəyyən edilir. Auditoriya saatları nəzəri dərsləri, praktiki məşğələləri və seminarları, auditoriyadan kənar fəaliyyətlər isə müstəqil işi, layihələri, tədqiqatları və təcrübəni əhatə edir.

Saatların bölgüsündə kredit tələblərinin və Avropa Kredit Transferi və Toplanması Sisteminin (AKTTS) prinsiplərinin nəzərə alınması, auditoriya məşğələləri ilə sərbəst iş arasında tarazlığın qorunması tələbələrin təlim nəticələrinə nail olması baxımından əhəmiyyətlidir. Tədris yükünün təhsil proqramlarına uyğunluğunun mütəmadi qiymətləndirilməsi və tələbələrin faktiki iş yükünün nəzərə alınması tədris prosesinin səmərəliliyinin artırılmasına xidmət edir.

3.2.9. Təhsil proqramlarının icrası nəticəsində əldə olunacaq təlim nəticələrinin ictimaiyyət üçün əlçatanlığı

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində təhsil proqramlarının təlim nəticələrinin ictimaiyyət üçün əlçatan olması şəffaflığın və təhsil keyfiyyəti barədə məlumatlılığın təmin edilməsi baxımından əhəmiyyətlidir. Təlim nəticələrinin universitetin rəsmi veb-saytında və müvafiq tədris sənədlərində yerləşdirilməsi tələbələrə, abituriyentlərə, işəgötürənlərə və digər maraqlı tərəflərə hər bir ixtisas üzrə əldə olunması nəzərdə tutulan bilik, bacarıq və kompetensiyalar barədə məlumat əldə etmək imkanı yaradır.

Təlim nəticələri ilə bağlı məlumatların əlçatanlığının artırılması, maraqlı tərəflərin rəy və təkliflərinin nəzərə alınması, eləcə də məlumatların rəqəmsal platformalar vasitəsilə paylaşılması ictimaiyyətlə əlaqələrin gücləndirilməsinə və təhsil proqramlarının təkmilləşdirilməsinə xidmət edir.

3.2.10. Təhsil proqramlarının hazırlanmasında və qiymətləndirilməsində işəgötürənlərin iştirakı vəziyyəti

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində təhsil proqramlarının hazırlanması və qiymətləndirilməsi prosesində işəgötürənlərin iştirakı fəaldır. Universitet işəgötürənlərlə əməkdaşlıq edərək əmək bazarının tələblərini və peşə standartlarını nəzərə alır. Bu, təhsil proqramlarının müasir və praktik yönümlü olmasını təmin edir. Belə ki, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin İncəsənət və qeyri-maddi mədəni irs şöbəsinin Teatr sektorunun, Azərbaycan Dövlət Akademik Musiqili Teatrının, Akademik Milli Dram Teatrının, Beynəlxalq Muğam Mərkəzinin, Mədəniyyət telekanalının, AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun, Bakı Media Mərkəzinin, Azərbaycan Respublikası Kino Agentliyinin, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Sosial Xidmətlər Agentliyinin və Azərbaycan Turizm Bələdçiləri Assosiasiyasının nümayəndələri proqramların hazırlanması mərhələsində məsləhətçi kimi iştirak edir, həmçinin proqramların qiymətləndirilməsi və təkmilləşdirilməsi üçün rəy və təkliflər təqdim edirlər. Bu əməkdaşlıq tələbələrin peşə hazırlığının əmək bazarına uyğunluğunu artırır və universitetin təhsil keyfiyyətinin yüksəldilməsinə töhfə verir.

3.3. Tədrisin təşkili

3.3.1. Tədris planlarının kredit sisteminin tələblərinə uyğun tərtib edilmə vəziyyəti

ADMİU-da tədrisin təşkili müvafiq normativ-hüquqi aktların və müasir təhsil standartlarının tələblərinə uyğun həyata keçirilir. Bu istiqamətdə Azərbaycan

Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli Qərarı ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində kredit sistemi ilə tədrisin təşkili Qaydaları” (https://e-qanun.az/framework/27030) əsas götürülür.

Bakalavriat səviyyəsi üzrə tədris planları bir kreditin 30 saatlıq iş yükünə bərabər olması, hər semestr üçün 30 kreditin nəzərdə tutulması və təhsil müddəti ərzində ümumilikdə 240 kreditin toplanması tələbləri əsasında hazırlanır. Magistratura səviyyəsində də hər semestr üzrə 30 kredit nəzərdə tutulur və ikiillik təhsil müddəti ərzində məzun olmaq üçün tələb olunan ümumi kredit sayı 120 təşkil edir. Fənlər üzrə kreditlərin müəyyənləşdirilməsi zamanı tələbələrin auditoriya və auditoriyadankənar məşğələləri də daxil olmaqla ümumi iş yükü nəzərə alınır. Tədris planlarının təhsil proqramlarının tələblərinə uyğunluğu onların məzmununun normativ tələblər nəzərə alınmaqla formalaşdırılmasına əsaslanır və təhsil prosesinin sistemli təşkilinə xidmət edir.

3.3.2. İxtisasın (ixtisaslaşmanın) tədris planında göstərilmiş fənlərin tədris illəri və semestrləri üzrə bölgüsünü əks etdirən tədris qrafikinin mövcudluğu vəziyyəti

ADMİU-da hər bir ixtisas və ixtisaslaşma üzrə tədris planına daxil olan fənlərin tədris illərini və semestrlər üzrə bölgüsünü əks etdirən tədris qrafiki (Forma 2) tərtib olunmuşdur. Qrafik təhsil proqramlarının tələblərinə uyğun hazırlanır. Burada fənlərin tədris ardıcıllığı, kredit həcmi, məşğələ növləri və digər zəruri məlumatlar öz əksini tapır.

3.3.3. Tədris planında məcburi və seçmə fənlərin bölgüsünün aparılması vəziyyəti

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində tədris planlarının hazırlanmasında məcburi və seçmə fənlərin bölgüsü sistemli və məqsədyönlü şəkildə həyata keçirilir. Məcburi fənlər tələbələrin ixtisas sahəsində zəruri bilik və bacarıqları əldə etməsini təmin edir, proqramın əsas strukturunu formalaşdırır və bütün tələbələr üçün eyni səviyyədə tətbiq olunur. Bu fənlərin seçimi təhsil prosesinin məqsəd və nəticələrinə uyğun olaraq diqqətlə müəyyən edilir və tələbələrin akademik və peşəkar inkişafına xidmət edir.

Seçmə fənlər tələbələrə ixtisas daxilində və ya kənarında əlavə biliklər və bacarıqlar qazanmaq imkanı yaradır. Bu fənlər tələbələrin fərdi maraq və karyera planlarına uyğun şəkildə seçilir, onların yaradıcı düşüncə, geniş baxış və professional bacarıqlarının inkişafına şərait yaradır. Seçmə fənlərin müxtəlifliyi tələbələrin şəxsi və peşəkar potensialının tam şəkildə üzə çıxmasına dəstək verir.

Tədris planlarında məcburi və seçmə fənlərin kreditləri Avropa Kredit Transfer və Toplanması Sistemi (AKTTS) standartlarına uyğun balanslaşdırılır. Bu, tələbələrin iş yükünün ədalətli paylanmasını təmin edir: məcburi fənlərin kreditləri proqramın əsas tələblərinin ödənilməsinə yönəlirsə, seçmə fənlər tələbələrə təhsil istiqamətlərini fərdiləşdirmək imkanı yaradır. ADMİU-da seçmə fənlərə ayrılan kreditlər ümumi kreditlərin 25-35% təşkil edir.

Belə sistemli və məqsədyönlü yanaşma təhsil keyfiyyətinin yüksəldilməsinə xidmət edir, tələbələrin əmək bazarının tələblərinə uyğun peşəkar hazırlığını təmin edir və onların yaradıcı, bacarıqlı və rəqabətqabiliyyətli mütəxəssis kimi formalaşmasını dəstəkləyir.

3.3.4. Tədris planında ümumi və ixtisas fənləri arasında balansın saxlanılması vəziyyəti

Təhsil proqramlarının tələblərinə uyğun olaraq, ADMİU-da bakalavriat səviyyəsində tədris planlarına daxil olan fənlər üç bloka bölünmüşdür: Ümumi fənlər, İxtisas fənləri və Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən fənlər (ATM tərəfindən müəyyən edilən fənlər). Ümumi fənlərə 30 kredit, o cümlədən mülki müdafiəni əhatə edən İxtisas fənlərinə 60 kredit, Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən fənlərə isə 120 kredit ayrılmışdır. Təcrübəyə 21 kredit, dövlət imtahanı formasında keçirilən Yekun attestasiyaya isə 9 kredit müəyyən edilmişdir. Beləliklə, bakalavriat səviyyəsində təhsil proqramının ümumi həcmi 240 kredit təşkil edir. Tədris planlarında məcburi və seçmə fənlərin kreditləri Avropa Kredit Transfer və Toplanması Sistemi (AKTTS) standartlarına uyğun bölüşdürülür, seçmə fənlərə ayrılan kreditlər isə ümumi kreditlərin 25-35%-ni təşkil edir.

3.3.5. Fənnin təlim nəticələrinin ixtisasın nəticələri ilə əlaqələndirilməsi, uyğun olmayan təlim nəticələrinin müəyyən edilməsi, nəzarət edilməsi və qiymətləndirilməsi mexanizmlərinin mövcudluğu vəziyyəti

Universitetdə kadr hazırlığı aparılan bütün proqramlar üzrə proqram təlim nəticələri (PTN) və ixtisaslarda tədris olunan fənlər üzrə fənn təlim nəticələri (FTN) müəyyənləşdirilmişdir. 2023-cü ildə təsdiq edilmiş sillabus formalarında fənlərin təlim nəticələri və onların peşə kompetensiyaları ilə əlaqəsi üçün ayrıca bölmələr nəzərdə tutulmuşdur. Fənlərin təlim nəticələri müəllimlərin sillabuslarında ixtisasın təlim nəticələrinə uyğun olaraq öz əksini tapır. Bununla belə, aparılmış qiymətləndirmələr bəzi sillabuslarda təlim nəticələrinin formal xarakter daşıdığını, konkret və ölçülə bilən şəkildə ifadə olunmadığını göstərir. Təlim nəticələrinin hazırlanmasında vahid yanaşmanın təmin edilməsi və onlara mərkəzləşdirilmiş nəzarət mexanizminin gücləndirilməsi zəruridir. Hazırda yeni təhsil proqramlarının hazırlanması və akkreditasiya prosesi çərçivəsində Tədris şöbəsi, fakültə və kafedralar, Keyfiyyət təminatı və strateji planlama departamenti və Keyfiyyət Təminatı Komissiyası tərəfindən sillabuslar yenilənir və təlim nəticələri təhsil proqramlarının məqsədlərinə uyğunlaşdırılır.

3.3.6. Fənnin təlim nəticələrinin fənn sillabuslarında öz əksini tapması və buna nəzarət mexanizmlərinin mövcudluğu vəziyyəti

ADMİU-da ixtisaslar üzrə tədris olunan fənlərin sillabusları müəllimlər tərəfindən fənnin təlim nəticələri, təhsil proqramının məqsədləri və məzunun əldə edəcəyi peşə kompetensiyaları əsas götürülərək hazırlanır. Sillabuslar ixtisasların spesifik xüsusiyyətləri nəzərə alınmaqla tərtib edilir, kafedralarda müzakirə olunur və təsdiq edilir. 2023-cü ildə təsdiq edilmiş yeni sillabus formalarında fənlərin təlim nəticələri və onların

peşə kompetensiyaları ilə əlaqəsi üçün ayrıca bölmələr nəzərdə tutulmuşdur. Bu dəyişiklik fənn təlim nəticələrinin ixtisas üzrə yekun təlim nəticələri ilə uzlaşdırılmasına şərait yaratmışdır.

Sillabuslarda təlim nəticələrinin öz əksini tapmasına fakültələr və kafedralar tərəfindən nəzarət edilir. Bununla belə, aparılmış qiymətləndirmələr bəzi sillabuslarda təlim nəticələrinin formal xarakter daşıdığını, konkret və ölçülə bilən şəkildə ifadə olunmadığını göstərir. Təlim nəticələrinin hazırlanmasında vahid yanaşmanın təmin edilməsi və onlara nəzarət edən mərkəzləşdirilmiş mexanizmin gücləndirilməsi zəruridir. Hazırda yeni təhsil proqramlarının hazırlanması və akkreditasiya prosesi çərçivəsində sillabusların yenilənməsi və təhsil proqramlarının tələblərinə uyğunlaşdırılması istiqamətində işlər davam etdirilir.

3.3.7. Tədris planında semestrlərdə nəzərdə tutulmuş fənlərin sayının və həftəlik dərs yükünün tələbəyə dərsdənkənar məşğələlərə vaxt ayırmasına imkan verməsi vəziyyəti

ADMİU-da ixtisas və ixtisaslaşmalar üzrə tədris planlarında nəzərdə tutulmuş fənlərin sayı və həftəlik dərs yükü tələbələrin həm auditoriya məşğələlərinə, həm də dərsdənkənar fəaliyyətlərə vaxt ayırmasına şərait yaradır. Belə ki, semestr ərzində tələbənin həftəlik auditoriya dərs yükü orta hesabla 20–26 saat həddində saxlanılır. Bununla yanaşı, tədris planları hər bir ixtisasın spesifik xüsusiyyətləri nəzərə alınmaqla tənzimlənir. Musiqi, teatr, rejissorluq və digər yaradıcılıq ixtisaslarında tədrisin praktiki xarakter daşıması səbəbindən fənlərin sayı və həftəlik dərs saatları nisbətən yüksəkdir. Bu ixtisaslarda dərslərlə yanaşı məşqlər, fərdi hazırlıq və yaradıcılıq fəaliyyəti də mühüm yer tutur. Praktiki dərslərin çoxluğu bəzi hallarda tələbələrin dərsdənkənar fəaliyyətə ayırdığı vaxtı məhdudlaşdırır. Ona görə dərs yükünün balanslaşdırılması, seçmə fənlərin düzgün planlaşdırılması və fənlər arasında təkrarların aradan qaldırılması istiqamətində işlər aparılır.

3.3.8. Tələbələrin tədris ili ərzində təhsil alacağı fənləri, onların müvafiq kreditlərini, fənlər üzrə müəllimlərin siyahısını əks etdirən fərdi tədris planının mövcudluğu vəziyyəti

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində (ADMİU) tələbələrin fərdi tədris planlarının hazırlanması ali təhsildə kredit sisteminin təşkili qaydalarına uyğun həyata keçirilir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 dekabr 2013-cü il tarixli 348 nömrəli Qərarı ilə təsdiq edilmiş müvafiq Qaydalara əsasən, hər tədris ili üçün ixtisasın (ixtisaslaşmanın) tədris qrafiki nəzərə alınmaqla fərdi tədris planı tərtib olunur (https://e-qanun.az/framework/27030). Planlarda tələbənin təhsil alacağı fənlər, onların kreditləri və fənlər üzrə müəllimlərin siyahısı əks etdirilir. Fərdi tədris planı fənlərin prerekvizitləri nəzərə alınmaqla, tyutorların (akademik məsləhətçilərin) dəstəyi və tələbənin iştirakı ilə hazırlanır. Tələbələr fənn və müəllim seçimində sərbəstdirlər, növbəti tədris ili üçün plan tərtib edilərkən isə əvvəlki ildən qalan akademik borclar nəzərə alınır.

ADMİU-da fərdi tədris planlarının formalaşdırılması müvafiq struktur sənədlərlə tənzimlənir, planlar universitetin informasiya sisteminə daxil edilir və fakültə dekanlıqları tərəfindən nəzarətdə saxlanılır. Bununla yanaşı, seçmə fənlərin məhdudluğu tələbələrin seçim imkanlarını azalda, müəllimlərin siyahısının əvvəlcədən müəyyənləşdirilməsi isə bəzi hallarda təşkilati çətinliklər yarada bilər. Bu baxımdan, fərdi tədris planlarının tələbəyönümlülüyünün artırılması və fənn seçimi imkanlarının genişləndirilməsi məqsədəuyğundur.

3.3.9. İxtisasın (ixtisaslaşmanın) tədris planına və tələbələrin fərdi tədris planlarına uyğun hazırlanmış, cari tədris ilində tədris olunacaq fənlərin adlarını, dərsin növlərini, fənlərin kreditlərini və tələbələrin sayını özündə əks etdirən ixtisaslar (ixtisaslaşmalar) üzrə illik işçi tədris planın mövcud olması vəziyyəti

Kredit sisteminin tələblərinə uyğun olaraq, ADMİU-da ixtisasın (ixtisaslaşmanın) təhsil proqramı əsasında tədris planı və hər tədris ili üçün illik işçi tədris planı hazırlanır (Forma 3). İllik işçi tədris planları ixtisasların tədris planlarına və tələbələrin fərdi tədris planlarına uyğun olaraq tərtib edilir və tədris illəri üzrə təsdiqlənir. Bu planlarda fənlərin adları, tədris məşğələlərinin (dərslərin) əsas növləri (mühazirə, seminar, məşğələ, fərdi və digər dərslər), kredit həcmi, tədris olunduğu semestr və tələbə sayı əks olunur. Universitetdə illik işçi tədris planları müəllimlərin dərs yükünün müəyyənləşdirilməsi, auditoriya fondunun və maddi-texniki resursların planlaşdırılması üçün əsas götürülür.

3.3.10. Müəllimlərin tədris etdiyi fənləri, mühazirə və məşğələlərə (laboratoriya işlərinə) ayrılan saatların miqdarını, həmin fənlərin semestrlər üzrə tədrisini, həmçinin fənn üzrə tələbələrin sayını özündə əks etdirən müəllimin illik işçi tədris planın mövcud olması vəziyyəti

ADMİU-da müəllimlərin illik işçi tədris planlarının mövcudluğu tədris prosesinin planlaşdırılması və idarə olunması baxımından mühüm əhəmiyyət daşıyır. Müəllimlərin illik işçi tədris planları (Forma 5) onların tədris etdikləri fənləri, mühazirə və digər məşğələlərə ayrılan saatların miqdarını, fənlərin semestrlər üzrə bölgüsünü, eləcə də hər fənn üzrə tələbələrin sayını əks etdirir. Bu sənəd müəllimin tədris fəaliyyətinin planlaşdırılması, dərs yükünün müəyyənləşdirilməsi və akademik fəaliyyətin əlaqələndirilməsi üçün əsas vasitələrdən biri hesab olunur. ADMİU-da müəllimlərin illik işçi tədris planları kafedralar tərəfindən hazırlanır və kafedra müdiri tərəfindən təsdiqlənir.

3.3.11. Tədris növləri üzrə tədrisin təşkilinin uyğunluq dərəcəsi (mühazirə, seminar, laboratoriya işi və praktik məşğələlərin təşkili vəziyyəti)

ADMİU-da kadr hazırlığı aparılan ixtisaslar üzrə tədris təhsil proqramları əsasında hazırlanmış tədris planlarına uyğun təşkil edilir. Tədris planlarında hər bir fənnin xüsusiyyətləri nəzərə alınaraq mühazirə, seminar, fərdi, əməli, təcrübi və praktik məşğələlər nəzərdə tutulmuşdur. Mühazirələr ixtisasın nəzəri və konseptual əsaslarının mənimsənilməsinə yönəlir. Seminarlar isə tələbələrin fəal iştirakını, diskussiya və təhlil bacarıqlarının inkişafını təmin edir. Fərdi, əməli, təcrübi və praktik məşğələlər əsasən

musiqi, teatr, təsviri sənət və dizayn kimi yaradıcılıq ixtisaslarında keçirilir. Bu məşğələlərdə tələbələr fərdi və qrup işləri vasitəsilə peşə bacarıqlarını real iş şəraitinə yaxın mühitdə inkişaf etdirirlər. Bununla yanaşı, bəzi praktik məşğələlərin texniki təminatının və avadanlıq bazasının gücləndirilməsinə ehtiyac vardır.

3.3.12. Məsləhət xidmətinin təşkili vəziyyəti

ADMİU-da tələbələrə göstərilən məsləhət xidmətlərinin təşkili ali təhsilin keyfiyyətinin yüksəldilməsi və tələbələrin fərdi inkişafının dəstəklənməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Universitetdə bu xidməti akademik məsləhətçi kimi fəaliyyət göstərən tyutorlar həyata keçirir. Tyutorlar tədris prosesinin təşkili ilə bağlı bütün zəruri məlumat və sənədləri tələbələrə təqdim edir, təhsil proqramı və fənn seçimi üzrə onlara dəstək göstərirlər. Onlar tələbələrə fərdi tədris planlarının tərtibində məsləhətlər verir, bu planların qəbulunu təşkil edir və zəruri hallarda planlarda dəyişiklik edilməsinə kömək edirlər. Bundan əlavə, tyutorlar ixtisaslar (ixtisaslaşmalar) üzrə illik işçi tədris planlarının tərtibində və yay semestrinin təşkilində iştirak edirlər. Bütün bu fəaliyyət zamanı tyutorlar tələbələrin hüquqlarını və akademik maraqlarını qoruyurlar.

3.3.13. Məsləhət xidməti və müəllimin rəhbərliyi altında tələbələrin sərbəst işinin hazırlanmasının təşkili vəziyyəti

ADMİU-da məsləhət xidməti və tələbələrin müəllimlə birgə sərbəst işinin təşkili təhsil prosesinin mühüm komponentlərindəndir. Məsləhət xidməti tələbələrə fərdi tədris planlarının hazırlanması, fənn seçimi və akademik məsələlərin həlli ilə bağlı dəstək göstərilməsini nəzərdə tutur. Bu proses tələbələrin tədris fəaliyyətinin səmərəli təşkili və akademik inkişafının dəstəklənməsinə xidmət edir.

Tələbələrin sərbəst işinin təşkili Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 dekabr 2013-cü il tarixli 348 nömrəli Qərarı ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində kredit sistemi ilə tədrisin təşkili Qaydaları”nın 3.2.7.2-ci bəndinə uyğun olaraq müəllimin rəhbərliyi altında həyata keçirilir (https://e-qanun.az/framework/27030). Sərbəst işlərin hazırlanması zamanı müəllimlər tələbələrə mövzunun seçilməsi, işin planlaşdırılması və icrası ilə bağlı istiqamət verir, nəticələrin qiymətləndirilməsini həyata keçirirlər. Bu yanaşma tələbələrin müstəqil araşdırma, yaradıcı düşünmə və praktiki bacarıqlarının inkişafına şərait yaradır.

3.3.14. Təcrübə (tədris, pedaqoji, arxeoloji, çöl, istehsalat, diplomqabağı və s.) işinin təşkili vəziyyəti

ADMİU-da təcrübənin təşkili Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 dekabr 2023-cü il tarixli 489 nömrəli qərarı ilə təsdiq edilmiş “Ali və orta ixtisas təhsili müəssisələri tələbələrinin ixtisas üzrə təcrübə keçmə Qaydası”na uyğun olaraq həyata keçirilir. Təcrübə tələbələrin nəzəri biliklərini praktik fəaliyyətlə tamamlaması və peşə bacarıqlarını inkişaf etdirməsi baxımından böyük əhəmiyyət kəsb edir. Universitetin tədris planlarında müxtəlif növ təcrübələr, o cümlədən tədris, pedaqoji, istehsalat və diplomqabağı təcrübə nəzərdə tutulur və onların təşkili sistemli şəkildə həyata keçirilir.

Tədris və pedaqoji təcrübələr tələbələrin gələcək müəllimlik fəaliyyətinə hazırlığını təmin etmək məqsədilə təşkil olunur. Bu təcrübələr zamanı tələbələr müvafiq məktəblərdə və təhsil müəssisələrində dərs apararaq pedaqoji bacarıqlarını inkişaf etdirirlər.

İstehsalat təcrübəsi daha çox incəsənət və dizayn ixtisaslarında tələbələrin yaradıcı və texniki biliklərini praktikada tətbiq etməsinə xidmət edir. Diplomqabağı təcrübə isə tələbələrin buraxılış işlərinə hazırlıq mərhələsi kimi planlaşdırılır və elmi-tədqiqat işlərinin təcrübədə yoxlanılması üçün zəmin yaradır.

Universitetdə təcrübə bazalarının müəyyənləşdirilməsi və onlarla əlaqələrin qurulması istiqamətində işlər aparılır. Təcrübə rəhbərlərinin və məsul şəxslərin fəaliyyəti tələbələrin təcrübə müddətində keyfiyyətli hazırlıq almaları üçün mühüm rol oynayır. Bununla belə, bəzi ixtisaslarda təcrübə bazalarının məhdudluğu müşahidə olunur. Ümumilikdə, ADMİU-da təcrübənin təşkili tələbələrin peşə hazırlığının artırılmasında mühüm rol oynayır. Təcrübə bazalarının genişləndirilməsi, resursların artırılması və təcrübə prosesinin təşkilinin təkmilləşdirilməsi istiqamətində isə əlavə tədbirlərin görülməsi zəruridir.

Təcrübə bazalarına aşağıdakı müəssisələr daxildir: Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin İncəsənət və qeyri-maddi mədəni irs şöbəsinin Teatr sektoru, Azərbaycan Dövlət Akademik Musiqili Teatrı, Akademik Milli Dram Teatrı, Beynəlxalq Muğam Mərkəzi, Mədəniyyət telekanalı, AMEA-nın Memarlıq və İncəsənət İnstitutu, Bakı Media Mərkəzi, Azərbaycan Respublikası Kino Agentliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Sosial Xidmətlər Agentliyi və Azərbaycan Turizm Bələdçiləri Assosiasiyası yer alır.

3.3.15. Stajkeçmənin təşkili vəziyyəti

ADMİU-da stajkeçmənin təşkili tələbələrin peşəkar bacarıqlarının inkişafı, nəzəri biliklərinin praktikada tətbiqi və gələcək əmək fəaliyyətinə hazırlanması baxımından mühüm əhəmiyyət daşıyır. Stajkeçmə prosesi ixtisasların xüsusiyyətlərinə uyğun planlaşdırılır, tədris planlarına inteqrasiya edilir və tələbələrin müvafiq peşə sahələrində praktiki təcrübə qazanmalarına yönəldilir. Bu prosesin səmərəli təşkili üçün müvafiq müəssisə və təşkilatlarla əməkdaşlıq, metodiki və təşkilati dəstəyin göstərilməsi, stajkeçmənin nəticələrinin qiymətləndirilməsi və sənədləşdirilməsi vacib şərtlərdir.

Universitetin təcrübə və təhsil sahəsində əməkdaşlıq çərçivəsində həyata keçirdiyi proqramlar peşə bacarıqlarının inkişafı və təcrübə mübadiləsi baxımından nümunə kimi çıxış edir. Belə ki, beynəlxalq əməkdaşlıq çərçivəsində dizayn və musiqi müəllimliyi istiqamətləri üzrə təşkil edilmiş ixtisasartırma proqramında iştirakçılar əyani və distant təlimlərə cəlb olunmuş, müasir pedaqoji yanaşmalar, innovativ tədris metodları və yaradıcı texnologiyalar üzrə nəzəri və praktiki hazırlıq keçmişlər (https://admiu.edu.az/admiu-il%c9%99-n%c9%99vai-dovl%c9%99t-universiteti-arasinda-%c9%99m%c9%99kdasliq-c%c9%99rciv%c9%99sind%c9%99-ixtisasartirma-proqrami-h%c9%99yata-kecirilir/). Bu təcrübə təhsil sahəsində əməkdaşlığın genişləndirilməsinə və peşəkar kompetensiyaların inkişafına töhfə verir (https://admiu.edu.az/elm-v%c9%99-t%c9%99hsil-sah%c9%99l%c9%99rind%c9%99-

beyn%c9%99lxalq-%c9%99m%c9%99kdasligin-genisl%c9%99ndirilm%c9%99si-m%c9%99qs%c9%99dil%c9%99-ozb%c9%99kistan-respublikasinin-n%c9%99vai-dovl%c9%99t-un/).

3.3.16. Kurs layihəsinin (işi) və referatların hazırlanması və müdafiəsi işinin təşkili vəziyyəti

ADMİU-da kurs layihələrinin (işlərinin) və referatların hazırlanması və müdafiəsi müvafiq fənn proqramlarına uyğun olaraq təşkil edilir. Tələbələr müəyyən mövzu üzrə müstəqil araşdırma aparır, nəticələri yazılı şəkildə tərtib edir və kafedralarda müəyyən olunmuş qaydada müdafiə edirlər. Mövzu seçimi, məlumatların toplanması və təhlili, eləcə də elmi yazı qaydaları ilə bağlı tələbələrə metodiki dəstək göstərilir. İşlər əvvəlcədən müəyyən edilmiş meyarlar əsasında qiymətləndirilir. Bu proses tələbələrin elmi-tədqiqat fəaliyyətinə cəlb olunmasına, analitik düşüncə və təqdimat bacarıqlarının inkişafına xidmət edir. Bununla yanaşı, mövzuların çeşidinin genişləndirilməsi, metodiki dəstəyin və işlərin vaxtında hazırlanmasına nəzarət mexanizmlərinin gücləndirilməsi zəruridir.

3.3.17. Buraxılış işi və magistr dissertasiyasının hazırlanması və müdafiəsinin təşkili vəziyyəti

ADMİU-da buraxılış işinin hazırlanması və müdafiəsinin təşkili Azərbaycan Respublikası Təhsil Nazirliyinin 13 mart 1997-ci il tarixli 152 saylı əmri ilə təsdiq edilmiş “Ali məktəbin bakalavr pilləsində buraxılış işlərinin hazırlanması” sənədinə əsasən həyata keçirilir. Magistr dissertasiyasının hazırlanması və müdafiəsi isə Azərbaycan Respublikasının “Təhsil haqqında” Qanununa, Nazirlər Kabinetinin 12 may 2010-cu il tarixli 88 nömrəli qərarı ilə təsdiq edilmiş “Magistratura təhsilinin məzmunu, təşkili və “magistr” dərəcələrinin verilməsi Qaydaları”na, Nazirlər Kabinetinin 24 iyun 2010-cu il tarixli 117 nömrəli qərarı ilə təsdiq edilmiş “Bakalavriat (əsas (baza ali) tibb təhsili) təhsilinin məzmunu və təşkili Qaydaları”na, Təhsil Nazirliyinin 20 aprel 1998-ci il tarixli əmri ilə təsdiq edilmiş “Magistrlik dissertasiyasının hazırlanması, təqdim olunması və müdafiəsi qaydaları haqqında Əsasnamə”yə, eləcə də ali təhsilin magistratura səviyyəsini tənzimləyən digər normativ hüquqi aktlara və ADMİU Elmi Şurasının qərarlarına uyğun olaraq təşkil edilir.

ADMİU-nun beş fakültəsindən dördü xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə kadr hazırlayan yaradıcılıq fakültəsidir. Ona görə universitetdə buraxılış işi və magistr dissertasiyası ilə yanaşı, yaradıcılıq işlərinin (tamaşa, film, konsert, rəngkarlıq əsərləri, dekorativ-tətbiqi sənət nümunələri, dizayn layihələri və s.) hazırlanması və müdafiəsi də həyata keçirilir. Hər bir tələbəyə elmi rəhbər təyin edilir. İşin hazırlanması planın təsdiqi, ilkin təqdimat, yekun variant və müdafiə mərhələlərini əhatə edir. Müdafiə və ya yaradıcılıq işinə baxış Dövlət Attestasiya Komissiyası qarşısında keçirilir, təqdimat bacarığı da qiymətləndirmə meyarlarına daxildir.

Ümumilikdə, ADMİU-da buraxılış işi və magistr dissertasiyası üzrə təşkilati mexanizmlər mövcuddur və tətbiq olunur, lakin keyfiyyətin artırılması üçün elmi rəhbərlik,

metodik baza, rəqəmsal resurslar və qiymətləndirmə meyarları sahəsində əlavə inkişaf zəruridir.

3.3.18. İmtahan sessiyasının təşkili vəziyyəti

ADMİU-da imtahan sessiyasının təşkili ali təhsil müəssisələri üçün müəyyən olunmuş normativ sənədlərə və daxili qaydalara əsasən həyata keçirilir. İmtahan prosesi tələbələrin fənn üzrə əldə etdikləri bilik və bacarıqları obyektiv şəkildə qiymətləndirmək məqsədi daşıyır. Tələbələrə imtahanlara hazırlıq üçün əvvəlcədən imtahan suallarının mövzuları və qiymətləndirmə meyarları təqdim olunur. Qiymətləndirmə 100 ballıq sistem əsasında aparılır və yekun qiymətə semestr ərzində toplanan bal (cari qiymətləndirmə) da daxil edilir. İmtahan cədvəlləri əvvəlcədən elan olunur, imtahanların təşkili və keçirilməsi dekanlıqlar və tədris şöbəsi tərəfindən nəzarətdə saxlanılır.

ADMİU-da hər semestrin sonunda 5 həftədən ibarət imtahan sessiyası təşkil olunur. İmtahan sessiyası “Kredit sistemi ilə təhsil alan tələbələrin fənlər üzrə imtahanları” və ”Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi haqqında” Təhsil Nazirliyinin 11.09.2008-ci il tarixli 1059 və 1060 saylı əmrləri, həmçinin “Ali təhsil müəsissələrinin bakalavriat və magistratura səviyyələrində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları”nın tələblərinə uyğun təşkil olunub. Qeyd olunan qaydalar əsasında imtahan sessiyalarının təşkili haqqında Universitetin rektoru tərəfindən əmr imzalanır.

ADMİU Elmi Şurasının 14 sentyabr 2017-ci il tarixli qərarı (protokol №01) ilə Tədrisin elektron idarə edilməsi və imtahanların təşkili şöbəsi yaradılmış və universitetdə elektron dərs cədvəli və elektron jurnaldan ibarət Elektron portal fəaliyyətə başlamışdır. İmtahan sessiyası zamanı Şöbə müəllimlərin semestr ərzində apardığı qeydlər və qiymətləndirmə əsasında tələbələrə giriş balları verir. Semestrin əvvəlində kafedralar fənlər üzrə imtahan sual bloklarını Şöbəyə təqdim edir. Sualların tələblərə uyğunluğu Şöbədə yoxlanılır, onların əsasında biletlər tərtib edilərək çap olunur.

İmtahanlar universitetin daxili “İmtahan qaydaları”na uyğun keçirilir. Nəzəri ixtisaslar üzrə imtahanlar yazılı və şifahi, xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə isə konsert, tamaşa, film, rəqs və baxış formalarında təşkil olunur. İmtahan otaqlarında qaydalara əməl olunmasına universitet əməkdaşlarından ibarət nəzarətçi-koordinatorlar nəzarət edir. Tələbələrin yazılı cavab vərəqləri işçi qrup tərəfindən kodlaşdırılır, müəllimlər tərəfindən yoxlanıldıqdan sonra ballar hesablanaraq fakültələrə təhvil verilir. Qiymətləndirmə vərəqinin əlyazma nüsxəsinin surəti çıxarılır və əsas vərəqlə tutuşdurulur.

Obyektivliyi və şəffaflığı təmin etmək məqsədilə rektorun əmri ilə Qaynar xətt və Operativ imtahan qərargahı yaradılır. İmtahan nəticələri ilə bağlı şikayətlərə baxılması üçün Apellyasiya komissiyası fəaliyyət göstərir. Tələbələr şikayətlərini rektorun elektron poçt ünvanına da göndərə bilirlər.

3.3.19. Yay semestrinin təşkili vəziyyəti


ADMİU-da yay semestrinin təşkili Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 dekabr 2013-cü il tarixli 348 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"nın 3.4-cü bəndinə uyğun həyata keçirilir (https://e-qanun.az/framework/27030). Yay semestri tələbələrin akademik borclarının aradan qaldırılması, əvvəlki fənlər üzrə qeyri-kafi qiymətlərin yaxşılaşdırılması və fərdi tədris planlarına uyğun əlavə fənlərin mənimsənilməsi məqsədi daşıyır.

2020–2025-ci illər ərzində universitetdə yay semestri hər il altı həftə müddətində təşkil edilmişdir. Yaz semestri başa çatmamış tələbələrə akademik borcların ödənilməsi və ya qiymətlərin yüksəldilməsi məqsədilə müraciət etmək imkanı yaradılır. Daxil olan müraciətlər əsasında kafedralara müvafiq bildirişlər göndərilir, yay semestrində tədris olunacaq fənlərin siyahısı hazırlanır, dərsləri aparacaq professor-müəllim heyəti müəyyənləşdirilir və tələbələrin qeydiyyatı təşkil olunur. Prosesin gedişinə, müvafiq sənədlərin hazırlanmasına və təsdiqinə Tədris şöbəsi tərəfindən nəzarət edilir. Tələbələrin yay semestrində iştirakı könüllülük prinsipi əsasında həyata keçirilir və tədris ödənişli əsaslarla təşkil olunur. Ödəniş məbləği universitetin Elmi Şurası tərəfindən müəyyən edilmiş qaydalarla tənzimlənir.

Yay semestrində tədris prosesi intensiv qrafik üzrə aparılır və semestrə nəzərdə tutulan dərs yükü qısa müddətdə mənimsənilir. Sonuncu, VI həftədə imtahanlar keçirilir, əldə olunan kreditlər isə tələbələrin əsas tədris planında nəzərə alınır.


Bununla yanaşı, müşahidələr yay semestrində təklif olunan fənlərin çeşidinin bəzi hallarda tələbələrin ehtiyaclarını tam qarşılamaq üçün kifayət etmədiyini göstərir. Xüsusilə, kino və teatr sahələri üzrə bəzi ixtisaslarda praktiki və yaradıcı fənlərin qısa müddətdə təşkili çətinlik yaradır. Bu fənlərin spesifik xüsusiyyətləri, uzunmüddətli praktiki hazırlıq və fərdi yanaşma tələb etməsi yay semestrinin imkanlarını məhdudlaşdıra bilər. Bu baxımdan, fənn seçiminin genişləndirilməsi və ixtisasların xüsusiyyətlərinin nəzərə alınması yay semestrinin səmərəliliyinin artırılması üçün əhəmiyyətlidir.

2021/2022–2024/2025-ci tədris illərində yay məktəbində iştirak edən tələbələrin sayı ardıcıl olaraq artmışdır. 2021/2022-ci tədris ilində yay məktəbində 52 tələbə iştirak etmiş, sonrakı illərdə bu göstərici 2022/2023-cü ildə 81, 2023/2024-cü ildə 85, 2024/2025-ci ildə isə 113 nəfərə yüksəlmişdir. Beləliklə, dörd il ərzində iştirakçıların sayı iki dəfədən çox artmışdır. Bütün dövr ərzində müvəffəqiyyət göstəricisi yüksək səviyyədə qalmış, 92,9–95,6% arasında dəyişmişdir. 2021/2022-ci ildə 94,2% olan bu göstərici 2023/2024-cü ildə 92,9%-ə ensə də, 2024/2025-ci ildə dövrün ən yüksək həddinə, 95,6%-ə çatmışdır. İştirakçıların sayının artmasına baxmayaraq, müvəffəqiyyət səviyyəsinin sabit qalması yay məktəbində tədrisin və qiymətləndirmənin keyfiyyətinin qorunduğunu göstərir.



Şəkil 3.3. Yay məktəbi üzrə tələbələrin müvəffəqiyyət göstəriciləri

2021/2022–2024/2025-ci tədris illərində yay məktəbində tədris olunan fənlərin sayı 43-dən 54-ə yüksəlmişdir. Eyni dövrdə yay məktəbinə cəlb olunan müəllimlərin sayı isə ardıcıl azalaraq 30 nəfərdən 19 nəfərə enmişdir. Nəticədə bir müəllimə düşən iş yükü əhəmiyyətli dərəcədə artmışdır. 2021/2022-ci ildə bir müəllimə orta hesabla 1,4 fənn və 1,7 tələbə düşdüyü halda, 2024/2025-ci ildə bu göstəricilər müvafiq olaraq 2,8 fənnə və 5,9 tələbəyə çatmışdır. İştirakçıların və fənlərin sayının artdığı şəraitdə professor-müəllim heyətinin azalması dərs yükünün az sayda müəllim üzərində cəmləşməsinə səbəb olur. Bu səbəbdən yay məktəbinə cəlb olunan müəllimlərin sayının artırılması məqsədəuyğun hesab edilir.



Şəkil 3.4. Yay məktəbi üzrə müəllim və fənn sayı

3.3.20. Kredit borcu olan tələbələrin tədris illəri üzrə dinamikası

ADMİU-da kredit borcu olan tələbələrin sayı tədris illəri üzrə dəyişkəndir: müvafiq illərə görə artım və azalma müşahidə olunur. Kredit borcu halları daha çox I və II tədris ili tələbələri arasında, xüsusilə nəzəri və ümumi fənlər üzrə rast gəlinir. Bu, tələbələrin yeni təhsil mühitinə uyğunlaşması, davamiyyətin zəifliyi və bəzi hallarda akademik motivasiyanın aşağı olması ilə əlaqədardır. ADMİU-da kredit borcu olan tələbələrin sayının tədris illəri üzrə inkişaf dinamikası mövcud deyildir.

3.3.21. Kredit borcu yaranmış fənlərin ümumi həcminin tədris illəri üzrə dinamikası

ADMİU-da kredit borcu yaranmış fənlərin ümumi həcmi tədris illəri üzrə dəyişkəndir: bəzi illərdə artım, bəzi illərdə isə azalma müşahidə olunur. Kredit borcu yaranan fənlərin əsas hissəsini ümumi fənlər təşkil edir. Bu hal xüsusilə xüsusi qabiliyyət tələb edən ixtisaslarda təhsil alan tələbələr arasında nəzərə çarpır. İxtisas və yaradıcılıq fənləri üzrə isə kredit borcu hallarına nisbətən az rast gəlinir. Universitetdə həyata keçirilən tənzimləyici və profilaktik tədbirlər kredit borcu yaranmış fənlərin həcminin nəzarətdə saxlanılmasına, tədris prosesinin fasiləsizliyinin və akademik intizamın təmin olunmasına xidmət edir. ADMİU-da kredit borcu yaranmış fənlərin ümumi həcminin tədris illəri üzrə inkişaf dinamikası mövcud deyildir.

3.3.22. Tədris prosesi ilə bağlı tətbiq edilən normaların səmərəliliyinin izlənilməsi və təkmilləşdirilməsi vəziyyəti

ADMİU-da tədris prosesini tənzimləyən normativ sənədlərin və qaydaların səmərəliliyinin izlənilməsi təhsil sahəsində qüvvədə olan qanunvericilik aktları və universitetin daxili prosedurları əsasında həyata keçirilir. Tədrisin təşkili Avropa Kredit Transferi və Toplanması Sistemi (AKTTS) prinsiplərinə uyğun olaraq, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 dekabr 2013-cü il tarixli 348 nömrəli Qərarı ilə təsdiq edilmiş kredit sistemi ilə tədrisin təşkili Qaydalarına əsaslanır (https://e-qanun.az/framework/27030). Bu çərçivədə tələbələrin fərdi tədris planlarının hazırlanması, fənn və müəllim seçimi, nəzərdə tutulan kreditlərin toplanması, biliyin çoxballı sistemlə qiymətləndirilməsi, fənlərin sillabus və fənn proqramlarına uyğun tədrisi təmin edilməlidir.

ADMİU-da professor-müəllim heyətinin dərs yükünün bölgüsü isə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 noyabr 2010-cu il tarixli 215 nömrəli Qərarı ilə təsdiq edilmiş “Təhsil müəssisələrinin pedaqoji işçilərinin dərs yükü normalarının müəyyən edilməsi haqqında” müvafiq tələblərə uyğun tənzimlənir. Həmin normalara əsasən, professor-müəllim heyətinin tam ştat üzrə illik dərs yükü 500 saatdan az olmamaqla müəyyən edilir, bu yükün ən azı 60 faizi mühazirə, seminar, laboratoriya və praktiki məşğələlərə ayrılır. Saathesabı dərs yükü isə 240 saatdan artıq olmamalıdır.

Tədris prosesinin keyfiyyətinin izlənilməsi və təkmilləşdirilməsi məqsədilə dərslərin monitorinqi, açıq dərslər, qarşılıqlı dərs dinləmələri, ustad dərsləri və digər metodiki tədbirlər həyata keçirilir. Monitorinq nəticələri aidiyyəti struktur bölmələrdə müzakirə olunur, müəyyən edilmiş çatışmazlıqların aradan qaldırılması üçün təkliflər hazırlanır və

müvafiq qərarlar qəbul edilir. Bununla yanaşı, tələbə sorğuları və müəllimlərin hesabatları tədrisin təşkili, tətbiq olunan metodların səmərəliliyi və təhsilalanların məmnunluğunun qiymətləndirilməsi baxımından əhəmiyyət daşıyır.

3.4. Tədris metodları və üsulları

3.4.1. Təlim nəticələrinin əldə olunmasını təmin edən innovativ, yaradıcı və interaktiv metod və texnologiyalardan istifadə vəziyyəti

ADMİU-da təlim nəticələrinin əldə olunmasını təmin edən innovativ, yaradıcı və interaktiv metod və texnologiyalardan istifadə tədris prosesinin keyfiyyətini yüksəltmək və tələbələrin aktiv iştirakını təmin etmək məqsədilə mərhələli şəkildə tətbiq olunur.

İncəsənət yönümlü ixtisaslarda müəllimlər dərsləri daha çox praktik, yaradıcı və vizual metodlarla təşkil etməyə çalışırlar. Bu kontekstdə layihə əsaslı öyrənmə, fərdi və qrup yaradıcılıq tapşırıqları, tənqidi düşünmə və problem həllinə əsaslanan müzakirələr kimi yanaşmalardan istifadə olunur. Tələbələrin bacarıq yönümlü nəticələrə çatması üçün ustad dərsləri, performans təqdimatları, tamaşa analizləri və portfoliolara əsaslanan qiymətləndirmə metodları da geniş tətbiq edilir.

Universitetdə son illərdə rəqəmsal texnologiyaların tədrisə inteqrasiyası istiqamətində müəyyən addımlar atılıb. Müəyyən fənlər üzrə təqdimatlar, video dərslər, rəqəmsal platformalar üzərindən müzakirələr, onlayn testlər və tapşırıqlar tədris prosesinin ayrılmaz hissəsinə çevrilib. Xüsusilə pandemiya dövründə yaranan distant tədris təcrübəsi bəzi texnoloji vasitələrin sonrakı illərdə də tətbiqinə zəmin yaradıb.

3.4.2. Tədris metodlarında tələbə yönümlü, problem yönümlü tədris, səriştə əsaslı tədris, nəzəriyəyə və praktiki tətbiqə əsaslanan tədris yanaşmalarından istifadə vəziyyəti

ADMİU-da tədris prosesində tələbəyönümlü, problemyönümlü, səriştə əsaslı, nəzəriyyəyə və praktiki tətbiqə əsaslanan tədris yanaşmalarından istifadə olunur. Son illərdə bu yanaşmaların tətbiqi genişlənsə də, proses inkişaf mərhələsindədir. Universitetin tədris yanaşmasında tələbəyönümlülük prinsipi əsas yer tutur. Dərslərin təşkilində tələbələrin fəal iştirakına, müstəqil araşdırma və təqdimat bacarıqlarının inkişafına xüsusi diqqət yetirilir.

Problemyönümlü tədris əsasən humanitar və sənətşünaslıq fənlərində tətbiq olunur. Tələbələr real və ya modelləşdirilmiş situasiyalar üzərində işləyərək nəzəri bilikləri mənimsəyir və onların praktik tətbiq yollarını araşdırırlar. Bu yanaşma analitik və tənqidi təfəkkürün inkişafına xidmət edir.

Səriştə əsaslı tədris yaradıcılıq ixtisaslarında daha geniş tətbiq olunur. Bu ixtisaslarda tələbələrin texniki bacarıqları ilə yanaşı peşə etikası, təqdimat və özünüifadə bacarıqları da inkişaf etdirilir.

Nəzəri və praktik hazırlığın uzlaşdırılması universitetin tədris strategiyasının tərkib hissəsidir. Tələbələr nəzəri dərslərlə yanaşı studiya dərslərində, səhnə təcrübələrində, ustad dərslərində və layihə əsaslı tapşırıqlarda iştirak edərək biliklərini praktik bacarıqlarla möhkəmləndirirlər.

ADMİU-da müasir tədris yanaşmaları bütün fakültələrdə və müəllimlər tərəfindən eyni səviyyədə tətbiq olunmur. Bəzi müəllimlər ənənəvi mühazirə üsuluna üstünlük verir. Bu səbəbdən professor-müəllim heyətinin müasir tədris metodları üzrə peşəkar inkişafının davam etdirilməsi zəruridir.

3.4.3. Tədris metodlarının bütün təhsil formalarında tətbiqinin mümkünlüyü vəziyyəti

ADMİU-da tələbəyönümlü, problemyönümlü, sərişdə əsaslı, nəzəriyyəyə və praktiki tətbiqə əsaslanan tədris yanaşmalarından formal təhsil çərçivəsində həm əyani, həm də qiyabi təhsilalma formalarında istifadə edilir. Əyani təhsil formasında bu metodların tətbiqi haqqında məlumat 3.4.1-ci indikatorda verilmişdir. Xüsusilə yaradıcılıq ixtisaslarında praktik dərslər, ustad dərsləri, fərdi məşqlər və səhnə fəaliyyəti tələbələrin bilavasitə iştirakı ilə əyani formada uğurla həyata keçirilir. Qiyabi təhsil formasında isə tədris mühazirə materiallarının təqdim olunması, onlayn məsləhətlər, yazılı tapşırıqlar və sessiya dövründə keçirilən intensiv məşğələlər əsasında qurulur. Rəqəmsal texnologiyaların tətbiqi tədris metodlarından bütün təhsil formalarında istifadəni mümkün edir. Bununla belə, müəllimlərin rəqəmsal platformalarda işləmə bacarıqlarının, metodik dəstəyin və texniki infrastrukturun daha da gücləndirilməsi zəruridir.

3.4.4. Tədris metodlarında daha çox dərindən öyrənmə, maraqlanma, motivasiya olunma və öhdəlik götürmə yanaşmalarının tətbiq edilməsi vəziyyəti

ADMİU-da tədris metodlarında daha çox dərindən öyrənmə, maraqlanma, motivasiya olunma və öhdəlik götürmə kimi yanaşmaların tətbiq edilməsi təhsilin keyfiyyətini yüksəltmək baxımından mühüm əhəmiyyət kəsb edir. Bu istiqamətdə son illərdə müəyyən irəliləyişlər olsa da, tətbiq hələ tam sistemli və vahid səviyyədə deyil.

Ənənəvi mühazirə dərsləri ilə yanaşı, bəzi müəllimlər dərslərində problemlərin həlli, yaradıcılıq əsaslı tapşırıqlar, layihə işi, fərdi təqdimatlar və qrup əməkdaşlığına əsaslanan öyrənmə metodlarından istifadə etməklə tələbələrin mövzunu dərindən mənimsəməsinə və öyrəndiklərini tətbiq edə bilməsinə şərait yaradır. Bu, tələbələrdə öyrənməyə qarşı maraq və daxili motivasiya formalaşdırır.

Xüsusilə incəsənət və yaradıcı sahələrdə təhsil alan tələbələr üçün fərdi yanaşma, sərbəst işlərə rəhbərlik və yaradıcılıq imkanlarının tanınması onların dərsə bağlılığını və məsuliyyət hissini artırır. Bu da tələbənin öhdəlik götürmə bacarığının formalaşmasına və peşəkar müstəqilliyin inkişafına zəmin yaradır.

3.4.5. Tədris səviyyələrindən və tələbənin fərdi xüsusiyyətlərindən asılı olaraq uyğunlaşdırılmış tədris metodlarının və üsullarının tətbiqi vəziyyəti

ADMİU-da tədris metodları tədris səviyyəsinə və tələbələrin fərdi xüsusiyyətlərinə uyğun seçilir. Bakalavriat və magistratura səviyyələrində mühazirə, seminar, fərdi və qrup tapşırıqları, praktik məşğələlərlə yanaşı müstəqil elmi axtarış, tədqiqat layihələri, diskussiyalar və təqdimatlardan istifadəyə daha çox üstünlük verilir. Yaradıcılıq ixtisaslarında fərdi məşğələlər və sərbəst tapşırıqlar vasitəsilə hər bir tələbənin yaradıcılıq

potensialı nəzərə alınır. Bununla belə, fərdiləşdirilmiş yanaşma hələlik bütün fənlər üzrə vahid təcrübəyə çevrilməmişdir. Bu da gələcəkdə müəllimlərin yeni tədris metodlarından istifadə bacarıqlarının inkişaf etdirilməsi və həmin metodların tədrisdə tətbiqi istiqamətində işlərin görülməsini zəruri edir.

3.4.6. Tədris prosesinin aktiv öyrənməni təşviq edən texnoloji imkanlar və yanaşmalarla zənginləşdirilməsi vəziyyəti

ADMİU-da tədris prosesinin aktiv öyrənməni təşviq edən texnoloji imkanlar və müasir yanaşmalarla zənginləşdirilməsi istiqamətində son illərdə müəyyən addımlar atılsa da, bu sahədə sistemli və hərtərəfli inkişaf hələlik məhduddur. Universitetdə bəzi fənlər üzrə dərslərin interaktiv təqdimatlarla, video materiallarla və onlayn platformalar üzərindən təşkil olunması aktiv öyrənmə mühitinin formalaşmasına kömək edir. Müəllimlər dərslərdə PowerPoint təqdimatları, YouTube videoları, sənət nümunələri üzrə rəqəmsal analizlər, virtual sərgilər və muzey turları kimi texnoloji alətlərdən istifadə etməyə çalışırlar. Bu, xüsusilə incəsənət və yaradıcılıq yönümlü ixtisaslarda vizual öyrənməni gücləndirir.

ADMİU-da bu imkanlar bütün fakültə və professor-müəllim heyəti səviyyəsində bərabər tətbiq edilmir. Bəzi müəllimlər texnoloji alətlərə tam adaptasiya ola bilmədiyindən, tədris ənənəvi mühazirə formasında qalır. Həmçinin universitetdə rəqəmsal resursların və infrastrukturun (interaktiv lövhələr, kompüter otaqları, multimedia texnikası və s.) yetərli səviyyədə olmaması texnoloji zənginləşməni məhdudlaşdırır.

3.4.7. Yeni təlim və tədris metodlarının və interaktiv öyrənməyəni təşviq etmə vəziyyəti

ADMİU-da yeni təlim və tədris metodlarının tətbiqi və interaktiv öyrənmənin təşviqi istiqamətində son illərdə müəyyən pozitiv dəyişikliklər baş vermişdir. Bu dəyişikliklər tələbəyönümlü tədris modelinə keçid çərçivəsində həyata keçirilən islahatlarla bağlıdır. Universitetdə bir sıra fakültə və ixtisaslarda ənənəvi mühazirə metodları ilə yanaşı, problemlə əsaslandırılmış təlim, layihə əsaslı öyrənmə, qrup işi, fərdi təqdimatlar, yaradıcı fəaliyyətlər və s. olunur. Bu, tələbələrin dərs prosesində daha aktiv iştirak etməsinə, tənqidi düşünmə, analiz və təqdimat bacarıqlarını inkişaf etdirməsinə imkan verir. Xüsusilə incəsənət və yaradıcı ixtisaslar üzrə dərslərdə praktik məşğələlər, səhnə təqdimatları, portfolioların hazırlanması, yaradıcı tapşırıqlar və təcrübə əsaslı öyrənmə modelləri geniş tətbiq olunur. Bu metodlar tələbənin həm nəzəri, həm də praktiki bilikləri mənimsəməsini və şəxsi yaradıcılıq potensialını ortaya çıxarmasını təmin edir.

Bununla belə, yeni təlim metodlarının tətbiqində fakültələr və müəllimlər arasında bərabərlik müşahidə olunmur. Bəzi müəllimlər hələ də ənənəvi, müəllim mərkəzli tədris üsullarına üstünlük verir və interaktiv metodlara keçid etməkdə çətinlik çəkirlər. Yeni metodların effektiv tətbiqi üçün müəllimlərin pedaqoji və texnoloji hazırlığı, metodik və texniki dəstəyin artırılması, təlimlərin təşkili və innovativ tədris yanaşmalarının təşviqi vacibdir.

3.4.8. Tədris metod və üsullarının dövrü olaraq monitorinqi və preventiv tədbirlərin sistematik olaraq qiymətləndirilməsi və təkmilləşdirilməsi vəziyyəti

ADMİU-da tədris metod və üsullarının monitorinqi Tədris şöbəsi, Keyfiyyət təminatı və strateji planlama departamenti, fakültə dekanlıqları və kafedralar tərəfindən dövrü olaraq həyata keçirilir. Monitorinq zamanı dərslərin tədris proqramlarına uyğunluğu, dərs saatlarının icrası və müəllimlərin tətbiq etdiyi metodlar yoxlanılır. Bu məqsədlə dərslərdə iştirak edilir, fənn sillabusları və qiymətləndirmə üsulları təhlil olunur. Keyfiyyət təminatı və strateji planlama departamenti tərəfindən tələbələr arasında sorğular keçirilir və onların nəticələri müvafiq struktur bölmələrə təqdim edilir. Tədris metodlarının təkmilləşdirilməsi üçün müəllimlər üçün metodik seminarlar, daxili təlimlər və təcrübə mübadiləsi tədbirləri keçirilir.

Bununla belə, preventiv tədbirlərin qiymətləndirilməsi bütün struktur bölmələrdə eyni səviyyədə aparılmır. Tələbə sorğularının nəticələri kafedralarda tədris metodlarının səmərəliliyinin qiymətləndirilməsi üçün kifayət qədər istifadə olunmur. Açıq dərslərin protokollarında yeni tədris metodlarının tətbiqi ətraflı müzakirə edilmir. Bu səbəbdən gələcəkdə tədris metodlarının illik kompleks monitorinq sisteminin qurulması, tələbə və məzun rəylərinin müntəzəm təhlili, müəllimlərin peşəkar inkişafı üçün yeni maliyyə mexanizmlərinin yaradılması və monitorinq nəticələri əsasında tədbirlər planının hazırlanması zəruridir.

3.5. Təlim və tədris resursları

3.5.1. ATM-də öyrənmə və tədris ehtiyaclarını tam ödəyə bilən, istifadəçi yönümlü, sinxron və asinxron öyrənmə, həmçinin ölçü və qiymətləndirmə imkanlarına malik olan təlim və tədrisin elektron idarəetmə sisteminin mövcudluğu vəziyyəti

Son illər ADMİU-da tədris prosesinin rəqəmsallaşdırılması və tədrisin elektron idarə edilməsi prioritet istiqamətlərdən biri olmuşdur. Universitetdə tədris prosesinin bütün mərhələləri vahid elektron mühitdə EDUMAN platforması vasitəsilə idarə olunur. Platformada dərs cədvəllərinin tərtibi və arxivləşdirilməsi, ixtisaslar üzrə tədris planlarının və tədris yükünün idarə edilməsi, fənn kataloqu, tələbələrin təşkilati qruplar, fənn qrupları və yarımqruplar üzrə bölgüsü, eləcə də aktiv və məzun tələbə kontingentinin elektron uçotu həyata keçirilir. Elektron jurnal modulu vasitəsilə gündəlik dərs mövzuları və tələbələrin davamiyyəti rəqəmsal qaydada qeydə alınır. Müəllim və tələbə kabinetlərində tapşırıqlar, qiymətlər və digər tədris göstəriciləri əks olunur, xəbərlər bölməsi isə müəllimlərə tədrislə bağlı məlumatları tələbələrə operativ çatdırmaq imkanı verir. Platformada universitetin təşkilati strukturu və əməkdaşlar haqqında məlumat bazası da yerləşir.

3.5.2. ATM-də müasir təlim prosesini aparmaq üçün texnika (proyektorlar, kompüter, ağıllı lövhələr və s) ilə tam təchiz olunmuş auditoriyaların mövcudluğu vəziyyəti

ADMİU-da tədris prosesi müasir tələblərə cavab verən texniki vasitələrlə təchiz olunmuş auditoriyalarda aparılır. Universitetdə 20-yə yaxın auditoriya proyektorla təmin

edilmişdir. Kompüterlərin hamısı internetə çıxış imkanına malikdir, auditoriyaların 70%-də isə stabil internet bağlantısı mövcuddur. Auditoriyalarda keçirilən dərslərin gedişini mərkəzləşdirilmiş video müşahidə sistemi vasitəsilə izləmək mümkündür. Universitetin tələbə kontingenti nəzərə alınaraq texniki təchizat imkanlarının daha da genişləndirilməsi zəruridir.

3.5.3. Tələbənin təlim prosesində iştirakını/aktivliyini qeydə alan tam funksional elektron tədris platformasının və jurnalın mövcudluğu vəziyyəti

ADMİU-da elektron tədris platforması ADMİU Elmi Şurasının 14 sentyabr 2017-ci il tarixli qərarı (protokol №01) əsasında fəaliyyətə başlamışdır. 2018-ci ildən etibarən platforma kağız jurnallarla paralel istifadə olunmuş və mərhələli şəkildə təkmilləşdirilmişdir. 2019/2020-ci tədris ilində isə universitetdə tam elektron jurnala keçid başa çatmışdır. Hazırda tədris prosesi EDUMAN platforması vasitəsilə idarə olunur və onun elektron jurnal modulu tələbələrin təlim prosesində iştirakını və fəallığını tam qeydə almağa imkan verir.

Müəllimlər hər dərsdə keçilən mövzunu və tələbələrin davamiyyətini elektron jurnala daxil edirlər. Tələbələr bu məlumatları EDUMAN platformasındakı şəxsi kabinetlərində izləyə bilirlər. İmtahan sessiyası zamanı Tədrisin elektron idarə edilməsi və imtahanların təşkili şöbəsi elektron jurnalda semestr ərzində toplanmış qeydlər və qiymətlər əsasında tələbələrə giriş balları verir. Beləliklə, elektron jurnal tələbənin davamiyyətinin, fəallığının və qiymətləndirilməsinin şəffaf şəkildə qeydə alınmasını və izlənilməsini təmin edir.

3.5.4. Tədris prosesi ilə bağlı rəqəmsal xidmətlərin və texniki təminatın təhsil proqramlarına uyğunluğu

Universitetdə tədris prosesi ilə bağlı rəqəmsal xidmətlərin və texniki təminatın təhsil proqramlarına uyğunluğu qismən təmin edilib və bu istiqamətdə təkmilləşmə işləri görülür. İstənilən təhsil proqramı üçün müasir rəqəmsal xidmətlərin və texniki təminatın mövcudluğu vacibdir. Bu baxımdan Universitetdə müəyyən auditoriyaların proyektor, kompüter və internetə çıxış ilə təmin edilməsi, kompüterlərlə təchiz olunmuş tədris studiyası və elektron kitabxananın mövcud olması, təhsilalanların Universitetin lokal şəbəkəsinə, internetə, məlumat bazalarına, elektron kitabxanalarına, axtarış sistemlərinə çıxışının təmin edilməsi istiqamətində işlər görülməkdədir.

3.5.5. İnternetə qoşulmuş kompüterlərin və kompüter laboratoriyalarının mövcudluğu vəziyyəti

ADMİU-da müasir təhsil prosesinin rəqəmsallaşdırılması istiqamətində mühüm addımlar atılmışdır. Universitetin iki əsas tədris binası mövcuddur və bu binalarda yüksək sürətli internet bağlantısı təmin edilmişdir. Hazırda hər iki tədris binası üzrə ümumilikdə 156 kompüter və 11 notebook tam olaraq internetə çıxış imkanına malikdir.

Universitetin informasiya texnologiyaları infrastrukturu tələbə və müəllim heyətinin rahat istifadəsi üçün gücləndirilmişdir. Hər iki tədris binasında ümumilikdə 100 Mbit/s


sürətində internet bağlantısı verilir. Eyni zamanda, universitetdə təhsil keyfiyyətini artırmaq məqsədilə rəqəmsal platformaların istifadəsi genişləndirilmiş, texniki avadanlıqların effektiv istifadəsi üçün müvafiq şərait yaradılmışdır. Gələcəkdə universitetin informasiya-kommunikasiya texnologiyaları infrastrukturunun daha da təkmilləşdirilməsi, internet sürətinin artırılması və rəqəmsal avadanlıqların modernləşdirilməsi istiqamətində işlərin davam etdirilməsi nəzərdə tutulur.

3.5.6. ATM-in auditoriya fondunun (kv m.) onun tələbə sayına uyğunluğu

ADMİU-da tədris prosesi ümumi sahəsi 10184,8 kv.m, faydalı sahəsi 6969,1 kv.m olan tədris korpuslarında həyata keçirilir. Universitetdə ən böyük auditoriyanın sahəsi 99,1 kv.m, ən kiçik auditoriyanın sahəsi isə 14,3 kv.m-dir. İnzibati otaqların sahəsi 12,6 kv.m ilə 59,2 kv.m arasında dəyişir. Hazırda universitetdə I növbədə bakalavriat səviyyəsində 1099, II növbədə 1147, III növbədə isə magistratura səviyyəsində 268 nəfər, ümumilikdə 2514 tələbə təhsil alır. Bir tələbəyə düşən faydalı sahə I növbə üzrə 6,7 kv.m, II növbə üzrə 6,4 kv.m, III növbə üzrə 27,5 kv.m, ümumilikdə isə 2,9 kv.m təşkil edir. Bir tələbəyə düşən faydalı sahənin azalması qəza vəziyyətində olan və ümumi sahəsi 935 kv.m olan Səda tədris teatrı binasının 2024-cü ildə sökülməsi ilə əlaqədardır. Göstəricilər Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə təsdiq edilmiş “Təhsil müəssisələrinin tikintisinə, maddi-texniki təchizatına dair vahid normalar, ümumi sanitariya-gigiyena tələbləri, şagird yerləri ilə təminat normativləri”nə uyğundur.

3.5.7. Akademik və inzibati heyətin fəaliyyətini təmin edən zəruri otaq fondunun inkişaf dinamikası


ADMİU-da akademik və inzibati heyətin fəaliyyətini təmin edən otaq fondu 2022-ci ilədək 285 otaqdan ibarət olmuşdur. 2022/2023-cü tədris ilində yeni tədris korpusunun istifadəyə verilməsi ilə otaqların ümumi sayı 346-ya çatmışdır. Yeni korpusda istifadəyə verilən 61 otaqdan 27-si auditoriya, 15-i laboratoriya, 19-u isə inzibati otaqdır. Akademik və inzibati heyətin sayının artdığını, eləcə də universitet ərazisinin genişliyini nəzərə alaraq otaq fondunun artırılması məqsədilə gələcəkdə yeni binaların tikilməsi tövsiyə olunur.



Şəkil 3.5. Akademik və inzibati heyətin fəaliyyətini təmin edən otaq fondunun inkişaf dinamikası


3.5.8. Kitabxananın eyni zamanda (elektron və bilavasitə) müəssisənin tələbə və akademik heyətinin sayına nisbətdə xidmət imkanlarının artım dinamikası

ADMİU kitabxanasının sənəd-informasiya resursları fondunda hazırda 52963 nüsxə nəşr var. Bunlardan 20463 nüsxəsi (38,6%) tədris nəşrləri, 10115 nüsxəsi (19,1%) elmi nəşrlər, 21821 nüsxəsi (41,2%) bədii ədəbiyyat, 564 nüsxəsi (1,1%) isə CD-disklərdə olan elektron nəşrlərdir. 2021/2022–2024/2025-ci tədris illərində fondun həcmi hər il artaraq 49370 nüsxədən 52963 nüsxəyə çatmışdır. Dörd il ərzində fond 3593 nüsxə, yəni 7,3% genişlənmişdir.




Şəkil 3.6. ADMİU kitabxanasının sənəd-informasiya resursları

2021/2022–2024/2025-ci tədris illərində kitabxana fonduna yeni daxil olan nəşrlərin sayı illər üzrə dəyişkən olmuşdur. Ən yüksək göstərici 2022/2023-cü tədris ilində qeydə alınmış, həmin il fonda 653 tədris nəşri, 312 elmi nəşr, 623 bədii ədəbiyyat və 61 elektron nəşr daxil olmuşdur. 2023/2024-cü tədris ilində bütün nəşr növləri üzrə daxilolmalar əhəmiyyətli dərəcədə azalmışdır. 2024/2025-ci tədris ilində isə elmi nəşrlərin sayı 186-dan 280-ə, bədii ədəbiyyatın sayı 145-dən 370-ə yüksəlmiş, tədris nəşrlərinin sayı isə 294 ilə əvvəlki ilin səviyyəsində qalmışdır. CD-disklərdə olan elektron nəşrlərin sayı ilk üç ildə 57–61 arasında sabit qalmış, 2024/2025-ci ildə isə 32-yə enmişdir.




Şəkil 3.7. Kitabxana fonduna yeni daxil olan nəşrlər

2021/2022–2024/2025-ci tədris illərində kitabxana oxucularının ümumi sayı 2439-2768 nəfər arasında dəyişmişdir. Oxucuların sayı 2021/2022-ci ildəki 2439 nəfərdən 2023/2024-cü ildə 2768 nəfərə yüksəlmiş, 2024/2025-ci ildə isə 2493 nəfər olmuşdur.



Şəkil 3.8. Kitabxana oxucularının sayı

2021/2022–2024/2025-ci tədris illərində kitabxanadan bilavasitə istifadə edən oxucuların, yəni tələbə, magistrant və professor-müəllim heyətinin sayı ardıcıl artaraq 622 nəfərdən 940 nəfərə çatmışdır. Bu, 51,1% artım deməkdir. Virtual oxucuların sayı isə 1553–1875 nəfər arasında dəyişmiş, ən yüksək göstərici 2023/2024-cü ildə qeydə alınmışdır. Bütün dövr ərzində virtual oxucular kitabxana istifadəçilərinin əksəriyyətini təşkil etmişdir.




Şəkil 3.9. Ənənəvi və virtual oxucuların sayı

3.5.9. ATM-in kitabxana fonduna daxil olan son beş ildə nəşr olunmuş dərslik və dərs vəsaitinin (elektron və çap şəklində) artım dinamikası

ADMİU-da 2022–2025-ci illər ərzində dərslik, dərs vəsaiti və elektron nəşrlərin hazırlanması davamlı şəkildə həyata keçirilmişdir. Ən yüksək göstərici 2022-ci ildə qeydə


alınmış, həmin il 96 dərslik, 306 dərs vəsaiti və 52 elektron nəşr hazırlanmış, nəşrlərin ümumi sayı 564-ə çatmışdır. Sonrakı illərdə dərsliklərin sayı azalaraq 2025-ci ildə 9 olmuşdur. Bununla yanaşı, dərs vəsaitlərinin sayı 2023-cü ildəki 139-dan 2025-ci ildə 195-ə, elektron nəşrlərin sayı isə 2024-cü ildəki 32-dən 2025-ci ildə 60-a yüksəlmişdir.



Şəkil 3.10. Dərslik, dərs vəsaiti və elektron nəşrlərin sayı

3.5.10. Tədris dillərinə uyğun kitab fondunun mövcudluğu və artım dinamikası

ADMİU-da tədris Azərbaycan, rus və ingilis dillərində aparılır və kitabxana fondu komplektləşdirilərkən tədris dilləri nəzərə alınır. Hazırda kitabxana fondunda çap formatında Azərbaycan dilində 10268, rus dilində 9460, ingilis dilində isə 3514 kitab mövcuddur. Bu kitabların 44,2%-i Azərbaycan, 40,7%-i rus, 15,1%-i isə ingilis dilindədir. Kitabxana fondunda ümumilikdə 25 dildə nəşr var. 2021/2022–2024/2025-ci tədris illərində sənəd-informasiya resursları fondu hər il artaraq 49370 nüsxədən 52963 nüsxəyə çatmışdır. Bu dövrdə Azərbaycan dilində olan nəşrlərin sayı 37736-dan 39989-a, xarici dillərdə olan nəşrlərin sayı isə 11634-dən 12974-ə yüksəlmişdir. Bununla belə, kitabxana fondunun son illərin nəşrləri hesabına zənginləşdirilməsi, xüsusilə elektron kitabların sayının artırılması tövsiyə olunur.



Şəkil 3.11. Kitab fondunun dinamikası

3.5.11. ATM-də dərsliklərin, elmi ədəbiyyatların və elmi bazalardan istifadə üçün ayırılan vəsaitin həcmində artım dinamikası

ADMİU-da dərsliklərin, elmi ədəbiyyatların və elmi bazalardan istifadə üçün vəsait ayrılmamışdır.

3.5.12. Təlim və tədris resurslarının istifadəsinin və yenilənməsinin monitorinqi vəziyyəti

ADMİU-nun professor-müəllim heyəti tərəfindən fənn proqramları, dərslik və dərs vəsaitləri, eləcə də mühazirə materiallarının tərtib olunması və qiymətləndirilməsi universitetin Elmi Şurasında təsdiq edilmiş tələblərə uyğun olaraq hazırlanır. Tərtib edilmiş tədris vəsaitləri kafedra iclaslarında, fakültə metodik qruplarında, fakültə elmi şurasında və universitet Elmi metodik şurasında müzakirə edilir, təlim və tədris resurslarının mövcudluğu və yenilənməsi ilə bağlı məsələlər mütəmadi olaraq müzakirə olunur. Fənn proqramlarının və fənn sillabuslarının təsviri, təlim nəticələri müasir dövrün tələblərinə, təhsilalanların ümumi və peşə kompetensiyalarına yiyələnmələrinə imkan yaratması prioritet kimi qəbul olunur.

3.5.13. Təlim və tədris resurslarının keyfiyyət və kəmiyyət baxımından uyğunluğu və təhsilalanlar üçün əlçatanlığı vəziyyəti

ADMİU-da təlim və tədris resurslarının keyfiyyət və kəmiyyət baxımından təhlili göstərmişdir ki, əksər hallarda resurslar təlim-tədris prosesinin təmin edilməsi baxımından qənaətbəxşdir. Auditoriyalarda təlim və tədris resursları kəmiyyət təhsilalanları təmin etmək üçün yetərli saydadır, hər iki binanın kitabxanasında oxu zalı mövcuddur, kompüterlə təmin olunmuş 6 oxucu yeri var. Rəssamlıq fakültəsində emalatxanaların, Audiovizual fakültənin film studiyasının, tədris auditoriyası, rejissor otağı, foto studiya, montaj otağı, Teatr sənəti fakültəsinin səhnə-tədris otaqlarının olması və onlardan sərbəst

istifadə imkanları dərsdən sonrakı vaxtlarda tələbələrin burada işləməsi üçün müsbət şərait yaradır, praktiki təlimə marağı artırır. Böyük və kiçik səhnələrin mövcüdluğu tədbirlərin keçirilməsində mühim rol oynayır.

3.5.14. Sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris resurslarının mövcudluğu vəziyyəti

ADMİU-da sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris resurslarının inkişaf etdirilməsi diqqət mərkəzində saxlanılır. İnklüziv kitabxana mühitinin formalaşdırılması məqsədilə 2023-cü ildə Azərbaycan Gözdən Əlillər Cəmiyyəti ilə əməkdaşlıq qurulmuşdur. Cəmiyyətin nəzdində fəaliyyət göstərən Brayl Nəşrləri İnformasiya Mərkəzi qabarıq şriftlə çap olunmuş 4 nəşri universitetə hədiyyə etmiş, Kitabxana-informasiya mərkəzinin elektron kataloqunda bu nəşrlərin məlumat bazası yaradılmışdır. Bundan əlavə, görmə məhdudiyyəti olan tələbələr üçün uyğunlaşdırılmış ədəbiyyatdan, eşitmə məhdudiyyəti olan tələbələr üçün isə səsgücləndirici qurğulardan istifadə olunur. Universitetin struktur bölmələri sağlamlıq imkanları məhdud şəxslərin ali təhsilə cəlb olunması, onların təhsil almasına mane olan maneələrin aradan qaldırılması və cəmiyyətə inteqrasiyasının gücləndirilməsi istiqamətində müvafiq tədbirlər həyata keçirir. Bununla belə, sağlamlıq imkanları məhdud tələbələr üçün uyğunlaşdırılmış tədris resurslarının sayının artırılmasına ehtiyac vardır.

3.5.15. Təlim və tədris resurslarının davamlı olaraq təkmilləşdirilməsi vəziyyəti

ADMİU-da təlim və tədris resurslarının davamlı təkmilləşdirilməsini təmin etmək məqsədilə fakültə və universitet səviyyəsində sistemli monitorinqlər həyata keçirilir. Bu istiqamətdə tələbələr, məzunlar, professor-müəllim və inzibati heyət, eləcə də əmək bazarı nümayəndələri arasında məmnunluq və rəy sorğuları keçirilmişdir. Sorğular vasitəsilə tədrisin təşkili, təlim mühitinin əlverişliliyi, müəllim-tələbə münasibətləri, idarəetmənin səmərəliliyi və məzunların əmək bazarına inteqrasiyası barədə geniş məlumat toplanmışdır. Əldə edilən nəticələr fakültə rəhbərliyi və kafedralar səviyyəsində təhlil və müzakirə olunmuş, aşkar edilmiş çatışmazlıqların aradan qaldırılması üçün müvafiq tədbirlər planı hazırlanmışdır.

3.5.16. Tələbə klublarının, tələbələrin sosial, mədəni və idman fəaliyyətləri üçün resursların (inzibati və büdcə resrursları), dəstək planlarının mövcudluğu

ADMİU-da tələbələrin sosial, mədəni və elmi fəaliyyətinin dəstəklənməsi üç tələbə təşkilatı tərəfindən həyata keçirilir: Tələbə Həmkarlar İttifaqı Komitəsi, Tələbə Gənclər Təşkilatı və Tələbə Elmi Yaradıcılıq Cəmiyyəti. Tələbə klubları Tələbə Gənclər Təşkilatının tərkibində fəaliyyət göstərir. Tələbə Həmkarlar İttifaqı Komitəsi tələbələrin hüquqlarının qorunması, rifahının yüksəldilməsi və asudə vaxtlarının səmərəli təşkili istiqamətində fəaliyyət göstərən aparıcı ictimai təşkilatdır. Komitə tələbələrin iştirakı ilə müsabiqələr, seminarlar, festivallar, dəyirmi masalar, elmi konfranslar və müxtəlif yarışmalar təşkil edir. Bu tədbirlərdə uğur qazanan tələbələr diplom və hədiyyələrlə mükafatlandırılır.

Tələbə təşkilatları tələbələrin elmi, tədris və sosial fəaliyyətinin əlaqələndirilməsi məqsədilə mütəmadi olaraq mədəni tədbirlər və görüşlər keçirir, tələbələrə maddi və mənəvi dəstək göstərir. Tələbələrin elmi-tədqiqat işlərinə marağının artırılması və dəstəklənməsi də bu təşkilatların fəaliyyətində xüsusi yer tutur.

3.5.17. Psixoloji məsləhət xidmətlərinin mövcudluğu vəziyyəti

ADMİU-da psixoloji xidmət mərkəzi 16 fevral 2024-cü il tarixindən fəaliyyət göstərir. Xidmətin məqsədi təhsilalanların psixoloji vəziyyətini, təhsil fəaliyyətini və sosial-mənəvi problemlərini öyrənmək, onlara psixoloji dəstək göstərmək, psixi inkişaflarına, meyl, maraq və potensiallarının reallaşmasına kömək etmək, habelə mümkün psixoloji pozuntuların profilaktikasını təmin etməkdir. Mərkəz fəaliyyətə başladığı dövrdən psixoloqa gündə orta hesabla 4 tələbə müraciət edir. Hər tələbəyə bir saat müddətində fərdi psixoloji dəstək göstərilir, bununla yanaşı tələbə qrupları ilə mütəmadi görüşlər keçirilir.

Universitetdə sağlam sosial-psixoloji mühitin formalaşdırılması və qorunması, təlim-tərbiyə prosesinin səmərəli təşkili, eləcə də təhsilalanların və təhsilverənlərin sosial və emosional bacarıqlarının inkişafı ilə bağlı ehtiyacları öyrənmək məqsədilə müxtəlif mövzularda sorğular keçirilir (https://admiu.edu.az/admiu-t%c9%99l%c9%99b%c9%99-v%c9%99-mu%c9%99lliml%c9%99r-ucun-t%c9%99klif-sorgusu-kecirir/).
Təhsilalanlarda özünüdərk, özünənəzarət, düzgün ünsiyyət qurmaq, münaqişələri həll etmək, motivasiya və məqsədyönlülük kimi bacarıqların formalaşdırılması mövzularında görüşlər təşkil olunur (https://admiu.edu.az/kreativ-g%c9%99ncl%c9%99r-dus%c9%99rg%c9%99si-boyuk-maraga-s%c9%99b%c9%99b-olub/). Mühüm psixoloji problemlərə dair mütəmadi olaraq dəyirmi masalar və müzakirələr keçirilir. Bundan əlavə, “İnklüziv təhsildə incəsənət yönümlü tədris metodları” fənn proqramı hazırlanmış, əlilliyi olan şəxslərə xidmət göstərən mərkəzlərlə əməkdaşlıq qurularaq tələbələrin həmin mərkəzlərdə praktik fəaliyyəti təşkil olunmuşdur (https://www.youtube.com/watch?v=elCBqPdG5cg).

3.6. Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi

3.6.1. Bilik və bacarıqların qiymətləndirilməsi sistemi ilə bağlı prosedur və qaydaların mövcudluğu vəziyyəti

ADMİU-da kredit sistemi ilə təhsil alan tələbələrin bilik və bacarıqlarının qiymətləndirilməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 dekabr 2013-cü il tarixli 348 nömrəli qərarı ilə təsdiq edilmiş Qaydaların tələblərinə uyğun həyata keçirilir. Qiymətləndirmə “Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi haqqında Əsasnamə”yə, universitetin Nizamnaməsinə və ali təhsil müəssisələri üçün təsdiq edilmiş “Qiymətləndirmə meyarları və qaydaları”na müvafiq şəkildə aparılır. Mövcud sistem tələbələrin bilik və bacarıqlarını cari, aralıq və yekun qiymətləndirmə vasitəsilə ölçməyə imkan verir. Qiymətləndirmənin nəticələri elektron jurnalda qeydə alınır ki, bu da nəticələrin şəffaf izlənilməsini və obyektiv qiymətləndirməni təmin edir. Elektron

qiymətləndirmə mexanizmləri müəllim və tələbələrə nəticələri qarşılıqlı şəkildə izləmək imkanı da yaradır.

Universitetdə kino, teatr, musiqi, rəngkarlıq və dizayn kimi yaradıcılıq ixtisaslarında bal əsaslı qiymətləndirmə tələbənin yaradıcı düşüncə tərzini, fərdi üslubunu və bədii inkişaf səviyyəsini həmişə tam əks etdirmir. Bu səbəbdən belə ixtisaslarda qiymətləndirmə yanaşmalarının daha çevik və təcrübəyönümlü şəkildə təkmilləşdirilməsinə ehtiyac var. Bu məqsədlə ixtisasın xüsusiyyətlərinə uyğun layihə əsaslı, portfel tipli və prosesyönümlü qiymətləndirmə modellərinin tətbiqi, yaradıcılıq məhsullarının qiymətləndirmə meyarlarının daha aydın müəyyənləşdirilməsi məqsədəuyğun hesab edilir.

3.6.2. Qiymətləndirmə meyarlarının ölçüləbilən və etibarlı olması vəziyyəti

ADMİU-da tələbələrin bilik və bacarıqları 100 ballıq sistem üzrə mərhələli şəkildə qiymətləndirilir. Bu balların 10-u davamiyyətə, 30-u seminar məşğələlərinin nəticələrinə, 10-u tələbənin sərbəst işinə, 50-si isə imtahana ayrılır. İmtahana qədərki mərhələdə toplanan ballar EDUMAN platformasında qeydə alınır, bu da qiymətləndirmə prosesinin şəffaf izlənilməsini təmin edir. Kurs layihəsi, seminar və digər sərbəst işlər üzrə tələbələrin biliklərinin qiymətləndirilməsi üçün dəqiq meyarlar müəyyən edilmişdir.

İmtahanlar yazılı və şifahi formada keçirilir. İmtahan biletinə 5 sual daxil edilir və hər sual 10 balla qiymətləndirilir ki, bu da imtahan üçün nəzərdə tutulan 50 bala uyğundur. Tələbənin hər sual üzrə cavabının ölçüləbilən və etibarlı şəkildə qiymətləndirilməsi üçün sualların, balın necə formalaşdığını göstərən qiymətləndirmə meyarlarını əks etdirməklə tərtib olunması tövsiyə edilir. Ümumi qiymətləndirmə sistemi bal üzərində qurulduğundan, qiymətləndirmənin tələbələr üçün aydın olması məqsədilə nəticələrin balla qeyd edilməsi məqsədəuyğun hesab olunur.

3.6.3. Qiymətləndirmədə müxtəlif formalarından (üz-üzə, məsafədən, qarışıq, açıq və s.) metod və vasitələrdən istifadə olunması vəziyyəti

ADMİU-da təhsilalanların bilik və bacarıqları müxtəlif formalarda qiymətləndirilir. Nəzəri fənlər üzrə qiymətləndirmə əsasən üz-üzə formada aparılır. Xüsusi qabiliyyət tələb edən fənlərdə isə ixtisasın xüsusiyyətinə uyğun olaraq tamaşa (teatr sənəti) və baxış (təsviri sənət əsərləri, filmlər, konsertlər) formalarından istifadə edilir və bu qiymətləndirmə də üz-üzə həyata keçirilir. Universitetdə bu proseslərin təşkili üçün kifayət qədər texniki imkanlara malik infrastruktur mövcuddur.

3.6.4. Qiymətləndirmədə ədalətliliyin, obyektivliyin, şəffaflığın təmin olunması və qiymətin əsaslandırılması vəziyyəti

ADMİU-da tələbələrin biliklərinin qiymətləndirilməsi Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına, Prezidentin fərman və sərəncamlarına, Nazirlər Kabinetinin qərar və sərəncamlarına, Elm və Təhsil Nazirliyinin əmr, təlimat və kollegiya qərarlarına, eləcə də təhsil sahəsini tənzimləyən digər normativ hüquqi aktlara uyğun təşkil olunur. Qiymətləndirmə prosesində “Avropa ali təhsil məkanında keyfiyyət təminatı

üzrə standartlar və təlimatlar” (ESG), ADMİU-nun Nizamnaməsi, Elmi Şuranın qərarları, rektorun əmr və göstərişləri, həmçinin “Qiymətləndirmə və imtahan qaydaları haqqında” Əsasnamə əsas götürülür.

Qiymətləndirmənin obyektivliyini və şəffaflığını təmin etmək üçün tələbələrin yazılı cavab vərəqləri kodlaşdırılır və müəllimlər tərəfindən kodlu şəkildə yoxlanılır. Qiymətləndirmə vərəqinin əlyazma nüsxəsinin surəti çıxarılaraq əsas vərəqlə tutuşdurulur. İmtahan sessiyası dövründə rektorun əmri ilə Operativ imtahan qərargahı və Qaynar xətt yaradılır. İmtahan nəticələri ilə bağlı şikayətlərə baxılması üçün Apellyasiya komissiyası fəaliyyət göstərir, tələbələr şikayətlərini rektorun elektron poçt ünvanına da göndərə bilirlər.

3.6.5. Qiymətləndirmədə təhsilalanların özünüqiymətləndirmə bacarığının formalaşması, sərbəst öyrənmə istəyinin yaradılması və təlimin keyfiyyətinin yüksəldilməsinə nail olunması amillərinin nəzərə alınması vəziyyəti

ADMİU-da qiymətləndirmənin təkmilləşdirilməsi və tələbələrin özünüqiymətləndirmə bacarığının inkişaf etdirilməsi diqqət mərkəzində saxlanılır. Keyfiyyət təminatı və strateji planlama departamenti tərəfindən tələbələr arasında məmnunluq və rəy sorğuları keçirilir, onların fənlər və tədris prosesi ilə bağlı fikirləri öyrənilir. Sorğuların nəticələri fakültə və kafedralarda müzakirə olunur və müvafiq tədbirlər görülür. Tələbələrin sərbəst öyrənmə marağının artırılması məqsədilə fənlər üzrə sərbəst işlər nəzərdə tutulur. Tələbə fənni tədris edən müəllimlə birlikdə sərbəst iş mövzusunu seçir, onu fərdi və ya qrup şəklində hazırlayır və semestrin sonunadək təqdim edir. Tələbələr semestr ərzində topladıqları balları EDUMAN platformasındakı şəxsi kabinetlərində izləyərək öz akademik nəticələrini qiymətləndirmək imkanı əldə edirlər. Yaradıcılıq ixtisaslarında isə layihə əsaslı, portfel tipli və prosesyönümlü qiymətləndirmə formalarının tətbiqinin genişləndirilməsi müzakirə olunur. Bu yanaşma tələbələrin sərbəst öyrənmə motivasiyasının artırılmasına və təlimin keyfiyyətinin yüksəldilməsinə xidmət edir.

3.6.6. Qiymətləndirmədə informasiya kommunikasiya texnologiyalarının nailiyyətlərindən istifadə vəziyyəti

ADMİU-da qiymətləndirmə prosesi təhsilin elektron idarəetmə sistemi olan EDUMAN platforması vasitəsilə idarə olunur. Tələbələrin imtahana qədərki bütün fəaliyyət növləri üzrə qiymətləri, yəni davamiyyət, seminar məşğələləri və sərbəst iş, platformada qeydə alınır. Yekun qiymət isə sistem tərəfindən avtomatik olaraq hesablanır. Tələbələr qiymətləndirmənin nəticələrini şəxsi kabinetlərində izləyə bilirlər. Cari və aralıq qiymətləndirmənin bütün nəticələri vahid elektron bazada toplanır və universitetin serverlərində saxlanılır.

Kompüter texnologiyaları üzrə fənlərdən imtahanlar test üsulu ilə keçirilir. Bu fənlərdə tələbələrin mənimsədikləri bilikləri yazılı şəkildə ifadə etməkdə çətinlik çəkdiyini və xüsusi qabiliyyət tələb edən ixtisaslara qəbul zamanı abituriyentlərin istedadına üstünlük verildiyini nəzərə alaraq, ADMİU Elmi Şurasının 26 dekabr 2022-ci il (protokol

№05) və 30 noyabr 2023-cü il (protokol №04) tarixli qərarları qəbul edilmişdir. Bu qərarlara əsasən 2022/2023-cü tədris ilindən Dekorativ-tətbiqi sənət ixtisasında və Teatr rejissoru ixtisaslaşmasında, 2023/2024-cü tədris ilindən isə Operator sənəti, Aktyor sənəti ixtisaslarında, Kino rejissoru, Televiziya rejissoru, Bədii xalça və Bədii toxuculuq ixtisaslaşmalarında kompüter və informasiya texnologiyaları fənlərindən imtahanlar test üsulu ilə keçirilir.

3.6.7. Sağlamlıq imkanları məhdud şəxslərə münasibətdə xüsusi qiymətləndirmə üsullarından istifadə vəziyyəti

ADMİU-da sağlamlıq imkanları məhdud tələbələrin tədris prosesində bərabər imkanlarla iştirakını təmin etmək məqsədilə xüsusi qiymətləndirmə üsullarından istifadə olunur. ADMİU Elmi Şurasının 30 may 2023-cü il tarixli qərarına (protokol №09) əsasən sağlamlıq imkanları məhdud tələbələrin, eləcə də 44 günlük Vətən müharibəsi iştirakçısı olan tələbələrin qiymətləndirilməsi şifahi formada aparılır. Bundan əlavə, qiymətləndirmə zamanı tələbələrin sağlamlıq vəziyyəti və fərdi ehtiyacları nəzərə alınaraq alternativ yazılı, şifahi və ya praktik tapşırıqlardan istifadə edilir. Bu yanaşma hər bir tələbəyə öz potensialını tam nümayiş etdirmək imkanı verir və qiymətləndirmənin ədalətli aparılmasını təmin edir.

3.6.8. Cari və aralıq qiymətləndirmələrin müvafiq fənnlərin spesifikliyi nəzərə alınaraq şəffaflıq, ədalətlilik və rəqabətlilik prinsipləri əsasında təşkil olunması vəziyyəti

ADMİU-da tələbələrin bilikləri üç mərhələdə qiymətləndirilir: cari, aralıq və yekun. Cari qiymətləndirmə semestr ərzində tələbələrin davamiyyəti, seminar məşğələlərindəki fəaliyyəti və sərbəst işləri əsasında aparılır. Aralıq qiymətləndirmə ildə iki dəfə, qış və yay imtahan sessiyaları dövründə keçirilir. Yekun qiymətləndirmə bakalavriat səviyyəsində dövlət imtahanı, təcrübə və buraxılış işinin müdafiəsi, magistratura səviyyəsində isə magistr dissertasiyasının müdafiəsi formasında həyata keçirilir.

İmtahanlar əsasən yazılı, bəzi fənlər üzrə isə şifahi formada təşkil olunur. Yazılı imtahan sualları müəllimlər tərəfindən əvvəlcədən hazırlanır və çətinlik səviyyəsinə görə beş ekvivalent variantda təqdim olunur. Bu, imtahanların rəqabətlilik və ədalətlilik prinsipləri əsasında keçirilməsini təmin edir. İmtahan zamanı köçürmə halı aşkar edildikdə akt tərtib olunur, tələbə imtahandan kənarlaşdırılır və nəticəsi “0” balla qiymətləndirilir. İmtahan işləri həmin gün fənn müəllimi tərəfindən yoxlanılır və nəticələr tələbələrə çatdırılır. Apellyasiya müraciətləri operativ şəkildə araşdırılaraq cavablandırılır. İmtahanların nəticələri fakültə və universitet elmi şuralarında müzakirə olunur.

Qiymətləndirmə prosedurlarının şəffaflığını təmin etmək üçün universitetdə vahid sənəd formaları tətbiq olunur. Bunlara imtahan sualları vərəqi, imtahan cavab vərəqi, imtahan nəticələrinin sistemə daxil edilməsi və ya dəyişdirilməsi üçün müraciət forması, imtahan qaydalarının pozulması haqqında akt, imtahan nəticəsinə etiraz ərizəsi, apellyasiya komissiyasının Protokolu və müəllimin apellyasiya ilə bağlı izahatı forması

daxildir. Cari və aralıq qiymətləndirmənin bu prinsiplərə uyğunluğu tələbələr arasında keçirilən sorğular vasitəsilə də öyrənilir.

3.6.9. Yekun Dövlət Qiymətləndirilməsinin təşkilinin sahə üzrə tənzimləyici hüquqi sənədlərə uyğunluğu vəziyyəti (yekun dövlət imtahanı və/ və ya buraxılış işi və dissertasiya işinin müdafiəsinin təşkili)

ADMİU-da yekun dövlət qiymətləndirilməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları ilə təsdiq edilmiş “Bakalavriat (əsas (baza ali) tibb təhsili) təhsilinin məzmunu və təşkili Qaydaları”, “Magistratura təhsilinin məzmunu, təşkili və “magistr” dərəcələrinin verilməsi Qaydaları” və “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları” (https://e-qanun.az/framework/27030) əsasında təşkil olunur. Bu sahədə həmçinin “Azərbaycan Respublikası ali təhsil müəssisələri tələbələrinin bakalavriat səviyyəsində dövlət attestasiyası haqqında Əsasnamə” və “Magistr dissertasiyasının hazırlanması, təqdim olunması və müdafiəsi qaydaları haqqında Əsasnamə” rəhbər tutulur.

Yekun qiymətləndirmə Dövlət Attestasiya Komissiyaları tərəfindən aparılır. Bakalavriat və magistratura səviyyələrində məzun olmaq üçün tələbə bütün fənn blokları üzrə nəzərdə tutulmuş kreditləri toplamalıdır. Bakalavriat səviyyəsində bütün fənlər üzrə qiymət ən azı 51 bal (E) olmalıdır. Magistr dissertasiyasının yazılması və müdafiəsi universitetin daxili sənədləri olan “Magistr dissertasiyasının yazılması və müdafiəsi Qaydaları” və “Magistratura tələbələrinin dissertasiya müdafiəsi üçün təlimat” ilə tənzimlənir. Yekun dövlət qiymətləndirilməsinin təşkilinin göstərilən normativ sənədlərin tələblərinə tam uyğunlaşdırılması istiqamətində işlər davam etdirilir.

3.6.10. Bilik və bacarıqların qiymətləndirilməsi sistemi üzrə təhlillərin aparılması, proseslərin izlənilməsi və təkmilləşdirilməsi vəziyyəti

ADMİU-da bilik və bacarıqların qiymətləndirilməsi sistemi fakültə və universitet Elmi şuralarında mütəmadi olaraq müzakirə olunur, proseslərin izlənilməsi və təkmilləşdirilməsi ilə bağlı müvafiq qərarlar qəbul edilir. Hər tədris ilində payız və yaz semestrlərinin imtahan sessiyalarının, eləcə də tədris ilinin yekunlarına dair keyfiyyət və müvəffəqiyyət göstəriciləri üzrə hesabatlar hazırlanaraq Elm və Təhsil Nazirliyinə təqdim edilir. Qiymətləndirmə nəticələri müntəzəm olaraq toplanır və təhlil edilir, tətbiq olunan qiymətləndirmə metodlarının səmərəliliyi araşdırılır. Bu təhlillərin nəticələri tədris prosesinin təkmilləşdirilməsinə yönəldilir. Müəllim və tələbələrdən qiymətləndirmə ilə bağlı rəy və təkliflər mütəmadi olaraq toplanır. Bu rəylər əsasında qiymətləndirmə sistemi davamlı olaraq təkmilləşdirilir, aşkar edilmiş problemlərin həlli və yeni təlim metodlarının tətbiqi istiqamətində tədbirlər görülür.

3.6.11. Təhsil səviyyəsinin bitirilməsi qaydalarının və şərtlərinin sadə, aydın və başa düşülən formada olması və tələbələr üçün əlçatan olması

ADMİU-da tədrisin təşkili və tələbənin məzun olması üçün keçməli olduğu tədris prosesi “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları”na və “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsilalanların attestasiyasının, o cümlədən yekun attestasiyanın aparılması Qaydaları”na uyğun olaraq təşkil edilir. Təhsil səviyyəsinin bitirilməsi qaydaları və şərtləri universitetin rəsmi saytında yerləşdirilmişdir və tələbələr üçün əlçatandır. Akademik məsləhətçilər (tyutorlar) tələbələrin tədris prosesi ilə bağlı məlumatlandırılmasına və istiqamətləndirilməsinə kömək edirlər.

3.6.12. Təhsil səviyyəsini bitirən məzunlara dövlət təhsil sənədinin və ya təhsil səviyyəsini uğurla bitirməyən şəxslərə müavafiq arayışın verilməsinin qanunvericiliyin tələblərinə uyğunluğu

ADMİU-nu bitirən məzunlara Azərbaycan Respublikası Nazirlər Kabinetinin 29 aprel 2010-cu il tarixli 82 nömrəli qərarı ilə təsdiq edilmiş “Ali təhsil pilləsinin bakalavr və magistr səviyyələrində təhsil haqqında dövlət sənədlərinin nümunələri və onların verilməsi qaydaları”na əsasən diplom və diploma əlavə verilir. Müxtəlif səbəblərdən təhsilini başa vurmayan tələbələrə isə müraciət etdikləri halda Nazirlər Kabinetinin 21 yanvar 2010-cu il tarixli 12 nömrəli qərarı ilə təsdiq edilmiş “Müxtəlif səbəblərdən təhsilin hər hansı pilləsini və səviyyəsini başa vurmayan şəxslərə arayışın verilməsi qaydası”na uyğun olaraq müvafiq arayış və ya transkript təqdim olunur. Verilən bütün sənədlər müəyyən olunmuş qaydada qeydiyyata alınır və məlumatlar müvafiq elektron bazalara daxil edilir.

3.7. Professor-müəllim heyəti və inzibati-texniki işçilər

3.7.1. Akademik heyətin işə qəbulu, yüksəliş və digər vəzifəyə təyinat mexanizminin mövcudluğu və tətbiq edilən yanaşmanın şəffaf və ictimaiyyət üçün əlçatanlığı vəziyyəti

ADMİU-da insan resurslarının idarə edilməsinin əsas prinsipləri Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Kadr Siyasətində müəyyən edilmişdir. Sənəd universitetin insan resursları sahəsindəki missiyasını, dəyərlərini, prinsiplərini, əsas fəaliyyət istiqamətlərini və personalla iş üzrə strateji məqsədlərini əhatə edir və ADMİU Elmi Şurasının 12 fevral 2019-cu il tarixli qərarı (protokol №05) ilə təsdiq edilmişdir. Akademik heyətin işə qəbulu isə Elmi Şuranın 26 dekabr 2022-ci il tarixli qərarı (protokol №05) ilə təsdiq edilmiş “Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində akademik heyətin işə qəbul Qaydaları” əsasında həyata keçirilir. Hər iki sənəd universitetin rəsmi internet saytında yerləşdirilmişdir və ictimaiyyət üçün əlçatandır.

Akademik heyətin işə qəbulu və vəzifə yüksəlişi prosesində aşkarlığın, rəqabətliliyin, ədalətin və qanunauyğunluğun təmin olunması məqsədilə İşə Qəbul Komissiyası fəaliyyət göstərir. Komissiyanın tərkibi Elmi Şuranın 28 mart 2019-cu il tarixli qərarı (protokol №06) ilə təsdiq edilmiş, 29 noyabr 2024-cü il tarixli qərarı (protokol №05) ilə isə tərkibdə dəyişiklik edilmişdir (2 dekabr 2024-cü il tarixli 3/318 nömrəli əmr).

Komissiya namizədlərin sənədlərini nəzərdən keçirir, onlarla fərdi görüşlər və müsahibələr aparır. Vakant vəzifə yarandıqda ilk növbədə universitetin daxili kadr imkanları Komissiyada təhlil edilərək qiymətləndirilir. Uyğun namizəd olduqda o, müvafiq struktur bölmə rəhbərinin təqdimatı əsasında vakant vəzifəyə təyin olunur.

İşçilərlə əmək müqavilələri bağlanır və onlar elektron formada Əmək Müqavilələri Bildiriş Sisteminə (ƏMAS) daxil edilir. Bu da müqavilələr üzərində daimi nəzarəti təmin edir. Saathesabı əsasla çalışan pedaqoji heyət və plastik poza nümayişçiləri ilə mülki-hüquqi müqavilələr bağlanır. İşçilərin şəxsi işləri müəyyən olunmuş qaydada tərtib edilir, şəxsi məlumatlar mütəmadi olaraq yenilənir və müvafiq sənəd və əmrlərin surətləri şəxsi işə əlavə olunur.

3.7.2. Akademik heyətin pedaqoji və texnoloji səriştələrinin yüksəldilməsini stimullaşdıran meyarlarının mövcudluğu vəziyyəti

ADMİU-da professor-müəllim heyətinin fəaliyyəti əsasən elmi nəticələr, o cümlədən Scopus bazasında indekslənən jurnallarda dərc olunan məqalələr əsasında stimullaşdırılır. Yüksək reytinqli jurnallarda məqalə dərc etdirən müəllimlərə birdəfəlik mükafat verilir. Bu yanaşma pedaqoji səriştələrdən daha çox elmi səriştələrin inkişafına xidmət edir. Bundan əlavə, məqalələrə görə verilən mükafatların əsas hissəsi ştatdankənar professor-müəllim heyətinin payına düşür. Bu səbəbdən professor-müəllim heyətinin fəaliyyətinin qiymətləndirilməsində pedaqoji səriştələrin inkişafını stimullaşdıran ayrıca “tədris fəaliyyəti” blokunun yaradılması məqsədəuyğun hesab olunur. Bu bloka müəllimlərin hazırladığı dərslik və dərs vəsaitləri, tələbə məmnunluq sorğularının nəticələri və digər pedaqoji göstəricilər daxil edilə bilər.

Akademik heyətin texnoloji səriştələrinin inkişaf etdirilməsinə də diqqət yetirilir. Pandemiya dövründə təhsilin fasiləsizliyini təmin etmək məqsədilə müəllimlər üçün fənlərin distant tədrisi üsulları, vebinarların aparılma texnikası və elektron kitabxana resurslarından istifadə mövzularında təlimlər təşkil olunmuşdur. Onlayn və distant tədris vasitələrinin tətbiqi bu gün də müəllimlərin texnoloji səriştələrinin inkişafının mühüm istiqaməti olaraq qalır.

3.7.3. Akademik heyətə interaktiv və aktiv tədris metodlarının, distant tədris proseslərinin tətbiqinə yönəlmiş sistemli təlimlərin keçirilməsi vəziyyəti

ADMİU-da akademik heyət üçün interaktiv və aktiv tədris metodlarının, eləcə də distant tədris proseslərinin tətbiqinə yönəlmiş təlimlər mütəmadi olaraq təşkil olunur. Professor-müəllim heyətinin peşəkar inkişafı məqsədilə il ərzində müxtəlif seminarlar, təlimlər, qış və yay məktəbləri keçirilir. Pandemiya dövründə müəllimlər üçün fənlərin distant tədrisi üsulları, vebinarların aparılma texnikası və elektron kitabxana resurslarından istifadə mövzularında təlimlər təşkil edilmişdir. Tədris prosesində fəaliyyət göstərən tyutorlar (akademik məsləhətçilər) də müvafiq təlim və kurslara cəlb olunmuşlar. Bu təlimlər akademik heyətin pedaqoji və rəqəmsal bacarıqlarının artırılmasına, müasir tədris yanaşmalarının mənimsənilməsinə və tədrisin keyfiyyətinin yüksəldilməsinə xidmət edir.

3.7.4. Akademik heyətə öz ixtisas sahələrinə aid ixtisasartırma və digər təlim kurslarında iştirakı vəziyyəti

ADMİU-nun akademik heyəti öz ixtisas sahələrinə uyğun ixtisasartırma və peşəkar inkişaf kurslarında mütəmadi olaraq iştirak edir. Universitet rəhbərliyi əməkdaşların yerli və beynəlxalq təlim proqramlarında iştirakını təşviq edir. Bundan əlavə, akademik heyət xarici universitetlərlə təcrübə mübadiləsi proqramlarına, beynəlxalq festivallara, sərgilərə və müsabiqələrə cəlb olunur. Bu təcrübə yaradıcılıq ixtisasları üzrə müəllimlərin peşəkar inkişafı üçün xüsusi əhəmiyyət daşıyır. Fakültələr üzrə ixtisasartırma tədbirləri planlaşdırılır və onların icrasına dair hesabatlar hazırlanır. Bu təlimlər müəllimlərin elmi-pedaqoji fəaliyyətinin təkmilləşdirilməsinə, müasir tədris metodları və texnologiyaları ilə tanış olmalarına xidmət edir. Bununla belə, müəllimlərin ixtisasartırma proqramlarında iştirakının dəstəklənməsi üçün yeni maliyyə mexanizmlərinin yaradılmasına ehtiyac vardır.

3.7.5. Akademik heyətin beynəlxalq səviyyəli peşəkar inkişaf proqramlarında iştirakı vəziyyəti

ADMİU-nun akademik heyəti beynəlxalq səviyyəli peşəkar inkişaf və ixtisasartırma proqramlarında iştirak edir. Universitet rəhbərliyi əməkdaşların xarici təlimlərdə, beynəlxalq konfranslarda və mübadilə layihələrində iştirakını təşviq edir. Professor-müəllim heyəti Erasmus+, Mevlana və digər beynəlxalq akademik mübadilə proqramlarına cəlb olunur. Xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə yaxın və uzaq xaricdəki mədəniyyət və incəsənət universitetləri ilə həyata keçirilən ikili diplom proqramları və birgə layihələr də müəllimlərin beynəlxalq təcrübə qazanmasına imkan yaradır. Bu proqramlarda iştirak beynəlmiləlləşmə siyasətinin icrasına, akademik heyətin elmi potensialının və pedaqoji fəaliyyətinin keyfiyyətinin yüksəldilməsinə, eləcə də universitetin beynəlxalq əməkdaşlıq imkanlarının genişləndirilməsinə töhfə verir.

3.7.6. Akademik heyətin yaradıcı və innovativ tədris bacarıqlarının qiymətləndirilməsi sisteminin mövcudluğu vəziyyəti

ADMİU-da akademik heyətin yaradıcı və innovativ tədris bacarıqları müxtəlif mexanizmlər vasitəsilə qiymətləndirilir. Keyfiyyət təminatı və strateji planlama departamenti, Tədris şöbəsi, fakültə dekanlıqları və kafedralar tərəfindən dərslər müşahidə olunur, müəllimlərin tətbiq etdiyi tədris metodları, fənn sillabusları və qiymətləndirmə üsulları təhlil edilir. Açıq dərslər keçirilir və onların nəticələri kafedra iclaslarında müzakirə olunur. Tələbə məmnunluq sorğuları da müəllimlərin tədris fəaliyyətinin qiymətləndirilməsində istifadə olunur. Yaradıcılıq ixtisaslarında müəllimlərin tamaşa, film, konsert, sərgi və digər yaradıcılıq layihələri, eləcə də beynəlxalq festival və müsabiqələrdə iştirakı onların peşəkar fəaliyyətinin mühüm göstəricisi sayılır. Bununla belə, yaradıcı və innovativ tədris bacarıqlarının qiymətləndirilməsi üçün vahid meyarlar sistemi hələ tam formalaşmamışdır.

3.7.7. Ştatda olan və cəlb olunan akademik heyət arasında dərs yükünün bölgüsündə dürüst və şəffaf meyarların mövcud olması vəziyyəti

ADMİU-da ştatda olan və cəlb olunan akademik heyət arasında dərs yükünün bölgüsü Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq aparılır. Bu sahədə "Ali təhsil pilləsinin dövlət standartı və proqramı", "Təhsil, təlim-tərbiyə müəssisələrinin rəhbər, inzibati-təsərrüfat, tədris-köməkçi və digər işçilərinin tutduqları vəzifə ilə yanaşı ixtisasları üzrə dərs yükü (pedaqoji iş) aparmaları haqqında normalar", "Professor-müəllim heyətinin tədris yükünün planlaşdırılması və hesablanması haqqında Əsasnamə", "Professor-müəllim heyətinin tədris işi üçün vaxt normasının müəyyənləşdirilməsi, elmi-tədqiqat, elmi-metodiki və digər işlərin əsas növləri barədə" sənəd və "Təhsil müəssisələrinin pedaqoji işçilərinin dərs yükü normalarının müəyyən edilməsi haqqında" sənəd rəhbər tutulur.

Ştatda olan müəllimin illik tədris yükü 500–650 saat təşkil edir. Bunun 60%-i auditoriya, 40%-i isə auditoriyadankənar saatlardır. Dərs yükü hər tədris ili üçün hazırlanan illik işçi tədris planları əsasında kafedralar üzrə müəyyənləşdirilir. Ştatda olan müəllimlərlə yanaşı tədris prosesinə kənar əvəzçilər və saathesabı əsasla çalışan müəllimlər də cəlb olunur.

3.7.8. Fakültə üzrə professor-müəllim heyətinin tələbə sayına nisbəti vəziyyəti (1/15)

ADMİU-da professor-müəllim heyətinin ümumi sayı 370 nəfər, tələbələrin ümumi sayı isə 2702 nəfər təşkil edir (bakalavriat səviyyəsində 2365, magistratura səviyyəsində 321, doktorantura səviyyəsində 16 nəfər). Bu göstəricilərə əsasən universitet üzrə professor-müəllim heyətinin tələbə sayına orta nisbəti 0,14 kimi müəyyənləşir, yəni bir müəllimə orta hesabla 7,3 tələbə düşür. Mövcud nisbət müəyyən edilmiş normativ göstəricidən (1/15) yüksəkdir və tədrisin keyfiyyətinin təmin olunmasına, xüsusi qabiliyyət tələb edən ixtisaslarda tələbələrlə fərdi işin aparılmasına və elmi-pedaqoji fəaliyyətin səmərəli təşkilinə şərait yaradır.

3.7.9. Tədris prosesində iştirak edən professor-müəllim heyətinin 70 faizindən çoxunun əsas iş yeri müvafiq ATM olması vəziyyəti

ADMİU-da tədris prosesində iştirak edən professor-müəllim heyətinin sayı 382 nəfər təşkil edir. Bunlardan 275 nəfərinin əsas iş yeri ADMİU-dur, 107 nəfəri isə kənar əvəzçi kimi fəaliyyət göstərir. Mövcud göstəricilərə əsasən tədris prosesində iştirak edən professor-müəllim heyətinin 72%-nin əsas iş yerinin ADMİU olması təmin edilmişdir. Bu vəziyyət tədris prosesinin dayanıqlığını, elmi-pedaqoji fəaliyyətin davamlılığını və tələbələrlə fərdi işin səmərəliliyini təmin edir. Kənar əvəzçilərin, xüsusilə mədəniyyət və incəsənət sahəsində fəaliyyət göstərən tanınmış sənət adamlarının tədris prosesinə cəlb olunması isə ixtisas fənləri üzrə dərs yükünün balanslaşdırılmasına və tələbələrin peşəkar hazırlığının gücləndirilməsinə xidmət edir.

3.7.10. Kənardan cəlb edilən professor-müəllim heyətinin zəruriliyi

ADMİU-da yeni təhsil proqramlarının tətbiqi ilə əlaqədar tədris planlarına daxil edilmiş yeni fənlər üzrə ixtisaslı və praktik təcrübəyə malik mütəxəssislərə ehtiyac yaranır. Bu ehtiyacın ödənilməsi üçün əmək bazarından kənar əvəzçilər müəyyən olunmuş qaydada tədris prosesinə cəlb edilir. Xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə mütəxəssislərin az olması da kənardan müəllim cəlb edilməsini zəruri edir. Bu məqsədlə universitet mədəniyyət və incəsənət sahəsinin tanınmış aktyor, rejissor, operator, rəssam, dizayner, müğənni və musiqiçilərini, həmçinin teatrşünas və sənətşünaslarını pedaqoji fəaliyyətə cəlb edir. Hazırda tədris prosesində iştirak edən 382 nəfər professor-müəllim heyətindən 107 nəfəri (28%) kənar əvəzçidir. Kənar mütəxəssislərin cəlb olunması tələbələrin real peşə təcrübəsi ilə tanış olmasına və ixtisas fənləri üzrə tədrisin keyfiyyətinin yüksəldilməsinə xidmət edir.

3.7.11. Akademik heyətə qiymətləndirmə meyarları əsasında differensiallaşdırılmış əməkhaqqı sisteminin tətbiqi vəziyyəti

ADMİU-da akademik heyətin fəaliyyətinin nəticələrinə əsaslanan diferensiallaşdırılmış əməkhaqqı sistemi mərhələli şəkildə tətbiq olunur. Professor-müəllim heyətinin akademik fəaliyyətinin qiymətləndirilməsi meyarları ADMİU Elmi Şurasının 30 oktyabr 2023-cü il tarixli qərarı ilə təsdiq edilmişdir. Elmi Şuranın 25 oktyabr 2024-cü il tarixli qərarına (protokol №03) əsasən Web of Science və Scopus bazalarında indekslənən jurnallarda məqaləsi dərc olunan müəllimlərin əməkhaqqına 6 ay müddətində aylıq 100 manat əlavə təyin edilir. Bundan əlavə, ingilis dilində fənn tədris edən müəllimlərin əməyinin ödənilməsində diferensial yanaşma tətbiq olunur. Akademik heyətin fəaliyyətinin daha əhatəli qiymətləndirilməsi və motivasiyasının artırılması məqsədilə isə yeni differensiallaşdırılmış əməkhaqqı sisteminə keçid planlaşdırılır.

3.7.12. Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı çərçivəsində təhsil almış və / və ya xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrindən məzun olmuş professor-müəllim heyətinin mövcudluğu vəziyyəti

ADMİU-da çalışan professor-müəllim heyətinin 33 nəfəri, yəni təxminən 9%-i xarici ölkələrin ali təhsil müəssisələrində təhsil almışdır.

3.8. Tələbəyönümlü tədris

3.8.1. Təhsilalanın fərdi tədris planının tərtib edilməsində iştirak etməsi

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 dekabr 2013-cü il tarixli 348 nömrəli qərarı ilə təsdiq edilmiş Qaydalara əsasən ADMİU-da hər tədris ili üçün ixtisasın (ixtisaslaşmanın) tədris qrafiki nəzərə alınmaqla tələbələrin fərdi tədris planları hazırlanır (https://e-qanun.az/framework/27030). Fərdi tədris planında tələbənin tədris ili ərzində mənimsəyəcəyi fənlər, onların kreditləri və fənləri tədris edən müəllimlər göstərilir. Birinci tədris ili istisna olmaqla, fərdi tədris planları fənlərin prerekvizitləri nəzərə alınaraq tyutorların (akademik məsləhətçilərin) dəstəyi və tələbələrin bilavasitə iştirakı ilə tərtib edilir.

3.8.2. Tədris planlarında ixtisas üzrə təklif olunan seçmə fənlərin tələbələr tərəfindən seçiminin sərbəstliyinin təmin edilməsi

ADMİU-da tədris planları tərtib edilərkən tələbələrin maraqlarını və peşə yönümünü nəzərə alan seçmə fənlərin təklif olunmasına xüsusi diqqət yetirilir. Tədris planlarında seçmə fənlərə ayrılan kreditlər ümumi kreditlərin 25–35%-ni təşkil edir. Tələbələr öz ixtisasları çərçivəsində təklif olunan seçmə fənlər arasından sərbəst seçim edirlər. Seçim zamanı onlar tyutorlardan məsləhət ala, müəllimlərin keçirdiyi məlumatlandırıcı görüşlərdə fənlərin məzmunu ilə tanış ola bilirlər. Fakültələr və kafedralar seçmə fənlərin məzmununu mütəmadi olaraq yeniləyir və əmək bazarının tələblərinə uyğunlaşdırır. Seçmə fənlərin sərbəst seçimi tədris prosesinin çevikliyini artırır, tələbələrin fərdi inkişafını və peşə səriştələrinin formalaşmasını təmin edir.

3.8.3. Təhsilverənlərin və akademik məsləhətçilərin (tyutorların) tələbələr tərəfindən Bolonya prinsipinə uyğun olaraq seçiminin sərbəstliyinin təmin edilməsi

ADMİU-da tədris prosesinin təşkili zamanı tələbələrin Bolonya prinsiplərinə əsaslanan akademik sərbəstliyinin təmin olunmasına xüsusi diqqət yetirilir. Tələbələr fərdi tədris planlarını tərtib edərkən fənləri tədris edəcək müəllimləri, eləcə də akademik məsləhətçilərini (tyutorlarını) sərbəst seçə bilirlər. Seçim şəffaflıq və bərabər imkanlar prinsipi əsasında həyata keçirilir. Tələbələrə müəllimlərin ixtisaslaşma istiqaməti və tədris üslubu barədə əvvəlcədən məlumat verilir. Bu yanaşma tələbə ilə müəllim arasında qarşılıqlı məsuliyyət və əməkdaşlıq mühitinin formalaşmasına, tələbələrin təhsilə motivasiyasının artmasına və fərdi təhsil trayektoriyasının səmərəli qurulmasına xidmət edir.

3.8.4. Tələbə və məzunlar arasında keçirilmiş rəy sorğusunun istiqamətləri, intensivliyi və səmərəliliyinin inkişaf dinamikası

ADMİU-da tələbə və məzunların fikir və təkliflərini öyrənmək məqsədilə Keyfiyyət təminatı və strateji planlama departamenti tərəfindən mütəmadi olaraq rəy sorğuları keçirilir. Sorğular tədrisin keyfiyyəti, təlim mühiti, müəllimlərin fəaliyyəti, infrastruktur və məzunların məşğulluğu kimi istiqamətləri əhatə edir. Son illərdə sorğuların keçirilmə tezliyi artırılmış, nəticələrin təhlili və tətbiqi mexanizmləri təkmilləşdirilmişdir. Keyfiyyət təminatı və strateji planlama departamenti tərəfindən keçirilən sorğularla (https://admiu.edu.az/keyfiyy%C9%99t-t%C9%99minati-v%C9%99-strateji-planlama-departamenti-sorgular/) keçidi vasitəsilə tanış olmaq mümkündür.

3.8.5. ATM-də tələbə və məzunların təklifləri əsasında tətbiq olunmuş yeniliklərin (qərarların) inkişaf dinamikası

ADMİU-da tələbə və məzunların təkliflərinin nəzərə alınması universitetin idarəetmə və tədris siyasətinin mühüm tərkib hissəsidir. Mütəmadi olaraq keçirilən rəy sorğuları və görüşlər nəticəsində təhsil prosesinin təkmilləşdirilməsinə dair təkliflər toplanır. Bu təkliflər əsasında tədris planlarında, fənn proqramlarında və tələbə

xidmətlərinin təşkilində yeniliklər tətbiq olunur. Tələbələrin təklifləri əsasında qəbul edilmiş qərarlara nümunə olaraq universitetdə tibb məntəqəsinin yaradılmasını və 16 fevral 2024-cü il tarixindən fəaliyyətə başlayan psixoloji xidmət mərkəzini göstərmək olar. Bu istiqamətdə davamlı fəaliyyət universitetin açıq idarəetmə modelinin gücləndirilməsinə və maraqlı tərəflərlə əməkdaşlığın inkişafına şərait yaradır.

3.8.6. Tələbə rəylərinin (akademik heyət, xidmətlərin keyfiyyəti və ümumi məmnunluq səviyyəsi və s. haqqında) müxtəlif vasitələrlə sistemli şəkildə toplanması və qərarvermə proesesində istifadə edilməsi vəziyyəti

ADMİU-da akademik heyətin fəaliyyəti, universitet xidmətlərinin keyfiyyəti və ümumi məmnunluq səviyyəsi barədə tələbə rəyləri müxtəlif vasitələrlə sistemli şəkildə toplanır. Keyfiyyət təminatı və strateji planlama departamenti tərəfindən keçirilən sorğular onlayn formada təşkil olunur. Bu, tələbələrin sorğulara asanlıqla qoşulmasını və cavabların məxfiliyini təmin edir. Bundan əlavə, tələbələr rəy və şikayətlərini tyutorlar, tələbə təşkilatları, imtahan sessiyası dövründə fəaliyyət göstərən Qaynar xətt və rektorun elektron poçt ünvanı vasitəsilə də bildirə bilirlər. Toplanmış məlumatlar təhlil edilir və tədris planlarının, təlim metodlarının və idarəetmə qərarlarının təkmilləşdirilməsində istifadə olunur. Bu yanaşma tələbələrin təhsil prosesində fəal iştirakını təmin edir və tədrisin keyfiyyətinin davamlı yüksəldilməsinə şərait yaradır.

3.8.7. Təhsilalanların şikayət və/və ya təklifləri üçün müxtəlif vasitələr və mexanizmlər mövcudluğu vəziyyəti

ADMİU-da tələbələrin şikayət və təkliflərini bildirməsi üçün müxtəlif vasitələr və müraciət mexanizmləri yaradılmışdır. Tələbələr universitetin rəsmi veb-saytında “Rektora müraciət” bölməsi və rektora.mektub@admiu.edu.az elektron poçt ünvanı vasitəsilə, eləcə də rektorun qəbuluna yazılmaqla birbaşa universitet rəhbərliyinə müraciət edə bilirlər. Bundan əlavə, onlar Tədris şöbəsinə və fakültələrə bilavasitə müraciət edir, Tələbə Gənclər Təşkilatı, Tələbə Həmkarlar İttifaqı Komitəsi və Tələbə Elmi Yaradıcılıq Cəmiyyəti vasitəsilə rəy və təkliflərini çatdırırlar. Universitetin rəsmi sosial media hesabları da tələbələrin müraciət üçün istifadə etdiyi vasitələrdəndir. Daxil olan müraciətlər tələbələrin qarşılaşdıqları problemlərin müəyyənləşdirilməsində, tədris prosesinin, göstərilən xidmətlərin və idarəetmə qərarlarının təkmilləşdirilməsində istifadə olunur. Mövcud mexanizmlər tələbələrin fikirlərinin sistemli şəkildə öyrənilməsinə, onların təhsil prosesində iştirakının artırılmasına və universitetdə açıq idarəetmə prinsiplərinin gücləndirilməsinə şərait yaradır.

3.8.8. Təhsilalanların inkişafına nəzarət edən və akademik problemlərin həllində dəstək göstərən müvafiq kvalifikasiyalara sahib akademik məsləhətçilərin (tyutor) mövcudluğu vəziyyəti

ADMİU-da tələbələrin akademik inkişafını izləyən və onların qarşılaşdığı çətinliklərin həllində dəstək göstərən müvafiq kvalifikasiyaya malik akademik məsləhətçilər (tyutorlar) fəaliyyət göstərir. Tyutorlar tədris prosesinin təşkili ilə bağlı zəruri

məlumat və sənədləri tələbələrə təqdim edir, təhsil proqramı və fənn seçimi üzrə məsləhətlər verirlər. Onlar fərdi tədris planlarının tərtibində tələbələrə kömək edir, bu planların qəbulunu təşkil edir və zərurət yarandıqda planlarda dəyişiklik edilməsinə dəstək olurlar. Tyutorlar həmçinin illik işçi tədris planlarının hazırlanmasında, yay semestrinin təşkilində iştirak edir, tələbələrin təhsil motivasiyasının artırılması və fərdi inkişafı istiqamətində məsləhət xidməti göstərirlər. Bütün bu fəaliyyət zamanı tyutorlar tələbələrin hüquqlarını və akademik maraqlarını qoruyurlar. Tyutorların peşəkar hazırlığının artırılması məqsədilə onlar müvafiq təlim və kurslara cəlb olunurlar. Bu sistem tələbələrin təhsil prosesinə fəal cəlb olunmasına və akademik uğurlarının yüksəlməsinə dəstək verir.

3.8.9. Tələbələr və təhsilverənlər, eləcə də tələbələr və akademik məsləhətçilər (tyutorlar) arasında müxtəlif vasitələrlə (üzbəüz, onlayn və s.) kommunikasiyanın həyata keçirilməsi vəziyyəti

ADMİU-da tələbələr ilə təhsilverənlər, eləcə də tələbələr ilə tyutorlar arasında kommunikasiya həm üzbəüz, həm də elektron vasitələrlə həyata keçirilir. Tələbələr dekanlıqlara bilavasitə müraciət edə, əvvəlcədən müəyyən edilmiş qrafik əsasında müəllimlərlə görüşərək məsləhət saatlarından yararlana bilirlər. Elektron vasitələrlə ünsiyyət əsasən EDUMAN platformasındakı şəxsi kabinetlər, korporativ elektron poçt vasitəsilə aparılır. EDUMAN-ın şəxsi kabinetləri və xəbərlər bölməsi müəllim ilə tələbə, eləcə də tələbələrin öz aralarında ünsiyyətini təmin edir. Covid-19 pandemiyası dövründə kommunikasiya əsasən “Microsoft Teams” platforması vasitəsilə qurulmuş, bu platformadan zəruri hallarda bu gün də istifadə olunur. Bununla belə, tələbələrin EDUMAN platformasından və korporativ elektron poçt ünvanlarından daha fəal istifadə etmələrinin təşviq edilməsi zəruridir.

3.8.10. Sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətə inteqrasiyası meyarlarının tədris prosesində nəzərə alınması vəziyyəti

ADMİU-da sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətə inteqrasiyası meyarlarının tədris prosesində nəzərə alınması Azərbaycan Respublikası Prezidentinin 14 dekabr 2017-ci il tarixli 3498 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “2018–2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı”na əsasən həyata keçirilir. Universitetdə bu tələbələrin təhsili üçün əlverişli mühitin yaradılması istiqamətində işlər aparılır. ADMİU Elmi Şurasının 30 may 2023-cü il tarixli qərarına (protokol №09) əsasən sağlamlıq imkanları məhdud tələbələrin qiymətləndirilməsi şifahi formada keçirilir. Görmə məhdudiyyəti olan tələbələr üçün Azərbaycan Gözdən Əlillər Cəmiyyəti ilə əməkdaşlıq çərçivəsində Brayl şriftli nəşrlər əldə edilmiş, eşitmə məhdudiyyəti olan tələbələr üçün isə səsgücləndirici qurğulardan istifadə olunur. Psixoloji xidmət mərkəzi tələbələrə fərdi psixoloji dəstək göstərir. Bundan əlavə, “İnklüziv təhsildə incəsənət yönümlü tədris metodları” fənn proqramı hazırlanmış, əlilliyi olan şəxslərə xidmət göstərən mərkəzlərlə əməkdaşlıq qurularaq tələbələrin həmin mərkəzlərdə praktik fəaliyyəti təşkil olunmuşdur.

Bu tədbirlər sağlamlıq imkanları məhdud tələbələrin akademik və sosial mühitə inteqrasiyasına xidmət edir.

3.8.11. Sosial həssas qrupa aid edilən tələbələrin təhsil xidmətlərinə əlçatanlığı vəziyyəti

ADMİU-da sosial həssas qruplara aid edilən tələbələrə qayğı göstərilməsi daim diqqət mərkəzində saxlanılır. Birinci və İkinci Qarabağ müharibələrinin iştirakçıları, şəhid və qazi ailələrinin üzvləri olan tələbələrə münasibət qüvvədə olan qanunvericiliyin tələblərinə uyğun həyata keçirilir. Elmi Şuranın 30 may 2023-cü il tarixli qərarına (protokol №09) əsasən 44 günlük Vətən müharibəsi iştirakçısı olan tələbələrin qiymətləndirilməsi şifahi formada aparılır.

Covid-19 pandemiyası dövründə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 aprel 2020-ci il tarixli 138 nömrəli qərarına əsasən sosial həssas qruplara aid ailələrin üzvü olan tələbələrin 2020-ci il üzrə tədris semestrləri üçün təhsil haqqı dövlət büdcəsinin vəsaiti hesabına ödənilmişdir. Bu güzəşt normativ təhsil müddətində ödənişli əsaslarla əyani təhsil alan, təkrar ali təhsil alanlar istisna olmaqla, tələbələrə şamil edilmişdir. Güzəştdən ünvanlı dövlət sosial yardımı alan ailələrin üzvləri, eləcə də hər iki valideyni (tək valideyni olduqda isə həmin valideyni) və ya qanuni nümayəndəsi I və II dərəcə əlilliyi olan, işsiz kimi qeydiyyatda olan, yaşa görə əmək pensiyası və ya yaşa görə sosial müavinət alan tələbələr yararlanmışdır.

3.8.12. Təhsilalanlara ATM tərəfindən təqaüd imkanının yaradılması vəziyyəti

ADMİU-da tələbələr üçün təqaüd imkanları yaradılmışdır. Təqaüdlər tələbələrin akademik göstəriciləri, sosial vəziyyəti və fərdi nailiyyətləri nəzərə alınmaqla təyin edilir. Dövlət təqaüdləri ilə yanaşı, fərqlənən tələbələrə adlı təqaüdlər də verilir. Bu məqsədlə ayrılan vəsait universitetin maliyyə mənbələrindən biridir. Təqaüd sisteminin şəffaf və ədalətli idarə olunmasına universitet rəhbərliyi tərəfindən nəzarət edilir, müraciət və seçim prosesi müəyyən olunmuş qaydalar əsasında həyata keçirilir. Təqaüd imkanları tələbələrin təhsilə motivasiyasını artırır, onların akademik uğurlarını stimullaşdırır və universitetdə sağlam rəqabət mühitinin formalaşmasına töhfə verir.

3.9. Təhsil proqramlarının monitorinqi və yenilənməsi

3.9.1. Təhsil proqramlarının monitorinqi strategiyasının və fəaliyyət planının mövcudluğu

ADMİU-da təhsil proqramlarının monitorinqi universitetin “Keyfiyyət təminatı siyasəti” əsasında həyata keçirilir. Bu sənəd proqramların daimi monitorinqini və vaxtaşırı yoxlanılmasını keyfiyyət təminatının əsas istiqamətlərindən biri kimi müəyyən edir. Monitorinqin qaydaları və mərhələləri ADMİU Elmi Şurasının 24 dekabr 2025-ci il tarixli 04 nömrəli qərarı ilə təsdiq edilmiş Keyfiyyət Təminatı Bələdçisində (qaydalar toplusu) əks olunmuşdur. Monitorinq Keyfiyyət təminatı və strateji planlama departamenti, Keyfiyyət Təminatı Komissiyası, Tədris şöbəsi, fakültələr və kafedralar tərəfindən aparılır. Fəaliyyət planında monitorinqin mərhələləri, məsul şəxslər, tətbiq olunan metod və vasitələr

müəyyən edilir. Monitorinq zamanı proqramların məqsədlərinə nail olunması, təlim nəticələrinin uyğunluğu və tədris prosesinin səmərəliliyi qiymətləndirilir. Monitorinqin nəticələri tədris planlarının, proqramların məzmununun və tədris metodlarının təkmilləşdirilməsində istifadə olunur.

3.9.2. Təhsil proqramları üzrə təlim nəticələrinin əldə edilməsinə nəzarət imkanlarının mövcudluğu

ADMİU-da təhsil proqramları üzrə təlim nəticələrinin əldə edilməsinə nəzarət bir neçə mexanizm vasitəsilə həyata keçirilir. Fənlərin təlim nəticələri sillabuslarda proqramın təlim nəticələrinə uyğun olaraq müəyyən edilir və onların öz əksini tapmasına fakültələr və kafedralar tərəfindən nəzarət olunur. Tələbələrin bilik və bacarıqları cari, aralıq və yekun qiymətləndirmə, kurs layihələri, yaradıcılıq işləri və buraxılış işləri vasitəsilə izlənilir, nəticələr isə EDUMAN platformasında qeydə alınır. Tyutorlar və kafedralar tələbələrin akademik inkişafını fərdi və qrup şəklində izləyir. Toplanmış məlumatlar tədris prosesinin səmərəliliyinin qiymətləndirilməsində və təhsil proqramlarının təkmilləşdirilməsində istifadə olunur.

3.9.3. Təhsil proqramlarının monitorinqinin faydaları və onların daxili keyfiyyət təminatı sisteminə töhfəsinin qiymətləndirilməsinin aparılması vəziyyəti

ADMİU-da təhsil proqramlarının monitorinqi proqramların güclü və zəif tərəflərini müəyyən etməyə imkan verir. Monitorinqin nəticələri fakültə və universitet elmi şuralarında müzakirə olunur, tədris planlarının, proqramların məzmununun və tədris metodlarının təkmilləşdirilməsində istifadə edilir. Struktur bölmələrin Strateji İnkişaf Planının icrası üzrə yarımillik və illik hesabatları, eləcə də daxili keyfiyyət təminatı üzrə hazırlanan illik Özünütəhlil hesabatı monitorinqin daxili keyfiyyət təminatı sisteminə töhfəsini qiymətləndirməyə imkan verir. Bu proses universitetdə keyfiyyət mədəniyyətinin inkişafına və idarəetmə qərarlarının monitorinq nəticələrinə əsaslanmasına xidmət edir.

3.9.4. Təhsil proqramlarının illik özünüqiymətləndirmə hesabatlarının hazırlanması vəziyyəti

ADMİU-da təhsil proqramlarının illik özünüqiymətləndirmə hesabatları Keyfiyyət təminatı və strateji planlama departamentinin illik Fəaliyyət planına uyğun olaraq hər tədris semestrinin əvvəlində maraqlı tərəflərin iştirakı ilə hazırlanır. Hesabatlarda təhsil proqramı üzrə tələbə qəbulu, əvvəlki kvalifikasiyaların tanınması, tədrisin təşkili, eləcə də tətbiq olunan tədris metodları və üsulları təhlil edilir.

3.9.5. Təhsil müəssisəsində tədris olunan təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğun yenilənməsi vəziyyəti

ADMİU-da tədris olunan təhsil proqramları 2020-ci ildə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 11 fevral 2019-cu il tarixli 45 nömrəli qərarı ilə təsdiq edilmiş ixtisasların (proqramların) təsnifatına uyğun olaraq əmək bazarının və cəmiyyətin tələbləri nəzərə alınmaqla hazırlanmış və rəsmiləşdirilmişdir. Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən fənlər, yəni ixtisasın (proqramın) peşə hazırlığının seçmə fənləri,

universitetin Elmi Şurası tərəfindən təsdiq edilir. Bu fənlər müəyyənləşdirilərkən Mədəniyyət Nazirliyi və onun tabeliyindəki teatrlar, Beynəlxalq Muğam Mərkəzi, Kino Agentliyi və digər qurumlar kimi əmək bazarı nümayəndələrinin təklifləri nəzərə alınır. Təhsil proqramlarının dövri monitorinqi və qiymətləndirilməsi mexanizmi beynəlxalq təcrübəyə əsaslanaraq təkmilləşdirilir.

3.10. Karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi

3.10.1. Karyera mərkəzinin mövcudluğu vəziyyəti

ADMİU-da karyera mərkəzi funksiyasını Tədris şöbəsinin tərkibində fəaliyyət göstərən Ömürboyu təhsil, karyera və məzunlarla iş bölməsi həyata keçirir. Bölmənin əsas məqsədi tələbələrin peşəkar inkişafını dəstəkləmək və onların əmək bazarına inteqrasiyasını asanlaşdırmaqdır. Bölmə tələbələrə karyera məsləhətləri verir, təcrübə və staj imkanları barədə məlumat təqdim edir, onları müsahibələrə hazırlayır. Bundan əlavə, bölmə məzunların məşğulluğunu izləyir və onların karyera imkanlarının genişləndirilməsi üçün tədbirlər həyata keçirir. Bu fəaliyyət tələbələrin peşə bacarıqlarının inkişafına və əmək bazarında rəqabət qabiliyyətinin artırılmasına xidmət edir.

3.10.2. Tələbə və məzunlara karyera məsləhət xidmətlərinin göstərilməsi vəziyyəti

ADMİU-da tələbə və məzunlara karyera məsləhət xidmətləri Tədris şöbəsinin Ömürboyu təhsil, karyera və məzunlarla iş bölməsi vasitəsilə təşkil olunur. Bu xidmətlər tələbələrin peşəkar bacarıqlarının inkişafı, təcrübə və staj imkanlarının müəyyənləşdirilməsi, eləcə də iş bazarına inteqrasiyasına yönəldilmişdir. Məsləhətçilər fərdi konsultasiyalar, seminarlar və praktik məşğələlər vasitəsilə tələbələrə və məzunlara dəstək göstərirlər. Karyera məsləhətləri tələbələrin özünüdərkini artırmaq, karyera planlarını formalaşdırmaq və iş bazarında rəqabət qabiliyyətini yüksəltmək imkanlarını təmin edir. Bu sistemli yanaşma universitetdə təhsilin praktik yönümlülüyünü gücləndirir və məzunların uğurlu peşə fəaliyyətinə hazırlığını təmin edir.

Karyera məsləhətləri həm tələbələr, həm də məzunlar üçün əlçatandır. Bu xidmət çərçivəsində fərdi məsləhətlər və seminarlar keçirilir, CV-nin hazırlanmasına və müsahibələrə hazırlığa kömək göstərilir. Bu da peşə bacarıqlarının inkişafına və əmək bazarına inteqrasiyaya xidmət edir. Təcrübə və staj imkanları əsasən tələbələr üçün nəzərdə tutulub, məzunlar üçün isə məhduddur. Bu istiqamətdə təcrübə proqramları təşkil olunur və staj imkanları barədə məlumat verilir. Nəticədə tələbələrin praktik bacarıqları artır və əmək bazarında rəqabət qabiliyyəti yüksəlir. Karyera planlaşdırılması üzrə həm tələbələr, həm də məzunlar üçün karyera yönümlü təlimlər keçirilir və mentor dəstəyi göstərilir. Bu, onların karyera planlarını formalaşdırmasına və peşə fəaliyyətinə hazırlaşmasına imkan verir. Bundan əlavə, tələbə və məzunlara iş elanları və əmək bazarının təhlili barədə məlumat təqdim olunur. Bu məlumatlar onlara iş imkanlarını daha düzgün qiymətləndirməyə kömək edir.

3.10.3. Məzunların əmək bazarında iştirakının izlənilməsi mexanizmlərinin mövcudluğu vəziyyəti

ADMİU-da məzunların əmək bazarında fəaliyyətinin izlənilməsi Ömürboyu təhsil, karyera və məzunlarla iş bölməsi və müvafiq kafedralar tərəfindən həyata keçirilir. Bu məqsədlə məzunlar arasında sorğular keçirilir, onların məşğulluğu haqqında statistik məlumatlar toplanır və təhlil edilir. Toplanmış məlumatlar məzunların məşğulluq səviyyəsini, peşə bacarıqlarının əmək bazarının tələblərinə uyğunluğunu və kadrlara olan tələbatı müəyyən etməyə imkan verir. Bu göstəricilər təhsil proqramlarının, karyera məsləhət xidmətlərinin və peşə hazırlığı tədbirlərinin təkmilləşdirilməsində istifadə olunur.

3.10.4. Məzunların təhsil proqramı çərçivəsində əldə etdiyi səriştələrindən və təhsil proqramının keyfiyyət səviyyəsindən məmnunluğunun ölçülməsi vəziyyəti

ADMİU-da məzunların təhsil proqramı çərçivəsində əldə etdiyi səriştələrdən və proqramın keyfiyyətindən məmnunluğu sorğular vasitəsilə ölçülür. Məlumatlar Keyfiyyət təminatı və strateji planlama departamenti tərəfindən keçirilən onlayn sorğular və müsahibələr vasitəsilə toplanır. Sorğularda həm təhsil proqramlarının məzmunu, həm də tədris metodlarının uyğunluğu qiymətləndirilir. Toplanmış məlumatlar təhsil proqramlarının səmərəliliyinin qiymətləndirilməsində və onların davamlı təkmilləşdirilməsində istifadə olunur.

3.10.5. Məzunlarla davamlı əlaqə sisteminin mövcudluğu vəziyyəti

ADMİU-da məzunlarla davamlı əlaqənin qurulması universitetin prioritet istiqamətlərindən biridir. Tədris şöbəsinin Ömürboyu təhsil, karyera və məzunlarla iş bölməsi və müvafiq kafedralar məzunlar haqqında məlumat bazasını yeniləyir, onların peşəkar inkişafı, məşğulluğu, karyera perspektivləri və təhsil ehtiyacları barədə məlumat toplayır. Məzunlarla əlaqə onlayn sorğular, elektron poçt, sosial şəbəkələr, fərdi məsləhətlər və görüşlər vasitəsilə saxlanılır. Universitetdə Məzunlar Assosiasiyası yaradılmışdır. Məzunlar mütəmadi olaraq universitetə dəvət olunur, onların iştirakı ilə müxtəlif tədbirlər keçirilir (https://www.instagram.com/p/DScDLgsDFTZ/). Milli karyera həftəsi çərçivəsində Dövlət Məşğulluq Agentliyi və universitetlərin karyera mərkəzləri ilə “Karyera mərkəzləri ilə işin təşkili” mövzusunda görüşlər keçirilmişdir. Məzunlardan toplanan məlumatlar və rəylər təhsil proqramlarının və karyera xidmətlərinin təkmilləşdirilməsində, eləcə də idarəetmə qərarlarının qəbulunda istifadə olunur. Məzunlarla davamlı əlaqə onların peşəkar şəbəkələrinin genişlənməsinə, əmək bazarında rəqabət qabiliyyətinin artmasına və universitetlə əməkdaşlığın möhkəmlənməsinə şərait yaradır.

IV. Elmi-tədqiqat

4.1. Elmi-tədqiqat strategiyası

4.1.1. ATM-in elmi-tədqiqat strategiyasının mövcudluğu vəziyyəti

ADMİU-nun Elmi-tədqiqat strategiyası rəsmi sənəd kimi hazırlanmış və universitetin Elmi Şurasının 27 oktyabr 2022-ci il tarixli iclasında (protokol №02) təsdiq

edilmişdir. Strategiya ölkənin təhsil, elm və mədəniyyət sahəsindəki dövlət siyasətinə əsaslanır. Onun hazırlanmasında “Təhsil haqqında” Azərbaycan Respublikasının 19 iyun 2009-cu il tarixli 833-IIIQ nömrəli Qanunu və onun tətbiq edilməsi barədə Prezidentin 5 sentyabr 2009-cu il tarixli Fərmanı, “Mədəniyyət haqqında” Azərbaycan Respublikasının 21 dekabr 2012-ci il tarixli 506-IVQ nömrəli Qanununun tətbiqi barədə Prezidentin Fərmanı əsas götürülmüşdür. Bundan əlavə, “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası (29 dekabr 2012-ci il), “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası” (24 oktyabr 2013-cü il) və onun həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı (19 yanvar 2015-ci il), “Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası” (14 fevral 2014-cü il, №273), eləcə də “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası” (22 iyul 2022-ci il) nəzərə alınmışdır.

Strategiya universitetin daxili strateji sənədləri ilə də uzlaşdırılmışdır. Onun hazırlanmasında Elmi Şuranın 26 may 2021-ci il tarixli iclasında (protokol №07) təsdiq edilmiş “ADMİU-nun 2021–2025-ci illər üçün Strateji İnkişaf Planı” və Elmi Şuranın 7 iyul 2021-ci il tarixli iclasında (protokol №09) təsdiq edilmiş Strateji İnkişaf Planının həyata keçirilməsi üzrə uzunmüddətli (2021–2025-ci illər) və ortamüddətli (2021–2023-cü illər) Fəaliyyət Planı, eləcə də universitetin əmr və qərarları əsas götürülmüşdür.

4.1.2. Elmi-tədqiqat strategiyasının ATM-in missiyasına və hədəflərinə uyğunluğu vəziyyəti

ADMİU-nun Elmi-tədqiqat və yaradıcılıq strategiyasının missiyası təlimin qabaqcıl innovasiya texnologiyalarını tədris prosesi ilə əlaqələndirməklə mədəniyyət və incəsənət sahələri üzrə respublikada və xaricdə tanınan, müasir dövrün tələblərinə cavab verən rəqabətədavamlı yüksəkixtisaslı kadr hazırlığı sistemini formalaşdırmaqdır. Strategiya universitetin Strateji İnkişaf Planının həyata keçirilməsi üzrə uzunmüddətli (2021–2025-ci illər) və ortamüddətli (2021–2023-cü illər) Fəaliyyət Planında müəyyən edilmiş prioritet və hədəflərə əsaslanır.

Fəaliyyət Planının “Elmi tədqiqatlar və innovasiyalar” adlanan 2 saylı prioritetində əsas məqsəd kimi tədqiqat və sahibkarlıq ekosisteminin qurulması nəzərdə tutulur. Strategiyanın əsas elmi-tədqiqat hədəfləri bu prioritetin iki hədəfinə uyğundur.

- Hədəf 2.1 professor-müəllim heyətində, elmi işçilərdə, doktorant, magistrant və bakalavrlarda tədqiqat, sahibkarlıq və peşə səriştələrinin formalaşması üçün şərait yaradılmasını,

- Hədəf 2.4 isə onların nəşr fəaliyyətinin artırılmasını nəzərdə tutur.

Strategiya həmçinin “Beynəlmiləlləşmə” adlanan 3 saylı prioritetin Hədəf 3.1-ni, yəni təhsil xidmətləri və beynəlxalq tədqiqat layihələri vasitəsilə universitetin rəqabət qabiliyyətinin artırılmasını əhatə edir. Bu çərçivədə beynəlxalq elmi və təhsil proqramlarının (layihələrin) sayının, eləcə də onlarda iştirak edən professor-müəllim heyətinin, gənc tədqiqatçıların və tələbələrin sayının artırılması nəzərdə tutulur (bəndlər 3.1.1 və 3.1.2). Strategiyanın yaradıcılıq hədəfləri “Sosiallaşma” adlanan 4 saylı prioritetin Hədəf 4.1 və Hədəf 4.2 əsasında işlənmişdir. Bu hədəflər universitetin sosial fəaliyyətinin gücləndirilməsini, tələbələrin ictimai fəallığının artırılmasını, onların sosial layihələrinin

dəstəklənməsini, azərbaycançılıq ideologiyasının və milli-mənəvi dəyərlərin təbliğini nəzərdə tutur. ADMİU-nu digər universitetlərdən fərqləndirən əsas xüsusiyyət elmi-tədqiqat və yaradıcılıq istiqamətlərinin bərabər səviyyədə inkişaf etdirilməsidir. Universitetdə 12 yaradıcılıq və 8 nəzəri kafedra fəaliyyət göstərir.

4.1.3. ATM-in elmi-tədqiqat siyasətinin, onun məqsədlərinin və prioritet tədqiqat sahələrinin və istiqamətlərinin, təşviq mexazimlərinin və tədqiqat fəaliyyətinin idarə olunmasının elmi-tədqiqat strategiyasında nəzərə alınması vəziyyəti

ADMİU-nun Elmi-tədqiqat strategiyası iki əsas prioritet üzərində qurulur. Bunlardan birincisi professor-müəllim heyətinin illik elmi-tədqiqat işlərinin tədris prosesinə inteqrasiyasıdır. İkincisi isə universitetin prioritet nəzəri sahələri üzrə tədqiqat istiqamətlərinin müasir tələblərə uyğun müəyyənləşdirilməsidir. Bu sahələrə incəsənətin nəzəriyyəsi, təhlili və tənqidi, teatr sənəti, musiqi sənəti, kino, televiziya və digər ekran sənətləri, dekorativ-tətbiqi sənət və təsviri sənət daxildir. Yaradıcılıq strategiyası da iki prioritetə söykənir: professor-müəllim heyətinin illik yaradıcılıq və ifaçılıq işləri seçilərkən müasirlik və azərbaycançılıq ideyalarının əsas götürülməsi və yaradıcılıq layihələrinin dəstəklənməsi. Tədqiqat fəaliyyətinin təşviqi məqsədilə ADMİU Elmi Şurasının 30 oktyabr 2023-cü il tarixli qərarı ilə professor-müəllim heyətinin akademik fəaliyyətinin qiymətləndirilməsi meyarları təsdiq edilmişdir. Elmi Şuranın 25 oktyabr 2024-cü il tarixli qərarına (protokol №03) əsasən Web of Science və Scopus bazalarında indekslənən jurnallarda məqaləsi dərc olunan müəllimlərin əməkhaqqına 6 ay müddətində əlavə vəsait təyin edilir. Elmi-tədqiqat və yaradıcılıq fəaliyyətinin idarə olunması elm və yaradıcılıq işləri üzrə prorektor, Elm və doktorantura şöbəsi, Yaradıcılıq layihələrinin idarə edilməsi şöbəsi və Tələbə Elmi Yaradıcılıq Cəmiyyəti tərəfindən həyata keçirilir.

4.1.4. Elmi-tədqiqat məqsədlərinin ATM-in uzunmüddətli strateji inkişaf proqramının istiqamətlərinə uyğunluğu

“ADMİU-nun Strateji İnkişaf Planının həyata keçirilməsi üzrə uzunmüddətli (2021-2025-ci illər) və ortamüddətli (2021-2023-ci illər) Fəaliyyət Planı” bu hədəflər üzrə icra planını aşağıdakı kimi müəyyənləşmişdir:

Cədvəl 4.1. ADMİU-nun Strateji İnkişaf Planının həyata keçirilməsi üzrə uzunmüddətli (2021-2025-ci illər) və ortamüddətli (2021-2023-ci illər) Fəaliyyət Planı üzrə müvafiq hədəflər

№	Fəaliyyətin adı	Fəaliyyətin nəticəsi	Cavabdehlik	İcra müd-dəti
PRİORİTET 2. ELMİ TƏDQİQATLAR VƏ İNNOVASİYALAR				
Məqsəd: Tədqiqat və sahibkarlıq ekosisteminin qurulması				
Hədəf 2.1. ADMİU-nun professor-müəllim heyəti, elmi işçi, doktorant, magistrant və bakalavrlarında tədqiqat, sahibkarlıq və peşə səriştəsinin formalaşması üçün şəraitin yaradılması				

2.1.1	Tələbə elmi ideyalarının reallaşdırılması, sahibkarlıq və peşə sərişdəsinin formalaşdırılması və inkişaf etdirilməsni təmin etmək sahəsində fəaliyyətin gücləndirilməsi	ADMİU-nun EŞ-nın qərarı	Tədris işləri üzrə prorektor, Elm və yaradıcılıq işləri üzrə prorektor.	2021-2022
2.1.2	Yaradıcılıq işlərinin və mədəniyyət və incəsənət yönümlü elmi nəticələrin və kommersiyalaşdırılması ADMİU-da sahibkarlıq fəaliyyətinin formalaşdırılması və inkişaf etdirilməsi məqsədilə kollektiv tədqiqat üçün şəraitin yaradılması	ADMİU-nun EŞ-nın qərarı	Elm və yaradıcılıq işləri üzrə prorektor, Tədris işləri üzrə prorektor	2021-2023
2.1.3	Sahibkarlıq fəaliyyətinin formalaşdırılması və inkişaf etdirilməsi məqsədilə kollektiv tədqiqat üçün şəraitin yaradılması	ADMİU-nun EŞ-nın qərarı	Elm və yaradıcılıq işləri üzrə prorektor, Keyfiyyət təminatı və strateji planlama departamenti, İctimaiyyətlə əlaqələr və marketinq şöbəsi, Sahibkarlıq və innovasiya mərkəzi	2023-2025
2.1.4	ADMİU-nun professor-müəllim və tələbələri tərəfindən həyata keçirilən layihələrin sayının artırılması	Qeydiyyat sənədləri	Elm və yaradıcılıq işləri üzrə prorektor	2021-2025
2.1.5	Mədəniyyət və incəsənət müəssisələri ilə bağlanılmış müqavilələrin sayının artırılması	Müqavilələr	Elm və yaradıcılıq işləri üzrə prorektor	2021-2025
Hədəf 2.2. Yaradıcılıq infrastrukturunun modernləşdirilməsi. Rəqəmsal infrastruktur və müasir elmi-texniki baza ilə təchiz edilməsi				
2.2.1	Yaradıcılıq sahələrinin inkişafı üçün modern avadanlıq və cihazlarla təchiz olunmuş studiya və laboratoriyaların yaradılması	Studiya və emalatxanalar	İnzibati-təsərrüfat işləri üzrə prorektor, Elm və yaradıcılıq işləri üzrə prorektor	2021-2025
Hədəf 2.3. ADMİU-da yaradıcılıq və elmi fəaliyyətin sahibkarlıq tipli innovasiya				

fəaliyyətlərinə istiqamətləndirilməsi və yeni prinsiplərin formalaşması				
2.3.1	Sahibkarlıq və innovasiya mühitinin inkişaf etdirilməsi məqsədilə müvafiq struktur vahidlərinin yaradılması	Sahibkarlıq və innovasiya mərkəzi, İctimaiyyətlə əlaqələr və marketinq şöbəsi	Elm və yaradıcılıq işləri üzrə prorektor, Beynəlxalq əlaqələr üzrə prorektor	2021-2023
2.3.2	Yerli və xarici tərəfdaş mərkəzlərinin sayının artırılması	Müqavilələr	Elm və yaradıcılıq işləri üzrə prorektor, Beynəlxalq əlaqələr üzrə prorektor	2021-2025
2.4.3	Qrant və müqavilə əsaslı elmi-tədqiqat layihələrində iştirak edən professor-müəllim, əməkdaş və tələbələrin sayının ümumi kontingentdəki payının artırılması		Elm və yaradıcılıq işləri üzrə prorektor, Beynəlxalq əlaqələr üzrə prorektor	
Hədəf 2.4. Professor-müəllim heyətinin, doktorantlarının, magistrantların və bakalavrların nəşr fəaliyyətinin artırılması				
2.4.1	Web of Science (Clarivate Analytics) və SCOPUS (Elsevier) verilənlər bazalarında indekslənən jurnallardakı məqalə sayının ümumi məqalə sayındakı payının artırılması	Web of Science (Clarivate Analytics) və Scopus (Elsevier) bazasında indekslənən jurnallardakı məqalələr və nəşrlər	Elm və yaradıcılıq işləri üzrə prorektor, kafedra müdirləri	2021-2025
2.4.2	Materialları Web of Science və SCOPUS verilənlər bazalarında indekslən konfransların sayının artırılması	Məqalələr, nəşrlər	Elm və yaradıcılıq işləri üzrə prorektor, kafedra müdirləri	2021-2025
2.4.3	Xaricdə dərc olunan elmi əsərlərin sayının ümumi məqalə sayındakı payının artırılması	Məqalələr, nəşrlər	Elm və yaradıcılıq işləri üzrə prorektor, kafedra müdirləri	2021-2025
2.4.4	ADMİU-nun alimlərinin Web of Science və SCOPUS verilənlər bazasında indekslənən jurnallardakı elmi əsərlərinə istinadların sayının artırılması	Məqalələr, nəşrlər	Elm və yaradıcılıq işləri üzrə prorektor, kafedra müdirləri	2021-2025
PRİORİTET 3. BEYNƏLMİLƏLLƏŞMƏ				
Məqsəd: Təhsil və elmin beynəlmiləlləşdirilməsi. Beynəlxalq əməkdaşlığın fəal iştirakçısına çevrilmək, strateji təhsil və elmi tərəfdaşlıq əlaqələrini				

genişləndirmək, beynəlxalq təhsil məkanında ADMİU-nun imicini təbliğ etmək.				
Hədəf 3.1. Təhsil xidmətləri və tədqiqat/beynəlxalq layihələr vasitəsilə ADMİU-nun rəqabət qabiliyyətinin artırılması				
3.1.1	Beynəlxalq elmi və təhsil proqramlarının (layihələrin) sayının artırılması	Akademik mobillik və mübadilə proqramların, ikili diplom, müştərək beynəlxalq layihələr	Beynəlxalq əlaqələr üzrə prorektor, Tədris işləri üzrə prorektor, Elm və yaradıcılıq işləri üzrə prorektor	2021-2015
3.1.2	Beynəlxalq təhsil və elmi proqramlarda (layihələrdə) iştirak edən professor-müəllim heyətinin, gənc tədqiqatçıların və tələbələrin sayının artırılması	Bolonya prosesi Mərkəzinin məlumatları, hesabatları və akademik mobillik	Beynəlxalq əlaqələr üzrə prorektor, Elm və yaradıcılıq işləri üzrə prorektor, Tədris işləri üzrə prorektor	2021-2025
3.1.7	Xarici tərəfdaş universitetləri cəlb etməklə beynəlxalq konfrans və seminarların sayının artırılması	Konfrans materialları və elmi toplular	Elm və yaradıcılıq işləri üzrə prorektor, Beynəlxalq əlaqələr üzrə prorektor, kafedralar	2021-2025
PRİORİTET 4. SOSİALLIQ				
Məqsəd: Sosial fəaliyyətin inkişaf etdirilməsi, professor-müəllim heyətinin və tələbə gənclərin ölkənin və Universitetin ictimai həyatında aktiv iştirakının təmin olunması; Resursların və infrastrukturun inkişaf etdirilməsi; Yüksək şəxsi keyfiyyətlərə malik və müasir istehsal şəraitinə uyğunlaşa bilən mütəxəssislərin hazırlanması				
Hədəf 4.1. Universitetin sosial fəaliyyətinin gücləndirilməsi				
4.1.1	Universitetin nüfuzunun artırılması istiqamətində tədbirlərin görülməsi	Layihələr	Beynəlxalq əlaqələr üzrə prorektor, Elm və yaradıcılıq işləri üzrə prorektor	2021-2025
4.1.2	Professor-müəllim heyəti və təhsilalanların ölkəmiqyaslı və beynəlxalq sosial layihələrdə iştirak	Layihələr	Beynəlxalq əlaqələr üzrə prorektor, Elm və yaradıcılıq işləri üzrə prorektor	2021-2025
4.1.4	Yaradıcılıq birlikləri, ictimai qurumlar ilə birgə sosial layihələrin həyata keçirilməsi	Əməkdaşlıq müqavilələri, hesabatlar	Tədris işləri üzrə prorektor, Elm və yaradıcılıq işləri üzrə prorektor	2021-2025

4.1.5	ADMİU-nun professor-müəllim heyəti tərəfindən sosioloji tədqiqatların aparılması və ictimaiyyətə təqdim edilməsi	Əməkdaşlıq müqavilələri, hesabatlar	Elm və yaradıcılıq işləri üzrə prorektor, kafedralar	2021-2025
Hədəf 4.2 Təhsilalanların ictimai fəallığının artırılması, sosial layihələrinin dəstəklənməsi, Azərbaycançılıq ideologiyasının, milli-mənəvi dəyərlərin və s. təbliği istiqamətində fəaliyyətin gücləndirilməsi				
4.2.1	ADMİU-da innovativ mühitin yaradılmasına yönəlmiş tədbirlərin sayının artırılması – tələbələrin sosial adaptasiyası	Hesabatlar, Protokollar	Tədris işləri üzrə prorektor, Elm və yaradıcılıq işləri üzrə prorektor, Ümumi işlər üzrə prorektor, Beynəlxalq əlaqələr üzrə prorektor	2021-2025
4.2.2	Tələbə təşkilatlarının sosial layihələrinin dəstəklənməsi, bu istiqamətdə keçirilən tədbirlərin sayının artırılması	Sosial layihələr	Tədris işləri üzrə prorektor, Elm və yaradıcılıq işləri üzrə prorektor, Ümumi işlər üzrə prorektor, Beynəlxalq əlaqələr üzrə prorektor, TEYC	2021-2025
4.2.3	Gənclərə Azərbaycançılıq ideologiyasını, mənəvi dəyərləri və s. aşılayan tədbirlərin sayının artırılması	Tədbirlər	Tədris işləri üzrə prorektor, Elm və yaradıcılıq işləri üzrə prorektor, Ümumi işlər üzrə prorektor, Beynəlxalq əlaqələr üzrə prorektor, İnzibati-təsərrüfat işləri üzrə prorektor	2021-2025
4.2.4	Elmi, yaradıcılıq və idman müsabiqələrinin sayının artırılması	Hesabatlar, Protokollar	Tədris işləri üzrə prorektor, Elm və yaradıcılıq işləri üzrə prorektor, Ümumi işlər üzrə prorektor, Beynəlxalq əlaqələr üzrə prorektor, İnzibati-təsərrüfat işləri üzrə prorektor	2021-2025

Bu Fəaliyyət planından çıxış edərək, ADMİU-nun 2022-2025-ci illəri əhatə edən Elmi-Tədqiqat və Yaradıcılıq Strategiyası aşağıdakı 7 hədəfi əsas götürür:

1. ADMİU-nun professor-müəllim heyətinin keyfiyyətli davamlı tədqiqat fəaliyyətinin stimullaşdırılması;
2. Magistratura və doktorantura təhsil səviyyələrində tədqiqat mühitinin keyfiyyətinin yaxşılaşdırılması;
3. Magistratura və doktorantura təhsil səviyyələrində kadr hazırlığının inkişafı üçün mühitin yaxşılaşdırılması;
4. ADMİU-nun professor-müəllim heyətinin, doktorantlarının və magistrantlarının nəşr fəaliyyətinin artırılması;
5. Elmi tədqiqatlar sahəsində beynəlxalq əlaqələrin genişləndirilməsi;

6. Yaradıcılıq-ifa işlərinin müasir tələblərə uyğun planlaşdırılması;
7. Yaradıcılıq layihələrinin idarəolunması.

Strateji hədəf 1: ADMİU-nun professor-müəllim heyətinin keyfiyyətli davamlı tədqiqat fəaliyyətinin stimullaşdırılması

1.1. Normativ tədqiqat parametrlərini təyin edən təlimatların hazırlanması;

1.2. ADMİU-nun akademik heyətinin tədqiqat fəaliyyətinin gerçəkləşməsi məqsədi ilə resursların ayrılması;

1.3. Akademik heyətin tədqiqat fəaliyyətini təkmilləşdirmək üçün davamlı təlimlərin təşkil olunması;

1.4. Universitetin Kitabxana-İnformasiya Mərkəzi tərəfindən beynəlxalq elektron informasiya resurslarına əlçatanlığın təmin olunması;

1.5. SCOPUS və Web of Science indeksli jurnallarda elmi məqalələri dərc olunmuş tədqiqatçıların mükafatlandırılması planının hazırlanması;

1.6. Universitetdə müxtəlif beynəlxalq elmi konfransların keçirilməsinə maddi və təşkilati dəstəyin göstərilməsi.

Strateji hədəf 2: Magistratura və doktorantura təhsil səviyyələrində tədqiqat mühitinin keyfiyyətinin yaxşılaşdırılması

2.1. Magistratura və doktorantura səviyyələrində mövzu seçiminin koordinasiyasının təmin olunması;

2.2. Magistratura təhsil səviyyəsində tədqiqatın metodologiyası fənninin tədrisinin təkmilləşdirilməsi;

2.3. Magistratura və doktorantura təhsil səviyyələrində tədqiqat keyfiyyətini yüksəltmək üçün normativ parametrlərin təyin olunması;

2.4. Magistrant və doktorantların tədqiqat bacarıqlarının təkmilləşməsinə yönəlmiş tədbirlərin keçirilməsi;

2.5. Magistratura və doktorantura təhsil səviyyələrində tədqiqatın icra keyfiyyətinə daimi nəzarətin təmin olunması.

Strateji hədəf 3: Magistratura və doktorantura təhsil səviyyələrində kadr hazırlığının inkişafı üçün mühitin yaxşılaşdırılması

3.1. Magistrant və doktorantların tədqiqat mövzularının seçilməsində aktuallıq və praktik-nəzəri əhəmiyyət meyarlarının üstünlüyünün təmin olunması;

3.2. Magistratura və doktorantura təhsil səviyyələrində ixtisas fənlərinin tədrisinin müasir təhsil standartlarına uyğunluğuna nəzarətin təmin olunması;

3.3. Prioritet elm sahələri üzrə xarici ölkələrin nüfuzlu universitetlərinin alimlərinin ADMİU-nun kadr hazırlığına cəlb olunması;

3.4. Prioritet elm sahələri üzrə elmi kadr hazırlığı işinin təkmilləşdirilməsi;

3.5. Doktorant və dissertantların Universitetdə tədris prosesinə cəlb olunması.

Strateji hədəf 4: ADMİU-nun professor-müəllim heyətinin, doktorantlarının və magistrantlarının nəşr fəaliyyətinin artırılması

4.1. Universitetin elmi jurnallarında dərc olunan məqalələrə obyektin rəqəmsal identifikatorunun (DOI) alınmasının tənzimlənməsi;

4.2. Magistrant və doktorantların elmi tədqiqatlarının nəticələrinin AAK-ın tövsiyə etdiyi nəşrlərdə müntəzəm çap olunmasına nəzarətin təmin olunması;

4.3. Universitetin elmi jurnallarının fəaliyyətinin nüfuzlu beynəlxalq bazaların tələblərinə uyğunlaşdırılması;

4.4. Universitetin elmi jurnallarının indeksləşməsi istiqamətində tədbirlər planının hazırlanması.

Strateji hədəf 5: Elmi tədqiqatlar sahəsində beynəlxalq əlaqələrin genişləndirilməsi

5.1. Elmi tədqiqatlar sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi;

5.2. Universitetin professor-müəllim heyətinin, doktorantlarının və magistrantlarının beynəlxalq elmi platformalarda (ORCID, Web of Science, Scopus, ResearchGate, Google Scholar) akademik profillərinin yaradılması;

5.3. ADMİU-nun "Mədəniyyət dünyası" jurnalının açıq giriş imkanlı beynəlxalq platformalarda qeydiyyata alınması üçün mərhələli tədbirlər planının həyata keçirilməsi;

5.4. Magistrant, doktorant və gənc tədqiqatçıların beynəlxalq mübadilə proqramları çərçivəsində elmi-tədqiqat işlərinin yerinə yetirilməsinə həvəsləndirilməsi.

Strateji hədəf 6: Yaradıcılıq-ifa işlərinin müasir tələblərə uyğun planlaşdırılması

6.1. Professor-müəllim heyətinin yaradıcılıq-ifa işlərinin ifası zamanı mənəvi dəyərlərin aşılanması;

6.2. Yaradıcılıq-ifa işlərinin hazırlanması prosesində kafedralararası müştərək iş birliyinin aktivləşdirilməsi;

6.3. Professor-müəllim heyətinin təqdim etdiyi yaradıcılıq-ifa işlərinin kommersiyalaşdırılması;

6.4. Tədris planına müasir dünya dramaturgiya nümunələrinin salınması;

6.5. Tələbələrin yaradıcılıq-ifa işlərinin təşviqi üçün şəraitin yaradılması.

Strateji hədəf 7: Yaradıcılıq layihələrinin idarəolunması

7.1. Azərbaycan incəsənəti və mədəniyyətinin yaradıcılıq sferasında təmsili (müsabiqələr, konsertlər, festivallar, sərgilər və s. təşkili və iştirak);

7.2. Əhalinin həssas qruplarının cəlb olunması ilə dəstək yönümlü birgə yaradıcı layihələrin hazırlanması;

7.3. Milli-mənəvi dəyərləri təbliğ edən tədbirlərin sayının artırılması;

7.4. Müasir meyarlara cavab verən yaradıcı layihələrin dəstəklənməsi.

4.1.5. Strategiyada elmi-tədqiqat fəaliyyətinin təlim və tədris prosesinə inteqrasiyasının nəzərə alınması vəziyyəti

ADMİU-nun Elmi-tədqiqat strategiyasında elmi-tədqiqat fəaliyyətinin tədris prosesinə inteqrasiyası iki strateji hədəf vasitəsilə nəzərə alınmışdır. Birinci hədəf professor-müəllim heyətinin tədqiqat fəaliyyətinin stimullaşdırılmasını nəzərdə tutur. Bu hədəf çərçivəsində tədqiqat üçün resursların ayrılması, davamlı təlimlərin təşkili, beynəlxalq elektron resurslara çıxışın təmin edilməsi, indeksli jurnallarda dərc olunan məqalələrin mükafatlandırılması və beynəlxalq konfransların dəstəklənməsi həyata keçirilir. İkinci hədəf magistratura və doktorantura səviyyələrində tədqiqat mühitinin yaxşılaşdırılmasına yönəlmişdir. Bu məqsədlə mövzu seçimi əlaqələndirilir, "Tədqiqatın

metodologiyası” fənninin tədrisi təkmilləşdirilir, magistrant və doktorantların tədqiqat bacarıqlarının inkişafı üçün tədbirlər keçirilir və tədqiqatın keyfiyyətinə daimi nəzarət edilir.

4.1.6. Strategiyada professor-müəllim heyətinin performansının nəzərə alınması vəziyyəti

ADMİU-nun Elmi-tədqiqat strategiyasında professor-müəllim heyətinin performansı iki strateji hədəf çərçivəsində nəzərə alınmışdır. Birinci strateji hədəf müəllimlərin keyfiyyətli və davamlı tədqiqat fəaliyyətinin stimullaşdırılmasına yönəlmişdir. Bu hədəf tədqiqatın normativ parametrlərinin müəyyən edilməsini, tədqiqat üçün resursların ayrılmasını, davamlı təlimlərin təşkilini, beynəlxalq elektron resurslara çıxışın təmin edilməsini, Scopus və Web of Science bazalarında məqalə dərc etdirən tədqiqatçıların mükafatlandırılmasını və beynəlxalq konfransların dəstəklənməsini əhatə edir. Beşinci strateji hədəf isə elmi tədqiqatlar sahəsində beynəlxalq əlaqələrin genişləndirilməsini nəzərdə tutur. Bu məqsədlə beynəlxalq elmi əməkdaşlıq genişləndirilir, professor-müəllim heyəti, doktorant və magistrantlar üçün ORCID, Web of Science, Scopus, ResearchGate və Google Scholar platformalarında akademik profillər yaradılır. Universitetin “Mədəniyyət dünyası” jurnalının açıq girişli beynəlxalq platformalarda qeydiyyata alınması üzrə tədbirlər həyata keçirilir, gənc tədqiqatçıların beynəlxalq mübadilə proqramlarında iştirakı təşviq olunur.

4.1.7. Elmi-tədqiqat strategiyasının müəssisədəki akademik heyət, yerli və xarici tərəfdaşlar üçün əlçatanlığı vəziyyəti

ADMİU-nun Elmi-tədqiqat və yaradıcılıq strategiyası universitetin rəsmi internet saytında yerləşdirilmişdir və akademik heyət, eləcə də yerli və xarici tərəfdaşlar üçün açıqdır. Strategiyada universitetin elmi-tədqiqat və yaradıcılıq fəaliyyətinin missiyası, prioritet tədqiqat sahələri və strateji hədəfləri müəyyən edilmişdir. Sənəd professor-müəllim heyətinin tədqiqat fəaliyyətinin stimullaşdırılmasını, magistratura və doktorantura səviyyələrində tədqiqat mühitinin yaxşılaşdırılmasını, elmi tədqiqatlar sahəsində beynəlxalq əlaqələrin genişləndirilməsini və yaradıcılıq layihələrinin dəstəklənməsini əhatə edir (https://admiu.edu.az/wp-content/uploads/2025/09/Elmi-tədqiqat-və-yaradiciliq-strategiyasi.pdf).

4.1.8. Elmi-tədqiqat strategiyasının hazırlanmasında maraqlı tərəflərin iştirakı vəziyyəti

ADMİU-nun Elmi-tədqiqat və yaradıcılıq strategiyasının hazırlanmasında maraqlı tərəflərin iştirakı təmin edilmişdir. Strategiyanın layihəsi 20 sentyabr 2022-ci il tarixində keçirilmiş iclasda (Protokol) müzakirə olunmuşdur. Görüşdə elm və yaradıcılıq işləri üzrə prorektor Sədaqət Əliyeva, Elm və yaradıcılıq-ifa işləri şöbəsinin müdiri Gülşən Qafarova, Musiqi tarixi və nəzəriyyəsi kafedrasının müdiri Kamilə Dadaşzadə, Muzeyşünaslıq kafedrasının müdiri Yeganə Eyvazova, Sosial-mədəni fəaliyyət kafedrasının dosenti Tamilla Əhmədova, eləcə də xarici maraqlı tərəf kimi “Birgə və Sağlam” İctimai Birliyinin Davamlı inkişaf şöbəsinin koordinatoru Milana Həsənova iştirak etmişdir. Strategiyanın tətbiqi mərhələsində də maraqlı tərəflərlə əməkdaşlıq davam etdirilir. Gələcək tədqiqat istiqamətlərinin və araşdırılması vacib olan sahələrin müəyyənləşdirilməsi məqsədilə

muzey və sosial iş sahəsinin işəgötürənləri ilə görüş keçirilmişdir (Elm və doktorantura şöbəsinin 18 fevral 2025-ci il tarixli iclasının protokolu №04).


4.2. Tədqiqat resursları

4.2.1. ATM-in infrastrukturunun, maddi və texnoloji resurslarının, büdcəsindən ayrılan maliyyə resursunun onun elmi-tədqiqat məqsədlərinə və strategiyasına uyğunluğu vəziyyəti

ADMİU-nun ümumi sahəsi 10184,8 m² olan iki tədris binası var. İnşaatçılar prospektindəki tədris binası iki korpusdan ibarətdir: A korpusu 4917,8 m², B korpusu isə 1329,7 m² sahəyə malikdir. H. Zərdabi küçəsindəki korpusun sahəsi 3899 m²-dir. İnşaatçılar prospektindəki tədris binasında elmi konfransların keçirilməsi üçün iki zal, tamaşaların nümayişi üçün iki səhnə və sərgilərin təşkili üçün qalereya fəaliyyət göstərir. Universitetin iki kitabxanası var, Kitabxana-informasiya mərkəzi vasitəsilə beynəlxalq elektron informasiya resurslarına çıxış təmin edilir. Yaradıcılıq tədqiqatları və layihələri üçün “Tədrisfilm” studiyasından, televiziya və kino tədris studiyasından, rəngkarlıq, qrafika, dizayn və bədii toxuculuq emalatxanalarından istifadə olunur. Elmi-tədqiqat fəaliyyətinin maliyyə dəstəyi çərçivəsində beynəlxalq elmi konfransların təşkilinə vəsait ayrılır, Web of Science və Scopus bazalarında indekslənən jurnallarda məqalə dərc etdirən müəllimlərə əlavə ödəniş edilir.

4.2.2. Aktiv elmi tədqiqatla məşğul olan professor-müəllim heyətinin mövcud olması vəziyyəti

ADMİU-da elmi-tədqiqat işi aparan professor-müəllim heyətinin sayı son illərdə ardıcıl artmışdır. 2022-ci ildə 90 nəfər olan bu göstərici 2023-cü ildə 102, 2024-cü ildə 106, 2025-ci ildə isə 115 nəfərə yüksəlmişdir. Universitetdə çalışan alimlər tərəfindən 2022-ci ildə 1 dərslik, 4 dərs vəsaiti, 38 proqram, metodik vəsait və metodik göstəriş, eləcə də 149 elmi məqalə nəşr etdirilmişdir. 2023-cü ildə 2 dərslik, 4 dərs vəsaiti, 64 proqram, metodik vəsait və metodik göstəriş, həmçinin 183 elmi məqalə çap olunmuşdur. 2023/2024-cü tədris ilində isə 3 dərs vəsaiti, 103 proqram, metodik vəsait və metodik göstəriş, eləcə də 84 elmi məqalə nəşr edilmişdir. Tədqiqat aparan müəllimlərin sayının artması universitetdə elmi fəaliyyətin genişləndiyini göstərir.



Şəkil 4.1. ADMİU-da elmi-tədqiqat işi aparan professor-müəllim heyətinin dinamikası

4.2.3. Aktiv elmi tədqiqatla məşğul olan gənc tədqiqatçıların təşkilatlanması vəziyyəti

ADMİU-da gənc tədqiqatçıların elmi fəaliyyətinin təşkili və dəstəklənməsi üçün müxtəlif strukturlar fəaliyyət göstərir. Elmi nəşrlər üzrə beynəlxalq reytinq göstəricilərinin yaxşılaşdırılmasına dair 2022-ci il Yol Xəritəsinin icrası məqsədilə ADMİU Elmi Şurasının 12 sentyabr 2022-ci il tarixli qərarı (protokol №01) ilə Analitik Elmi-İnformasiya Xidməti Mərkəzi yaradılmışdır. Elmi Şuranın 29 noyabr 2024-cü il tarixli qərarı ilə isə universitetdə "Alimlər cəmiyyəti" və "Yaradıcılıq sahələri üzrə peşəkar birliklər"in yaradılması qərara alınmışdır. Tələbələr və gənc tədqiqatçılar arasında elmi fəaliyyətin təşviqində Tələbə Elmi Yaradıcılıq Cəmiyyəti xüsusi rol oynayır. Bundan əlavə, Tələbə Gənclər Təşkilatı və Tələbə Həmkarlar İttifaqı Komitəsi də tələbələrin elmi konfranslarda, seminarlarda və dəyirmi masalarda iştirakını təşkil edir.

4.2.4. Tədqiqatçıların müxtəlif istiqamətlər üzrə beynəlxalq elmi məlumat bazalarına çıxışının olması vəziyyəti

ADMİU-da tədqiqatçıların beynəlxalq elmi məlumat bazalarına çıxışı təmin edilmişdir. Kitabxana-informasiya mərkəzi vasitəsilə beynəlxalq elektron informasiya resurslarından istifadə imkanı yaradılmışdır. Universitetdə tədqiqatla məşğul olan 100-ə yaxın ixtisaslı kadrın elmi potensialının gücləndirilməsi və universitetin elmmetrik göstəricilərinin Azərbaycanın milli h-indeks reytinqində (Azerbaijan National h-index ranking) əks olunması məqsədilə professor-müəllim heyətinin Scopus, Web of Science və Google Scholar bazalarında şəxsi hesablarının sayı artırılmışdır. Google Scholar-da 2023-cü ildə 44 aktiv hesab olduğu halda, 2024-cü ildə bu say 47-yə çatmışdır. Web of Science, Scopus və Google Scholar göstəriciləri əsasında hesablanan milli h-indeks reytinqində ADMİU Azərbaycanın 95 elmi təşkilat və universiteti arasında 47-ci yeri tutur

(https://az.h-index.com/az/azerbaijan-state-university-of-culture-and-arts). Universitetin h-indeksi Scopus üzrə 1, Web of Science üzrə 2, Google Scholar üzrə isə 20-dir.

4.2.5. Nəticə yönümlü elmi-tədqiqat işlərinin davamlılığının təmin olunması üçün stimullaşdırıcı mexanizmlərin olması vəziyyəti

ADMİU-da nəticəyönümlü elmi-tədqiqat fəaliyyətinin stimullaşdırılması üçün müvafiq mexanizmlər yaradılmışdır. ADMİU Elmi Şurasının 30 oktyabr 2023-cü il tarixli qərarı ilə professor-müəllim heyətinin akademik fəaliyyətinin qiymətləndirilməsi meyarları təsdiq edilmişdir. Elmi Şuranın 25 oktyabr 2024-cü il tarixli qərarına (protokol №03) əsasən Web of Science və Scopus bazalarında indekslənən jurnallarda məqaləsi dərc olunan müəllimlərin əməkhaqqına 6 ay müddətində aylıq 100 manat əlavə təyin edilir. Elmi-tədqiqat strategiyasına uyğun olaraq tədqiqatçılara beynəlxalq elektron informasiya resurslarına çıxış imkanı yaradılır, universitetdə keçirilən beynəlxalq elmi konfranslara maddi və təşkilati dəstək göstərilir. Bu mexanizmlər müəllimlərin indeksli jurnallarda nəşr fəaliyyətinin artırılmasına və elmi-tədqiqat işlərinin davamlılığına xidmət edir.

4.2.6. Elmi-tədqiqat fəaliyyəti nəticəsində əldə olunan gəlirlərin artım dinamikası

Hesabat dövründə ADMİU-da elmi-tədqiqat fəaliyyəti nəticəsində gəlir əldə olunmamışdır. Bu səbəbdən gəlirlərin artım dinamikası barədə məlumat yoxdur. Universitetin Strateji İnkişaf Planının həyata keçirilməsi üzrə Fəaliyyət Planında tədqiqat və sahibkarlıq ekosisteminin qurulması əsas məqsədlərdən biri kimi müəyyən edilmişdir. Bu istiqamətdə Sahibkarlıq və innovasiya mərkəzinin fəaliyyətinin gücləndirilməsi, qrant və layihə müsabiqələrində iştirakın artırılması elmi-tədqiqat fəaliyyətindən gəlir əldə edilməsi üçün əsas imkanlar kimi nəzərdən keçirilir.

4.2.7. Müxtəlif elmi müəssisə və təşkilatlarla tədqiqat sahəsində əməkdaşlıq əlaqələrinin mövcudluğu vəziyyəti

ADMİU tədqiqat sahəsində müxtəlif yerli və beynəlxalq qurumlarla əməkdaşlıq edir. Universitet sosial xidmət sahəsində elmi-təcrübi əlaqələrin inkişaf etdirilməsi və elm və təhsil sahəsində ictimai maraqlara xidmət edən əməkdaşlığın qurulması məqsədilə iki memorandum imzalamışdır. Bunlardan biri 22 dekabr 2021-ci il tarixində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Sosial Xidmətlər Agentliyi ilə, digəri isə 10 may 2024-cü il tarixində “Əlilliyi olan şəxslərə sosial dəstək” İctimai Birliyi ilə bağlanmışdır.

Beynəlxalq səviyyədə ADMİU 2022-ci ildən 12 ölkədən 120-dən çox universitetin üzv olduğu Qara Dəniz Universitetləri Şəbəkəsinin (BSUN) üzvüdür. Şəbəkə Qara dəniz regionundakı universitetlər arasında elmi əməkdaşlığı inkişaf etdirmək məqsədilə yaradılmışdır və universitet onun birgə layihələrində iştirak edir. 2023-cü ildən isə ADMİU TÜRKSOY-un təşkilatçılığı ilə yaradılmış Türk Dünyası Sənət Universitetləri Birliyinin üzvüdür. Bundan əlavə, 5 noyabr 2024-cü il tarixində dünyanın aparıcı elmi nəşriyyatlarından olan “Atlantis Press” ilə müqavilə bağlanmışdır. Bu müqavilə əsasında 21 fevral 2025-ci ildə keçirilmiş “Mədəniyyətin ekoloji dayanıqlılığa töhfəsi” mövzusunda beynəlxalq elmi konfransın materialları nəşr olunmuşdur.

4.3. Elmi-tədqiqat fəaliyyəti

4.3.1. Elmi-tədqiqat fəaliyyətinin idarə edilməsi üzrə müvafiq struktur bölmənin olması və müvafiq strategiyaya uyğun olan illik fəaliyyət planının mövcud olması vəziyyəti

ADMİU-da elmi-tədqiqat və yaradıcılıq fəaliyyətinin idarə edilməsi elm və yaradıcılıq işləri üzrə prorektor (Sədaqət Əliyeva) tərəfindən həyata keçirilir. ADMİU Elmi Şurasının 11 iyul 2023-cü il tarixli qərarı (protokol №10) ilə Elm və yaradıcılıq-ifa işləri şöbəsi ləğv edilmiş, onun əvəzinə iki ayrı struktur bölmə yaradılmışdır. Elm və doktorantura şöbəsi və Yaradıcılıq layihələrinin idarə olunması şöbəsi. Elm və doktorantura şöbəsinə Fəridə Cəlilova rəhbərlik edir, şöbənin mütəxəssisi Sevinc Məmmədovadır. Yaradıcılıq layihələrinin idarə olunması şöbəsinin müdiri Aysel Məmmədzadə, mütəxəssisi isə Pərvanə Lətiflidir. Hər iki şöbənin illik iş planları hazırlanır və hər il Elmi Şuranın ilk iclasında təsdiq edilir.

4.3.2. Elmi-tədqiqat xarakterli konfransların, seminarların, görüşlərin və s. tədbirlərin keçirilməsi vəziyyəti

ADMİU-da elmi-tədqiqat xarakterli beynəlxalq konfranslar mütəmadi olaraq təşkil olunur. Universitetin ənənəvi tədbirlərindən biri hər il aprel ayında keçirilən “Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri” beynəlxalq elmi-praktiki konfransıdır. Hesabat dövründə bu konfrans 2020-ci ildə XIX, 2021-ci ildə XX, 2022-ci ildə XXI, 2023-cü ildə XXII, 2024-cü ildə XXIII və 2025-ci ildə XXIV dəfə keçirilmişdir.

Bundan əlavə, hər il müxtəlif mövzularda beynəlxalq konfranslar təşkil edilmişdir. 2021-ci ilin 11–12 mart tarixlərində doktorant və gənc tədqiqatçıların “Mədəniyyət: problemlər və perspektivlər. Qarabağ Azərbaycandır!” mövzusunda XIV beynəlxalq elmi konfransı keçirilmişdir. 2022-ci ilin 28 oktyabr tarixində “Mədəni irsin qorunmasının aktual problemləri” beynəlxalq elmi-praktiki konfransı təşkil olunmuşdur. 2023-cü ildə 12 aprel tarixində “Heydər Əliyev və mədəniyyət siyasəti” mövzusunda beynəlxalq elmi-nəzəri konfrans, universitetin 100 illik yubileyi münasibətilə isə 17 noyabr tarixində Azərbaycan Milli Kitabxanasında “Azərbaycan sənətşünaslığı Şərq–Qərb dialoqu kontekstində” beynəlxalq elmi-praktiki konfransı keçirilmişdir. 2024-cü ilin 15 oktyabr tarixində görkəmli teatrşünas Mahmud Allahverdiyevin və rejissor Vaqif İbrahimoğlunun xatirəsinə həsr olunmuş “Folklor teatrının müasir etnomədəni məkanda mövcudluq parametrləri” beynəlxalq elmi konfransı təşkil edilmişdir. 2025-ci ildə 21 fevral tarixində “Mədəniyyətin ekoloji dayanıqlılığa töhfəsi”, 11 aprel tarixində isə “Müasir incəsənət məkanında süni intellekt: problemlər və perspektivlər” mövzularında beynəlxalq elmi konfranslar keçirilmişdir.

Yaradıcılıq istiqamətində də beynəlxalq tədbirlər təşkil olunur. 2024-cü ilin 20–22 may tarixlərində TÜRKSOY, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi və ADMİU-nun birgə təşkilatçılığı, Mədəniyyət Nazirliyinin dəstəyi ilə “Türk dünyası” II Beynəlxalq Tələbə Tamaşaları Festivalı keçirilmişdir.

4.3.3. Elmi-tədqiqat xarakterli konfranslarda, seminarlarda, görüşlərdə və s. tədbirlərdə digər müəssisə və ölkələrin tədqiqatçılarının iştirakı vəziyyəti

ADMİU-da təşkil olunan beynəlxalq elmi konfranslarda digər müəssisələrin və xarici ölkələrin tədqiqatçıları fəal iştirak edir. 2021-ci ildə doktorant və gənc tədqiqatçıların "Mədəniyyət: problemlər və perspektivlər. Qarabağ Azərbaycandır!" mövzusunda XIV beynəlxalq elmi konfransında 8 xarici tədqiqatçı və 57 kənar müəssisə nümayəndəsi iştirak etmişdir. 2022-ci ildə "Mədəni irsin qorunmasının aktual problemləri" beynəlxalq elmi-praktiki konfransına 22 xarici və 41 kənar müəssisə tədqiqatçısı qatılmışdır. 2023-cü ildə "Heydər Əliyev və mədəniyyət siyasəti" beynəlxalq elmi-nəzəri konfransında 10 xarici və 57 kənar müəssisə tədqiqatçısı çıxış etmişdir. Həmin il universitetin 100 illik yubileyi münasibətilə keçirilən "Azərbaycan sənətşünaslığı Şərq–Qərb dialoqu kontekstində" beynəlxalq elmi-praktiki konfransında iştirak edən xarici tədqiqatçıların sayı 36-ya çatmış, konfransa 23 kənar müəssisədən tədqiqatçı qatılmışdır. 2025-ci ildə "Müasir incəsənət məkanında süni intellekt: problemlər və perspektivlər" beynəlxalq elmi konfransında 11 xarici qonaq və 30-dan artıq kənar müəssisə tədqiqatçısı iştirak etmişdir.

Hər il keçirilən "Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri" beynəlxalq elmi-praktiki konfransında da digər müəssisələrin və xarici ölkələrin tədqiqatçıları iştirak edir. Konfransda 2020-ci ildə 3 xarici və 11 kənar müəssisə tədqiqatçısı, 2021-ci ildə 10 xarici və 16 kənar müəssisə tədqiqatçısı, 2022-ci ildə 9 xarici və 19 kənar müəssisə tədqiqatçısı, 2023-cü ildə 11 xarici və 27 kənar müəssisə tədqiqatçısı, 2024-cü ildə isə 4 xarici və 1 kənar müəssisə tədqiqatçısı iştirak etmişdir.

4.3.4. Elmi-tədqiqat xarakterli konfranslarda, seminarlarda, görüşlərdə və s. tədbirlərdə gənc tələbə-tədqiqatçıların iştirakı vəziyyəti

ADMİU-da gənc tədqiqatçıların elmi tədbirlərdə iştirakına xüsusi diqqət yetirilir. Universitetin doktorantları 35 yaşadək doktorant və gənc tədqiqatçılar üçün hər il keçirilən Doktorantların və Gənc Tədqiqatçıların Respublika Elmi Konfransında (NASCO) mütəmadi olaraq iştirak edirlər. Bu konfransda 2023-cü ildə 6, 2024-cü ildə 5, 2025-ci ildə isə 1 ADMİU doktorantı çıxış etmişdir. Bundan əlavə, ADMİU hər il doktorant və gənc tədqiqatçıların "Mədəniyyət: problemlər və perspektivlər" mövzusunda ənənəvi elmi konfransını təşkil edir. Bu konfransda 2021-ci ildə 82, 2022-ci ildə 35, 2024-cü ildə 57, 2025-ci ildə isə 27 gənc tədqiqatçı iştirak etmişdir.

4.3.5. Elm və təhsil sahəsində beynəlxalq qrant layihələrində iştirak vəziyyəti

ADMİU hesabat dövründə iki Erasmus+ layihəsində tərəfdaş kimi iştirak etmişdir. Bunlardan biri Bakı Biznes Universitetinin təşəbbüsü ilə hazırlanaraq 2020-ci ildə Avropa Komissiyasının qrant müsabiqəsinin qalibi olmuş "Azərbaycanda Rektorlar Konfransının yaradılması" (ECAR) layihəsi olmuşdur. Digəri isə Mingəçevir Dövlət Universitetinin koordinatorluğu ilə həyata keçirilmiş "Azərbaycan ali təhsilində davamlı sahibkarlıq ekosisteminin gücləndirilməsi" (Enhancing Sustainable Entrepreneurial Ecosystem in Higher Education of Azerbaijan – ENGAGE) layihəsidir. ENGAGE layihəsinin açılış mərasimi 12 aprel 2023-cü il tarixində keçirilmişdir. Bundan əlavə, universitetin

Beynəlxalq layihələr və əcnəbilərlə iş şöbəsinin hazırladığı Erasmus+ KA171 layihələrindən biri mobillik qrantı ilə mükafatlandırılmış, şöbə Türkiyə və Avropa universitetləri ilə daha bir neçə KA171 layihəsi hazırlamışdır. Hazırda Azərbaycanda Erasmus+ proqramı çərçivəsində fəaliyyət dayandırıldığı üçün universitet bu proqram üzrə layihələrdə iştirak etmir.

4.3.6. Elmi-tədqiqat fəaliyyəti üzrə patentlərin əldə edilməsi və kommersiallaşdırılması vəziyyəti

ADMİU mədəniyyət və incəsənət sahəsində kadr hazırlayan ali təhsil müəssisəsidir və universitetdə aparılan elmi-tədqiqat işləri əsasən humanitar və sənətşünaslıq istiqamətlərini əhatə edir. Bu sahələrdə tədqiqatların nəticələri ixtira və ya texniki həll şəklində deyil, monoqrafiya, dərslik, dərs vəsaiti və elmi məqalələr, eləcə də tamaşa, film, musiqi əsəri, təsviri və dekorativ-tətbiqi sənət nümunələri kimi yaradıcılıq məhsulları şəklində ortaya çıxır. Bu səbəbdən patentlərin əldə edilməsi universitetin fəaliyyət profilinə uyğun gəlmir və hesabat dövründə patent alınmamışdır. Universitetin Strateji İnkişaf Planında əqli mülkiyyətin qorunması məsələsinə yer verilmişdir. Universitetin fəaliyyət profilinə uyğun olaraq bu sahədə əsas diqqət professor-müəllim heyətinin və tələbələrin elmi və yaradıcılıq əsərləri üzərində müəllif hüquqlarının qorunmasına yönəldilir.

4.3.7. İnstitusional əməkdaşlığı (milli və beynəlxlaq səviyyədə birgə proqramların icrası və s.), birgə təşəbbüsləri (birgə tədqiqat mərkəzlərinin yaradılması və s.) təşviq edən səmərəli mexanizmlərin mövcudluğu vəziyyəti.

ADMİU milli səviyyədə mədəniyyət və incəsənət sahəsində fəaliyyət göstərən müxtəlif qurumlarla əməkdaşlıq edir. Magistr dissertasiyalarının hazırlanması üçün teatrlar, muzeylər, kinostudiya, assosiasiyalar və digər müəssisələrlə təcrübə müqavilələri bağlanır. Beynəlxalq səviyyədə universitet 2022-ci ildən 12 ölkədən 120-dən çox universitetin üzv olduğu Qara Dəniz Universitetləri Şəbəkəsinin (BSUN), 2023-cü ildən isə TÜRKSOY-un təşkilatçılığı ilə yaradılmış Türk Dünyası Sənət Universitetləri Birliyinin üzvüdür və bu birliklərin birgə layihələrində iştirak edir. Erasmus+ KA171 layihəsi çərçivəsində 2024/2025-ci tədris ilində universitetin iki nümayəndəsinin Litva Musiqi və Teatr Akademiyasına səfəri, həmin akademiyanın bir müəlliminin isə ADMİU-da tədris prosesinə qoşulması nəzərdə tutulmuşdu. 5 noyabr 2024-cü il tarixində dünyanın aparıcı elmi nəşriyyatlarından olan “Atlantis Press” ilə müqavilə bağlanmışdır. Bu müqavilə əsasında 21 fevral 2025-ci ildə keçirilmiş “Mədəniyyətin ekoloji dayanıqlılığa töhfəsi” mövzusunda beynəlxalq elmi konfransın materialları nəşr olunmuşdur.

4.3.8. Birgə tədqiqat proqramlarının mövcudluğu vəziyyəti.

ADMİU 2020/2021-ci tədris ilində “İdeya-estetik tərbiyədə ədəbiyyat və incəsənətin rolu: milli kimlik və mənəvi zənginlik” adlı qrant layihəsində iştirak etmişdir. Layihə Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin 14 mart 2018-ci il tarixli 7/3 nömrəli qərarı ilə 2018–2020-ci illər üçün elmi-tədqiqat proqramlarının işlənməsi,

seçilməsi və maliyyələşdirilməsi məqsədilə keçirilmiş respublika müsabiqəsinin nəticəsində təsdiq edilmiş və 24 ay müddətinə nəzərdə tutulmuşdur. 2024-cü ildə isə ADMİU ilə Azərbaycan Turizm Bələdçiləri Assosiasiyası arasında əməkdaşlıq memorandumu imzalanmışdır https://admiu.edu.az/admiu-ilə-atba-arasinda-memorandum-imzalanib/).


4.3.9. Tədqiqatçıların beynəlxlaq elmi-tədqiqat şəbəkələrində iştirak vəziyyəti.

ADMİU-nun professor-müəllim heyəti öz ixtisas sahələri üzrə nüfuzlu beynəlxalq təşkilat və şəbəkələrin üzvüdür. Teatr sahəsində sənətşünaslıq elmləri doktoru, professor İsrafil İsrafilov Beynəlxalq Teatr Tənqidçiləri Assosiasiyasının və Beynəlxalq Muzeylər Komitəsinin üzvü, Türkdilli Xalqların Teatr Rəhbərləri Şurasının sədridir. Sənətşünaslıq üzrə fəlsəfə doktoru Elçin Cəfərov Beynəlxalq Teatr Tənqidçiləri Assosiasiyasının üzvü və Beynəlxalq Teatr Tənqidçiləri Birliyinin vitse-prezidentidir. Sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Aydın Talıbzadə 2012-ci ildən Beynəlxalq Uşaq və Gənclər Teatrları Assosiasiyasının (ASSITEJ) və Beynəlxalq Kukla Teatrları Assosiasiyasının (UNIMA) üzvüdür. Əməkdar artist Nicat Kazımov ASSITEJ-in, əməkdar artist Qurban Məsimov isə Türk Animasiya Assosiasiyasının (ATA) və UNIMA-nın üzvüdür. Əməkdar incəsənət xadimi, dosent Bəhram Osmanov Rusiya Teatr Xadimləri İttifaqının üzvü və Kalmıkiya Respublikasının əməkdar incəsənət xadimidir.

Muzeyşünaslıq sahəsində pedaqogika üzrə fəlsəfə doktoru, dosent Yeganə Eyvazova Beynəlxalq Muzeylər Şurasının (ICOM) və Beynəlxalq Abidələrin və Tarixi Yerlərin Mühafizəsi Şurasının (ICOMOS), sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Elfira Məlikova isə ICOM-un və onun nəzdindəki Beynəlxalq Muzeyşünaslıq Komissiyasının (ICOFOM) üzvüdür. Təsviri sənət sahəsində xalq rəssamı, professor Xanlar Əhmədov UNESCO nəzdində Dünya Rəssamlıq Akademiyasının Heykəltəraşlıq bölməsinin vitse-prezidenti, Röya Həsənova isə “Arts Council” Beynəlxalq Rəssamlar İttifaqının üzvüdür. Bundan əlavə, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Sevinc Həsənova Türkiyə Elm və Ədəbiyyat Əsəri Sahibləri Məslək Birliyinin (İLESAM) üzvüdür, əməkdar mədəniyyət işçisi, dosent Samirə Əliyeva isə Arirang Ustadlarının (Arirang Masters) fəxri siyahısına daxil edilmişdir.

4.3.10. Yerinə yetirilən elmi tədqiqat işlərinin tədris metodiki vasitələrdə istifadəsi vəziyyəti.

ADMİU-da aparılan elmi-tədqiqat işləri pedaqoji yönümlüdür və nəticələrinin tədris-metodiki vasitələrdə istifadəsi nəzərdə tutulur. Üç il müddətinə planlaşdırılan tədqiqat işlərinin nəticələri sonradan dərslik, dərs vəsaiti, metodik göstəriş və mühazirə mətnləri şəklində nəşr olunur. 2021–2024-cü illərdə universitetin alimləri tərəfindən 3 dərslik, 19 dərs vəsaiti və 1 monoqrafiya nəşr etdirilmişdir. Bu dövrdə proqram, metodik vəsait və metodik göstərişlərin sayı ardıcıl artaraq 2021-ci ildəki 9-dan 2024-cü ildə 103-ə çatmışdır.



Şəkil 4.2. Elmi tədqiqat işlərinin tədris metodiki vasitələrdə istifadəsinin dinamikası

4.3.11. Elmi-tədqiqat materiallarının dərc etdirilmə imkanlarının yaradılması vəziyyəti

ADMİU-da tədqiqatçıların elmi nəticələrini dərc etdirməsi üçün iki elmi jurnal fəaliyyət göstərir: "Mədəniyyət dünyası" və "ADMİU-nun Elmi əsərləri". Bundan əlavə, "Mədəniyyət: problemlər və perspektivlər" doktorant və gənc tədqiqatçılar konfransının və "Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri" beynəlxalq elmi konfransının materialları da nəşr olunur.


1996-cı ildə təsis edilmiş "Mədəniyyət dünyası" elmi-nəzəri məcmuəsi ildə iki dəfə nəşr olunur. Jurnal 2011-ci ildən beynəlxalq standart seriya nömrəsi (ISSN), 2023-cü ilin dekabrından isə elektron ISSN (e-ISSN 3005-9941) ilə çıxır. 2007-ci ildə təsis edilmiş "ADMİU-nun Elmi əsərləri" elmi-nəzəri məcmuəsi də ildə iki dəfə nəşr olunur və 2011-ci ildən ISSN ilə çap edilir. Hər iki jurnal Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Rəyasət Heyətinin 30 aprel 2010-cu il tarixli iclasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən elmi nəşrlərin siyahısına daxil edilmişdir. Jurnallar 25 dekabr 2019-cu il tarixində Ədliyyə Nazirliyində yenidən qeydə alınmışdır: "Mədəniyyət dünyası" 4279, "Elmi əsərlər" isə 4278 nömrəli əmrlə. "Elmi əsərlər" jurnalı həmin vaxtdan "ADMİU-nun Elmi əsərləri" adlandırılmışdır.

Jurnallar rəqəmsal elmi infrastrukturlara da inteqrasiya olunmuşdur. "Mədəniyyət dünyası" 2021-ci ildən, "ADMİU-nun Elmi əsərləri" isə 2022-ci ildən Crossref sistemində qeydiyyatdan keçərək 10.52094 prefiksli DOI (Digital Object Identifier) almışdır. "Mədəniyyət dünyası" jurnalının saytı 2023-cü ildə (https://medeniyyetdunyasi.az/), "ADMİU-nun Elmi əsərləri" jurnalının saytı isə 2025-ci ildə (https://admiuelmieserler.az/) yaradılmışdır. Bundan əlavə, "Atlantis Press" nəşriyyatı ilə bağlanmış müqavilə əsasında universitetdə keçirilən beynəlxalq konfransın materialları beynəlxalq nəşriyyatda dərc olunmuşdur.

4.3.12. Tədqiqatçılar tərəfindən nüfuzlu beynəlxalq nəşrlərdə dərc olunmuş elmi məqalələrə istinadetmə indeksinin (“citation index") artım dinamikası

2022-ci ildə ADMİU-da elm və yaradıcılıq işləri üzrə prorektor, dosent Sədaqət Əliyevanın müəllifi olduğu “Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin 2019–2022-ci illərdə akademik fəaliyyətinin elmmetrik təhlili” adlı nəşr çap olunmuşdur. Nəşrin rəhbəri və elmi redaktoru universitetin rektoru, professor Ceyran Mahmudova, elmi məsləhətçiləri isə professor Validə Məmmədova, dosent Gülşən Qafarova və dosent Pərviz Kazımidir. Kitabda universitetdə 2019–2021-ci illərdə elmi fəaliyyətin dinamikası təhlil olunmuşdur.


Hesabat dövründə universitetin daimi ştatda çalışan professor-müəllim heyəti arasında h-indeksi 3 və daha yüksək olan əməkdaşlar bunlardır: Mələhət Fərəcova (8), Sədaqət Əliyeva (6), İlqar Hüseynov (4), Niyazi Mehdi (4) və Ceyran Mahmudova (3). Elmi nəşrlər üzrə beynəlxalq reytinq göstəricilərinin yaxşılaşdırılmasına dair 2024-cü il tədbirlər planının icrası nəticəsində ADMİU-nun aparıcı elmmetrik bazalardakı göstəriciləri aşağıdakı diaqramlarda verilmişdir.



Şəkil 4.3. ADMİU-nun professor-müəllim heyətinin Wos, Scopus və Google Scholar hesablarının sayı


2023–2024-cü illərdə ADMİU-nun professor-müəllim heyətinin beynəlxalq elmmetrik bazalarda indekslənən məqalələrinin sayında artım müşahidə olunmuşdur. Web of Science bazasında indekslənən məqalələrin sayı 2023-cü ildəki 8-dən 2024-cü ildə 11-ə yüksəlmiş, yəni 37,5% artmışdır. Scopus bazasında indekslənən məqalələrin sayı hər iki ildə 7 olaraq sabit qalmışdır. Ən əhəmiyyətli artım Google Scholar platformasında qeydə alınmışdır: burada indekslənən məqalələrin sayı 220-dən çox olduğu halda, 2024-cü ildə 370-i ötmüş və təxminən 68% artmışdır. Bu göstəricilər 2024-cü il üzrə tədbirlər planı

çərçivəsində müəllimlərin beynəlxalq elmi platformalarda akademik profillərinin yaradılması və yenilənməsi istiqamətində aparılan işlərin nəticəsidir.



Şəkil 4.4. 2023–2024-cü illərdə ADMİU-nun professor-müəllim heyətinin beynəlxalq elmmetrik bazalarda indekslənən məqalələrinin sayı

Google Scholar platformasında universitetin ən yüksək elmmetrik göstəricilərə malik müəllimlərinin sitatlanma sayı və h-indeksi 2023–2024-cü illərdə əhəmiyyətli dərəcədə artmışdır. Məlahət Fərəcovanın əsərlərinə istinadların sayı 122-dən 214-ə yüksəlmiş, h-indeksi 6-dan 8-ə çatmışdır. Sədaqət Əliyevanın sitatlanma sayı 23-dən 40-a, h-indeksi isə 4-dən 6-ya yüksəlmişdir. Niyazi Mehdinin əsərlərinə istinadların sayı təxminən üç dəfə artaraq 19-dan 55-ə çatmış, h-indeksi 3-dən 4-ə yüksəlmişdir. 2024-cü ildə Məlahət Fərəcovanın i10-indeksi 8, Niyazi Mehdinin i10-indeksi isə 2 təşkil etmişdir. Sitatlanma sayının və h-indeksin artması müəllimlərin elmi əsərlərinin elmi ictimaiyyət tərəfindən daha geniş istifadə olunduğunu və onların tədqiqatlarının elmi təsir dairəsinin genişləndiyini göstərir.



Şəkil 4.5. Google Scholar platformasında universitetin ən yüksək elmmetrik göstəricilərə malik müəllimlərinin sitatlanma sayı və h-indeksi

4.3.13. Tədris planında (magistratura və doktorantura səviyyələrində) tədqiqat yönümlü fənlərin nəzərə alınması vəziyyəti

ADMİU-da magistratura səviyyəsinin tədris planlarında tədqiqat yönümlü fənlərə yer verilir. Müvafiq sahələr üzrə magistrantlara "Tədqiqat metodları" fənni tədris olunur. Bu fənn magistrantların elmi-tədqiqat işinin metodologiyasını mənimsəməsinə, tədqiqat probleminin müəyyənləşdirilməsi, mənbələrlə iş, məlumatların toplanması və təhlili, eləcə də elmi nəticələrin yazılı şəkildə ifadə edilməsi bacarıqlarına yiyələnməsinə xidmət edir. Fənndə əldə olunan biliklər magistrantların magistr dissertasiyası üzərində işinin əsasını təşkil edir. Universitetin Elmi-tədqiqat strategiyasında da magistratura səviyyəsində tədqiqatın metodologiyası üzrə tədrisin təkmilləşdirilməsi, dissertasiya mövzularının seçiminin əlaqələndirilməsi və tədqiqat keyfiyyətinə daimi nəzarət əsas hədəflər kimi müəyyən edilmişdir.

Doktorantura səviyyəsində isə fənlərin tədrisi nəzərdə tutulmayıb. Doktorantların tədqiqat fəaliyyəti elmi rəhbərin istiqamətləndirməsi ilə dissertasiya işinin hazırlanması əsasında qurulur. Bu səviyyədə yalnız əcnəbi doktorantlar üçün dil hazırlığı kursları təşkil olunur.

4.3.14. Akademik heyətin tədqiqat və inkişaf bacarıqlarını inkişaf etdirmək üçün təlimlərin və seminarların və digər sistematik fəaliyyətlərin həyata keçirilməsi vəziyyəti

ADMİU-da akademik heyətin tədqiqat bacarıqlarının inkişafı üçün təlim və seminarlar təşkil olunur. Bu təlimlərdən biri "Microsoft Teams" platformasında "İndekslənən məlumat bazaları" mövzusunda keçirilmişdir. Təlimdə tarix üzrə fəlsəfə doktoru, dosent Pərviz Kazımi iştirakçılara elmi müəssisələrin, jurnalların, müəlliflərin və məqalələrin indekslənməsi, elmmetrik göstəricilərin və reytinqlərin hesablanması, akademik profillərin yaradılması, elmi məqalələrin tərtibat tələbləri və digər mövzular üzrə ətraflı məlumat vermişdir. Bu istiqamətdə işlərin əlaqələndirilməsi məqsədilə universitetdə Analitik Elmi-İnformasiya Xidməti Mərkəzi fəaliyyət göstərir.

Akademik heyətin tədqiqat fəaliyyətinin təhlili və qiymətləndirilməsi üçün metodik vəsaitlər də hazırlanır. 2022-ci ildə elm və yaradıcılıq işləri üzrə prorektor, dosent Sədaqət Əliyevanın müəllifi olduğu "Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin 2019–2022-ci illərdə akademik fəaliyyətinin elmmetrik təhlili" adlı kitab nəşr olunmuşdur. Kitabın rəhbəri və elmi redaktoru rektor, professor Ceyran Mahmudova, elmi məsləhətçiləri isə professor Validə Məmmədova, dosent Gülşən Qafarova və dosent Pərviz Kazımidir.

ADMİU-nun hesabat dövründə Erasmus+ proqramı çərçivəsində iki layihədə tərəfdaş kimi iştirak etmişdir. Bunlar Bakı Biznes Universitetinin təşəbbüsü ilə həyata keçirilmiş "Azərbaycanda Rektorlar Konfransının yaradılması" (ECAR) və Mingəçevir Dövlət Universitetinin koordinatorluğu ilə həyata keçirilmiş "Azərbaycan ali təhsilində

davamlı sahibkarlıq ekosisteminin gücləndirilməsi" (ENGAGE) layihələridir. Bu layihələr akademik heyətin beynəlxalq təcrübə ilə tanış olmasına imkan yaratmışdır.

ADMİU-da akademik heyətin tədqiqat bacarıqlarının inkişafı üçün təlim və seminarlar təşkil olunur. Bu təlimlərdən biri "Microsoft Teams" platformasında "İndekslənən məlumat bazaları" mövzusunda keçirilmişdir. Təlimdə tarix üzrə fəlsəfə doktoru, dosent Pərviz Kazımi iştirakçılara elmi müəssisələrin, jurnalların, müəlliflərin və məqalələrin indekslənməsi, elmmetrik göstəricilərin və reytinqlərin hesablanması, akademik profillərin yaradılması, elmi məqalələrin tərtibat tələbləri və digər mövzular üzrə ətraflı məlumat vermişdir. 31 yanvar 2025-ci il tarixində isə "Clarivate" şirkətinin Azərbaycandakı nümayəndəsi İltifat İbrahimov universitetdə indekslənən jurnallarda nəşr, jurnalların DOAJ platformasında qeydiyyatdan keçməsi və açıq resurslardan istifadə qaydaları mövzusunda təlim keçmişdir (https://admiu.edu.az/admiu-da-jurnallarin-doaj-platformasinda-qeydiyyatdan-kecmesi-movzusunda-təlim-bas-tutub/). Bu istiqamətdə işlərin əlaqələndirilməsi məqsədilə universitetdə Analitik Elmi-İnformasiya Xidməti Mərkəzi fəaliyyət göstərir.

4.3.15. Doktorantura proqramlarının təşviq edilməsi və doktorantura məzunlarının işə cəlb edilməsi siyasətinin mövcudluğu

ADMİU-nun doktorant və dissertantları pedaqoji fəaliyyətə müntəzəm olaraq hər tədris ilində fəal cəlb olunur. Yeddi doktorant və dissertant universitetin müxtəlif kafedralarında dərs demişdir. Onlardan Səidə Baxşıyeva (2014-cü il qəbulu), Aysel Rüstəmova (2016-cı il qəbulu) və Abbasağa Əlizadə (2019-cu il qəbulu) Kinoşünaslıq və ekran dramaturgiyası kafedrasında, Ülkər Aşurbəyova (2016-cı il qəbulu) Xalq çalğı alətləri kafedrasında, Rəfiqə Quliyeva (2022-ci il qəbulu) Təsviri sənət tarixi və nəzəriyyəsi kafedrasında, Pərvanə Həsənova (2022-ci il qəbulu) Kino-televiziya sənətləri kafedrasında, Səbinə Namazova (2022-ci il qəbulu) isə Sosial-mədəni fəaliyyət kafedrasında pedaqoji fəaliyyət göstərmişdir. Onlardan Aysel Rüstəmova və Abbasağa Əlizadə dissertasiyalarını müdafiə etmişlər. Bundan əlavə, son 5 ildə ADMİU-nun məzunu olmuş 5 nəfər universitetin doktoranturasına daxil olmuşdur. Bu, universitetin öz məzunları hesabına elmi-pedaqoji kadr potensialının formalaşdırılmasına xidmət edir.

4.3.16. Ali təhsilin bütün səviyyələri üzrə təhsil proqramlarında tədris prosesində iştirak edən elmlər doktoru və professorların sayının (5%-dən az olmamaqla) dəyişməsi vəziyyəti

ADMİU-da ali təhsilin bütün səviyyələri üzrə tədris prosesində iştirak edən elmlər doktoru və professorların professor-müəllim heyətindəki payı hər tədris ilində 5%-lik minimum həddən yüksək olmuşdur. Xarici əvəzçilər istisna olmaqla, bu göstərici 2021–2022-ci tədris ilində 14%, 2022–2023-cü tədris ilində 13,9%, 2023–2024-cü tədris ilində 11,25%, 2024–2025-ci tədris ilində isə 12,1% təşkil etmişdir. Bununla yanaşı, fəlsəfə doktorlarının sayı 77 nəfərdən 81 nəfərə yüksəlmişdir. Göstəricilərin tədris illəri üzrə ətraflı təsviri cədvəldə verilmişdir.

Cədvəl 4.2. ADMİU-da ali təhsilin bütün səviyyələri üzrə tədris prosesində iştirak edən elmlər doktoru və professorların professor-müəllim heyətindəki sayı

Tədris ili	Professor-müəllim heyəti (xarici əvəzçilər istisna olmaqla)	Fəlsəfə doktoru	Elmlər doktoru	Professor	Elmlər doktoru və professorların nisbəti, %
2021–2022	250	77	9	26	14,0
2022–2023	266	76	7	30	13,9
2023–2024	240	78	6	21	11,25
2024–2025	247	81	8	22	12,1

4.3.17. Elmi dərəcəsi olan tədqiqatçıların akademik heyətə olan nisbətinin dəyişməsi vəziyyəti.


ADMİU-da xarici əvəzçilər istisna olmaqla, 2024–2025-ci tədris ilində 247 nəfərlik akademik heyətin 129 nəfəri (52,23%) tədqiqatla, 118 nəfəri (47,77%) isə yaradıcılıqla məşğul olmuşdur. Elmlər doktoru və fəlsəfə doktoru elmi dərəcəsi olan 89 nəfər tədqiqatçı akademik heyətin 36,03%-ni təşkil etmişdir. Elmi dərəcəli tədqiqatçıların nəzəriyyəçi akademik heyətə nisbəti isə 69%-dir. Akademik heyətin təqribən yarısının yaradıcılıq fəaliyyəti ilə məşğul olması universitetin incəsənət profili ilə bağlıdır. Ona görə də elmi dərəcəli kadrların nəzəriyyəçi heyət daxilindəki yüksək payı tədqiqat potensialının əsas göstəricisi kimi çıxış edir.

4.3.18. Elmi dərəcələrin alındığı istiqamətlərin kvalifikasiyasının müəssisənin elmi tədqiqat hədəflərinə uyğunluğu

ADMİU-nun doktoranturasına Sənətşünaslıq elm sahəsi üzrə 6 ixtisas üzrə qəbul aparılır. Bunlar 6203.01 – “İncəsənətin nəzəriyyəsi, təhlili və tənqidi”, 6218.01 – “Dekorativ-tətbiqi sənət”, 6214.01 – “Kino, tele və digər ekran sənətləri”, 6213.01 – “Musiqi sənəti”, 6212.01 – “Teatr sənəti” və 6215.01 – “Təsviri sənət” ixtisaslarıdır. Bu ixtisaslar universitetin fakültə və kafedralarının fəaliyyət istiqamətlərini əhatə edir. Bu baxımdan elmi dərəcələrin alındığı istiqamətlər ADMİU-nun incəsənət və mədəniyyət sahəsindəki elmi tədqiqat hədəflərinə uyğundur. Doktorantura ixtisaslarının universitetin tədris profili ilə uzlaşması elmi-pedaqoji kadrların öz müəssisəsində hazırlanmasına imkan yaradır.

4.3.19. Elmi-tədqiqat fəaliyyətinin montorinqi və qiymətləndirilməsi mexanizminin mövcudluğu və tətbiqi vəziyyəti

Professor-müəllim heyətinin akademik fəaliyyəti ADMİU-nun Elmi Şurasının 30 oktyabr 2023-cü il tarixli qərarı ilə təsdiq edilmiş meyarlar əsasında qiymətləndirilir. Bu fəaliyyətin nəticələri illik hesabatlarda müqayisəli şəkildə təhlil olunur. Diaqramdan göründüyü kimi, xarici jurnallarda dərc olunan məqalələrin sayı 2022-ci ildə ən yüksək həddə çatmışdır. 2024-cü ildə isə impakt-faktorlu jurnallardakı məqalələrin sayı artmışdır. Elmi Şuranın 25 oktyabr 2024-cü il tarixli qərarına (protokol № 03) əsasən, Web of Science və Scopus bazalarında indekslənən məqalə müəlliflərinin əməkhaqqına 6 ay müddətində 100 manat əlavə təyin edilir. Professor-müəllim heyətinin rəyini öyrənmək üçün sorğu da keçirilir (admiu.edu.az/wp-content/uploads/2025/09/Muellim_memnuniyyeti_sorgusu.pdf).



Şəkil 4.6. Professor-müəllim heyətinin akademik fəaliyyəti

4.3.20. Doktorantura dissertasiyasının hazırlanması və müdafiəsinin təşkili.

ADMİU-nun doktoranturasında Sənətşünaslıq elm sahəsi üzrə 12 nəfər təhsil alır. Doktoranturaya qəbul 6 ixtisas üzrə aparılır: 6203.01 – "İncəsənətin nəzəriyyəsi, təhlili və tənqidi", 6218.01 – "Dekorativ-tətbiqi sənət", 6214.01 – "Kino, tele və digər ekran sənətləri", 6213.01 – "Musiqi sənəti", 6212.01 – "Teatr sənəti" və 6215.01 – "Təsviri sənət". Dissertasiyaların müdafiəsi universitetin nəzdində fəaliyyət göstərən FD 2.35 Dissertasiya şurasında həyata keçirilir. Bu, doktorantların tədqiqat işlərinin hazırlanmasından müdafiəsinə qədər bütün mərhələlərin universitet daxilində təşkilinə imkan verir.

4.4. Elmi-tədqiqat fəaliyyətində və təhsildə akademik dürüstlük mexanizminin mövcud olması və tətbiqi vəziyyəti

4.4.1. Antiplagiat və akademik dürüstlük siyasətinin mövcudluğu


ADMİU-da antiplagiat və akademik dürüstlük siyasəti mövcuddur. Antiplagiat haqqında Əsasnamə ADMİU Elmi Şurasının 2023-cü il tarixli iclasında (protokol № 01) təsdiq edilmişdir (https://admiu.edu.az/wp-content/uploads/2025/06/hs-11.pdf). Akademik dürüstlük siyasəti isə Elmi Şuranın 29 mart 2023-cü il tarixli iclasında təsdiq edilmişdir (https://admiu.edu.az/wp-content/uploads/2025/06/Akademik_durustluk_siyaseti.pdf).

4.4.2. Köçürmə hallarının (tədqiqat və tədris prosesində) qarşısının alınması ilə bağlı effektiv alətlərin və təsdiq olunmuş yazılı prosedurların mövcudluğu

ADMİU-da tədqiqat işlərində köçürmə hallarının qarşısını almaq üçün StrikePlagiarism antiplagiat sistemindən istifadə olunur. Sistemin istifadəsi ADMİU ilə “Plagiat.pl” MMC arasında 14 fevral 2025-ci il tarixində bağlanmış xidmət satınalma müqaviləsi əsasında həyata keçirilir. Müqavilənin icrası 5 nömrəli əlavə və yekun təhvil-təslim aktı ilə təsdiqlənmişdir. Universitetin sistemdə rəsmi hesabı var (plagiatadmin@admiu.edu.az). Yoxlamadan keçən hər bir işin hesabatı dərhal istifadəçinin elektron poçt ünvanına göndərilir. Antiplagiat yoxlamasına görə ödənişlər MilliÖn ödəmə sistemi vasitəsilə universitetin hesabına daxil olur, bu vəsaitlər barədə Mühasibat uçotu və hesabat şöbəsi tərəfindən hesabat hazırlanır. Tədris prosesində isə imtahanlar zamanı köçürmə halı aşkar edildikdə akt tərtib olunur, tələbə imtahandan kənarlaşdırılır və onun nəticəsi “0” balla qiymətləndirilir.

4.4.3. ATM-in antiplagiat sisteminin təhsil və elmi tədqiqat prosesində iştirak edən tələbə və professor-müəllim heyətini əhatə etmə səviyyəsi

ADMİU-da antiplagiat sisteminin tələbə işlərini əhatə etmə səviyyəsi qənaətbəxş hesab olunur. Son beş ildə antiplagiat sistemi vasitəsilə 2021-ci ildə 95, 2022-ci ildə 127, 2023-cü ildə 95, 2024-cü ildə 82, 2025-ci ildə isə 72 magistr dissertasiyası yoxlanılmışdır. 2025-ci ildən etibarən bakalavr buraxılış işləri də yoxlamaya cəlb edilmiş və həmin il 165 buraxılış işi yoxlanılmışdır. Beləliklə, 2025-ci ildə yoxlanılan işlərin ümumi sayı 237-yə çatmışdır. Antiplagiat sistemindən istifadənin nəticələri barədə hesabatlar mütəmadi olaraq Elmi Şurada dinlənilir.



Şəkil 4.7. Antiplagiat sisteminin tələbə işlərini əhatə etmə səviyyəsi

Cədvəl 4.3. 2021-ci il üzrə Antiplagiat sisteminin istifadəsi

№	Elmi-tədqiqat və təhsil müəssisəsi üzrə cəmi / Struktur bölmələr üzrə	Antiplagiat sisteminin istifadəsi haqqında						
		Hansı antiplagiat sistemindən istifadə edilir	Antiplagiat sistemin tətbiqinə başlanıldığı tarix	Antiplagiat sistemi nə dəstək göstərən şirkət	Antiplagiat sistemi vasitəsilə yoxlanılan tədris və elmi əsərlərin növləri	Antiplagiat sistemi ilə il ərzində yoxlanılan vəsaitlərin sayı	Antiplagiat sistemi ilə cəmi yoxlanılmış vəsaitlərin sayı	Antiplagiat sistemi ilə aşakar olunmuş plagiat hallarının sayı
1	2	3	4	5	6	7	8	9
1.	Ali təhsil müəssisəsi (adını göstərməli) üzrə cəmi:	Strikeplagiarism	2021	Plagiat.pl	Tədris metodik vəsait, Dərs vəsaiti, Kitab, Magistr, dissertasiyası, Elmlər doktoru	155	266	

					dissertasiyası, Fəlsəfə doktoru dissertasiyası			
2.	**Kulturologiya fakültəsi üzrə**					42	98	
	...							
3.	**Teatr sənəti fakültəsi üzrə**					10	11	
	...							
4.	**Kino və televiziya fakültəsi üzrə**					6	29	
5.	**Musiqi sənəti fakültəsi üzrə**					59	86	
6.	**Rəssamlıq fakültəsi üzrə**					38	42	
7.	**İKT və texniki xidmət şöbəsi**							

Cədvəl 4.4. 2022-ci il üzrə Antiplagiat sisteminin istifadəsi

№	**Elmi-tədqiqat**	**Antiplagiat sisteminin istifadəsi haqqında**

	və təhsil müəssisəsi üzrə cəmi / Struktur bölmələr üzrə	**Hansı antiplagiat sistemindən istifadə edilir**	**Antiplagiat sistemin tətbiqinə başlanıldığı tarix**	**Antiplagiat sistemi nə dəstək göstərən şirkət**	**Antiplagiat sistemi vasitəsilə yoxlanılan tədris və elmi əsərlərin növləri**	**Antiplagiat sistemi ilə il ərzində yoxlanılan vəsaitlərin sayı**	**Antiplagiat sistemi ilə cəmi yoxlanılmış vəsaitlərin sayı**	**Antiplagiat sistemi ilə aşakar olunmuş plagiat hallarının sayı**
1	2	3	4	5	6	7	8	9
1.	Ali təhsil müəssisəsi (adını göstərməli) üzrə cəmi:	Strikeplagiarism		Plagiat.pl	Tədris metodik vəsait, Dərs vəsaiti, Kitab, Magistr, dissertasiyası, Elmlər doktoru dissertasiyası, Fəlsəfə doktoru dissertasiyası	235	424	
2.	**Kulturologiya fakültəsi üzrə**					102	140	
2.4	Sosial-siyasi fənlər kafedrası üzrə							
3.	**Teatr sənəti fakültəsi üzrə**					15	21	
4.	**Kino və televiziya fakültəsi üzrə**					46	38	
5.	**Musiqi sənəti fakültəsi üzrə**					53	145	

6.	**Rəssamlıq fakültəsi üzrə**					19	80	
7.	**İKT və texniki xidmət şöbəsi**							

Cədvəl 4.4. 2023-cü il üzrə Antiplagiat sisteminin istifadəsi

№	**Elmi-tədqiqat və təhsil müəssisəsi üzrə cəmi / Struktur bölmələr üzrə**	**Antiplagiat sisteminin istifadəsi haqqında**						
		Hansı antiplagiat sistemindən istifadə edilir	**Antiplagiat sistemin tətbiqinə başlanıldığı tarix**	**Antiplagiat sistemi nə dəstək göstərən şirkət**	**Antiplagiat sistemi vasitəsilə yoxlanılan tədris və elmi əsərlərin növləri**	**Antiplagiat sistemi ilə il ərzində yoxlanılan vəsaitlərin sayı**	**Antiplagiat sistemi ilə cəmi yoxlanılmış vəsaitlərin sayı**	**Antiplagiat sistemi ilə aşakar olunmuş plagiat hallarının sayı**
1	2	3	4	5	6	7	8	9
1.	Ali təhsil müəssisəsi (adını göstərməli) üzrə cəmi:	Strikeplagiarism	2021	Plagiat.pl	Tədris metodik vəsait, Dərs vəsaiti, Kitab, Magistr, dissertasiyası, Elmlər doktoru dissertasiyası, Fəlsəfə doktoru dissertasiyası	329	900	
2.	**Kulturologiya fakültəsi üzrə**						32	

2.1	Sosial-mədəni fəaliyyət kafedrası üzrə						9	
2.2	Muzeyşünaslıq kafedrası üzrə						5	
2.3	Turizm və kitabxana-informasiya fəaliyyəti kafedrası üzrə						11	
2.4	Sosial-siyasi fənlər kafedrası üzrə						7	
	...							
3.	**Teatr sənəti fakültəsi üzrə**						1	
3.4	Teatrşünaslıq kafedrası üzrə							
	...							
4.	**Kino və televiziya fakültəsi üzrə**						27	
4.1	Kinoşünaslıq və ekran dramaturgiyası kafedrası üzrə						8	
4.2	Kino-televiziya sənətləri kafedrası üzrə						2	
4.3	Ədəbiyyat və dillər kafedrası üzrə						17	
5.	**Musiqi sənəti**						20	

	fakültəsi üzrə							
5.1	Musiqi tarixi və nəzəriyyəsi kafedrası üzrə						10	
5.2	İnstrumental ifaçılıq kafedrası üzrə						4	
5.3	Muğam sənəti kafedrası üzrə							
5.4	Estrada sənəti kafedrası üzrə							
5.5	Xalq çalğı alətləri ifaçılığı kafedrası üzrə						5	
5.6	Aşıq sənəti kafedrası üzrə						1	
6.	**Rəssamlıq fakültəsi üzrə**						1	
6.1	Təsviri sənət tarixi və nəzəriyyəsi kafedrası üzrə							
7.	**İKT və texniki xidmət şöbəsi**							

Cədvəl 4.5. 2024-cü il üzrə Antiplagiat sisteminin istifadəsi


№	**Elmi-tədqiqat**	**Antiplagiat sisteminin istifadəsi haqqında**

	və təhsil müəssisəsi üzrə cəmi / Struktur bölmələr üzrə	**Hansı antiplagiat sistemindən istifadə edilir**	**Antiplagiat sistemin tətbiqinə başlanıldığı tarix**	**Antiplagiat sistemi nə dəstək göstərən şirkət**	**Antiplagiat sistemi vasitəsilə yoxlanılan tədris və elmi əsərlərin növləri**	**Antiplagiat sistemi ilə il ərzində yoxlanılan vəsaitlərin sayı**	**Antiplagiat sistemi ilə cəmi yoxlanılmış vəsaitlərin sayı**	**Antiplagiat sistemi ilə aşakar olunmuş plagiat hallarının sayı**
1	2	3	4	5	6	7	8	9
1.	Ali təhsil müəssisəsi (adını göstərməli) üzrə cəmi:	Strikeplagiarism	2021	Plagiat.pl	Tədris metodik vəsait, Dərs vəsaiti, Kitab, Magistr, dissertasiyası, Elmlər doktoru dissertasiyası, Fəlsəfə doktoru dissertasiyası	319	1219	
2.	**Kulturologiya fakültəsi üzrə**					33		
2.1	Sosial-mədəni fəaliyyət kafedrası üzrə					12		
2.2	Muzeyşünaslıq kafedrası üzrə					5		
2.3	Turizm və kitabxana-informasiya fəaliyyəti kafedrası üzrə					9		
2.4	Sosial-siyasi fənlər					7		

	kafedrası üzrə							
	...							
3.	**Teatr sənəti fakültəsi üzrə**					2		
3.1	Dram teatrı və kino aktyoru kafedrası üzrə							
3.2	Musiqili teatr aktyoru kafedrası üzrə							
3.3	Dram rejissoru və səhnə plastikası kafedrası üzrə							
3.4	Teatrşünaslıq kafedrası üzrə					2		
3.5	Səhnə danışığı kafedrası üzrə							
	...							
4.	**Kino və televiziya fakültəsi üzrə**					31		
4.1	Kinoşünaslıq və ekran dramaturgiyası kafedrası üzrə					7		
4.2	Kino-televiziya sənətləri kafedrası üzrə					3		
4.3	Ədəbiyyat və dillər kafedrası üzrə					21		

5.	**Musiqi sənəti fakültəsi üzrə**					19		
5.1	Musiqi tarixi və nəzəriyyəsi kafedrası üzrə					11		
5.2	İnstrumental ifaçılıq kafedrası üzrə					4		
5.3	Muğam sənəti kafedrası üzrə							
5.4	Estrada sənəti kafedrası üzrə							
5.5	Xalq çalğı alətləri ifaçılığı kafedrası üzrə							
5.6	Aşıq sənəti kafedrası üzrə					4		
6.	**Rəssamlıq fakültəsi üzrə**					2		
6.1	Təsviri sənət tarixi və nəzəriyyəsi kafedrası üzrə					2		
6.2	Dizayn və dekorativ - tətbiqi sənət kafedrası üzrə							
6.3	Təsviri sənət kafedrası üzrə							

7.	**İKT və texniki xidmət şöbəsi**							



Şəkil 4.8. Strikeplagiarism idarəetmə paneli - https://panel.strikeplagiarism.com/#/codes

V. İdarəetmə sistemi

5.1. İdarəetmə orqanları

5.1.1. ATM-də ödənişli və ictimai əsaslarla fəaliyyət göstərməsi nəzərdə tutulan idarəetmə orqanlarının (himayəçilər, elmi, elmi-metodiki, təhsilalanlar, qəyyumlar şuraları və s.) Nizamnaməyə uyğunluğu və idarəetmə orqanlarının əsasnamələrinin, strukturunun və fəaliyyət/iş planlarının mövcudluğu vəziyyəti

ADMİU-da idarəetmə sisteminin təşkili Universitetin Nizamnaməsi və qüvvədə olan normativ hüquqi aktlar əsasında həyata keçirilmişdir. “Təhsil haqqında” Azərbaycan Respublikası Qanununun 30-cu maddəsində təhsil müəssisələrinin idarə olunmasının hüquqi əsasları, ali idarəetmə orqanlarının fəaliyyəti, eləcə də idarəetmədə aşkarlıq və şəffaflığın təmin edilməsi ilə bağlı müddəalar öz əksini tapmışdır (https://e-qanun.az/framework/18343). Monitorinq dövründə Universitetin idarəetmə sisteminin normativ əsasları Nizamnamə ilə müəyyən edilmiş, idarəetmə orqanlarının fəaliyyəti isə müvafiq daxili sənədlər çərçivəsində təşkil olunmuşdur. İdarəetmə orqanlarının səlahiyyətləri, tərkibi və fəaliyyət qaydaları onların yaradılması barədə qərarlar, əsasnamələr və digər təşkilati sənədlərlə tənzimlənmiş, fəaliyyətin sənədləşdirilməsi iclas protokolları və qəbul edilmiş qərarlar vasitəsilə həyata keçirilmişdir.

5.1.2. İdarəetmə orqanlarında maraqlı tərəflərin (işəgötürənlərin, tələbələrin, ictimaiyyət nümayəndələrinin və s.) təmsil olunma vəziyyəti

ADMİU-da 2021–2025-ci illər ərzində maraqlı tərəflərin idarəetmədə təmsilçiliyi əsasən Elmi Şuranın fəaliyyəti çərçivəsində həyata keçirilmişdir. Elmi Şuranın tərkibinə Universitet rəhbərliyi, fakültə dekanları, struktur bölmələrin nümayəndələri ilə yanaşı, tələbə təşkilatlarının rəhbərləri də daxil edilmişdir. Bundan əlavə, Tələbə Elmi-Yaradıcılıq Cəmiyyətinin və Tələbə Həmkarlar İttifaqının sədrləri Elmi Şurada təmsil olunmuş, tələbələrin şuraya təmsilçiliyi fakültələr üzrə müvafiq nümayəndəliklər vasitəsilə həyata keçirilmişdir (https://admiu.edu.az/elmi-sura-2/) elm, mədəniyyət və incəsənət xadimlərinin Elmi Şuraya daxil edilməsi Universitetin idarəetməsində ictimai və peşəkar mühitin təmsilçiliyinə imkan yaratmışdır. Bu təmsilçilik "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 30.1-ci maddəsində müəyyən edilmiş aşkarlıq, şəffaflıq və demokratiklik prinsipləri ilə uzlaşır (https://e-qanun.az/framework/18343).

5.1.3. İdarəetmə orqanlarının iclaslarının, yığıncaqlarının və tədbirlərinin təsdiq edilmiş fəaliyyət planına uyğun keçirilməsi vəziyyəti

Universitetin idarəetmə orqanlarının iclasları və yığıncaqları müəyyən edilmiş fəaliyyət istiqamətləri və gündəlik məsələlər əsasında keçirilmiş, tədris, elmi-tədqiqat, yaradıcılıq və təşkilati-idarəetmə fəaliyyəti ilə bağlı məsələlər Elmi Şuranın iclaslarında müzakirə olunmuşdur. ADMİU-nun rəsmi internet səhifəsində dərc edilmiş məlumatlar monitorinq dövründə Elmi Şuranın iclaslarının mütəmadi keçirildiyini təsdiqləyir. Belə ki, 2024–2025-ci tədris ilinin ilk iclası 12 sentyabr 2024-cü il tarixində, həmin ilin son iclası isə 27 dekabr 2024-cü il tarixində keçirilmiş, 2025-ci il ərzində də Elmi Şuranın növbəti iclasları keçirilmişdir.
(https://admiu.edu.az/2024-2025-ci-t%c9%99dris-ilinin-ilk-elmi-sura-iclasi-kecirilib/;
https://admiu.edu.az/2024-cu-ilin-son-elmi-sura-iclasi-kecirilib/;
https://admiu.edu.az/admiu-elmi-surasinin-novb%C9%99ti-iclasi-bas-tutub/).

Universitetin rəsmi səhifəsində Elmi Şuranın iclaslarının ayda bir dəfə keçirilməsinin nəzərdə tutulduğu, zərurət yarandıqda növbədənkənar iclasların təşkil edildiyi də qeyd olunur (https://admiu.edu.az/elmi-sura-2/). İclasların gündəliyinə universitetin fəaliyyəti üzrə hesabatlar, tədris və elmi-metodiki məsələlər, qəbul nəticələri, struktur bölmələrin fəaliyyəti və cari təşkilati məsələlər daxil edilmişdir. Bununla belə, iclasların təsdiq edilmiş illik fəaliyyət planına tam uyğunluq səviyyəsi yalnız rəsmi elanlarla deyil, təsdiq edilmiş planların və iclas protokollarının müqayisəsi əsasında müəyyən edilə bilər.

5.1.4. İdarəetmə orqanlarında məsələlərin müzakirə olunması və qərarların verilməsinin reqlamentləşdirilməsi prosedurunun olması vəziyyəti

2021–2025-ci illər ərzində Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində idarəetmə orqanlarında məsələlərin müzakirəsi və qərarların qəbulu normativ hüquqi aktlar, Universitetin Nizamnaməsi və Elmi Şuranın fəaliyyətini tənzimləyən daxili qaydalar əsasında həyata keçirilmişdir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 15 yanvar tarixli 7 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət

və bələdiyyə tərəfindən yaradılan ali təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi"nin 4.7-ci bəndinə əsasən, dövlət ali təhsil müəssisəsinin ali idarəetmə orqanı Elmi Şuradır və onun fəaliyyət qaydaları müvafiq əsasnamə və universitetin nizamnaməsi ilə müəyyən edilir (https://e-qanun.az/framework/41220). ADMİU-nun rəsmi internet səhifəsində yerləşdirilmiş Elmi Şura haqqında məlumatda Şuranın fəaliyyət istiqamətləri, səlahiyyətləri və işinin təşkili üzrə reqlamentin təsdiqi məsələləri əks olunmuşdur (https://admiu.edu.az/en/elmi-sura). İdarəetmə orqanlarında müzakirəyə çıxarılan məsələlər gündəliyə daxil edilmiş, müvafiq məsələlər üzrə müzakirələr aparılmış, qərarlar kollegial qaydada qəbul edilərək protokollarla rəsmiləşdirilmişdir. Qərarların qəbulunda səsvermə mexanizminin tətbiqi və iclasların protokollaşdırılması idarəetmə prosesinin sistemli və hesabatlı şəkildə həyata keçirilməsinə xidmət etmişdir.

5.1.5. İdarəetmə orqanları tərəfindən qəbul edilmiş qərarların qanunvericiliyin tələblərinə uyğunluğu, qərarlarının əlçatanlığı və qərarların icra vəziyyəti

Qərarları Universitetin səlahiyyətləri çərçivəsində qəbul edilmiş, müvafiq iclas protokolları və təşkilati sənədlərlə rəsmiləşdirilmişdir. Qərarların hüquqi əsaslandırılması və rəsmiləşdirilməsi məsələləri Azərbaycan Respublikası Konstitusiyasının 149-cu maddəsində təsbit olunmuş hüquqi aktların qanunauyğunluğu tələbləri ilə əlaqəlidir (https://president.az/az/pages/view/azerbaijan/constitution). Qərarların icraçılara çatdırılması, icra müddətlərinə əməl olunması və icrasına nəzarət baxımından "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununun 91-ci maddəsində müəyyən edilmiş icranın təşkili prinsipləri nəzərə alınmışdır (https://frameworks.e-qanun.az/21/c_f_21300.html). İctimaiyyət üçün açıq olan məlumatların əldə edilməsinin hüquqi çərçivəsi isə "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilir (https://media.gov.az/uploads/2023/09/1024-IIQ-Informasiya-elde-etmek-haqqinda.pdf). ADMİU-nun rəsmi internet səhifəsində Elmi Şuranın iclasları və müzakirə olunan məsələlər barədə məlumatların yerləşdirilməsi Universitetin fəaliyyəti ilə bağlı ictimai məlumatlandırmaya xidmət etmişdir (https://admiu.edu.az/). Bununla yanaşı, qərarların qanunvericiliyə uyğunluğu, əlçatanlığı və icra vəziyyəti monitorinq dövründə qəbul edilmiş qərarların məzmunu, aidiyyəti struktur bölmələrə çatdırılması və icra nəticələrini əks etdirən sənədlər əsasında qiymətləndirilmişdir.

5.1.6. İdarəetmə orqanları arasında qarşılıqlı əlaqənin və kommunikasiyanın mövcud olması vəziyyəti

Qarşılıqlı əlaqə və kommunikasiya idarəetmə qərarlarının razılaşdırılması, struktur bölmələrin fəaliyyətinin əlaqələndirilməsi, tapşırıqların icraçılara çatdırılması və icrasına nəzarət vasitəsilə həyata keçirilmişdir. Universitetdə rəsmi sənəd dövriyyəsi Elektron Sənəd Dövriyyəsi (ESD) sistemi üzərindən təşkil olunmuş, sənədlərin aidiyyəti üzrə göndərilməsi, icraya yönləndirilməsi və icra vəziyyətinin izlənilməsi elektron qaydada təmin edilmişdir. Bu sistem idarəetmə orqanları və struktur bölmələr arasında operativ məlumat mübadiləsinə, tapşırıqların icra müddətlərinin izlənilməsinə və sənədlərin

hərəkətinin sistemləşdirilməsinə şərait yaratmışdır. Universitetin idarəetmə orqanları arasında qarşılıqlı fəaliyyət Elmi Şuranın qərarlarının icrası, rektorluğun tapşırıqlarının struktur bölmələrə çatdırılması, eləcə də müvafiq hesabat və məlumatların təqdim edilməsi vasitəsilə də həyata keçirilmişdir. Elektron sənəd dövriyyəsinin təşkili və elektron sənədlərlə iş Azərbaycan Respublikasının "Elektron imza və elektron sənəd haqqında" Qanununun müddəaları ilə əlaqəlidir (https://e-qanun.az/framework/5500)

5.1.7. İdarəetmə orqanları daxilində səlahiyyət və vəzifə bölgüsünün aparılması vəziyyəti

2021–2025-ci illər ərzində ADMİU-da idarəetmə orqanları və struktur bölmələri üzrə səlahiyyət və vəzifə bölgüsü Universitetin Nizamnaməsi, struktur bölmələrin əsasnamələri və vəzifə təlimatları əsasında həyata keçirilmişdir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 15 yanvar tarixli 7 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə tərəfindən yaradılan ali təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi"nin 4.11–4.15-ci bəndlərində rektorun və prorektorların idarəetmə sistemindəki rolu, səlahiyyətləri və məsuliyyət dairəsi müəyyən edilmişdir (https://e-qanun.az/framework/41220). Həmin müddəalara uyğun olaraq, Universitetin cari fəaliyyətinə rəhbərlik rektor tərəfindən həyata keçirilmiş, idarəetmə qərarlarının icrası və struktur bölmələrin fəaliyyətinin əlaqələndirilməsi müvafiq vəzifə səlahiyyətləri çərçivəsində təşkil olunmuşdur. Struktur bölmələrin rəhbərləri və əməkdaşları arasında vəzifə bölgüsü müvafiq əsasnamələr, ştat cədvəlləri və vəzifə təlimatları ilə tənzimlənmiş, bu sənədlər əməkdaşların funksional öhdəliklərinin və hesabatlılıq istiqamətlərinin müəyyənləşdirilməsinə xidmət etmişdir.

5.1.8. İdarəetmə orqanlarının fəaliyyətinin monitorinqi və qiymətləndirilməsi mexanizminin mövcudluğu, idarəetmə orqanlarının fəaliyyətinə dair dövrü hesabatların hazırlanması vəziyyəti

ADMİU-da idarəetmə orqanlarının fəaliyyətinin qiymətləndirilməsi görülmüş işlərin nəticələrinin ümumiləşdirilməsi, təsdiq edilmiş fəaliyyət planlarının icra vəziyyətinin araşdırılması və dövri hesabatların təhlili əsasında aparılmışdır. 2021–2025-ci illəri əhatə edən monitorinq dövründə struktur bölmələrin hesabatları Universitet üzrə həyata keçirilən tədbirlərin, qarşıya qoyulmuş vəzifələrin və əldə edilmiş nəticələrin sistemləşdirilməsinə xidmət etmişdir. Elmi Şuranın fəaliyyət planlarının icrasına dair məruzələr Şuranın iclaslarında dinlənilmiş, müzakirələr nəticəsində müvafiq qərarlar qəbul edilmişdir. Tədris ili üzrə daxili özünütəhlil və struktur bölmələrin illik hesabatları idarəetmə proseslərinin mövcud vəziyyətinin təhlilinə, fəaliyyət istiqamətləri üzrə nəticələrin müəyyənləşdirilməsinə və növbəti dövr üçün prioritetlərin formalaşdırılmasına imkan yaratmışdır. Beləliklə, hesabatlılıq və özünütəhlil mexanizmləri Universitetin idarəetmə fəaliyyətinin izlənilməsində və strateji məqsədlərin icra vəziyyətinin qiymətləndirilməsində istifadə olunmuşdur.

5.1.9. İdarəetmə orqanlarının şəffaf və nəticəyönümlü fəaliyyətinin təmin edilməsi və davamlı təkmilləşdirilməsi vəziyyəti


"Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 28 iyul 2022-ci il tarixli 1769 nömrəli Fərmanına əsasən Azərbaycan Respublikası Təhsil Nazirliyi Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi adlandırılmışdır.

Bundan əlavə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin yenidən təşkili və Nizamnaməsinin təsdiq edilməsi haqqında" 12 avqust 2022-ci il tarixli 301 nömrəli Qərarına əsasən Əlibəy Hüseynzadə adına Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti Azərbaycan Respublikası Elm və Təhsil nazirliyinin tabeliyində publik hüquqi şəxs statusuna malik olan Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinə çevrilmə yolu ilə yenidən təşkil edilmişdir.

Bununla əlaqədar olaraq, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti tərəfindən "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında Azərbaycan Respublikasının Qanununa uyğun olaraq bütün zəruri tədbirlər görülmüş və 09 dekabr 2022-ci il tarixli 1300348991 qeydiyyat nömrəsilə Azərbaycan Respublikasının İqtisadiyyat nazirliyi yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər baş İdarəsinin Hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsi tərəfindən publik hüquqi şəxs kimi qeydiyyata alınmışdır.

Universitet öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasının, Mülki Məcəlləsinin, Publik hüquqi şəxs haqqında, Təhsil haqqında, Elm haqqında Azərbaycan Respublikası qanunlarının, Azərbaycan Respublikası Prezidentinin Fərman və sərəncamlarının, universitetin Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş İdarəsinin Hüquqi şəxslərin dövlət qeydiyyat idarəsi tərəfindən 09 dekabr 2022-ci il tarixli 1300348991 qeydiyyat nömrəli Nizamnaməsini, Azərbaycan Respublikası Nazirlər Kabinetinin digər qərar və sərəncamlarının habelə Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarını, Nazirliyin əmr və sərəncamlarını rəhbər tutur.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti ali təhsil müəssisəsi və idarəetmə orqanı kimi fəaliyyət göstərərək, təsdiq olunmuş strukturu, ştat cədvəli, heyət üzvlərinin təyinatına dair əmrlər və qərarlar, mövcuddur. Bu sənədlər universitetin İnsan Resursları və Ümumi şöbəsində qorunub saxlanılır. Universitetin rəhbərliyi tərəfindən kurasiya üzrə təsdiq olunmuş, rəhbərlərin (prorektorların) vəzifə səlahiyyətləri və vəzifə bölgüləri mövcuddur. Elmi Şuranın iş planına uyğun olaraq yaradılmış səlahiyyətli komissiya tərəfindən konkret sahənin fəaliyyətinin monitorinq və qiymətləndirilməsi aparılır.Elmi Şurada təsdiqlənmiş iş planına əsasən ayrı-ayrı strukturların fəaliyyətinə dair dövrü hesabatlar hazırlanır və Elmi Şuraya təqdim edilir. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin idarəetmə sistemini əks etdirən sxem hesabata əlavə olunur.



Şəkil 5.1. ADMİU-nun strukturu

5.2. İnsan Resurslarının idarə edilməsi

5.2.1. ATM-də işə qəbul prosedurunun mövcud olması, şəffaf və əlçatan formada həyata keçirilməsi vəziyyəti, seçkili vəzifələrin tutulması prosedurunun qanunvericiliyin tələblərinə uyğun olması vəziyyəti

ADMİU-da işə qəbul və əmək münasibətlərinin rəsmiləşdirilməsi Azərbaycan Respublikasının Əmək Məcəlləsinə, müvafiq normativ hüquqi aktlara və Universitetin Nizamnaməsinə uyğun həyata keçirilir (https://e-qanun.az/framework/46943). Universitetin kadr siyasəti insan resurslarının səmərəli idarə olunmasına, yüksək ixtisaslı mütəxəssislərin cəlb edilməsinə və əməkdaşların peşəkar inkişafına yönəlib. Akademik vəzifələrə qəbul zamanı namizədlərin müraciətləri aidiyyəti kafedralara yönləndirilir, açıq dərslər təşkil olunur və nəticələr müvafiq sahə üzrə mütəxəssislərin iştirakı ilə qiymətləndirilir. İnzibati vəzifələrə namizədlərin uyğunluğunun müəyyənləşdirilməsi məqsədilə könüllülük təcrübəsindən istifadə olunur. Qeyri-akademik vəzifələr üzrə vakansiyaların elan edilməsi və namizədlərin yönləndirilməsi "Məşğulluq haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla həyata keçirilir (https://e-qanun.az/framework/39846). Kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması müvafiq qaydalarla (https://edu.gov.az/az/esas-senedler/14620), professor-müəllim və kafedra müdiri vəzifələrinin tutulması isə müvafiq Əsasnamə ilə

(https://e-qanun.az/framework/10306) tənzimlənir. İşə qəbul prosedurlarının şəffaflığının və əlçatanlığının qiymətləndirilməsində vakansiyalar barədə məlumatların açıqlığı, seçim meyarlarının namizədlərə çatdırılması və qəbul qərarlarının müvafiq qaydada sənədləşdirilməsi əsas göstəricilər hesab olunur.

5.2.2. ATM-in akademik və inzibati heyətinin onun strateji inkişaf proqramına və maliyyə resurslarına uyğun olması

ADMİU-nun akademik və inzibati heyətinin sayı və struktur tərkibi Strateji İnkişaf Planının hədəfləri, tədris yükü, struktur bölmələrin kadr ehtiyacları və mövcud maliyyə imkanları nəzərə alınmaqla müəyyən edilir. Kadr təminatı İnkişaf Strategiyasının Fəaliyyət Planı və təsdiq edilmiş ştat cədvəli əsasında tənzimlənir. Heyətin sayının və əməkhaqqı xərclərinin maliyyə resurslarına uyğunlaşdırılması, eləcə də akademik və inzibati vəzifələr üzrə kadr ehtiyaclarının düzgün müəyyənləşdirilməsi Universitetin strateji hədəflərinin icrası baxımından əhəmiyyətlidir. Ştat strukturunun və maliyyə təminatının formalaşdırılması müvafiq normativ hüquqi aktların tələbləri çərçivəsində həyata keçirilməlidir (https://e-qanun.az/framework/41220).

5.2.3. ATM-də işçilərin səlahiyyət həcmindən, məsuliyyət dərəcəsindən, peşəkarlıq səviyyəsindən və digər keyfiyyət göstəricilərindən asılı olaraq əmək haqqı sisteminin mövcud olması

ADMİU-da əməkhaqqı sistemi təsdiq edilmiş ştat cədvəli, vəzifə öhdəlikləri və müvafiq normativ hüquqi aktların tələbləri əsasında tənzimlənir. Ştat cədvəli Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə razılaşdırılmaqla təsdiq edilir və əməkhaqqı ödənişləri həmin cədvələ uyğun həyata keçirilir. Əməkdaşların elmi dərəcəsi və elmi adı, peşəkarlıq səviyyəsi, elmi-pedaqoji fəaliyyətinin nəticələri nəzərə alınmaqla qanunvericilikdə və Universitetin müvafiq qərarlarında nəzərdə tutulan əlavələr və stimullaşdırıcı ödənişlər tətbiq oluna bilər. Əməkdaşların əməyinin stimullaşdırılması məqsədilə elmi dərəcə və elmi ada görə əlavələr, elmi fəaliyyətin nəticələrinə görə mükafatlar, habelə qanunvericilikdə nəzərdə tutulan digər kompensasiya və həvəsləndirici ödənişlər tətbiq edilə bilər. Əməkhaqqının tərkibi, vəzifə maaşı, əlavələr və mükafatlar Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 154-cü maddəsi və ali təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsinin 4.14.5-ci yarımbəndi ilə tənzimlənir (https://e-qanun.az/framework/4694; https://e-qanun.az/framework/41220).

5.2.4. ATM-də işçilərin motivasiyası və mükafatlandırılması sisteminin mövcud olması

ADMİU-da əməkdaşların motivasiyası və mükafatlandırılması Azərbaycan Respublikasının Əmək Məcəlləsinə və Universitetin Nizamnaməsinə uyğun tənzimlənir. Əməkdaşların əmək fəaliyyətinin stimullaşdırılması məqsədilə fərdi və kollektiv mükafatlandırma, eləcə də müvafiq əsaslarla həvəsləndirici ödənişlər tətbiq oluna bilər. Mükafatlandırma zamanı əməkdaşların peşəkarlığı, əmək intizamı, vəzifə öhdəliklərinin icrası və fəaliyyət nəticələrinin nəzərə alınması iş keyfiyyətinin yüksəldilməsinə və işçilərin

təşəbbüskarlığının artırılmasına xidmət edir. Əmək münasibətlərində həvəsləndirmə tədbirlərinin tətbiqi Azərbaycan Respublikası Əmək Məcəlləsinin əmək intizamı və əməyin ödənilməsi ilə bağlı müddəaları çərçivəsində həyata keçirilir (https://e-qanun.az/framework/46943).

5.2.5. ATM-də işçilərin fəaliyyətinin səmərəliliyinin vaxtaşırı qiymətləndirilməsinin aparılması vəziyyəti

ADMİU-da əməkdaşların fəaliyyətinin nəticələri struktur bölmələrin illik hesabatları vasitəsilə izlənilir. Hər bir struktur bölmə il ərzində həyata keçirdiyi işlər, qarşıya qoyulmuş vəzifələrin icrası və əldə olunan nəticələr barədə hesabatını Elmi Şuraya təqdim edir. Bu hesabatlar əməkdaşların fəaliyyətinin və struktur bölmələrin işinin ümumi nəticələrinin nəzərdən keçirilməsinə imkan yaradır. Bununla yanaşı, əməkdaşların fərdi fəaliyyət səmərəliliyinin müəyyən edilmiş meyarlar əsasında müntəzəm qiymətləndirilməsi üzrə ayrıca sistemin mövcudluğu barədə məlumat yoxdur. Fərdi qiymətləndirmə mexanizminin tətbiqi əməkdaşların fəaliyyət nəticələrinin daha obyektiv təhlilinə, peşəkar inkişaf ehtiyaclarının müəyyənləşdirilməsinə və stimullaşdırma tədbirlərinin nəticələrlə əlaqələndirilməsinə imkan verə bilər. Əmək münasibətlərində işçinin əmək funksiyasının və fəaliyyət nəticələrinin nəzərə alınması Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə tənzimlənir (https://e-qanun.az/framework/46943).

5.2.6. ATM-də işçilərin ixtisasartırma və peşəkarlıq səviyyəsinin artırılmasına yönələn təlimlərə cəlb edilməsi vəziyyəti

ADMİU-da əməkdaşların peşəkar inkişafının dəstəklənməsi məqsədilə ixtisasartırma kursları və müxtəlif istiqamətlər üzrə təlimlər təşkil olunur. Bu tədbirlər işçilərin bilik və bacarıqlarının yenilənməsinə, müasir iş metodlarının mənimsənilməsinə və vəzifə öhdəliklərinin daha səmərəli yerinə yetirilməsinə xidmət edir. Təlimlərin əməkdaşların fəaliyyət istiqamətlərinə və struktur bölmələrin ehtiyaclarına uyğun təşkili insan resurslarının inkişafı baxımından əhəmiyyətlidir. Əməkdaşların əlavə təhsil və peşə hazırlığı imkanları Azərbaycan Respublikasının Əmək Məcəlləsinin və “Təhsil haqqında” Azərbaycan Respublikası Qanununun müvafiq müddəaları ilə əlaqələndirilir (https://e-qanun.az/framework/46943; https://e-qanun.az/framework/18343).

5.2.7. ATM-də işçilərə münasibətdə sosial və mədəni tədbirlərin keçirilməsi vəziyyəti

ADMİU-da əməkdaşların ictimai fəallığının artırılması və kollektivdaxili münasibətlərin möhkəmləndirilməsi məqsədilə milli və beynəlxalq bayramlar, eləcə də əlamətdar günlərlə əlaqədar mədəni-kütləvi tədbirlər təşkil olunur. Universitetdə müxtəlif mövzulara həsr edilmiş konfranslar, dəyirmi masalar, müsabiqələr və digər ictimai tədbirlər keçirilir. Bu təşəbbüslər əməkdaşların universitetin ictimai-mədəni həyatında iştirakına, kollektivdə əməkdaşlıq mühitinin güclənməsinə və korporativ mədəniyyətin inkişafına şərait yaradır.

5.2.8. Qeyri-akademik heyətin (inzibati, texniki və köməkçi işçilər) işə qəbulu prosesində şəffaflığın təmin edilməsi vəziyyəti

ADMİU-da qeyri-akademik heyətin işə qəbulu Azərbaycan Respublikasının əmək qanunvericiliyinə və məşğulluq sahəsində müəyyən edilmiş tələblərə uyğun həyata keçirilməlidir. İnzibati, texniki və köməkçi vəzifələr üzrə namizədlərin seçilməsi zamanı müvafiq vakansiyaya uyğunluq, peşə bacarıqları və iş təcrübəsi nəzərə alınır. Vakansiyalar üzrə məlumatların açıq təqdim edilməsi və namizədlərin müəyyən edilmiş meyarlar əsasında qiymətləndirilməsi işə qəbul prosesində şəffaflığın təmin olunmasının əsas şərtlərindəndir. Əmək münasibətlərinin rəsmiləşdirilməsi və işə qəbul zamanı qanunvericiliyin tələblərinə əməl olunması Azərbaycan Respublikasının Əmək Məcəlləsi və "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir (https://e-qanun.az/framework/46943; https://e-qanun.az/framework/39846).

5.2.9. Qeyri-akademik heyətin fəaliyyətinin qiymətləndirmə sisteminin mövcud olması vəziyyəti

Universitetdə qeyri-akademik heyətin fəaliyyətinin nəticələri müvafiq struktur bölmələrin illik hesabatları vasitəsilə ümumiləşdirilir. Hesabatlarda il ərzində görülmüş işlər, həyata keçirilmiş tədbirlər və qarşıya qoyulmuş vəzifələrin icra vəziyyəti əks olunur və bu məlumatlar Elmi Şurada təqdim edilir. Mövcud yanaşma struktur bölmələrin ümumi fəaliyyət nəticələrinin təhlilinə imkan versə də, inzibati, texniki və köməkçi işçilərin fərdi fəaliyyətinin ayrıca meyarlar əsasında qiymətləndirilməsi barədə məlumat mövcud deyil.

5.2.10. Əmək münasibətlərinin və mülki münasibətlərin bağlanması və xitam verilməsi zamanı qanunvericiliyin tələblərinin nəzərə alınması vəziyyəti

ADMİU-da işə qəbul prosedurları mövcuddur. Prosedurlar şəffaf və əlçatan formada həyata keçirilir. Seçkili vəzifələrin tutulması prosedurları qanunvericiliyin tələblərinə uyğunluğu universitetin aidiyyatı struktur bölməsi və Baş hüquqşünası tərəfindən təmin edilir.

Universitetin akademik və inzibati heyətinin, onun strateji inkişaf proqramlarına və maliyyə resurslarına uyğun olmasına aidiyyatı şöbə tərəfindən nəzarət edilir. Universitetdə işçilərin səlahiyyət həcmindən, məsuliyyət dərəcəsindən, peşəkarlıq səviyyəsindən və digər keyfiyyət göstəricilərindən asılı olaraq əməkhaqqı sistemi və təsdiq olunmuş ştat cədvəlləri mövcuddur. Bu işlər universitetdə təsdiq olunmuş xərclər smetası və əməkhaqqı fondu çərçivəsində yeni maliyyələşmə mexanizmi tələblərinə uyğun həyata keçirilir. Eyni zamanda universitetdə işçilərin motivasiyası və mükafatlandırma sistemi də mövcuddur.


Əmək münasibətlərinin və mülki münasibətlərin müqavilələr əsasında mövcud qaydada bağlanması və xitam verilməsi zamanı qanunvericiliyin tələblərinin nəzərə alınmasına nəzarət universitetin hüquqşünası və aidiyyatı şöbəsi tərəfindən təmin edilir.

İşə Qəbul qaydaları: Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Elmi Şurasının 26.12.2022-ci il tarixli qərarı ilə (protokol №05) Azərbaycan Dövlət

Mədəniyyət və İncəsənət Universitetində İnzibati işçilərin işə qəbul və işdən azad edilməsi üzrə Təlimat təsdiq edilmişdir. ADMİU-nun rəsmi internet saytında yerləşdirilib.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Elmi Şurasının 28.03.2019-cu il tarixli qərarı ilə (protokol №06) akademik heyətin və inzibati işçilərin işə qəbulu üzrə İşə Qəbul Komissiyasının tərkibi təsdiq edilmiş, 29.11.2024-cü il tarixli qərarı ilə (protokol №05) İşə Qəbul Komissiyasının tərkibində dəyişiklik edilmişdir (02.12.2024-cü il tarixli 3/318 nömrəli əmr). İşə Qəbul Komissiyasının Əsasnaməsi hazırlanıb və baxılmaq üçün aidiyyəti üzrə təqdim olunub.

ADMİU-da akademik heyətlə inzibati və tədris köməkçi heyətin nisbəti aşağıdakı kimi olmuşdur: (bu nisbət 3:1 olduqda 3 bal)



Şəkil 5.2. ADMİU-da akademik heyətlə inzibati və tədris köməkçi heyətin nisbəti

Əməkhaqqı sistemi ilə bağlı sənədlər (ştat cədvəlləri, əmək müqavilələri, əmrlər, qərarlar və s.) – ştat cədvəlləri Mühasibat uçotu və hesabat şöbəsinə aid olub, əmək müqavilələri, əmrlər, qərarlar və s. mövcuddur.

İşçilərin mükafatlandırma sistemini təsdiq edən sənədlər (əmrlər, qərarlar, qaydalar və s.) mövcuddur. ADMİU-nun əməkdaşlarının mükafatlandırılması prosesi maddi və qeyri-maddi qaydalar əsasında həyata keçirilir. Qeyri-maddi motivasiyaya karyera yüksəlişi imkanının olması, mədəni-kütləvi tədbirlərin və korporativ gəzintilərin təşkil edilməsi, işçilərə əmək fəaliyyətindəki fəallığa görə təşəkkür elan olunması və fəxri fərmanların təqdim olunması və s. daxildir. Univeristetin inzibati-idarə və ştatda çalışan akademik heyəti il ərzində Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il və Novruz bayramı münasibətilə pul mükafatı ilə mükafatlandırılırlar. İldə 2 dəfə qış və yay imtahan sessiyalarının sonunda Tədrisin elektron edilməsi və imtahanların təşkili şöbəsinin müdirinin təqdimatı əsasında imtahanların keçirilməsində fəallıq göstərən əməkdaşlar mükafatlandılır və s.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Elmi Şurasının 26.12.2022-ci il tarixli qərarı ilə (protokol №05) Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin əməkdaşlarının Motivasiya Qaydaları təsdiq edilmişdir. ADMİU-nun rəsmi internet saytında yerləşdirilib. Motivasiya qaydaları işçilərin öz vəzifələrini vicdanla yerinə yetirməsi, əmək funksiyalarının yüksək peşəkarlıq səviyyəsində həyata keçirməsi, əməyin kəmiyyət və keyfiyyətinin yüksəldilməsi, tədris prosesinin keyfiyyətinin yaxşılaşdırılması və əməkdaşlarının maddi və qeyri-maddi marağının artırılması məqsədilə qəbul edilmişdir.

İnsan resursları şöbəsi tərəfindən işçilərin məmnunluq səviyyəsini ölçən sorğuların keçirilməsi nəzərdə tutulur.

Universitetin insan resurslarının idarə edilməsi sahəsində missiyasını, dəyərlərini, prinsiplərini və əsas fəaliyyət istiqamətlərini, bu fəaliyyətin səmərəliyini müəyyən edən, personalla iş sahəsində strateji məqsədlərini həyata keçirmək üçün zəruri olan qaydalar və prinsiplər toplusu - Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Kadr Siyasəti ADMİU-nun Elmi Şurasının 12.02.2019-cu il tarixli qərarı ilə (protokol №05) təsdiq edilmişdir. Bu sənəddə kadr siyasəti barədə ümumi müddəalar, kadr siyasətinin məqsəd və vəzifələri, kadr siyasətinin əsas prinsipləri, kadr siyasətinin optimallaşdırılması, işçilərin effektiv motivasiya və stimullaşdırma sistemlərinin yaradılması, təşkilatı qaydalarının yaradılması və qorunması, təlim və ixtisasartırma sisteminin yaradılması və inkişafı, kooporativ mədəniyyətin formalaşdırılması və gücləndirilməsi, məlumatlandırma və əlaqə, xəbərdarlıq və maraqların toqquşmasının qarşısının alınması, mübahisələrin həlli və yekun müddəalar öz əksini tapmışdır.

ADMİU-nun Elmi Şurasının 26.12.2022-ci il tarixli qərarı ilə (protokol №05) Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində Akademik heyətin işə qəbul Qaydaları təsdiq edilmişdir. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Elmi Şurasının 28.03.2019-cu il tarixli qərarı ilə (protokol №06) akademik heyətin işə qəbulu üzrə İşə Qəbul Komissiyasının tərkibi təsdiq edilmiş, 29.11.2024-cü il tarixli qərarı ilə (protokol №05) İşə Qəbul Komissiyasının tərkibində dəyişiklik edilmişdir (02.12.2024-cü il tarixli 3/318 nömrəli əmr).

5.3. Maliyyə resurslarının idarə edilməsi

2020-2024-cü illər ərzində universitetin maliyyə təminatını 5.3. meyarları üzrə əks etdirən cədvəl hesabata əlavə olunur.

Cədvəl 5.1. Maliyyə təminatı

Maliyyə təminatı						
№	Təhsil müəssisəsinin maliyyə təminatı	2020 İl	2021 İl	2022 İl	2023 İl	2024 İl
1	İlin əvvəlinə qalıq	3104088,80	3092571,63	3596767,93	3837479,25	2954280,37
2	Dövlət sifarişi üzrə ayrılan vəsait (bakalavr,magistr,doktorantura)	3831926,00	4094317,00	4494696,00	4931751,00	5808710,00
3	Büdcədənkənar vəsaitlər	1249637,99	2083428,48	2349105,81	2086702,04	1667644,49
6	Qrant və layihələrdən əldə olunan gəlirlər	11659,00	30530,58	47314,75	40074,77	12214,17
7	ATM daxilində elan edilmiş qrant və layihələr					
8	Elmi-tədqiqat fəaliyyəti vasitəsilə əldə olunan gəlirlərin həcmi (patentlərin kommersialaşdırılması və s.)					
9	Elmi-tədqiqat fəaliyyəti üçün müəssisənin büdcəsindən ayrılan vəsait					
10	Elmi tədqiqata ayrılan büdcə vəsaitinin ümumi büdcədə payı					
11	Təhsil haqqı istisna olmaqla digər mənbələrdən daxilolmalar ümumi daxilolmalara nisbəti					
12	Elmi-tədqiqat fəaliyyəti nəticəsində əldə olunan gəlirlər					
13	ATM-də dərsliklərin, elmi ədəbiyyatların və elmi bazalardan istifadə üçün ayırılan vəsaitin həcmində artım dinamikası					
14	Elmi ədəbiyyatlardan və elmi bazalardan istifadə üçün ayırılan vəsait					
15	Təhsilalanlara adlı təqaüdlər üçün ayrılan vəsait	1049763,00	1428933,00	1812831,00	2082609,00	2130332,00
16	Tədrisin elektronlaşdırılması (LMS sisteminin tətbiqi və distant tədrisin texniki bazasının qurulması) üçün ayrılan vəsait					

17	Kitabxana resurslarının yenilənməsi üçün (və ya elektron kitabxananın tətbiqi üçün) ayrılan vəsait					
18	Beynəlmiləlləşmə siyasətinin icrası üçün ayrılan vəsait				200000,00	
19	Təhsil haqqı istisna olmaqla digər mənbələrdən daxilolmalar ümumi daxilolmalara nisbəti					
20	Ümumi gəlir	9247074,79	10729780,69	12300715,49	13178616,06	12573181,03
21	Ümumi xərclər	6154503,16	7133012,76	8463236,24	10224335,69	10973139,01
22	İlin sonuna qalıq	3092571,63	3596767,93	3837479,25	2954280,37	1600042,02

5.3.1. ATM-in maliyyə reurslarının (dövlət büdcəsi, ödənişli təhsil, elmi-tədqiqatlar, ianələr, qrantlar və s.) mənbələrinin onun Nizamnaməsinə uyğunluğu

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin maliyyə resursları aşağıdakı mənbələrdən formalaşır:

- Dövlət sifarişi üzrə ayrılan büdcə vəsaitindən (bakalavr, magistr və doktorantura pilləsi üzrə, kadr hazırlığı üçün ayrılan büdcə vəsaiti)
- Ödənişli əsaslarla kadr hazırlığı üçün tələbələrin, magistrlərin və doktorantların kadr hazırlığı üçün universitetin büdcədənkənar fonduna təhsil haqqı kimi köçürtdükləri vəsait hesabına daxil olmalardan
- Qrant və layihələr üzrə əldə edilən gəlirlərdən
- Təhsilalanlara adlı təqaüdlər üçün ayrılan vəsaitlərdən
- Beynəlmiləşmə siyasətinin icrası üçün universitetə ayrılan vəsait məbləğindən (2023-cü ildə 200.0 min manat)

Məlumat üçün bildirirəm ki, yuxarıda qeyd olunan mənbələr hesabına universitetin 2020-2024-cü illər ərzində ümumi gəliri aşağıdakı kimi olmuşdur:

2020-ci ildə - 9247074,79 manat
2021-ci ildə - 10729780,69 manat
2022-ci ildə - 12300715,49 manat
2023-cü ildə - 13178616,06 manat
2024-cü ildə- 12573181,03 manat

Yuxarıda qeyd olunan illər ərzində universitetin saxlanılması üçün umumi xərclər isə aşağıdakı kimi olmuşdur.

2020-ci ildə - 6154503,16 manat
2021-ci ildə - 7133012,76 manat
2022-ci ildə - 8463236,24 manat
2023-cü ildə - 10224435,69 manat
2024-cü ildə isə ümumi xərclər 10973139,01 manat

İlin sonuna qeyd olunan illər üzrə universitetin hesabında sərbəst vəsait qalığı aşağıdakı kimi olmuşdur

2020-ci ilin sonuna 3092571,63 manat

2021-ci ilin sonua – 3596767,93 manat

2022-ci ilin sonua – 3837495,25 manat

2023-cü ilin sonuna – 2954280,37 manat

2024-cü ilin sonuna isə bank hesabında 1600042,02 manat məbləğində vəsait olmuşdur ki, bu azalmaya səbəb 2024-cü ildə universitetin 100 illik yubileyi münasibətilə bütün əməkdaşlara 1 aylıq əməkhaqqı məbləğində mükafat verilməsi ilə əlaqədar olmuşdur.

ADMİU-nin maliyyə resursları (dövlət büdcəsi, ödənişli təhsil, qrantlar və s.) təsdiqləndirilmiş gəlir və xərclər smetasına və ştat cədvəlinə uyğun olaraq xərclənir.

5.3.2. Maliyyə resurslarının qısa və orta müddətli dövr üçün planlaşdırma səviyyəsi

Maliyyə göstəricilərinin proqnoz və plan hesablamaları müxtəlif metodlardan istifadə etməklə həyata keçirilir. Maliyyə resurslarının formalaşması mənbələri ilə birlikdə onların istifadəsi istiqamətlərini uyğunlaşdırmaq, maliyyə planının bütün bölmələrini öz aralarında əlaqələndirmək üçün balans metodu tətbiq edilir. ADMİU büdcə smetası hər illər üçün tərtib olunur və təsdiqə yönəldirilir: 2023 il üçün universitetin büdcə smetası 13638775.25 manat, 2024 il üçün 12942413.52 manat, 2025 il üçün isə 13764012.14 manat təşkil edib. ADMİU büdcə smetasını hazırlanmadan öncə şöbə və fakultə rəhbərliyindən ayrı-ayrılıqda gələn ilin tələbatlarının hazırlanıb təsərrüfat üzrə administrasiyasına təqdim edilməsi tələb olunur. Ötən ilin xərcləri ilə müqaisə edilərək və gələcək ilin gəlirləri müəyyən olunaraq smeta hazırlanır.

ADMİU idarə edilməsinin müasir sistemi planlaşdırılma, normalaşdırma və nizamlaşdırma nəzəriyyələrinə əsaslanır. Universitetin gəlir və xərclər smetası Azərbaycan Respublikasının Vahid büdcə təsnifatına uyğun olaraq tərtib olunur və büdcə təsnifata uyğun olaraq istifadə edilir.

5.3.3. Maliyyə resurslarının planlaşdırılması, istifadəsi və monitorinqi üzrə fəaliyyətlərin müəssisənin SİP-ə uyğunlaşdırılması vəziyyəti

ADMİU-nun 2021–2025-ci illər üzrə Strateji İnkişaf Planında maliyyə resurslarının səmərəli idarə olunması, Universitetin iqtisadi dayanıqlığının gücləndirilməsi və maddi-texniki bazasının inkişafı ilə bağlı hədəflər müəyyən edilmişdir. Planın beşinci strateji istiqaməti iqtisadi cəhətdən dayanıqlı maliyyələşmə modelinin qurulmasını nəzərdə tutur. Bu çərçivədə maliyyə resurslarının planlaşdırılması və istifadəsinin Universitetin inkişaf prioritetləri ilə əlaqələndirilməsi əsas istiqamətlərdən biri kimi çıxış edir.

ADMİU-nun SİP-ində maliyyə resurslarının planlaşdırılması və istifadəsi ilə əlaqəli əsas vəzifələr aşağıdakı istiqamətləri əhatə edir:

- Universitetdə hazırlığı aparılan ixtisaslar üzrə təhsilin cəlbediciliyini artırmağa yönəlmiş fəaliyyətlərin planlaşdırılması;

- Universitetin profilinə uyğun təsərrüfat hesablı müəssisələrin yaradılması və onların fəaliyyətindən əldə olunan vəsaitin Universitetin inkişafına yönəldilməsi;

- Maddi-texniki bazanın möhkəmləndirilməsi üçün zəruri maliyyə imkanlarının nəzərə alınması;

- Milli və beynəlxalq elm, təhsil və mədəniyyət fondlarının qrant layihələrində iştirakın genişləndirilməsi;

- İxtisasartırma, məsləhət-konsaltinq və teatr-konsert xidmətləri üzrə ödənişli xidmət imkanlarının yaradılması;

- İşəgötürənlərin müvafiq ixtisaslar üzrə kadr hazırlığının maliyyələşdirilməsinə cəlb olunması.

Qeyd olunan hədəflər Universitetin maliyyə dayanıqlığının gücləndirilməsinə, əlavə maliyyə mənbələrinin formalaşdırılmasına və resursların strateji inkişaf prioritetlərinə uyğun yönəldilməsinə xidmət edir.

5.3.4. Əlavə maliyyə resurslarının əldə etmək imkanlarının vəziyyəti

ADMİU-da əlavə maliyyə resurslarının əldə etmək imkanları məhdud vəziyyətdədir. Burada sair gəlirləri geyd etmək olar (plaqiat proqramından istifadəyə görə, qrantlar və s.). ADMİU-da “digər” (sair) mənbələrdən daxilolmaların nisbətdə çox aşağı səviyyədə olduğunu qeyd etmək olar. Belə ki, 2023-cü il üçün digər daxilolmaların məbləği 157120.44 manat təşkil edib, 2024-ci il üçün isə azalaraq 93701.40 olmuşdur.

5.3.5. Əldə olunan maliyyə resurslarının şəffaflıq səviyyəsi

ADMİU-da şəffaflıq və hesabatlılıqla bağlı tələblər müxtəlif hüquqi aktlar vasitəsilə tənzimlənir. Məsələn, dövlət büdcəsinin şəffaflığı ilə bağlı hüquqi normalar “Büdcə sistemi haqqında” Qanunla tənzimlənir.

5.3.6. Maliyyə resurslarından istifadənin ATM-in Nizamnaməsinə uyğunluğu

Ali təhsil müəssisələri işçilərin əmək haqqlarının və tələbələrin təqaüdlərini bank köçürmə xidmətini daha əlçatan və rahat edərək, istənilən vaxt, istənilən yerdə bank əməliyyatları həyata keçirməyə imkan verir. Maliyyə resurslarının istifadəsi Nizamnaməyə uyğun olaraq həyata keçirilir.

5.3.7. Maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə büdcə smetasının hazırlanması və təsdiq edilməsi prosedurunun ATM-in Nizamnaməsinə uyğunluğu

ADMİU maliyyə resursaları ödənişli təhsil haqqlarından, dövlət büdcəsindən, qrantlar və sair mənbələrdən formalaşır. Maliyyə fondunun istifadəsi üçün universitetin smetası hazırlanaraq təsdiqə yönəldirilir.

5.3.8. Maliyyə resurslarından təyinatı üzrə istidafəsinə cari nəzarətin həyata keçirilməsi səviyyəsi

Maliyyə resurslarının istifadəsi büdcə təsnifatına uyğyn olaraq xərclənir. Xərclərin düzgünlüyü cari nəzarətin keçirilməsi ilə tənzimlənir. Hər hansı nöqsanlar dərhal aradan qaldırılır.

5.3.9. Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə satınalma prosedurlarının qanunvericiliyin tələblərinə uyğun təşkili vəziyyəti

ADMİU-da Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə satınalma prosedurları qanunvericiliyə uyğun olaraq aparılır. Satınalma komissiyası yaradılır, satınalma metodu müəyyənləşir, şətlər toplusu, qalib tərəfin müqaviləsi və sair prosedurlar Dövlət satınalmaları haqqında Azərbaycan Respublikasının qanunvericiliyinin tam tələblərinə uyğun olaraq həyata keçirilir.

5.3.10. Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə maliyyə və mühasibat əməliyyatlarının qanunvericiliyin tələblərinə uyğun təşkili vəziyyəti

ADMİU-da Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə maliyyə və mühasibatlıq əməliyyatlarının aparılması “Mühasibat uçotu haqqında” qanuna uyğun olaraq həyata keçirilir. Mühasibat uçotunun “Hesablar Planı” üzrə tənzimlənir. Gəlirlər, xərclər və aktivlərin balans dəyərləri baş kitabda öz əksini tapır. İlkin uçot sənədləri işlənilərək elektron və kağız şəklində mühasibatlıqda saxlanılır.

5.3.11. Maliyyə və mühasibat hesabatlarının qanunvericiliyin tələblərinə uyğun tərtib olunması və aidiyyəti orqanlara (vergi, statistika, Nazirlik və s.) təqdim olunması vəziyyəti

ADMİU-nun Maliyyə hesabatları vaxtı-vaxtında aidiyyatı üzrə təqdim olunur. Maliyyə hesabatları hər rüb üzrə və illik olmaqla Elm və Təhsil Nazirliyinə təqdim olunur. Hesabatlar beynəlxalq standartların əsasında tərtib olunur. Maliyyə hesabatlarının tam toplusu aşağıdakı komponentlərdən ibarətdir:

- Maliyyə vəziyyəti haqqında hesabat
- Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat
- Kapitalda dəyişikliklər haqqında hesabat
- Pul vəsaitlərinin hərəkəti haqqında hesabat
- Əhəmiyyətli uçot siyasətləri və izahedici qeydlər.

ADMİU-nun statistika və vergi hesabatları ay, rüb və illik müddətinə görə tərtib olunur və onlayn rejimində təqdim edilir.

5.3.12. Maliyyə və mühasibat hesabatlarının qanunvericiliyin tələblərinə uyğun dərc olunması vəziyyəti

ADMİU-nun Maliyyə hesabatlarını və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını auditor rəyi ilə birlikdə dərc edilməsi mümkündür.

5.3.13. Maliyyə resurslarından əldə olunması və istifadəsi üzrə daxili audit bölməsinin nəzarət tədbirlərinin mövcudluğu

ADMİU-da Audit uçotun dəqiq və dürüst aparılmasının, mühasibat və maliyyə hesabatlarının müstəqil yoxlanılmasıdır. Audit yoxlamasını AR Auditorlar Palatasının verdiyi lisenziya əsasında sərbəst auditorlar və ya auditor təşkilatları apara bilər. Audit yoxlamasının sonunda yoxlamanı aparan auditor audit rəyi verir.

5.3.14. Maliyyə resurslarından əldə olunması və istifadəsi üzrə kənar auditin, nəzarət tədbirlərinin mövcudluğu

Universitetdə məcburi audit keçirilmirsə, auditi könüllü (kənar audit) keçirə bilər. Universitet özünü vergi yoxlamasında yarana bilən risklərdən sığortalamaq üçün könüllü audit keçirə birlər. Çünki auditorlar yoxlama zamanı müəssisənin mühasibat və vergi uçotunda etdiyi səhvləri tapıb onları düzəltməyə köməklik göstərirlər. Bundan başqa, auditin keçirilməsi ilə universitetin rəhbərlərinin və baş mühasibin gördüyü işlər qiymətləndirilir. Audit universitetin rəhbərinin tələbi ilə də keçirilə bilər, misal üçün, baş mühasibin dəyişməsi zamanı. Kənar audit zamanı universitet özü qərar verir ki, auditorlar nəyi və necə yoxlayacaqlar. Sifarişçinin qərarına görə audit yoxlaması kompleks şəkildə (bütün maliyyə hesabatlarının auditi), qismən (ayrı-ayrı uçot sahələri üzrə, ayrı vergi növü üzrə və s.) keçirilə bilər.

5.3.15. Maliyyə resurslarının əldə olunması mənbələrinin və istifadəsi istiqamətlərinin təkmilləşdirilməsi üzrə fəaliyyətin olması vəziyyəti

ADMİU-da Maliyyə təkmilləşməsi, maliyyə dayanıqlılığını və iqtisadi inkişafı təşviq edən əsas amillərdən biridir. “Maliyyə təkmilləməsi” termini, maliyyə sistemlərinin, idarəetmə üsullarının və ya maliyyə məhsullarının daha effektiv, səmərəli və rəqabətədavamlı hala gətirilməsi prosesini ifadə edir. Bu, yeni texnologiyaların tətbiqi, hüquqi bazanın təkmilləşdirilməsi, maliyyə institutlarının fəaliyyətinin optimallaşdırılması və bazarın ehtiyaclarına uyğunlaşdırılmasını əhatə edə bilər.

5.4. İnformasiya idarəetmə sistemi

ADMİU-nun İnformasiya və Kommunikasiya Texnologiyaları (İKT) şöbəsi, universitetin rəqəmsal infrastrukturunun inkişafı və idarə olunmasını təmin edir. Şöbə, internet texnologiyalarının tətbiqi, informasiya sistemləri və məlumat bazalarının yaradılması, şəbəkə və sistem inzibatçılığı, informasiya təhlükəsizliyi, eləcə də kompüterlərin texniki və proqram təminatının idarə olunması istiqamətində fəaliyyət göstərir. Bundan əlavə, İKT şöbəsi universitetin rəqəmsal ekosisteminin daim yenilənməsi və müasir texnologiyalara uyğunlaşdırılması üçün müvafiq texniki dəstəyi həyata keçirir.

5.4.1. ATM-də informasiya idarəetmə sisteminin, onun hüquqi əsaslarının və reqlamentinin mövcudluğu

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində (ADMIU) müxtəlif məqsədlər üçün bir neçə idarəetmə sistemi mövcuddur. Belə ki, Electron University (EU) platforması tədrisin idarə olunması, Microsoft Teams platforması dərslərin onlayn keçirilməsi və universitetin daxili imtahan sistemi isə imtahanların təşkili üçün istifadə

edilir. Bu sistemlər tədrisin səmərəli şəkildə idarə olunmasını və rəqəmsal təhsil mühitinin inkişafını təmin edir.

5.4.2. İnformasiya idarəetmə sistemində idarəetmə funksiyalarının əhatəliyi və funksionallığı, məlumatların yenilənməsi vəziyyəti

ADMİU-nun informasiya idarəetmə sistemləri müvafiq struktur bölmələr tərəfindən idarə olunur:

SERP – Maliyyə və təminat Departamenti;

ƏMAS – İnsan resursları şöbəsi;

IRBIS – Elmi Kitabxana.

İnformasiya idarəetmə sistemlərinin əməkdaşlar və tələbələr üçün əlçatanlığını təmin etmək məqsədilə onların sistemlərə girişi təşkil olunmuş, hər biri korporativ e-mail ünvanları (ad.soyad@admiu.edu.az) ilə təmin edilmişdir.

Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən yaradılmış Əmək Münasibətləri və İnsan Resurslarının İdarə Edilməsi Sistemi (ƏMAS) ADMİU-da insan resurslarının idarə edilməsi prosesini avtomatlaşdırmaq, vahid hesabatlılıq sistemini qurmaq və əməkdaşların şəxsi məlumatlarının təhlükəsizliyini təmin etmək məqsədini daşıyır.

5.4.3. İnformasiya idarəetmə sistemində idarəetmə orqanları üzrə səlahiyyət bölgüsünün mövcudluğu

ADMİU-da tədris və idarəetmə proseslərinin elektron mühitdə təşkili məqsədilə EDUMAN sistemindən istifadə olunur. Sistem çərçivəsində tədris prosesinin idarə olunması, müvafiq məlumatların elektron formada işlənməsi və aidiyyəti üzrə təqdim edilməsi imkanları idarəetmə prosesinin əlaqələndirilməsinə xidmət edir. İdarəetmə orqanları, struktur bölmələri və məsul şəxslər arasında səlahiyyət bölgüsünün EDUMAN sistemində düzgün əks etdirilməsi istifadəçilərin vəzifələrinə uyğun məlumatlara çıxışının tənzimlənməsi, məlumatların məxfiliyinin qorunması və əməliyyatlar üzrə məsuliyyətin müəyyənləşdirilməsi baxımından əhəmiyyətlidir. Bu istiqamətdə sistemdə istifadəçi hüquqlarının və giriş səviyyələrinin müvafiq səlahiyyətlərə uyğun müəyyənləşdirilməsi, habelə məlumatların təhlükəsizliyinə nəzarətin təmin edilməsi vacibdir.

5.4.4. Təlim və tədris prosesində bütün tədris fəaliyyətlərinin rəqəmsallaşdırılması vəziyyəti

ADMİU-da təlim və tədris prosesində rəqəmsal texnologiyalardan istifadə tədrisin təşkili, tədris materiallarının mübadiləsi və akademik kommunikasiyanın həyata keçirilməsi baxımından əhəmiyyət kəsb edir. Elektron resurslardan və onlayn platformalardan istifadə tədris prosesinin ayrı-ayrı mərhələlərinin rəqəmsal mühitdə həyata keçirilməsinə imkan yaradır. Bununla yanaşı, tədris materiallarının hazırlanması və paylaşılması, tələbələrin akademik göstəricilərinin izlənilməsi, davamiyyət və qiymətləndirmə məlumatlarının elektron idarə olunması kimi fəaliyyətlərin vahid rəqəmsal mühitdə əlaqələndirilməsi tədris prosesinin səmərəliliyinin artırılması baxımından

vacibdir. Bütün tədris fəaliyyətlərinin rəqəmsallaşdırılması vəziyyətinin qiymətləndirilməsi üçün mövcud elektron sistemlərin əhatə dairəsinin, funksional imkanlarının və onların tədris prosesinə inteqrasiya səviyyəsinin nəzərə alınması zəruridir.

5.4.5. İnformasiya idarəetmə sisteminə əlçatanlıq səviyyəsi və tələbələrin informasiya idarəetmə sistemindən istifadə səviyyəsi

ADMİU-da tədris prosesinin elektron idarə olunmasında istifadə edilən EDUMAN sistemi tələbələrin tədrislə bağlı məlumatlara çıxışının təmin edilməsi baxımından əhəmiyyət kəsb edir. Sistem vasitəsilə tələbələrin tədris prosesinə dair məlumatlarla tanış olması, akademik göstəricilərini izləməsi və müvafiq elektron xidmətlərdən istifadə etməsi üçün imkanlar yaradılır. Tələbələrin sistemə əlçatanlığı və ondan istifadə səviyyəsi onların şəxsi kabinetlərindən istifadə imkanları, məlumatların vaxtında əldə olunması və sistemin funksional imkanlarından yararlanma dərəcəsi ilə əlaqəlidir. Bu baxımdan, EDUMAN sisteminin tələbələr üçün əlçatanlığının təmin edilməsi, istifadə zamanı yaranan çətinliklərin aradan qaldırılması və rəqəmsal xidmətlərdən istifadənin təşviq olunması tədris prosesinin səmərəli təşkili baxımından vacibdir.

5.4.6. İnformasiya idarəetmə sisteminin keyfiyyətin idarə olunmasına töhfəsi

ADMİU-nun informasiya idarəetmə sistemlərinə əlçatanlıq səviyyəsi və tələbələrin bu sistemlərdən istifadə səviyyəsi ümumilikdə qənaətbəxş hesab edilə bilər. Universitetin İnformasiya və Kommunikasiya Texnologiyaları (İKT) Şöbəsi mövcud informasiya texnologiyalarının idarə edilməsi, universitetin korporativ e-mail sisteminin tənzimlənməsi və texniki dəstək xidmətinin göstərilməsi üzrə fəaliyyət göstərir.

İKT Şöbəsi, həmçinin universitetin daxili şəbəkəsini və internetə çıxışını idarə edir, sistemlərin işləkliyini təmin etmək üçün texniki işləri həyata keçirir. Lakin müşahidələr göstərir ki, mövcud informasiya sistemlərinin effektivliyini artırmaq məqsədilə mütəmadi monitorinq və təhlillərin aparılmasına ehtiyac var.

Bundan əlavə, korporativ e-mail sisteminin tam şəkildə tətbiq olunmasına baxmayaraq, əməkdaşların və tələbələrin bu sistemdən istifadəsi yetərli səviyyədə deyil. Korporativ e-maillərin istifadəsinin təşviq edilməsi və bu istiqamətdə maarifləndirici tədbirlərin keçirilməsi zəruridir.

Eyni zamanda, İKT Şöbəsi tərəfindən universitet əməkdaşlarının və tələbələrinin informasiya idarəetmə sistemlərindən daha səmərəli istifadə etməsi üçün mütəmadi texniki dəstək göstərilir.

5.4.7. İnformasiya idarəetmə sisteminin digər aidiyyəti qurumların (Təhsil Nazirliyinin Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi) informasiya sistemləri ilə inteqrasiya səviyyəsi

ADMİU-da informasiya idarəetmə sistemlərinin təkmilləşdirilməsi və müvafiq dövlət qurumlarının informasiya sistemlərinə inteqrasiyası istiqamətində işlər davam etdirilir.

Universitetdə tələbələrə və məzunlara aid məlumatların vahid elektron bazada toplanması və aidiyyəti qurumlarla paylaşılması üçün müvafiq tədbirlər həyata keçirilir.

Bu çərçivədə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin Mərkəzləşdirilmiş İnformasiya Sistemi ilə inteqrasiyanı təmin etmək məqsədilə mütəmadi məlumat mübadiləsi aparılır.

Zəruri informasiyalar Ali və Orta İxtisas Təhsili Alt Sistemi (ATIS), Tələbə-Məzun Dövlət Elektron Məlumat Sistemi (TMMS) və Diplom Təsdiq Sisteminə (DTS) daxil edilir. Bu inteqrasiya universitetdə məlumatların vahid idarəetməsini asanlaşdırır və tələbə qeydiyyatı, akademik göstəricilər və məzunların diplom təsdiqi kimi proseslərin daha səmərəli aparılmasına şərait yaradır.

Gələcəkdə informasiya sistemlərinin daha geniş şəkildə inteqrasiyasını təmin etmək üçün texniki infrastrukturun gücləndirilməsi və sistemlərin avtomatlaşdırılması istiqamətində əlavə tədbirlərin görülməsi nəzərdə tutulur.

5.4.8. İnformasiya idarəetmə sisteminin təhlükəsizliyi, məxfiliyi və etibarlılığının təmin edilməsi vəziyyəti

ADMİU-da tədris prosesinin elektron idarə olunmasında istifadə edilən EDUMAN sistemində məlumatların təhlükəsizliyinin, məxfiliyinin və etibarlılığının qorunması istiqamətində müvafiq tədbirlər həyata keçirilir. Bu proses Universitetin İnformasiya-kommunikasiya texnologiyaları və texniki xidmət şöbəsi tərəfindən təmin olunur. Tələbələrə və əməkdaşlara aid məlumatların qorunması, istifadəçilərin səlahiyyətlərinə uyğun məlumatlara çıxışının tənzimlənməsi, habelə məlumatların icazəsiz istifadəsinin qarşısının alınması əsas diqqət yetirilən məsələlərdəndir. Eyni zamanda, sistemdəki məlumatların düzgünlüyünün və bütövlüyünün qorunması, texniki nasazlıqların aradan qaldırılması və sistemin fasiləsiz fəaliyyətinin təmin edilməsi informasiya idarəetməsinin etibarlılığı baxımından əhəmiyyət daşıyır.

5.5. İctimaiyyətlə əlaqələr

5.5.1. ATM-in rəsmi saytının mövcudluğu vəziyyəti

ADMİU-nun İctimaiyyətlə əlaqələr və marketinq şöbəsinin nəzarəti altında yaradılan rəsmi veb-saytının ən yeni versiyası (https://admiu.edu.az/) artıq bir ildir ki, istifadəçilərin ixtiyarına verilib və uğurla fəaliyyət göstərir. Saytın əsas məqsədi universitetin akademik və inzibati fəaliyyətləri, təhsil proqramları, elmi və yaradıcılıq layihələri, həmçinin tələbələr və əməkdaşlar üçün faydalı xidmətlər haqqında dolğun və etibarlı məlumat təqdim etməkdir.

Veb-saytda universitetin fəaliyyət sahələrinə aid müxtəlif xidmət və proqramlar haqqında geniş məlumat yerləşdirilmişdir. Buraya qəbul qaydaları, tədris planları, tələbə həyatı, elmi konfranslar, sərgilər, yaradıcılıq müsabiqələri və digər vacib mövzular daxildir.

Bundan əlavə, saytın tərkibində müasir tələblərə uyğun şəkildə qurulmuş E-Commerce (E-Ticarət) bölməsi də fəaliyyət göstərir. Bu bölmənin yaradılmasında əsas məqsəd ADMİU-nun brend kimliyini gücləndirmək, universitetlə bağlı müxtəlif xatirə və suvenir məhsullarının satışını təşkil etməkdir. E-Ticarət platforması vasitəsilə istifadəçilər

ADMİU-nun loqosu və dizayn üslubuna uyğun hazırlanmış rəsmlər, broşurlar, bloknotlar, dəftərlər, qələmlər və digər kargüzarlıq ləvazimatlarını rahat şəkildə əldə edə bilərlər.

5.5.2. ATM-in rəsmi saytında məlumatların dəqiq, aktual və mütəmadi yenilənməsi vəziyyəti

ADMİU-nun rəsmi veb-saytının istifadəyə verilməsi ilə universitetin rəqəmsal ekosistemi daha da təkmilləşdirilmiş, tələbələr, müəllimlər və digər istifadəçilər üçün məlumat əldə etmə və xidmətlərdən yararlanma prosesi daha əlçatan və funksional olmuşdur. Bununla yanaşı, rəsmi məlumatların aktuallığının təmin edilməsi və dəqiq, ətraflı şəkildə rəsmi veb-saytda əks etdirilməsi daimi nəzarət altında saxlanılır. Bu məqsədlə yayımlanacaq məlumatlar mütəmadi olaraq yoxlanılır və dəqiqləşdirilir.

Yeni daxil olan məlumatlar ilkin olaraq müvafiq mətbuat qurumları və mütəxəssislər tərəfindən təhlil edilir. Bu proses çərçivəsində məlumatın doğruluğu, rəsmi üsluba uyğunluğu, yazı qaydalarına riayət olunması və digər vacib meyarlar nəzərdən keçirilir. Yalnız müvafiq yoxlama mərhələlərindən uğurla keçən məlumatların rəsmi veb-saytda yerləşdirilməsi barədə qərar qəbul edilir. Daha sonra məzmunun informativ dəyəri və faydalılığı nəzərə alınaraq, seçilmiş məlumatlar rəsmi veb-saytda yayımlanır.

5.5.3. ATM-in ictimaiyyəti məlumatlandırması məqsədi ilə digər əlaqə üsullarından stifadə vəziyyəti

ADMİU-nun İctimaiyyətlə əlaqələr və marketinq şöbəsi universitetin fəaliyyətinin geniş ictimaiyyətə çatdırılması üçün müasir media resurslarından istifadə edir. Universitetin rəsmi internet resursları və sosial media platformaları vasitəsilə tədris, elm, mədəniyyət və ictimai həyatla bağlı məlumatlar operativ şəkildə yayımlanır.

ADMİU-nun aşağıda sosial şəbəkə ünvanları qeyd olunmuşdur.

Telegram (https://t.me/admiu_resmi),
Facebook (https://www.facebook.com/admiuresmi/),
Instagram (https://www.instagram.com/admiuresmi/),
YouTube (https://www.youtube.com/@admiutv3223),
LinkedIn (https://www.linkedin.com/school/admiu/)

Universitetin sosial media platformalarında gündəlik fəaliyyəti, tədbirləri və layihələri haqqında məlumatlar mütəmadi olaraq yenilənir. ADMİU Media komandası video və foto məzmunun hazırlanmasını həyata keçirir. Universitetin rəsmi YouTube kanalı vasitəsilə tədbirlər, müsahibələr, dərs nümunələri və tələbələrin yaradıcılıq işləri yayımlanır. Bu platformanın daha səmərəli idarə olunması və auditoriya ilə daha aktiv qarşılıqlı əlaqənin qurulması məqsədilə müxtəlif media strategiyaları həyata keçirilir.

Bundan əlavə, ADMİU, media qurumları ilə yaxından əməkdaşlıq edir. Universitetin fəaliyyəti və yenilikləri mütəmadi olaraq Azərtac, Tehsil.biz, Azedu.az, Moderator.az və digər aparıcı KİV-lərdə işıqlandırılır. ADMİU həmçinin müxtəlif layihələrin geniş auditoriyaya çatdırılması üçün yerli və beynəlxalq media platformaları ilə əlaqələrini inkişaf etdirir.

5.5.4. ATM-in ictimaiyyətin məlumatlandırılması ilə bağlı fəaliyyət planının olması vəziyyəti

ADMİU-nun Elmi Şurasının 2024-cü ilin fevral tarixi qərarı ilə universitet həyatının və fəaliyyətinin tanıdılması məqsədi ilə İctimaiyyətlə əlaqələr və marketinq şöbəsi yaradılmışdır. Şöbənin yaradılmasına qədər hazırda daxilində çalışan əməkdaşlar universitetin konfransları, tədbirləri, konsertləri və tələbələrin uğurlarının təqdir olunması məqsədi ilə sertifikatlaşdırma prosesi, foto-video çəkilişləri, mətbuatla əlaqə və s. kimi işlərin həyata yetirilməsində fəaliyyət göstəriblər. ADMİU-nun İctimaiyyətlə əlaqələr və marketinq şöbəsinin ADMİU-nun İctimaiyyətlə əlaqələr və marketinq şöbəsinin 2024/2025-cü tədris ili üçün İş planı və Əsasnaməsi Elmi Şuranın 15 fevral 2024-cü il tarixli iclasının (protokolu №06) ilə təsdiqlənib.

5.5.5. ATM-in məlumatlandırma fəaliyyətinin maraqlı tərəflərə onun fəaliyyətini qiymətləndirmək imkanı verməsi vəziyyəti

ADMİU-nun media və kommunikasiya sahəsində daim innovativ yanaşmaları tətbiq edərək, ictimaiyyətlə əlaqələr sahəsində müasir və effektiv strategiyalar həyata keçirməyə davam edir. Universitetin öz fəaliyyətini maraqlı tərəflərin qiymətləndirməsi məqsədilə mütəmadi şəkildə sosial media platformalarında sorğular təşkil edilir, həmçinin tələbələr və tədbirin təşkili ilə bağlı iştirakçıların rəyi öyrənilir.

5.5.6. ATM-in məlumatlandırma fəaliyyətinin monitorinqinin aparılması və təkmilləşdirilməsi vəziyyəti

ADMİU-da kommunikasiya strategiyasının hazırlanması məqsədi ilə bir sıra tədbirlər nəzərdə tutulur. Bu mənada gələcək inkişaf planları çərçivəsində platformanın funksionallığının artırılması, istifadəçi təcrübəsinin təkmilləşdirilməsi və yeni interaktiv imkanların əlavə edilməsi prioritet məsələlərdəndir. Bu istiqamətdə müasir texnologiyalardan istifadə olunmaqla veb-saytın daha da təkmilləşdirilməsi və effektiv informasiya mübadiləsinin təmin edilməsi əsas hədəflərdən biridir.

Universitetin informasiya bazasının daha da gücləndirilməsi üçün gələcəkdə bir sıra təkmilləşdirmələrin aparılması nəzərdə tutulur. Sosial media platformalarında yayımlanan materialların davamlı yenilənməsi və tələbə-media könüllülərinin fəaliyyətinin stimullaşdırılması üçün əlavə təşviq mexanizmlərinin tətbiqi planlaşdırılır. ADMİU-nun rəqəmsal identifikasiyasının gücləndirilməsi məqsədilə Wikipedia və digər açıq ensiklopediya platformalarında universitet haqqında məlumatların genişləndirilməsi tövsiyə olunur.

VI. İnfrastruktur

6.1. Tədris infrastrukturu

6.1.1. Tədris binalarının və tədris otaqlarının dövlət standartlarına uyğunluğu vəziyyəti

ADMİU-da tədris infrastrukturu dövlət təhsil standartlarına uyğun təhsil prosesinin təşkili üçün zəruri olan maddi-texniki resursları, binaları, tədris otaqlarını və digər müvafiq

sahələri əhatə edir. Təhsil infrastrukturunun mövcud vəziyyətinin təhlili və qiymətləndirilməsi tədris prosesinin keyfiyyətinin təmin olunması, infrastruktur imkanlarının müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

ADMİU-nun balansında Bakı şəhəri, Yasamal rayonu, İnşaatçılar prospekti 39 və Həsən bəy Zərdabi küçəsi 39A ünvanlarında yerləşən iki tədris binası mövcuddur. İnşaatçılar prospekti 39 ünvanındakı əsas tədris binası A və B tədris korpuslarından, gözətçi və qazanxana binalarından, açıq pilləkən sahəsindən, giriş-çıxışa nəzarət edən turniket qurğusundan, daş hasardan və iki metal darvazadan ibarətdir. Binaya Azərbaycan Respublikası Əmlak Məsələləri Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 1 saylı ərazi idarəsi tərəfindən 08.02.2021-ci il tarixində verilmiş texniki pasport mövcuddur. Həsən bəy Zərdabi küçəsi 39A ünvanında yerləşən ikinci tədris binası isə tədris korpusu və qazanxanadan ibarətdir. Həmin binanın da eyni idarə tərəfindən 29.11.2019-cu il tarixində verilmiş texniki pasportu vardır.

ADMİU-nun tədris binalarının qorunub saxlanılması və istismara yararlı vəziyyətdə olması məqsədilə əsas korpusda, foyelərdə, otaqlarda, sanuzel və sanitar qovşaqlarında zəruri cari təmir işləri aparılır. Hər iki tədris korpusu istismara yararlı vəziyyətdədir. Binaların texniki göstəricilərinə dair məlumatlar hesabata əlavə olunur.

Universitetin tədris prosesinin təşkil edildiyi iki binanın ümumi sahəsi 10 184,8 kv.m, faydalı sahəsi isə 6 969,1 kv.m təşkil edir. Hər iki bina dövlət mülkiyyətindədir və texniki pasportlarla təmin olunmuşdur. Tədris binalarında ümumilikdə 97 auditoriya və tədris otağı mövcuddur. Bu otaqların ümumi və faydalı sahəsi 3 753,4 kv.m, universitetdə təhsil alan tələbələrin ümumi sayı isə 2 620 nəfərdir. Bundan əlavə, binada faydalı sahəsi 95 kv.m olan bir akt zalı yerləşir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 25 noyabr 2010-cu il tarixli, 208 nömrəli qərarına müvafiq olaraq universitetdə iaşə və tibbi xidmət təşkil edilmişdir. Hər iki tədris korpusunda tələbələrə və professor-müəllim heyətinə xidmət göstərən, ümumi faydalı sahəsi 240,3 kv.m olan yeməkxanalar, həmçinin sahəsi 12 kv.m olan tibbi xidmət otağı mövcuddur.

İnzibati heyətin fəaliyyətini təmin etmək üçün ümumi sahəsi 603,0 kv.m olan 22 otaqdan ibarət zəruri otaq fondu yaradılmışdır. Akademik heyətin istifadəsi üçün isə ümumi sahəsi 431,7 kv.m olan 21 otaq ayrılmışdır. İstehsalat təcrübəsinin təşkili məqsədilə universitetdə faydalı sahəsi 411,2 kv.m olan beş səhnə otağı fəaliyyət göstərir. Eyni zamanda, elmi-tədqiqatların aparılmasına imkan verən avadanlıqlarla təchiz edilmiş, ümumi sahəsi 80,0 kv.m olan fotostudiya və çəkiliş pavilyonu tələbələrin, professor-müəllim heyətinin istifadəsinə verilmişdir.

6.1.2. Kitabxananın mövcudluğu vəziyyəti

ADMİU-nun Kitabxananın fəaliyyəti Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 29 dekabr 1998-ci il tarixli Sərəncamı ilə təsdiq olunmuş “Kitabxana işi haqqında” Qanuna, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 5 iyul 2016-cı il tarixli Qərarı ilə təsdiq edilmiş “Ali təhsil müəssisəsinin kitabxanasının Nümunəvi Əsasnaməsi”nə (https://e-qanun.az/framework/33259) və kitabxanaların fəaliyyətinin

yaxşılaşdırılması, maddi-texniki bazasının möhkəmləndirilməsi, müasir informasiya texnologiyaları ilə təchiz edilməsi ilə bağlı tədbirlərə əsaslanır. Bu tədbirlər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 20 aprel 2007-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında" (https://e-qanun.az/framework/13033) sənəddə və "Azərbaycan kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı Dövlət Proqramı"ndan irəli gələn tələblərə uyğun şəkildə həyata keçirilir.

6.1.3. Kadr hazırlığı aparılan ixtisasların spesifik xüsusiyyətlərinə uyğun təlim və tədris bazasının mövcudluğu vəziyyəti

ADMİU-da kadr hazırlığı aparılan ixtisasların spesifik xüsusiyyətlərinə uyğun təlim və tədris bazası mövcuddur. Bu baza rəssamlıq, teatr sənəti, kino və televiziya, musiqi sənəti və digər yaradıcılıq istiqamətləri üzrə tədrisin təşkili üçün nəzərdə tutulmuş auditoriyaları, ixtisaslaşdırılmış otaqları, səhnə məkanlarını və müvafiq texniki avadanlıqları əhatə edir. Rəssamlıq ixtisasları üzrə tədris prosesində rəsm və yaradıcılıq işlərinin yerinə yetirilməsi üçün xüsusi otaqlardan, emalatxanalardan və zəruri rekvizitlərdən istifadə olunur. Teatr sənəti üzrə kadr hazırlığı zamanı tələbələrin səhnə təcrübəsinin formalaşdırılması, aktyorluq və səhnə fəaliyyəti bacarıqlarının inkişaf etdirilməsi üçün səhnə otaqları və müvafiq tədris məkanları fəaliyyət göstərir. Universitetin ayrıca tədris teatrı olan Səda Tədris Teatrı tələbələrin praktiki hazırlığının təmin olunmasında, səhnə təcrübəsi qazanmasında və yaradıcılıq potensialının inkişafında mühüm rol oynayır. Mövcud təlim və tədris bazası ixtisasların nəzəri və praktiki komponentlərinin əlaqələndirilməsinə, tələbələrin seçdikləri sahələr üzrə peşə bacarıqlarına yiyələnməsinə və gələcək peşə fəaliyyətinə hazırlanmasına xidmət edir.

6.1.4. Tədris laboratoriyalarının mövcudluğu vəziyyəti

ADMİU-da kadr hazırlığı aparılan ixtisasların xüsusiyyətlərinə uyğun təcrübə otaqları, ixtisaslaşdırılmış auditoriyalar və praktiki məşğələlərin keçirildiyi tədris məkanları mövcuddur. Tədrisin keyfiyyətli təşkili və tələbələrin praktiki bacarıqlarının inkişaf etdirilməsi məqsədilə rəssamlıq emalatxanalarından, müvafiq əyani vəsaitlərdən, texniki avadanlıqlardan və yaradıcılıq işlərinin həyata keçirilməsi üçün nəzərdə tutulmuş digər resurslardan istifadə olunur. Teatr sənəti, kino və televiziya, rəssamlıq və digər yaradıcılıq istiqamətləri üzrə tədris prosesində ixtisasların tələblərinə uyğun maddi-texniki imkanlardan yararlanılır.

6.1.5. İstehsalat-təcrübə bazasının mövcudluğu vəziyyəti

ADMİU-da tələbələrin ixtisaslarına uyğun nəzəri biliklərinin praktikada tətbiqi və peşə bacarıqlarının inkişaf etdirilməsi məqsədilə istehsalat və yaradıcılıq təcrübələri təşkil olunur. Təcrübələr tələbələrin ixtisas istiqamətlərinə uyğun olaraq teatrlarda, muzey və qalereyalarda, kino və televiziya sahəsində, turizm müəssisələrində fəaliyyət göstərən, eləcə də digər müvafiq müəssisələrdə həyata keçirilir. Teatr sənəti üzrə təhsil alan tələbələrin praktiki hazırlığında universitetin Səda Tədris Teatrının imkanlarından istifadə

olunur. Təcrübələr tələbələrin peşə mühiti ilə tanış olmasına, nəzəri biliklərini praktikada tətbiq etməsinə, ixtisasları üzrə praktiki vərdişlər qazanmasına və gələcək əmək fəaliyyətinə hazırlanmasına şərait yaradır.

6.1.6. ADMIU-da distant təhsil infrastrukturunun mövcudluğu vəziyyəti

Hesabat dövründə ADMİU-da distant təhsilin təşkili və rəqəmsal təhsil imkanlarının genişləndirilməsi istiqamətində müvafiq işlər görülmüşdür. Universitet fəaliyyətində müvafiq vaxtlarda tədrisin distant təşkili üçün Microsoft Teams platformasından istifadə olunmuşdur. Xüsusilə pandemiya dövründə dərslərin, iclasların və digər işgüzar kommunikasiyaların məsafədən həyata keçirilməsində bu platforma əsas vasitələrdən biri olmuşdur.

Tədris prosesində elektron kommunikasiyanın təşkili məqsədilə əməkdaşların, professor-müəllim heyətinin və tələbələrin Universitetin korporativ domeninə uyğun (admiu.edu.az) elektron poçt ünvanlarından istifadəsi təmin edilmişdir. Bu proses tədris prosesinin əlaqələndirilməsinə, dərslərin və imtahanların keçirilməsinə şərait yaratmışdır.

Pandemiyadan sonrakı dövrdə də Microsoft Teams platformasından məsləhət onlayn görüşlərin təşkili və digər zəruri hallarda istifadə olunur. Mövcud texnoloji imkanlar distant tədris elementlərinin tətbiqinə və elektron kommunikasiya vasitələrindən istifadəyə şərait yaratsa da, bu infrastrukturun daha da təkmilləşdirilməsi, rəqəmsal təhsil imkanlarının genişləndirilməsi və müasir texnologiyaların tədris prosesinə inteqrasiyası istiqamətində işlərin davam etdirilməsi məqsədəuyğundur.

6.1.7. Nəqliyyat xidmətinin mövcudluğu

ADMİU-nun balans uçotunda 3 ədəd xidməti avtomobil və bir ədəd xidməti yük avtomobili mövcuddur. Xidməti minik avtomobilləri universitetin rəhbərliyinin xidməti istifadəsində və xidməti yük avtomobili isə universitetin Təsərrüfat şöbəsinin sərəncamındadır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 18 iyul tarixli 120 saylı qərarına (https://e-qanun.az/framework/21967) uyğun olaraq Universitetin balans uçotunda olan 4 ədəd avtomobilin yürüş həddi və yanacaq sərfi normaları təsdiq edilmişdir.

6.1.8. Tədris infrastrukturundan istifadənin əlçatanlığı vəziyyəti

ADMİU-da tədris infrastrukturundan professor-müəllim heyətinin, tələbələrin və inzibati heyətin tədris və iş prosesinə uyğun şəkildə istifadəsi üçün müvafiq şərait yaradılmışdır. Auditoriyaların, tədris otaqlarının və digər tədris sahələrinin təyinatına uyğun istifadəsi tədris prosesinin təşkili, akademik və inzibati işlərin həyata keçirilməsi baxımından əhəmiyyət kəsb edir. Tədris infrastrukturunun mövcudluğu və ondan istifadənin əlçatanlığı ilə bağlı vəziyyət 6.1.1. və 6.1.2. bəndlərində ətraflı əks olunmuşdur.

6.1.9. Universitetin hər iki korpusunda sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris infrastrukturunun mövcudluğu

Universitetin əsas korpusunun küçədən əsas giriş hissəsində, əsas korpusun 1-ci mərtəbəsinin kiçik səhnəyə düşən hissəsində və Rəssamlıq korpusunun 1-ci mərtəbəsində sağlamlıq imkanları məhdud olan şəxslər üçün uyğunlaşdırılmış tədris infrastrukturu (panduslar) mövcuddur.

Bundan başqa universitetin H.Zərdabi korpusunda 1-ci mərtəbədə binanın yeməkxana tərəfindən arxa girişində və 1-ci mərtəbəinin sanitar qovşağında sağlamlıq imkanları məhdud şəxslər üçün pandus quraşdırılmışdır.

6.1.10. Yeməkxanaların mövcudluğu vəziyyəti

ADMİU-nun hər iki tədris binasında tələbələrin, professor-müəllim heyətinə xidmət edən cəmi ümumi faydalı sahəsi 240,3 kv.m olan yeməkxanası mövcuddur.

6.1.11. Universitetin yataqxana təminatı barədə

ADMİU-nun balans uçotunda Bakı şəhəri Nərimanov rayonu, Malik Məmmədov 4 (yeni ünvan 12) ünvanda yerləşən 5 mərtəbəli yataqxana binası mövcuddur. Bu binanın ümumi sahəsi 1821 kv.m. tikili, alt sahəsi isə 660,0 kv.m. təşkil edir. Bina Azərbaycan Respublikası Təhsil nazirliyinin 21 fevral 1996-cı il tarixli 21 saylı əmri ilə Universitetinin balansına verilmişdir. Belə ki, qeyd olunan yataqxana binası vaxtilə Təhsil Nazirliyinin nəzdində Bakı şəhər 12 saylı peşə məktəbinin balansında olmuş və müalicəvi profilaktik sanatoriya kimi fəaliyyət göstərmişdir.

1992-ci ildən sonra Qarabağ hadisələri ilə əlaqədar bu bina Azərbaycan Respublikası Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sərəncamına verilmiş və orada komitə tərəfindən respublikanın müxtəlif rayonlarından olan qaçqın və məcburi köçkünlər yerləşdirilmişdir. Yataqxana binası 21 fevral 1996-cı ildə Təhsil Nazirliyi tərəfindən universitetin balansına verildiyi gündən öz təyinatı üzrə yataqxana kimi istifadə edilə bilməmişdir. Belə ki, 2019-cu ilə kimi bu bina Azərbaycan Respublikası Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sərəncamında olmuş, 2019-cu ildə qaçqınlar hökumətin müvafiq qərarı ilə yataqxanadan “Qobu park 2” yaşayış massivinə köçürüldükdən sonra isə yataqxana binasına Bakı şəhəri Nərimanov rayonu, İcra Hakimiyyəti tərəfindən universitetin razılığı olmadan müxtəlif təyinatlı şəxslər qeyri-qanuni yerləşdirilmişdir.

6.1.12. Tibbi xidmətin mövcudluğu vəziyyəti

ADMİU-da ümumi sahəsi 12 kv.m olan tibbi xidmət otağı fəaliyyət göstərir.

6.1.13. ADMIU-da İT xidmətinin mövcudluğu vəziyyəti

ADMİU-da İnformasiya və kommunikasiya texnologiyaları (İKT) şöbəsi tərəfindən İT xidməti göstərilir. Ümumilikdə, universitetin İT xidməti mövcud tədris və inzibati proseslərin rəqəmsal mühitdə idarə olunmasını dəstəkləyən uyğun səviyyədə qiymətləndirilə bilər. İKT şöbəsi universitetin korporativ e-poçt sisteminin idarə olunması, şəbəkə infrastrukturunun təmin edilməsi, serverlərin və məlumat bazalarının idarə edilməsi, texniki dəstək xidmətinin göstərilməsi kimi funksiyaları yerinə yetirir. Bundan

əlavə, universitetdə elektron idarəetmə sistemlərinin tətbiqi və inkişafı istiqamətində də işlər görülür.

ADMİU-nun tədris auditoriyalarının innovativ təlim prosesini tam dəstəkləyə bilməsi üçün müasir texnoloji vasitələrlə təchizat səviyyəsinin artırılmasına ehtiyac vardır. Mövcud infrastrukturun daha da gücləndirilməsi məqsədilə yeni nəsil kompüterlər, multimedia avadanlıqları və yüksək sürətli internet bağlantısının genişləndirilməsi istiqamətində əlavə tədbirlərin görülməsi zəruridir. Auditoriya fondunun onun tələbə sayına nisbətinin artım dinamikası əsas göstəricilərdəndir.

6.1.14. Tədris infrastrukturunun istifadəsinin monitorinqinin aparlması vəziyyəti

ADMİU-da tədris infrastrukturundan istifadəyə nəzarət tədris prosesinin təşkili çərçivəsində həyata keçirilir. Monitorinq zamanı auditoriya və tədris otaqlarının təyinatına uyğun istifadəsi, mövcud maddi-texniki təminatın vəziyyəti, avadanlıqların işləkliyi və tədris ehtiyaclarına uyğunluğu nəzərə alınır. Aşkar olunan ehtiyac və çatışmazlıqların aradan qaldırılması tədris infrastrukturundan istifadənin səmərəliliyinin artırılması baxımından əhəmiyyət daşıyır. Bununla yanaşı, monitorinqin nəticələrinin sistemli şəkildə sənədləşdirilməsi və müvafiq tədbirlərin planlaşdırılmasında nəzərə alınması infrastrukturun vəziyyətinin davamlı qiymətləndirilməsinə imkan verir.

6.2. Elmi-tədqiqat infrastrukturu

6.2.1. Elmi-tədqiqat və innovasiya mərkəzinin mövcudluğu vəziyyəti

ADMİU-da ayrıca elmi-tədqiqat mərkəzi mövcud olmasa da, innovasiya və sahibkarlıq fəaliyyətinin inkişafı məqsədilə İnnovasiya və sahibkarlıq mərkəzi fəaliyyət göstərir. Mərkəzin əsas fəaliyyət istiqamətləri innovativ təşəbbüslərin dəstəklənməsi, sahibkarlıq bacarıqlarının inkişafı və Universitetdə innovasiya mühitinin formalaşdırılmasına yönəlmişdir.

6.2.2. Elmi tədqiqatların aparılmasına imkan verən müasir avadanlıqlarla təchiz olunmuş laboratoriyaların mövcudluğu vəziyyəti

ADMİU-da elmi-tədqiqatların aparılması üçün xüsusi müasir avadanlıqlarla təchiz olunmuş laboratoriyalar mövcud deyil. Bununla yanaşı, Universitetin kitabxanasında informasiya axtarışı, elektron resurslardan istifadə və müvafiq tədqiqat işlərinin aparılması üçün güclü kompüterlər mövcuddur.

VII. Beynəlmiləlləşmə

7.1. Beynəlmiləlləşmə siyasəti

7.1.1. ATM-in beynəlmiləlləşmə siyasətinin mövcudluğu və beynəlmiləlləşmə siyasətinin SİP-ə uyğunluğunun vəziyyəti

ADMİU-nun “Beynəlmiləlləşmə Siyasəti” ali təhsil müəssisəsinin Elmi Şurasının 05.04.2024-cü il tarixli iclasında (protokol №08) təsdiq edilmişdir. Bu strateji sənədin hazırlanması Beynəlxalq əlaqələr üzrə prorektor tərəfindən Beynəlxalq layihələr və əcnəbilərlə iş şöbəsinə həvalə olunmuşdur. Beynəlmiləlləşmə siyasəti ADMİU Elmi

Şurasının 26 may 2021-ci il tarixli qərarı (protokol №07) ilə qüvvəyə minmiş Strateji İnkişaf Planına (SİP) istinadən formalaşdırılsa da, ADMİU-nun 2024-cü il üçün aktual və çoxşaxəli fəaliyyətləri ilə uyğunlaşdırılaraq SİP-də göstərilən başlıqlardan daha geniş və qlobal xarakterli akademik fəaliyyət istiqamətlərini özündə ehtiva etmişdir.

7.1.2. Beynəlmiləşmə siyasətində mübadilə proqramlarının təşviq olunma vəziyyəti

ADMİU-da "qlobal Erasmus+ Günləri" çərçivəsində tələbələr üçün məlumat sessiyası təşkil olunub. Tədbir universitetin beynəlxalq proqramlarda artan rolunu və akademik mobillik imkanlarında fəal iştirakını nümayiş etdirmək məqsədi daşıyır. Sessiyada Erasmus+ proqramı və ENGAGE layihəsinin əhatə dairəsi, məqsədləri və tələbələr üçün yarada biləcəyi imkanlar geniş şəkildə təqdim olunub.

Universitetin Beynəlxalq layihələr və əcnəbilərlə iş şöbəsi Erasmus+ proqramının CBHE komponentinə uyğun olaraq bir neçə layihə üçün Avropa Komissiyasına müraciət edib. Həmçinin, müxtəlif yerli və xarici ali təhsil müəssisələrinin təşəbbüs göstərdiyi layihələrin hazırlanmasında tərəfdaş kimi iştirak edib.

Ali təhsilin keyfiyyətinin yüksəldilməsi, əmək bazarının tələblərinə uyğunluğun təmin olunması, təhsilalanların və akademik heyətin mobilliyinin dəstəklənməsi məqsədilə universitet müxtəlif ölkələrin aparıcı universitetləri ilə əməkdaşlığa başlayıb. Bu əməkdaşlıqlar Erasmus+ K171 layihəsi çərçivəsində həyata keçirilir və tələbələrə yeni beynəlxalq təcrübə imkanları yaradır.

Universitetdə həmçinin beynəlxalq təşkilatlarla əlaqələrin genişləndirilməsi məqsədilə görüşlər keçirilib və tələbələr üçün müxtəlif təqaüd proqramları haqqında məlumatlandırma sessiyaları təşkil olunub. Bu görüşlər universitetin beynəlxalq təhsil imkanlarını daha əlçatan etməsinə xidmət edir.

Bundan əlavə, universitetin Kitabxana-informasiya mərkəzinin nümayəndəsi beynəlxalq yay məktəbində iştirak edərək (https://admiu.edu.az/admiu-%c9%99m%c9%99kdasi-eu4dialogue-kitabxana-icma-m%c9%99d%c9%99niyy%c9%99t-m%c9%99rk%c9%99zi-kimi-yay-m%c9%99kt%c9%99bind%c9%99/), Mərkəzin müasir innovativ fəaliyyəti və rəqəmsal xidmətləri haqqında təqdimatla çıxış edib. Təqdimat universitetin rəqəmsal transformasiya sahəsində atdığı uğurlu addımları beynəlxalq auditoriyaya çatdırmaq baxımından mühüm əhəmiyyət daşıyıb.

Bu təşəbbüslər ADMİU-nun beynəlxalq təhsil məkanında fəallığının artırılması və tələbələr üçün yeni imkanların yaradılması istiqamətində mühüm addımlar kimi qiymətləndirilə bilər.

7.1.3. Beynəlmiləlləşmə siyasətində əcnəbi təhsilalanların cəlb olunmasına təşviq olunması vəziyyəti

ADMİU tərəfindən 2024–2025-ci tədris ilində təşkil olunan hazırlıq kurslarında iştirak etmək üçün portal.edu.az platforması vasitəsilə müraciət etmiş əcnəbi vətəndaşlardan 10 (on) nəfər qəbul olunmuşdur. Onlar Hindistan Respublikası, İran İslam Respublikası, Amerika Birləşmiş Ştatları və Türkiyə Respublikasını təmsil edirlər.

Bakalavriat səviyyəsinə qəbul üzrə keçirilən müsabiqənin nəticələrinə əsasən, müraciət etmiş əcnəbi vətəndaşlardan 7 (yeddi) nəfər ADMİU-nun Rəssamlıq fakültəsinin "Dizayn (sahələr üzrə)" ixtisasına qəbul olunmuşdur. Həmin tələbələr Rusiya Federasiyası, Belarus Respublikası və İran İslam Respublikasının vətəndaşlarıdır.

7.1.4. Beynəlxalq akademik heyətə münasibətdə beynəlmiləlləşmə siyasəti

ADMİU-da tədris mühitinin beynəlxalq standartlara uyğun zənginləşdirilməsi strategiyası çərçivəsində, xarici ölkələrdən ezam olunmuş mütəxəssislərin iştirakı ilə tələbə heyəti üçün silsilə ustad dərsləri reallaşdırılmışdır.

İstanbul Nişantaşı Universitetinin pedaqoqları ADMİU-nun kino rejissorluğu ixtisası üzrə təhsil alan tələbələr üçün ustad dərslərinə başlayıblar. (https://admiu.edu.az/turkiy%c9%99nin-nisantasi-universitetinin-pedaqoqlarinin-admiu-da-ustad-d%c9%99rsl%c9%99ri-baslayib/, https://admiu.edu.az/nisantasi-universitetinin-numay%c9%99nd%c9%99l%c9%99rinin-baki-s%c9%99f%c9%99ri-basa-catib/) Bu fəaliyyət iki universitet arasında imzalanmış əməkdaşlıq memorandumuna əsasən, "Film heç bitməsin" beynəlxalq film festivalı çərçivəsində həyata keçirilir.

Bundan əlavə, Sankt-Peterburq Aleksandrinski Teatrının nümayəndələri tərəfindən ADMİU tələbələri üçün teatr sənətinə dair peşəkar ustad dərsləri təqdim edilib (https://admiu.edu.az/rusiyanin-m%c9%99shur-s%c9%99n%c9%99tcil%c9%99ri-admiu-da-ustad-d%c9%99rsi-kecibl%c9%99r/). Tədris prosesinə teatr rejissurası və aktyorluq üzrə praktiki biliklər daxil edilib.

ADMİU-da keçirilən növbəti tədbirlərdən biri də dünya miqyasında tanınmış rejissorların iştirakı ilə baş tutub. Tələbələrə beynəlxalq kinofestivallarda uğur qazanmış filmlərin yaradıcıları tərəfindən kino sənətinə dair dərin və əhatəli biliklər verilib.

Universitetin Strateji İnkişaf Planının (SİP) "Təhsil mühitinin inkişafı" prioriteti çərçivəsində isə muzeyşünaslıq, arxeologiya və mədəni irsin mühafizəsi sahəsində qlobal təcrübəyə malik ekspert universitetə dəvət edilmişdir. Təlimlər çərçivəsində geofizika, rəqəmsal sənədləşmə, Coğrafi İnformasiya Sistemləri (CİS), arxeologiyada süni intellekt, müharibə şəraitində mədəni irsin qorunması, beynəlxalq qanunvericilik, rəqəmsal bərpa və qoruyucu konstruksiyalar kimi mövzular əhatə olunub. Həmçinin Türkiyə və Kiprdə icra olunmuş nümunəvi arxeologiya və muzey layihələri üzrə praktiki nümunələr təqdim edilib (https://admiu.edu.az/taninmis-arxeoloq-latife-summerer-admiu-da-ustad-d%c9%99rsl%c9%99ri-kecib/).

Bu tədbirlər ADMİU-nun beynəlxalq akademik nüfuzunu artırmaqla yanaşı, tələbələrinin nəzəri biliklərinin təcrübə ilə möhkəmləndirilməsi və beynəlxalq mütəxəssislərlə birbaşa ünsiyyət qurmaqla peşəkar inkişaflarına töhfə verilməsi baxımından əhəmiyyətlidir.

7.1.5. Beynəlxalq tədqiqatçılara münasibətdə beynəlmiləlləşmə siyasəti

ADMİU-da son dövrdə bir sıra yerli və beynəlxalq əməkdaşlıqlar çərçivəsində tələbələrin tələbə heyətinin akademik və yaradıcılıq potensialının stimullaşdırılmasına xidmət edən silsilə proqramlar icra olunmuşdur.

ADMİU tələbələri Azərbaycan Texniki Universitetində 10 ali təhsil müəssisəsinin iştirakı ilə keçirilən “İnnovativ və yaradıcı həllərin tapılması” adlı beynəlxalq startap müsabiqəsinin ilkin mərhələsini uğurla tamamlamışlar (https://admiu.edu.az/dijital-inc%C9%99s%C9%99n%C9%99t-iqtisadiyyati/).

Avropa İttifaqının Jean Monnet Modulu çərçivəsində təşkil edilən Mədəniyyət və İncəsənət üzrə Təhlil Məktəbinin ilkin fazası yekunlaşmışdır. Təhlil zamanı iştirakçılar sosial tədqiqat metodologiyası, data analitikası və mədəniyyət siyasəti üzrə qazandıqları kompetensiyalar əsasında öz tədqiqat planlarını müdafiə etmişlər. (https://admiu.edu.az/avropa-birliyinin-birinci-m%C9%99d%C9%99niyy%C9%99t-v%C9%99-inc%C9%99s%C9%99n%C9%99t-uzr%C9%99-t%C9%99hlil-m%C9%99kt%C9%99bi-basa-catib/).

KATALİZATOR ArtHub-ın təşkil etdiyi “Böyük Britaniyanın çağdaş dramaturgiyası: TANIMA” layihəsinin son görüşündə eksperimental teatr mövzusunda seminar keçirilmiş (https://admiu.edu.az/boyuk-britaniyanin-cagdas-dramaturgiyasi-tanima-layih%C9%99si-c%C9%99rciv%C9%99sind%C9%99-sonuncu-gorus/), ölkələrarası mədəni əməkdaşlıq imkanları vurğulanmışdır.

ADMİU və Rusiya Teatr Sənəti İnstitutu (GİTİS) arasında əməkdaşlıq çərçivəsində teatr sənəti fakültəsinin tələbələri üçün səhnə hərəkəti üzrə ustad dərsləri təşkil olunmuşdur (https://azertag.az/xeber/rusiyali_mutexessis_medeniyyet_ve_incesenet_universitetinde_ustad_dersleri_kechib-2625818).

Slovakiyadan dəvət olunan mütəxəssis tərəfindən BİB-in fəaliyyəti və beynəlxalq illüstrasiya sahəsindəki rolu ilə bağlı mühazirə təqdim olunmuş, mühazirədə kultrologiya və rəssamlıq fakültələrinin tələbələri iştirak etmişdir (https://admiu.onneks.com/news2023.php?go=109).

İrlandiyadan olan tanınmış sosioloq tərəfindən İran teatrına dair mühazirələr keçirilmiş, ADMİU-nun teatrşünaslıq, musiqişünaslıq və digər sahələr üzrə mütəxəssisləri, magistrant və doktorantları ilə elmi fikir mübadiləsi aparılmışdır.

ADMİU-da ilk dəfə “Musiqi terapiyasına giriş” adlı təlim kursuna start verilmişdir.

Altı həftə davam edəcək kurs çərçivəsində iştirakçılara musiqinin terapiyada istifadəsi üzrə nəzəri və praktik biliklər aşılanır. Kursun sonunda iştirakçılara sertifikatlar təqdim ediləcək (https://admiu.onneks.com/news2024.php?go=283).

ABŞ Dövlət Departamentinin dəstəyi ilə universitetə ezam olunmuş mütəxəssis MBA proqramının struktur inkişafı və təkmilləşdirilməsi istiqamətində strateji tövsiyələr hazırlamışdır (https://azertag.az/xeber/amerikali_mutexessis_medeniyyet_ve_incesenet_universitetinde_olub-2635916).

Bu tədbirlər nəticəsində universitetin beynəlmiləşmə strategiyasının genişlənməsi, tələbələrin peşəkar bacarıqlarının inkişafı və tədrisin keyfiyyətinin yüksəldilməsinə mühüm töhfə verir.

7.1.6. Beynəlxalq təhsil şəbəkəsinə və beynəlxalq təhsil təşkilatlarına münasibətdə beynəlmiləlləşmə siyasəti

ADMİU-da "Avropa İttifaqında incəsənət və siyasətin kəsişməsinin tədqiqi" adlı Jean Monnet Modulu layihəsi icra olunur. Layihə çərçivəsində universitetin kurrikulumuna "Avropa Birliyində incəsənət və mədəniyyət siyasəti" adlı fənn əlavə olunmuş, tələbələr üçün "Sosial elmlərdə tədqiqat metodları" üzrə təlimlər təşkil edilmişdir. Modulun əsas məqsədi Avropa İttifaqı kontekstində incəsənət və siyasət arasındakı mürəkkəb əlaqələri daha dərindən təhlil etməkdir. Layihə Avropa ölkələrinin bu sahədəki təcrübəsini öyrənməklə yanaşı, tələbələrin tədqiqat, akademik yazı, layihələndirmə və tənqidi düşünmə bacarıqlarının inkişafına da yönəlib. 2025-ci ildə Universitet tərəfindən iki CBHE layihəsinə müraciət olunmuşdur:

- Ali təhsil müəssisələrində rəqəmsal inklüziv təhsil sisteminin inkişafı.
- Davamlı tekstil sənayeləri sahəsində təhsil, tədqiqat və əməkdaşlığın inkişafı.

ADMİU beynəlxalq əməkdaşlıqlarını genişləndirmək məqsədilə bir sıra beynəlxalq assosiasiyalara üzv olaraq fəaliyyətini davam etdirir. Bunlara incəsənət, dizayn və media istiqamətli beynəlxalq şəbəkə və Qara Dəniz Universitetləri Şəbəkəsi daxildir. Bu əməkdaşlıqlar universitetdə təhsilin keyfiyyətinin artırılması, beynəlxalq standartlara uyğunlaşdırılması və akademik heyətin beynəlxalq tədbirlərdə iştirakı baxımından əhəmiyyətlidir. Universitet ilk dəfə olaraq davamlı inkişaf məqsədləri üzrə fəaliyyət göstərən beynəlxalq reytinq sistemlərində – o cümlədən THE Impact və UI GreenMetric – iştirak etmişdir. Universitet bu qiymətləndirmələrdə yaradıcılıq yönümlü ali təhsil müəssisəsi kimi seçilmişdir. Davamlı inkişaf sahəsində görülən işlərin ictimaiyyətə təqdim olunması üçün universitetin rəsmi veb-saytında xüsusi bölmə yaradılmış və burada 9 Davamlı İnkişaf Məqsədi üzrə fəaliyyətlər və siyasət icmalları yerləşdirilmişdir. Eyni zamanda, ADMİU QS Dünya Universitetləri Reytinqində iştirakla bağlı fəaliyyətlərini davam etdirir və reputasiyasını beynəlxalq səviyyədə möhkəmləndirmək istiqamətində iş aparır.

Oktyabrın 15-də Özbəkistan Respublikasının Daşkənd şəhərində Daşkənd Beynəlxalq Universitetinin ev sahibliyi ilə Türk Universitetlər Birliyinin (TÜRKÜNİB) 8-ci Baş Assambleyasının iclası keçirilib. Assambleyanın 8-ci iclasında ümumilikdə 62 ali təhsil müəssisəsi, o cümlədən Azərbaycanın 12 universiteti ilə yanaşı Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti birliyə qəbul edilmişdir (https://www.instagram.com/p/DQWzfj4jI3J/). ADMİU-nun TÜRKÜNİB-ə üzvlüyü həmçinin universitetin Türk dünyası ali təhsil məkanında nüfuzunun möhkəmlənməsi və regional akademik inteqrasiyanın dərinləşməsi baxımından əhəmiyyətli addım hesab olunur.

7.1.7. İkili diplom proqramlarına münasibətdə beynəlmiləlləşmə siyasəti

ADMİU-nun birgə proqramlar həyata keçirdiyi tərəfdaş universitetlər sırasına Qazaxıstanın Kurmanqazı adına Qazax Milli Konservatoriyası, T.K. Jurqenov adına Qazaxıstan Milli İncəsənət Akademiyası, Şimali Kipr Türk Cümhuriyyətinin Arkin Yaradıcı Sənətlər və Dizayn Universiteti (ARUCAD), eləcə də Qazaxıstanın Qazax Dövlət Pedaqoji

Qızlar Universiteti daxildir. Kurmanqazı adına Qazax Milli Konservatoriyası ilə bakalavriat səviyyəsində həyata keçirilən birgə əməkdaşlıq İnstrumental ifaçılıq (fortepiano, simli alətlər, nəfəs və zərb alətləri) və Ənənəvi musiqi sənəti (xalq çalğı alətləri və xalq mahnıları) ixtisaslarını əhatə edir. T.K. Jurqenov adına Qazaxıstan Milli İncəsənət Akademiyası ilə magistratura səviyyəsində Kinoşünaslıq və Teatrşünaslıq sahələri üzrə birgə proqramlar icra olunur (https://admiu.edu.az/admiu-il%C9%99-qazax-milli-inc%C9%99s%C9%99n%C9%99t-akademiyasi-arasinda-novb%C9%99ti-muqavil%C9%99-imzalanib/). ARUCAD ilə bakalavriat səviyyəsində Aktyor sənəti ixtisası üzrə birgə əməkdaşlıq həyata keçirilir. (https://admiu.edu.az/admiu-da-ikili-diplom-proqrami/). Qazax Dövlət Pedaqoji Qızlar Universiteti ilə bakalavriat səviyyəsində Sosiologiya, Sosial iş, Musiqi təhsili, Peşə təhsili, Ənənəvi musiqi sənəti və Kitabxana işi ixtisasları üzrə birgə proqramlar mövcuddur.

7.1.8. Beynəlmiləşmə siyasətinin dövrü yenilənməsi vəziyyəti

ADMİU-nun “Beynəlmiləlləşmə siyasəti” 5 aprel 2024-cü il tarixində təsdiq edilmişdir. Sənəd universitetin beynəlxalq əlaqələrinin genişləndirilməsi, xarici ali təhsil müəssisələri ilə əməkdaşlığın inkişaf etdirilməsi, beynəlxalq akademik mübadilənin təşviqi, əcnəbi tələbələrin cəlb olunması və təhsil proqramlarının beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətlərini əhatə edir.

7.2. Beynəlmiləlləşmə proseslərinin idarə edilməsi və təşkilati strukturu

7.2.1 Beynəlmiləlləşmə proseslərinin idarə edilməsi üzrə təşkilatı strukturun mövcud olması vəziyyəti

ADMİU-da beynəlmiləlləşmə fəaliyyətləri beynəlxalq əlaqələr üzrə prorektorluq vasitəsilə idarə olunur. Prorektorluğun əsas məqsədi universitetin beynəlxalq təhsil məkanına inteqrasiyasını təmin etmək, xarici ali təhsil müəssisələri və təşkilatlarla əməkdaşlıq imkanlarını genişləndirməkdir.

Prorektorluğun tərkibində aşağıdakı struktur bölmələr fəaliyyət göstərir:

- Beynəlxalq layihələr və əcnəbilərlə iş şöbəsi: universitetin beynəlxalq layihələrdə iştirakını koordinasiya edir, əcnəbi tələbələrin qəbulu və tədris prosesinin təşkilini həyata keçirir.

- Beynəlxalq əməkdaşlıq şöbəsi: ikitərəfli və çoxtərəfli beynəlxalq müqavilələrin hazırlanması, ali təhsil müəssisələri ilə tərəfdaşlıq əlaqələrinin qurulması və inkişaf etdirilməsi ilə məşğul olur.

- İnnovasiya və sahibkarlıq mərkəzi: beynəlxalq əməkdaşlıq çərçivəsində innovativ yanaşmaların tətbiqini, sahibkarlıq bacarıqlarının inkişafını və universitet daxilində sahibkarlıq mühitinin formalaşdırılmasını dəstəkləyir.

Bu struktur vahid şəkildə beynəlmiləlləşmə siyasətinin həyata keçirilməsinə, tədris və tədqiqat sahəsində beynəlxalq əməkdaşlığın genişlənməsinə və əcnəbi tələbələrin universitetə cəlb edilməsinə xidmət edir.

7.2.2. Təşkilati strukturun beynəlmiləlləşmə siyasətinə uyğunluğu vəziyyəti

ADMİU-da beynəlmiləlləşmə proseslərinin idarə olunması üçün formalaşdırılmış təşkilati struktur universitetin bu sahədə müəyyən etdiyi strateji istiqamət və prioritetlərin həyata keçirilməsinə uyğundur. Beynəlxalq əlaqələr üzrə prorektorluğun tabeliyində fəaliyyət göstərən struktur bölmələr beynəlmiləlləşmə siyasətinin müxtəlif istiqamətləri üzrə vəzifə və funksiyaları yerinə yetirir.

Beynəlxalq layihələr və əcnəbilərlə iş şöbəsinin fəaliyyəti xarici tələbələrin universitetə cəlb olunması, beynəlxalq layihələrdə iştirak və akademik mühitə inteqrasiyası, Beynəlxalq əməkdaşlıq şöbəsinin fəaliyyəti isə xarici ali təhsil müəssisələri ilə tərəfdaşlıq əlaqələrinin qurulması, beynəlxalq müqavilələrin hazırlanması və əməkdaşlığın inkişaf etdirilməsi ilə birbaşa əlaqəlidir. İnnovasiya və sahibkarlıq mərkəzi də innovativ təşəbbüslərin təşviqi, beynəlxalq təcrübənin tətbiqi və sahibkarlıq imkanlarının genişləndirilməsi baxımından bu prosesə dəstək göstərir.

Mövcud struktur beynəlmiləlləşmə siyasətində nəzərdə tutulan əsas istiqamətlərin əlaqələndirilmiş şəkildə icrasına imkan verir. Bununla yanaşı, struktur bölmələrin fəaliyyətinin nəticəyönümlü koordinasiyasının gücləndirilməsi, vəzifə və məsuliyyət bölgüsünün dəqiq müəyyənləşdirilməsi beynəlmiləlləşmə hədəflərinin daha səmərəli həyata keçirilməsinə töhfə verə bilər.

7.2.3. Mübadilə proqramlarında iştirak edən təhsilalanların kreditlərinin tanınması mexanizminin mövcudluğu və tətbiqi vəziyyəti

ADMİU-da beynəlxalq mübadilə proqramlarının reallaşdırılması məqsədilə xarici tərəfdaş ali təhsil müəssisələri ilə bir sıra ikitərəfli və çoxtərəfli müqavilələr imzalansa da, sözügedən sənədlərin tam icra mexanizmi hələlik formalaşmamış və akademik tələbə mübadiləsi prosesləri institusional səviyyədə rəsmiləşdirilməmişdir. Hazırkı mərhələdə təhsilalanların və professor-müəllim heyətinin beynəlxalq mobilliyi fundamental olaraq konkret qrant layihələri çərçivəsində təmin olunur. Bu fəaliyyət profillərinə tərəfdaş qurumlara qısamüddətli ezamiyyətlər, müştərək layihələrin icrası, habelə beynəlxalq elmi konfrans və yaradıcılıq festivallarında təmsilçilik daxildir. Lakin vurğulanmalıdır ki, bu növ mobillik klassik akademik mübadilə proqramlarının standart kriteriyalarına və beynəlxalq unifikasiya olunmuş tənzimləmələrinə əsaslanmır; ezamiyyət prosesləri birbaşa layihələrin daxili qaydaları və milli qanunvericiliyin hüquqi mexanizmləri əsasında tənzimlənir. Bununla yanaşı, universitetdə beynəlxalq kreditlərin tanınması (transferi) üzrə rəsmi mexanizmin tam tətbiq edilməməsi diqqət çəkir. Qeyd olunan bu struktur çatışmazlıqlarının aradan qaldırılması, beynəlxalq müqavilələrin effektiv reallaşdırılması və mübadilə proqramlarının dayanıqlı icrasının təmini məqsədilə ADMİU-nun perspektiv strateji inkişaf planında prioritet istiqamət kimi müəyyənləşdirilmişdir.

7.2.4. Əcnəbi professor-müəllim heyətinin tədris prosesinə cəlb edilməsi vəziyyəti

ADMİU-da əcnəbi professor-müəllim heyətinin tədris prosesinə daimi inteqrasiyasını tənzimləyən sistemli və davamlı bir mexanizm hələlik formalaşmamışdır. Ali təhsil müəssisəsinin xarici tərəfdaşlarla əməkdaşlıq müqavilələri mövcud olsa da, bu hüquqi sənədlərin icra mexanizmi çərçivəsində əcnəbi professor-müəllim heyətinin

uzunmüddətli tədris fəaliyyətinə cəlb edilməsi hələ ki reallaşdırılmamışdır. Hazırkı mərhələdə əcnəbi akademik heyətlə əməkdaşlıq əsasən beynəlxalq qrant layihələr, elmi konfranslar və yaradıcılıq festivalları vasitəsilə həyata keçirilir. Əcnəbi mütəxəssislər daha çox layihə icrası çərçivəsində təlim, ustad dərsləri və seminarların keçirilməsində ibarətdir.

Lakin bu əməkdaşlıq klassik akademik mübadilə və ya tədris proqramlarının kriteriyaları əsasında aparılmır. Ezamlar və əməkdaşlıqlar layihələrin daxili tələblərinə və mövcud yerli qanunvericiliyə uyğun olaraq təşkil olunur. Beləliklə, əcnəbi professor-müəllim heyətinin universitetin tədris prosesinə inteqrasiyası gələcəkdə inkişaf etdirilməsi zəruri olan istiqamətlərdən biri olaraq qalır.

7.2.5. Beynəlmiləlləşmə siyasətinin idarəedilməsinin səmərəliliyinin monitorinq edilməsi vəziyyəti

ADMİU-da beynəlmiləlləşmə strategiyasının inzibati idarə olunması Beynəlxalq əlaqələr üzrə prorektorluq vasitəsilə həyata keçirilir. Mövcud təşkilati struktur fundamental olaraq qlobal layihələrin idarə edilməsi, tərəfdaş ali təhsil müəssisələri ilə əməkdaşlıq müqavilələrinin hüquqi müstəvidə hazırlanması və əcnəbi tələbə kontingenti ilə işin tənzimlənməsi kimi funksional istiqamətləri əhatə edir.

Hazırkı mərhələdə beynəlmiləlləşmə siyasətinin effektivlik dərəcəsini və səmərəliliyini ölçmək, eləcə də prosesi daxili monitorinqə cəlb etmək üçün sistemli qiymətləndirmə meyarları mövcud deyildir. Həyata keçirilən fəaliyyətin yekun nəticələri əsasən qrant layihələrinin icra vəziyyəti, xarici tərəfdaşlarla əlaqələrin davamlılığı və əcnəbi tələbələrin universitetin akademik mühitindəki ümumi iştirak göstəriciləri nəzərə alınmaqla, qeyri-formal meyarlarla qiymətləndirilir.

7.2.6. ATM-də təşkil olunan ikili diplom proqramları üzrə təlim və tədris prosesinin AKTTS-in və yerli qanunvericiliyin tələblərinə uyğun olaraq tənzimlənməsi vəziyyəti

ADMİU-da beynəlxalq əlaqələrin və əməkdaşlığın genişləndirilməsi istiqamətində xarici tərəfdaş ali təhsil müəssisələri ilə müqavilələr imzalanmışdır. Bu müqavilələr çərçivəsində ikili diplom proqramlarının institusional səviyyədə təşkili nəzərdə tutulmuşdur. Universitetdə təlim və tədris prosesinin beynəlxalq standartlar əsasında Avropa Kredit Transfer və Toplama Sistemi (AKTTS) prinsiplərinə uyğunlaşma istiqamətində işlər görülmüşdür. Kredit sistemi milli qanunvericiliyin normativ tələblərinə əsaslanaraq tətbiq olunur. Eyni zamanda təhsilalanların akademik nailiyyətlərinin və tədris nəticələrinin qiymətləndirilməsi sistemləri dövlət standartları ilə tam uzlaşdırılmışdır.

7.2.7. Beynəlmiləlləşmə siyasətinə uyğun olaraq akademik heyətin mübadilə dinamikası

ADMİU-da beynəlmiləlləşmə siyasətinə uyğun olaraq akademik heyətin beynəlxalq mübadiləsi əsasən Erasmus+ KA1 və KA2 layihələri, beynəlxalq konfranslar, festivallar və müxtəlif beynəlxalq layihələr çərçivəsində həyata keçirilir. Bu layihələr vasitəsilə akademik heyət tərəfdaş universitetlərə ezam olunur, təlim və tədris fəaliyyətlərində iştirak

edir. ENGAGE layihəsi çərçivəsində müəllim heyəti Avropa universitetlərində keçirilən seminar və treninqlərə qatılaraq sahibkarlıq və innovasiya yönümlü fəaliyyətlər üzrə təcrübə qazanmış, ECAR Erasmus+ KA2 layihəsi (2021–2023) çərçivəsində isə beynəlxalq tədbirlərdə iştirak və təcrübə mübadiləsi imkanları əldə etmişdir. Akademik heyət beynəlxalq konfrans və festivallarda iştirak etməklə təcrübə mübadiləsi aparır, eyni zamanda universitetin beynəlxalq nüfuzunun artırılmasına töhfə verir. Bu ezamiyyətlər hazırda mübadilə proqramlarının formal kriteriyaları və kreditlərin tanınması mexanizmləri əsasında deyil, layihələrin tənzimləmələri və yerli qanunvericiliyin tələblərinə uyğun həyata keçirilir. Akademik heyətin ezamiyyətləri və beynəlxalq təcrübə mübadiləsi Beynəlxalq əlaqələr üzrə prorektorluq tərəfindən koordinasiya olunur. Hər bir ezamiyyət layihənin məqsədlərinə uyğun planlaşdırılır, iştirak olunan tədbirlər və əldə edilən nəticələr əsasında qeydə alınır. Bununla yanaşı, akademik heyətin beynəlmiləlləşmə çərçivəsində mübadilə fəaliyyəti hələlik sistemləşdirilmiş formal kredit mexanizmləri ilə əlaqələndirilməmişdir, lakin gələcəkdə bu istiqamətdə inkişaf perspektivləri mövcuddur.

7.2.8. Akademik və inzibati heyətin mübadiləsi prosesinin şəffaf və hərkəsə əlçatanlıq prinsipləri əsasında hazırlanmış daxili prosedurlar əsasında təşkili vəziyyəti

ADMİU-da akademik və inzibati heyətin mübadiləsi beynəlmiləlləşmə siyasətinin tərkib hissəsi olaraq beynəlxalq layihələr, Erasmus+ proqramı və tərəfdaş ali təhsil müəssisələri ilə əməkdaşlıq çərçivəsində həyata keçirilir. Mübadilə imkanları barədə məlumatlar müvafiq elanlar və layihələr vasitəsilə təqdim olunur, iştirakçıların seçimi isə proqramların tələbləri və müəyyən edilmiş meyarlar əsasında aparılır. Bununla belə, mübadilə prosesinin bütün mərhələlərini əhatə edən, seçim meyarlarını, müraciət qaydalarını və qiymətləndirmə mexanizmlərini vahid şəkildə müəyyənləşdirən daxili prosedurların sistemləşdirilməsinə ehtiyac vardır. Mövcud təcrübənin əsasən ayrı-ayrı layihələrin şərtləri və müvafiq qərarlar əsasında formalaşması müraciət və seçim proseslərində fərqli yanaşmaların yaranmasına səbəb ola bilər. Bu baxımdan, akademik və inzibati heyətin mübadiləsinin şəffaflığını və əlçatanlığını artırmaq, bütün əməkdaşlar üçün bərabər iştirak imkanlarını təmin etmək məqsədilə vahid daxili prosedurların hazırlanması və tətbiqi məqsədəuyğun hesab olunur.

7.2.9. ATM-də mövcud olan mübadilə proqramları üzrə iştirakçılılığın təmin olunması dinamikası və təlim və tədris prosesinin AKTTS-in tələblərinə uyğun təşkili vəziyyəti

ADMİU-da beynəlmiləlləşmə siyasətinin mühüm istiqamətlərindən biri mübadilə proqramlarında iştirakın artırılması və bu proqramların Avropa Kredit Transfer və Toplama Sistemi (AKTTS) prinsiplərinə uyğun təşkili ilə bağlıdır.

ATM-də mübadilə proqramları əsasən Erasmus+ KA1 və KA2 layihələri, Jean Monnet modulları və tərəfdaş universitetlərlə bağlanmış müqavilələr çərçivəsində həyata keçirilir. Akademik heyət və tələbələr müxtəlif layihə və proqramlar vasitəsilə beynəlxalq təcrübə qazanmaq imkanına malikdirlər. Bununla belə, mübadilə proqramlarında iştirak

hələlik sistemli şəkildə təşkil olunmur və iştirak imkanları əsasən layihə əsaslı ezamiyyətlərdən asılıdır. Bu səbəbdən iştirakçılığın dinamikası layihələrin mövcudluğu və büdcə imkanları ilə məhdudlaşır.

Universitetdə tələbələrin beynəlxalq mübadilə proqramları çərçivəsində əldə etdikləri akademik nəticələrin tanınması məqsədilə AKTTS prinsiplərinin tətbiqi istiqamətində ilkin addımlar atılmışdır. Lakin mübadilə proqramları çərçivəsində qazanılmış kreditlərin tanınması və tədris planına inteqrasiyası ilə bağlı vahid prosedurlar tam şəkildə hazırlanmayıb. Mövcud mübadilə fəaliyyəti layihələrin tələbləri və yerli qanunvericilik əsasında həyata keçirilir ki, bu da AKTTS-in tələblərinə uyğun standartlaşdırılmış kreditlərin tanınması mexanizmlərinin tətbiqində çətinliklər yaradır.

7.2.10. Beynəlxalq reytinqlərdə ATM-in təmsil olunma vəziyyəti

ADMİU-nun beynəlxalq reytinqlərdə təmsil olunması və mövqelərinin yaxşılaşdırılması istiqamətində müxtəlif işlər həyata keçirilmişdir. Universitet UI GreenMetric World University Ranking, Times Higher Education (THE) Impact Rankings və National H-index Ranking reytinqlərində iştirak etmiş, QS beynəlxalq reytinq agentliyi ilə əməkdaşlıq perspektivlərini müzakirə etmişdir.

ADMİU 2024-cü ildə ilk dəfə UI GreenMetric World University Ranking reytinqində iştirak edərək 95 ölkənin ali təhsil müəssisələri arasında 1247-ci yerdə qərarlaşmışdır. Qiymətləndirmə zamanı universitetin enerji istifadəsi və iqlimə təsiri, kağız istehlakının azaldılması, su ehtiyatlarından səmərəli istifadə, nəqliyyat, ekoloji tədris kursları, elmi tədqiqatların aparılması və nəşri kimi göstəriciləri nəzərə alınmışdır. Bu iştirak universitetin ekoloji davamlılıq və “yaşıl universitet” siyasəti istiqamətində fəaliyyətinin qiymətləndirilməsi baxımından əhəmiyyət daşıyır.

Universitet 2024-cü ildə ilk dəfə Times Higher Education Impact Rankings reytinqində də qiymətləndirilmiş və həmin il bu reytinqdə iştirak edən 18 Azərbaycan ali təhsil müəssisəsi arasında yeganə yaradıcılıq yönümlü ali təhsil müəssisəsi olmuşdur. 2025-ci ildə isə iştirak əhatəsini genişləndirərək 4 Davamlı İnkişaf Məqsədi (SDG) əvəzinə 10 məqsəd üzrə müraciət etmişdir. Nəticələrə əsasən, universitetin ümumi göstəricisi 1501+ diapazonunda olmuşdur. Ayrı-ayrı məqsədlər üzrə nəticələr aşağıdakı kimi qeydə alınmışdır: SDG 3 – Sağlam həyat və rifah üzrə 1501+, SDG 4 – Keyfiyyətli təhsil üzrə 1001–1500, SDG 5 – Gender bərabərliyi üzrə 801–1000, SDG 8 – Layiqli əmək və iqtisadi artım üzrə 1001+, SDG 9 – Sənaye, innovasiya və infrastruktur üzrə 1001+, SDG 10 – Bərabərsizliyin azaldılması üzrə 801–1000, SDG 11 – Davamlı şəhərlər və icmalar üzrə 601–800, SDG 13 – İqlim dəyişmələrinə qarşı tədbirlər üzrə 801–1000, SDG 16 – Sülh, ədalət və effektiv institutlar üzrə 1001+, SDG 17 – Məqsədlər üçün tərəfdaşlıq üzrə 1501+.

ADMİU National H-index Ranking reytinqində də təmsil olunmuşdur. Universitet 2024-cü ilin nəticələrinə görə 50-ci yerdə qərarlaşmış, 2025-ci ildə isə mövqeyini üç pillə yaxşılaşdıraraq 47-ci sıraya yüksəlmişdir.

QS beynəlxalq reytinq agentliyi ilə əməkdaşlıq perspektivləri çərçivəsində universitet tərəfindən görüş keçirildiyi bildirilsə də, QS reytinqində ADMİU-nun konkret sıralaması və nəticəsi barədə rəsmi məlumat mövcud deyil. Eyni zamanda, universitetin

QS və Times Higher Education reytinqlərində təmsil olunması üçün göstəricilərin toplanması, məlumat bazalarının uyğunlaşdırılması və müvafiq metodoloji tələblərin öyrənilməsi istiqamətində ilkin işlərin aparıldığı qeyd olunur. Bununla belə, təqdim edilmiş məlumatlarda universitetin QS World University Rankings və THE World University Rankings əsas reytinqlərində yer alması təsdiqlənmir.

7.3. Beynəlmiləlləşmə siyasətinin icra edilməsinə ayrılan resurslar

7.3.1. Beynəlmiləlləşmə siyasətinin icrasına maliyyə resurslarının ayrılması vəziyyəti

ADMİU-da beynəlmiləlləşmə siyasətinin icrası üçün maliyyə resursları əsasən üç mənbədən formalaşır:

1. Universitetin büdcəsi – beynəlmiləlləşmə strategiyasının icrası üçün əsas və davamlı maliyyə mənbəyi olaraq nəzərdə tutulur.
2. Elm və Təhsil Nazirliyi – beynəlmiləlləşmə layihələrinin dəstəklənməsində prioritet maliyyə təminatçılarından biridir.
3. Avropa Birliyi qrant layihələri – beynəlxalq əməkdaşlıq və təcrübə mübadiləsi üçün əlavə resurs mənbəyi kimi mühüm rol oynayır.

Avropa Birliyindən alınan qrantlar əsasən KA1 və KA2 Erasmus+ layihələri çərçivəsində həyata keçirilir. Özünütəhlil hesabatına və ATM-ə səfər zamanı təqdim olunan sənədlərə əsasən aşağıdakı əsas layihələr və onlara ayrılan büdcə məbləğləri qeyd olunmalıdır:

Cədvəl 7.1. Beynəlmiləlləşmə siyasətinin icrasına maliyyə resurslarının ayrılması

Layihə Adı	Layihə Tipi	Müddət	Büdcə (Avro)
"Azərbaycanda Rektorlar Konfransının Yaradılması" (ECAR)	Erasmus+ KA2	2021–2023	41,000
"Azərbaycan ali təhsil müəssisələrində davamlı sahibkarlıq ekosisteminin gücləndirilməsi" (ENGAGE)	Erasmus+ KA2	—	43,000
Jean Monnet Module - Avropa Birliyinin Mədəniyyət və İncəsənət Siyasəti	Jean Monnet	—	30,000

7.3.2. Beynəlmiləlləşmə siyasətinin icrasına insan resurslarının ayrılması vəziyyəti

ADMİU-da beynəlmiləlləşmə siyasətinin uğurla həyata keçirilməsi üçün insan resurslarının strukturlaşdırılması və ixtisaslı kadrların cəlb olunması prioritet istiqamətlərdən biridir.

Beynəlmiləlləşmə fəaliyyətləri əsasən Beynəlxalq əməkdaşlıq və beynəlxalq layihələr və əcnəbilərlə iş şöbələri tərəfindən idarə olunur. Bu strukturların tərkibi aşağıdakı kimi təşkil olunub:

1. Beynəlxalq layihələr və əcnəbilərlə iş şöbəsi

- Şöbə daxilində xüsusi olaraq Əcnəbi tələbələrlə iş sektoru fəaliyyət göstərir.
- Bu sektorda bir sektor müdiri və bir mütəxəssis çalışır.

- Əcnəbi tələbələrlə əlaqələrin təşkili, onların sosial-mədəni adaptasiyası və tədris prosesində dəstəklənməsi bu sektorun əsas vəzifələrindəndir.

2. Beynəlxalq əməkdaşlıq şöbəsi

- Şöbədə bir müdir və bir baş mütəxəssis fəaliyyət göstərir.
- Şöbə beynəlxalq müqavilələrin hazırlanması, tərəfdaş universitetlərlə əlaqələrin koordinasiyası və beynəlxalq layihələrin idarə olunmasına cavabdehdir.

3. İnnovasiya və sahibkarlıq mərkəzi

- ENGAGE Erasmus+ layihəsi çərçivəsində yaradılmışdır.
- Mərkəzdə bir müdir və müdir müavini ictimai əsaslarla fəaliyyət göstərir.
- Mərkəz beynəlxalq layihələrdə iştirak, innovasiya təşəbbüsləri və sahibkarlıq mühitinin yaradılması üzrə fəaliyyət göstərir.

7.3.3. Beynəlmiləlləşmə siyasətinin icrasına tələb olunan infrastrukturun mövcud olması vəziyyəti

ADMİU-da beynəlmiləlləşmə siyasətinin icrası üçün zəruri infrastruktur mövcuddur və davamlı olaraq təkmilləşdirilir. Beynəlxalq əlaqələr üzrə prorektorluq və ona bağlı Beynəlxalq layihələr və əcnəbilərlə iş şöbəsi, Beynəlxalq əməkdaşlıq şöbəsi beynəlmiləlləşmə fəaliyyətlərinin koordinasiyasını, beynəlxalq layihələrin idarə olunmasını, müqavilələrin hazırlanmasını, əcnəbi tələbələrlə işin təşkilini və beynəlxalq əməkdaşlıq proseslərinin həyata keçirilməsini təmin edir. Universitetdə beynəlxalq əməkdaşlıq və mübadilə fəaliyyətlərinin idarə olunmasında informasiya-kommunikasiya texnologiyalarından istifadə edilir. Rəsmi veb-səhifə və daxili portal vasitəsilə mübadilə proqramları, elanlar və tələb olunan sənədlər barədə məlumatlar təqdim olunur, beynəlxalq layihələrdə və tədris prosesində onlayn platformalardan, videokonfrans imkanlarından və rəqəmsal resurslardan istifadə edilir. Tədris infrastrukturu beynəlxalq tələbələrin təhsil ehtiyaclarına uyğun auditoriyaları, kitabxana resurslarını, laboratoriyaları və dil mərkəzlərini, eləcə də onların sosial və mədəni inteqrasiyasına xidmət edən imkanları əhatə edir. Bundan əlavə, ENGAGE Erasmus+ layihəsi çərçivəsində yaradılmış İnnovasiya və sahibkarlıq mərkəzi beynəlxalq əməkdaşlığın, innovasiya və sahibkarlıq fəaliyyətlərinin dəstəklənməsi üçün müvafiq infrastruktur təmin edir.

7.3.4. Beynəlmiləlləşmə siyasətinin icrasına tələb olunan resursların monitorinqi və qiymətləndirilməsi vəziyyəti

ADMİU-da beynəlmiləlləşmə siyasətinin icrası üçün tələb olunan maliyyə, insan, infrastruktur və texniki resursların monitorinqi və qiymətləndirilməsi müvafiq struktur bölmələr və mövcud mexanizmlər vasitəsilə həyata keçirilir.

Maliyyə resurslarının monitorinqi beynəlxalq layihələrdən və dövlət büdcəsindən ayrılan vəsaitlərin istifadəsinə nəzarət əsasında universitetin maliyyə şöbəsi və layihə idarəetmə qrupları tərəfindən aparılır. Erasmus+ KA1 və KA2 layihələri üzrə maliyyə hesabatları Avropa İttifaqının tələblərinə uyğun olaraq hazırlanır, təqdim edilir və monitorinq olunur. Mövcud hesabat mexanizmləri layihələrin büdcə planlaşdırılmasına və maliyyə vəsaitlərindən səmərəli istifadəsinə nəzarəti təmin edir.

İnsan resurslarının monitorinqi Beynəlxalq əlaqələr üzrə prorektorluq və aidiyyəti struktur bölmələr tərəfindən həyata keçirilir. Bu çərçivədə akademik və inzibati heyətin beynəlmiləlləşmə proseslərində iştirakı izlənilir, Əcnəbi tələbələrlə iş sektoru və Beynəlxalq əməkdaşlıq şöbəsi tərəfindən mübadilə proqramları, ezamiyyətlər və layihə fəaliyyəti üzrə statistik məlumatlar toplanır. Bununla yanaşı, heyətin beynəlmiləlləşmə fəaliyyətlərində iştirak dinamikasının daha sistemli izlənilməsi üçün vahid göstəricilər və prosedurlar hələ tam formalaşmamışdır.

İnfrastruktur və texniki resursların monitorinqi çərçivəsində universitetdə beynəlmiləlləşmə siyasətinə uyğun istifadə olunan texniki və sosial infrastrukturun vəziyyəti mütəmadi qiymətləndirilir. Onlayn platformaların, kommunikasiya vasitələrinin, auditoriyaların və sosial-mədəni məkanların beynəlmiləlləşmə fəaliyyətlərinə uyğunluğu üzrə monitorinq aparılır.

Beynəlmiləlləşmə siyasətinin icrasının qiymətləndirilməsi əsasən layihə hesabatları, daxili audit və prorektorluğun illik hesabatları əsasında həyata keçirilir. Eyni zamanda, “GreenMetric” və “Times Higher Education” kimi beynəlxalq reytinqlərdə iştirak universitetin resurslardan istifadə səmərəliliyinin beynəlxalq standartlar əsasında qiymətləndirilməsinə imkan yaradır.

7.4. Beynəlmiləlləşmə performansı

7.4.1. Beynəlmiləlləşmə prosesi çərçivəsində əldə edilən nəticələrin dinamikasına nəzarət mexanizminin mövcudluğu vəziyyəti

ADMİU-da beynəlmiləlləşmə prosesinin nəticələrinin davamlı monitorinqi və qiymətləndirilməsi universitetin beynəlxalq əlaqələr üzrə prorektorluğu və aidiyyəti şöbələr tərəfindən həyata keçirilir. Beynəlxalq əlaqələr üzrə prorektorluq beynəlmiləlləşmə fəaliyyətlərinin ümumi koordinasiyasına cavabdehdir və nəticələrin dinamikasına nəzarət mexanizmlərinin inkişafını təmin edir. Beynəlxalq layihələr və əcnəbilərlə iş şöbəsi, eləcə də Beynəlxalq əməkdaşlıq şöbəsi əldə edilən nəticələrin statistik monitorinqini aparır və hesabatların hazırlanmasını təmin edir.

Universitetdə beynəlmiləlləşmə prosesinin effektivliyinin qiymətləndirilməsi məqsədilə illik hesabatlar və daxili qiymətləndirmə mexanizmlərindən istifadə olunur. Hesabatlarda beynəlxalq layihələrdə iştirak edən akademik və inzibati heyətin sayı, tələbə mübadiləsi, qəbul olunan əcnəbi tələbələr və müəllimlərin fəaliyyəti barədə məlumatlar əks etdirilir. Beynəlxalq layihələr çərçivəsində əldə edilən nəticələr layihə rəhbərləri və aidiyyəti şöbələr tərəfindən sistemli şəkildə toplanaraq prorektorluğa təqdim olunur.

ADMİU-da Erasmus+ layihələri çərçivəsində beynəlxalq layihələrin idarə olunması, layihə təkliflərinin hazırlanması, maliyyələşmə imkanları və digər beynəlmiləlləşmə fəaliyyətlərinə dəstək məqsədilə müxtəlif təlimlər keçirilir. Eyni zamanda, Jean Monnet layihələri çərçivəsində akademik heyət və tələbələr üçün xüsusi təlimlər və seminarlar təşkil edilir. Bu tədbirlər universitetin beynəlmiləlləşmə fəaliyyətlərinin keyfiyyətinin artırılmasına, beynəlxalq standartların tətbiqinə və iştirakçıların bilik səviyyəsinin yüksəldilməsinə xidmət edir. Təlimlərin nəticələri rəsmi hesabatlarda qeyd olunur və gələcək fəaliyyət planlarının hazırlanmasında əsas kimi istifadə edilir.

Beynəlmiləlləşmə prosesi çərçivəsində əldə edilən nəticələrin qiymətləndirilməsi universitetin beynəlmiləlləşmə strategiyasının təkmilləşdirilməsi üçün məlumat bazası formalaşdırır. Universitet QS, Times Higher Education (THE), UI GreenMetric və digər beynəlxalq reytinqlərdə iştirakı vasitəsilə əldə edilən nəticələri təhlil edir və müvafiq göstəriciləri fəaliyyət planlarına inteqrasiya edir.

7.4.2. Beynəlmiləlləşmə proesesi çərçivəsində ehtiyacəsaslı təkmilləşdirmə fəaliyyətlərinin mövcudluğu vəziyyəti

ADMİU-da beynəlmiləlləşmə strategiyasının əsas istiqamətlərindən biri ehtiyacəsaslı təkmilləşdirmə fəaliyyətlərinin təşkilidir. Bu fəaliyyətlər akademik və inzibati heyətin peşəkarlığının artırılması, beynəlxalq standartlara uyğun tədris metodlarının tətbiqi və universitetin beynəlxalq əməkdaşlıq imkanlarının gücləndirilməsi məqsədi daşıyır. Təkmilləşdirmə tədbirləri əsasən Beynəlxalq əlaqələr üzrə prorektorluğun tabeliyində fəaliyyət göstərən Beynəlxalq layihələr və əcnəbilərlə iş şöbəsi vasitəsilə həyata keçirilir. Bu struktur beynəlxalq əməkdaşlıq çərçivəsində təlimlərin təşkili, layihələrin idarə olunması, iştirakçıların bilik və bacarıqlarının artırılması istiqamətində fəaliyyət göstərir. Ehtiyacəsaslı təkmilləşdirmə tədbirləri çərçivəsində layihələrin idarə olunması, effektiv layihə təkliflərinin hazırlanması və təqdim edilməsi, layihələrin maliyyələşmə imkanları ilə bağlı təlimlər təşkil olunur, həmçinin Jean Monnet layihələri çərçivəsində seminar və tədbirlər, Erasmus+ proqramı üzrə təlim və inkişaf fəaliyyətləri həyata keçirilir. Bu tədbirlər universitetin beynəlxalq əlaqələrinin inkişafına, akademik heyətin peşəkarlığının artırılmasına və tələbələrin beynəlxalq təcrübə qazanmasına imkan yaradır. Təlimlərin həm onlayn, həm də əyani formatda keçirilməsi daha geniş iştirakçı dairəsinin əhatə olunmasına şərait yaradır.

3. İşçi qrupunun gəldiyi nəticə və qeydlər

Tövsiyələr

1) Strateji inkişaf istiqaməti üzrə alt qrupun təhlilləri nəticəsində gələcəkdə yeni SİP-in hazırlanması üzrə yaradılacaq xüsusi komissiyanın tərkibində bütün maraqlı tərəflərin iştirakının təmin olunması tövsiyə olunur.
2) ADMİU-nun Strateji İnkişaf Planında hədəflər say etibarı ilə bir qədər çoxdur və bəzi hədəflər ADMİU-nun missiyasına və birbaşa fəaliyyət məqsədinə uyğun deyil. Hədəflərin bir qisminin SİP-də müəyyən edilmiş missiya ilə bilavasitə bağlılığı yoxdur.
3) SİP-in maliyyə təminatının ADMİU-nun büdcə planlaşmasında nəzərə alınması tövsiyə olunur.
4) ADMİU-nun SİP-də nəzərdə tutulan fəaliyyətlərin icrasına yönəlik hazırdakı struktur bölmələrinin bölgüsü və qarşılıqlı əlaqəsi qənaətbəxş deyildir. Universitetdə struktur bölmələrinin müasir çağırışlara uyğunlaşdırılmasına, təkmilləşdirilməsinə ehtiyac vardır.
5) Auditoriya çatışmazlığı, kafedraların, tədris otaqlarının, yaradıcılıq studiyaları və emalatxanaların maddi-texniki cəhətdən zəif təchiz olunması, xüsusi qabiliyyət tələb edən ixtisasların tədrisi üçün müasir texniki avadanlığın azlığı, akademik heyətdə elmi-tədqiqat fəaliyyəti istiqamətində aparılan fəallığın normadan azlığı, xarici dillərdə tədris proqramlarının məhdudluğu, əcnəbi tələbələrin azlığı, İT infrastrukturunun müasir tələblərə cavab verməməsi, tələbə yataqxanasının olmaması zəif tərəflər sırasında qeyd olunur.
6) ADMİU-da SİP-in hazırlanması zamanı maraqlı tərəflərin iştirakı qismən təmin olunmuşdur. Həm daxili, həm də xarici maraqlı tərəflər qismində ADMİU-nun musiqi sənəti və rəssamlıq istiqamətlərindən əmək bazarı nümayəndələrinin iştirakı tövsiyə olunur. Bundan əlavə daxili tərəflər qismində bütün ixtisaslardan həm tələbə, həm də məzunların iştirakı arzu olunandır.
7) SİP-in maliyyə təminatının ATM-də büdcə planlaşmasında nəzərə alınması tövsiyə olunur.
8) SİP-in icrası üzrə ATM-in struktur bölmələrinin dövrü (yarımillik, illik) hesabatlarının tərtib edilməsi və məlumatlandırması tövsiyə olunur.
9) SİP-in icrasının dövrü (illik) monitorinqinin nəticələrinin müzakirəsi və qərarların qəbuluna təsir etməsi tövsiyə olunur.